AZƏRBAYCAN RESPUBLIKASI
DAXILI İŞLƏR NAZIRLIYININ

POLİS AKADEMİYASI

Daxili İşlər Orqanlarında

# TƏHQİQAT

TƏDRİS
VƏSAİTİ

Müdavimlər və dinləyicilər üçün

BAKI – 2020

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin**

**POLİS AKADEMİYASI**

# Daxili İşlər Orqanlarında

# TƏHQİQAT

Dərs vəsaiti Azərbaycan Respublikası
Daxili İşlər Nazirliyinin Polis Akademiyasının
Elmi Şurasının "17" dekabr 2019-cu il tarixli
"02" №-li iclasınınprotokoluna əsasən dərs vəsaiti
kimi təsdiq edilmişdir.

**BAKI – 2020**

**Müəlliflər:**

DİN Polis Akademiyasının rəisi,
polis general mayoru, hüquq üzrə
elmlər doktoru., professor
**Əliyev Nazim Tələt oğlu**

Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq"
kafedrasının dosenti hüquq üzrə fəlsəfə doktoru
**Kərimov Şöhlət Müzəffər oğlu**

DİN Polis Akademiyasının "Cinayət prosesi"
kafedrasının müdiri, polis polkovniki,
hüquq üzrə fəlsəfə doktoru., dosent.
**Ağayev Səyyad Ağamir oğlu**

**Elmi redaktor:**

**A.E.Qasımov**
Milli Aviasiya Akademiyasının "İqtisadiyyat və hüquq"
fakültəsinin dekanı,
hüquq üzrə elmlər doktoru., professor

**Rəyçilər:**

**F.M.Cavadov**
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ekspertiza
Mərkəzinin rəisi ,
hüquq üzrə elmlər doktoru, professor, əməkdar
hüquqşünas

**M.Ə.Cəfərquliyev**
AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Cinayət
hüququ və cinayət prosesi" şöbəsinin baş elmi işçisi,
hüquq üzrə elmlər doktoru., professor

**F.M.Abbasova**
Bakı Dövlət Universitetinin "Cinayət prosesi"
kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru.,
professor

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **Ön söz** | 6 |
| | **Giriş** | 9 |
| **Fəsil 1.** | **Cinayət prosessual qanunvericilikdə təhqiqatın anlayışı, rolu və vəzifələri.** | 17 |
| 1.1. | Təhqiqatın anlayışı, əhəmiyyəti mahiyyəti və cinayət mühakimə icraatında rolu. | 17 |
| 1.2. | Daxili işlər orqanlarında təhqiqatın təşkili. | 35 |
| 1.3. | Təhqiqatın vəzifələri. | 55 |
| **Fəsil 2.** | **Cinayət haqqında ərizə və məlumatlara təhqiqat orqanları tərəfindən baxılması və həll edilməsi.** | 65 |
| 2.1. | Daxili işlər orqanlarında cinayət haqqında ərizə və məlumatların qəbulu, qeydiyyatı, uçotu və baxılması qaydaları. | 65 |
| 2.2. | Cinayətlər haqqında məlumatlara baxılmasının mahiyyəti, hüquqi əhəmiyyəti, üsul və vasitələri. | 79 |
| 2.3. | Təhqiqat orqanlarının təhqiqatçıları tərəfindən cinayət işinin başlanmasının xüsusiyyətləri. | 88 |
| 2.4. | Cinayət işləri üzrə təhqiqatın aparılmasını isitisna edən hallar. | 92 |
| 2.5. | Təhqiqat orqanları və təhqiqatçılar tərəfindən cinayət haqqında ərizələrin (məlumatların) istintaq və məhkəmə aidiyyəti üzrə göndərilməsi. | 98 |
| 2.6. | Cinayət xarakterli ərizə və məlumatlarla əlaqədar təhqiqatçı tərəfindən qəbul edilən qərarlar. | 102 |
| **Fəsil 3.** | **Təhqiqatın növləri.** | 109 |
| 3.1. | Təhqiqatın növlərinin anlayışı və əhəmiyyəti. | 109 |
| 3.2. | Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat. | 135 |

| | | |
|---|---|---|
| 3.3. | İbtidai istintaqı məcburi olan cinayət işləri üzrə təhqiqatın aparılması. | 155 |
| 3.4. | Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə sadələşdirilmiş icraat materiallarına məhkəmələrdə baxılması. | 179 |
| **Fəsil 4.** | **Təhqiqat və ibtidai istintaq.** | 198 |
| 4.1. | Cinayətlərin açılması və istintaqında iştirak edən orqanların qarşılıqlı əlaqəsinin anlayışı, hüquqi əsasları və formaları. | 198 |
| 4.2. | Daxili işlər orqanları sistemində təhqiqat və ibtidai istintaqın qarşılıqlı əlaqəsi. | 213 |
| 4.3. | Müstəntiqin təhqiqat orqanları ilə qarşılıqlı əlaqəsi. | 222 |
| 4.4. | Təhqiqatçının prokurorluq, məhkəmə və digər orqanlarla qarşılıqlı əlaqəsi. | 232 |
| **Fəsil 5.** | **Yetkinlik yaşına çatmayanlar barəsində ictaatın xüsusiyyətləri.** | 242 |
| 5.1. | Yetkinlik yaşına çatmayanlar və onlar barəsində qanunvericiliyin inkişaf tarixi. | 242 |
| 5.2. | Yetkinlik yaşına çatmayan şəxslər barəsində məhkəməyədək icraatın və aparılan istintaq hərəkətlərinin xüsusiyyətləri. | 248 |
| 5.3. | Yetkinlik yaşına çatmayan şəxslər barəsində məhkəmə baxışının xüsusiyyətləri. | 265 |
| | Sənəd nümunələri | 270 |
| | **Ədəbiyyat siyahısı** | 370 |

# Ön söz

Son illərdə respublikamızda aparılan məhkəmə hüquq islahatları geniş vüsət almış, elektron-məhkəmə sistemi fəaliyyətə başlamışdır. Aparılan demokratik islahatlat geniş xarakter almış, məhkəmə-hüquq sisteminin yenidən qurulması sahəsində ölkəmişdə artıq demək olar ki, müəyyən müsbət nəticələr əldə edilmişdir.

Respublikamızda həyat müstəqil dövlətimizin qanunları ilə tənzimlənir. Cinayət prosesi sahəsində hər bir yeni qanunun qüvvəyə minməsi öz-özlüyündə irəliyə atılmış mühüm bir addimdır. Bu baxımdan 28 oktyabr 1999-cu ildə qəbul olunmuş "Polis" və "Əməliyyat axtarış fəaliyyəti" haqqında Azərbaycan Respublikası qanunları və 14 iyul 2000-ci ildə qəbul olunmuş və 01 sentyabr 2000-ci ildə qanuni qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi digər mərhələlərlə yanaşı cinayət prosesinin müstəqil mərhələsi olan ibtidai istintaq və təhqiqat mərhələlərinin tələblərinin yerinə yetirilməsinin bariz nümunəsidir.

Təhqiqat, ibtidai araşdırmanın ilkin mərhələsidir. Bu istiqamətdə atılan addimlardan biri də insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsidir. "Daxili işlər orqanlarında təhqiqat" fənninin tədrisində əsas məqsəd cinayətlərin açılmasında, istintaqında, qarşısının alınmasında səhvə yol verməmək üçün qanunların dəqiq və düzgün tətbiq edilməsidir. Təhqiqat cinayət prosesində məhkəməyədək icraatın özəyini təşkil edir.

Tərəfimizdən hazırlanan bu dərs vəsaiti Azərbaycan Respublikasının Cinayət prosesində ən mühüm institutlardan biri olan təhqiqatın mühüm problemlərinə həsr olunmuşdur.

Oxuculara təqdim olunan bu dərs vəsaiti cinayət prosesində daxili işlər orqanlarında təhqiqat kursunun tədrisi və öyrənilməsi işinin asanlaşdırılması məqsədi ilə hazırlanmışdır.

Hüquqşünaslıq ixtisası üzrə ali təhsil proqramlarına uyğun olaraq yazılmış dərs vəsaitində təhqiqatın aparılmasının prosessual qaydalarından bəhs olunur. Kitabda təhqiqatın anlayışı, əhəmiyyəti, mahiyyəti, vəzifələri, növləri, daxili işlər orqanlarında təhqiqatın təşkili, cinayət haqqında ərizə və məlumatlara təhqiqat orqanları tərəfindən baxılması və həll edilməsi, daxili işlər orqanlarında təhqiqat və ibtidai istintaqın qarşılıqlı əlaqəsi, təhqiqat orqanlarının prokurorluq və məhkəmə orqanları ilə qarşılıqlı əlaqəsi, yetkinlik yaşına çatmayanlar barəsində icraatın süsusiyyətləri və s. kimi məsələlər şərh edilmişdir.

Polis Akademiyasında daxili işlər orqanlarında təhqiqatın problemlərinin xüsusi kurs kimi tədris edilməsinin səbəbi cinayət mühakimə icraatında təhqiqat və ibtidai istintaqın xüsusi əhəmiyyət kəsb etməsi ilə əlaqədardır.

Dərs vəsaitində Azərbaycan Respublikasının və Rusiya Federasiyasının cinayət prosessual qanunvericiliyinin təhqiqata dair bəzi müddəalarının müqayisəli təhlili verilmiş, bir sıra xarici ölkələrin prosessualistlərinin mütərəqqi ideyalarına istinad edilmişdir.

Dərs vəsaiti hazırlanarkən son illər cinayət-prosessual qanunvericiliyinə edilmiş əlavələr və dəyişikliklər, yeni

normativ-hüquqi aktlar nəzərə alınmış və təhqiqatla bağlı ən yeni ədəbiyyatların öyrənilməsinə və onlardan səmərəli istifadə edilməsinə xüsusi diqqət yetirilmişdir.

Müəlliflər dərs vəsaitinin hazırlanmasında Cəfər Mövsümövun, Mirağa Cəfərquliyevin, Fuad Cavadovun, Əzim Piriyevin, Midhəd Qəfərovun, Allahverdi Teymurovun, Seyfulla Aslanovun, Hamlet Musayevin, Nail Abbasovun, Fərdin Xəlilovun, Anar Mikayılovun, Qəhrəman Cəfərovun və bir sıra başqa Azərbaycan alimlərinin əsərlərindən bəhrələnmişlər.

Bu dərs vəsaitindən DİN-nin Polis Akademiyasının kursantları ilə yanaşı ali hüquq təhsili verən tədris müəssisələrinin tələbələri, istintaqla maraqlanan digər təcrübi işçilər və elmi tədqiqatçılar da istifadə edə bilər.

**Müəlliflərdən**

# Giriş

İbtidai araşdırma cinayət təqibi üzrə məhkəməyədək icraat hesab edilir. AR.CPM-in 217-ci maddəsinə əsasən ibtidai araşdırma təhqiqat və ibtidai istintaq şəklində aparılır. Qeyd etmək lazımdır ki, polis orqanlarının tənzimlədiyi ictimai münasibətlərin əhatə dairəsi çox genişdir.

Bu baxımdan polis ən əsas təhqiqat orqanı hesab edilir. Polis haqqında qanunun 3-cü maddəsinin 8-ci bəndində qeyd edilir ki, polis səlahiyyətlərinə aid edilmiş işlər üzrə təhqiqat və istintaq aparır, əsas təhqiqat orqanı olmaqla yanaşı digər tərəfdən, polis öz səlahiyyət sferasına daxil edilmiş işlərə dair istintaq aparır. Bu baxımdan da polis istintaq orqanlarından biridir.[1] İstintaq və təhqiqat orqanı kimi polisin həyata keçirdiyi fəaliyyət ilə bağlı münasibətlər, təbii ki, polis hüququ ilə tənzimlənməlidir. Bundan ötrü polis hüququnun tərkibində ayrıca müstəqil hüquq institutu formalaşmışdır ki, həmin institut istintaq və təhqiqat hüququ sayılır. Təhqiqat və istintaq aparılması ilə bağlı münasibətləri hüquqi tənzimləmək funksiyasını polis hüququ məhz istintaq və təhqiqat hüququ vasitəsilə həyata keçirir; bu münasibətlərin mövcudluğu sözügedən hüquq institutunun formalaşması üçün zəmin yaradır, onun əmələgəlmə əlaməti sayılır.

Polis haqqında Qanunun 4-cü maddəsinə əsasən təhqiqat və istintaq aparılması polis fəaliyyətinin əsas istiqamətlərindən biridir.

---

[1] Правоохранительные органы России. Учебник / Под.ред. В.П.Божьева

Belə ki, cinayətlərin açılması təhqiqat və istintaq aparılmasını zəruriləşdirir. Axı, nəzərdən qaçırmaq olmaz ki, təhqiqat cinayətlərin açılması, cinayətin izlərinin müəyyən edilməsi və cinayət törədənlərin aşkar edilməsi üçün həyata keçirilən fəaliyyətdir. İstintaq da həmçinin cinayətin qısa müddətə və bütünlüklə açılmasına, habelə digər məsələlərin həllinə yönələn əməl hesab edilir. Odur ki, cinayətləri açmaqdan ötrü həm təhqiqat, həm də istintaq aparılmalıdır.[1]

Respublikamız müstəqilliyini bərpa etdikdən sonra dövlətimizdə uğurlu hüquq islahatları keçirilməyə başlanıldı. Azərbaycan Respublikasının ilk konstitusiyasından sonra Polis haqqında, Əməliyyat axtarış fəaliyyəti haqqında qanun və nəhayət 2000-ci ilin iyul ayında yeni Cinayət Prosessual Məcəllə qəbul olundu. Respublikamızda Rusiya Federasiyası və bir sıra MDB ölkələrindən fərqli olaraq təhqiqat və istintaq orqanlarının fəaliyyət sferasında yeniliklər baş verdi, bölmə və şöbələrdə təhqiqatçıların sayı artırıldı və onların səlahiyyətləri genişləndirildi. DİN-də daxili işlər orqanlarının təhqiqat qurumlarının işlərini səmərəli təşkil etmək üçün Baş İstintaq və Təhqiqat İdarəsi yaradıldı. Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi, onun müavini, təhqiqat şöbəsinin rəisi təhqiqat qurumlarında ibtidai araşdırmanın keyfiyyətinin yaxşılaşdırılması və prosessual qanunvericiliyin tələblərinə uyğun aparılması, təhqiqatçıların işində olan nöqsanların aradan qaldırılması üçün daima səlahiyyətləri daxilində zəruri tədbirlər həyata keçirirlər.

DİO qarşısında duran ən ümdə vəzifələrdən biri respublikada cinayətkarlığa qarşı mübarizənin

---

[1] Əliyev E. Polis hüququ. Bakı, 2018, səh. 440

gücləndirilməsi, qanunçuluğun möhkəmləndirilməsi, habelə ölkəmizdə insanların hüquq və azadlıqlarının təmin edilməsindən ibarətdir. Bu sahədə qarşıda duran vəzifələrin yerinə yetirilməsi Azərbaycan dövlətçiliyinin əsas prinsiplərindən birini təşkil edir. Məhz buna görədir ki, Respublika rəhbərliyi cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və qanunçuluğun möhkəmləndirilməsi vəzifələrinin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır. Buna misal olaraq Ümummilli lider H.Ə.Əliyevin 9 avqust 1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi haqqında" və 23 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanlarını göstərmək olar.

Respublikamızda müstəqillik illərində Azərbaycan Respublikası Konstitusiyasına, Cinayət-Prosessual qanunvericiliyə və polis haqqında Qanuna uyğun olaraq DİO-nun fəaliyyətini gücləndirmək və səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Respublikası DİN-nin bir sıra əsas əmr, təlimat və göstərişlərini göstərmək olar. Buna misal olaraq DİN-nin aşağıda sadalanan bəzi əmr, təlimat və göstərişlərini misal göstərmək olar:

- Polisin post-patrul xidmətinin Nizamnaməsi DİN-nin 30.05.2001-ci il tarixli 212 nömrəli əmri 18.11.2002-ci il tarixli 429 nömrəli əmri ilə edilmiş dəyişikliklərlə;
- DİN-nin "DİO-da təhqiqat aparatının fəaliyyətinin təşkilinin öyrənilməsinə dair" 23.10.2002-ci il tarixli 33 saylı İcmal-Arayışı;

- DİN-nin “Cinayətlərin qarşısının alınması, istintaqı və açılmasında DİO-nun struktur xidmət sahələrinin qarşılıqlı əlaqələrinin təşkilinə dair Təlimatın təsdiq edilməsi haqqında” 22.04.2002-ci il tarixli 135 saylı Əmri;
- Daxili işlr orqanları əməkdaşlarının etik Davranış Kodeksi. DİN-nin 20.11.2005-ci il tarixli 628 nömrəli Əmri;
- DİN-nin “DİO-da təhqiqat işinin səmərəliliyinin artırılması üzrə əlavə tədbirlər barədə” 08.08.2006-cı il tarixli 50 saylı göstərişi;
- DİN-nin 17.10.2006-cı il tarixli 59 saylı göstərişi;
- DİN-nin 21.08.2008-ci il tarixli 20 saylı göstərişi;
- DİN-nin “Baş Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan istintaq və təhqiqat şöbəsinin Əsasnaməsinin təsdiq edilməsi barədə” 21.05.2009-cu il tarixli 284 saylı Əmri;
- Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının İntizam Nizamnaməsi DİN-nin 16.06.2009-cu il tarixli 330 saylı əmri ilə təsdiq edilmişdir.
- Azərbaycan Respublikası Daxili İşlər Orqanlarında icazə sisteminin təşkilinə dair Təlimat. DİN 15.05.2009-cu il tarixli 270 nömrəli əmri;
- DİN-nin “Azərbaycan Respublikası DİN-nin Baş istintaq və Təhqiqat idarəsi haqqında əsasnamənin təsdiq edilməsi barədə” 14.10.2009-cu il tarixli 591 saylı Əmri;
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş İstintaq və Təhqiqat İdarəsi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında DİN-nin 26 avqust 2011-ci il tarixli 555 №-li Əmri
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi “Təhqiqat İşinin təşkilinə dair” Təlimatın təsdiq olunması

barədə Daxili İşlər Nazirliyinin 30 avqust 2011-ci il tarixli 560 №-li Əmri;

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 30.08.2011-ci il "Təhqiqat işinin təşkilinə dair" Təlimatın 1.3-cü maddəsində göstərilir ki, təhqiqatçı – öz səlahiyyətləri daxilində Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda və qaydada cinayət təqibi üzrə təhqiqat aparan şəxsdir. Həmin Təlimata uyğun olaraq, təhqiqatçı qanunun tələblərini rəhbər tutaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanıb zəruri prosessual qərarlar qəbul edir, səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri həyata keçirir.

DİN-nin 30 avqust 2011-ci il tarixli Təlimatına uyğun olaraq təhqiqatçı cinayət təqibini həyata keçirərkən iş üzrə əhəmiyyət kəsb edən bütün xüsusatların tam, obyektiv və hərtərəfli araşdırılması, cinayəti törətmiş şəxslərin ifşa olunub məsuliyyətə cəlb edilməsi, cinayət nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə cinayətin törədilməsinin səbəb və şəraitinin müəyyən edilib aradan qaldırılması istiqamətində tədbirlər görür. Mövcud Təlimatın 1.6-cı maddəsinə əsasən təhqiqat qurumunun əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri Azərbaycan Respublikası Daxili İşlər orqanlarının "İntizam Nizamnaməsi" ilə müəyyən olunmuş qaydada tətbiq olunur.

- Daxili İşlər Orqanlarında fəaliyyətin mənəvi-psixoloji təminatı üzrə Təlimat. DİN. 28.08.2010

- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi “Normativ hüquqi aktların sistemləşdirilmiş külliyyatı” II cild, Bakı-2011

- “Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında” Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 12 fevral 2019-cu il № 1499-VQ

AR.CPM-də ibtidai araşdırmanın ümumi şərtlərindən birincisi olaraq cinayət işləri üzrə təhqiqatın aparılması göstərilir. CPM-in 214-cü maddəsində ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı və böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək icraatın təhqiqat formasında növləri göstərilir.

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanı ilə bir sıra dövlət orqanlarına hüquq mühafizə orqanları statusu verilmiş və onlar öz istintaq orqanlarını yaratmışlar. Hal-hazırda Azərbaycan Respublikasında Daxili İşlər, Dövlət Təhlükəsizliyi Xidməti, Fövqəladə Hallar, Gömrük və Vergi orqanlarının təhqiqatçıları CPM-in 214.2.1-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarının müstəntiqlərinin səlahiyyətinə aid cinayət işləri üzrə təhqiqat aparırlar. Baxmayaraq ki, “Prokurorluq haqqında” Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunda göstərilir ki, “prokurorluq təhqiqat orqanı deyildir”, lakin

Azərbaycan Respublikasının Baş Prokurorluğu yanında Korrupsiya ilə mübarizə idarəsinin prokurorları və Hərbi Prokurorluğun müstəntiqləri də bəzi cinayət işləri üzrə təhqiqat aparırlar.

Lakin respublikamızda əsas təhqiqat orqanı Daxili İşlər orqanları hesab olunur. Statistikaya görə respublikamızda təhqiqat işlərinin 80 faizindən çoxunu daxili işlər orqanlarının işçiləri həyata keçirir.

Daxili İşlər orqanlarında təhqiqatçının fəaliyyəti əsasən Azərbaycan Respublikasının CPM və DİN-in Baş istintaq və Təhqiqat İdarəsinin Əsasnaməsi ilə, eləcə də DİN-in digər normativ hüquqi aktları ilə tənzimənir. Ümumiyyətlə RPİ-in və RPŞ-in rəisləri təhqiqatçılara metodiki və təşkilati cəhətdən yardım göstərməklə, onların işlərinin təşkilində iştirak edirlər.

CPM-ə uyğun olaraq təhqiqat sırf prosessual fəaliyyət sayılır və cinayət mühakimə icraatının əsas institutlarından biridir. Respublikamızda təhqiqat institutunun elmi nəzəri cəhətdən formalaşmasında və inkişafında professor C.H.Mövsümovun xidmətləri böyük olmuşdur. İllər keçdikcə yeni qanunlar qəbul edilsədə, ayrı-ayrı müəlliflər tərəfindən təhqiqat və ibtidai istintaqla bağlı çoxsaylı hüquq ədəbiyyatları yazılsa da professor C.H. Mövsümovun təhqiqata verdiyi anlayış dominant xarakter daşıyır. Cinayət prosessual qanunvericiliyə əsasən cinayətlərin izlərini qeyd etmək, cinayətin açılması və cinayətkarın aşkar edilməsi üçün təxirəsalınmaz əməliyyat axtarış tədbirləri aparmaq məqsədilə qanunla müəyyən edilmiş orqanlar və ya vəzifəli şəxslər tərəfindən aparılan fəaliyyətə təhqiqat deyilir.

Təhqiqat orqanları üzərinə cinayətlərin əlamətlərini və həmin cinayətləri etmiş şəxsləri tapmaq məqsədilə lazımi əməliyyat axtarış tədbirləri görməklə yanaşı cinayətlərin qarşısını almaq və kökünü kəsmək üçün zəruri olan tədbirləri görmək vəzifəsi də düşür.[1]

Təhqiqat cinayət işlərinin istintaqının ilk mərhələsidir. Təhqiqat ibtidai istintaqın müvəffəqiyyətlə başa catdırılması məqsədilə istintaqı cinayətin təzə izləri üzrə toplanmış və qeyd olunmuş ilk materiallarla təmin edir. Çox az miqdarda cinayət işlərində isə təhqiqat ibtidai istintaqı əvəz edir. Belə hallarda təhqiqat materialları prokurorun təsdiqindən sonra işə mahiyyət üzrə baxılmaq üçün bilavasitə məhkəməyə göndərilir. Bununla bərabər hər bir cinayət işinin istintaqı təhqiqat aparılmadan, əvvəldən axıra qədər ibtidai istintaq formasında aparıla bilər.[2]

[1] Mövsümov C.H. "İbtidai İstintaq" "Maarif" nəşriyyatı Bakı, 1973, səh.34.
[2] Bax orada.

# Fəsil 1. Cinayət prosessual qanunvericilikdə təhqiqatın anlayışı, rolu və vəzifələri.

## 1.1. Təhqiqatın anlayışı, əhəmiyyəti mahiyyəti və cinayət mühakimə icraatında rolu.

Təhqiqat ərəbcə "haqq" kökündən yaranan "təhqiq" sözünün cəmidir. Təhqiq – araşdırma, soruşdurma (sorğusual incələmə, tədqiq etmə, doğru olub-olmadığını yoxlama, meydana çıxarma) anlamına gəlir.[1]

"Təhqiq"in cəmi olan "təhqiqat" isə araşdırmalar, soruşdurmalar, incələmələr, tədqiq etmələr, doğru olub olmadığını yoxlamalar mənasındadır.[2]

Türkiyənin hüquq ədəbiyyatında "təhqiqat" terminin belə anlayış verilir:

Ümumi terminologiyada bəlli bir mövzuda tədqiqatın təsbiti və gerçəkliyin müəyyənləşdirilməsi üçün detallı sorğulama, ayrıntılı incələmə və dərinləməsinə dəyərləndirmə işinə təhqiqat deyilir.

"Təhqiqat"mühakimə sistemində önəmli yeri olan bir məhkəmə mərhələsidir.[3]

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə uyğun olaraq təhqiqat orqanları adətən cinayətlərin ilkin araşdırılmasını həyata keçirirlər. Başqa bir mənbədə isə göstərilir ki, təhqiqat dilimizə rus dilində olan «дознание» sözündək keçmişdir. Bu sözün kökü isə

---

[1] İbn Mansur a.g.e. sh.940

[2] Yılmaz Ejder. Hukuk Sözlügü. Yetkin Yayınları, 1992. Ankara, sh.856

[3] Yrd.Dos. Dr.Ali Turkmen. Tahkikat Aşaması, Adalet Yayın evi, Ankara, 2016.sh.33

«дознать», «дознатся»[1] sözlərindən yaranmış və hərfi mənası "tapmaq", "aydınlaşdırmaq" "müəyyən etmək", "öyrənib bilmək" mənalarını ifadə edir.

Azərbaycanın hüquq ədəbiyyatında ibtidai araşdırmanın bir forması olan "təhqiqat" sözünün mənası təhqiq etmək, araşdırmaq kimi göstərilir. Təhqiqat - törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatlar üzrə ilkin yoxlamaların aparılması, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat və cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətləri şəklində təhqiqatçı tərəfindən aparılan icraatdır.

AR.CPM-nin 7.0.22-ci maddəsində göstərilir ki, ibtidai araşdırma - cinayət işi üzrə ibtidai istintaq və təhqiqat növündə məhkəməyədək aparılan icraatdır.

Azərbaycan Respublikasının yeni CPM-də ibtidai istintaqı məcburi olmayan cinayət işləri üzrə təhqiqat növü göstərilməmişdir. Qüvvədə olan cinayət-prosessual qanunvericilikdə böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat təhqiqatın növü kimi təqdim olunur.[2]

Hüquq ədəbiyyatında təhqiqatın anlayışı barədə vahid fikir yoxdur. A.Ə.Teymurov göstərir ki, cinayətin izlərini qeyd etmək, cinayətin və cinayətkarın aşkar edilməsi üçün təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri aparmaq məqsədi ilə qanunla müəyyən edilmiş orqanlar və ya vəzifəli şəxslər

---

[1] Ширинов И.А. Толковый словообразовательный словарь русского языка. М.2004, с.334

[2] Əzim Piriyev Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Bakı, "Çıraq"-2005, səh.310

tərəfindən aparılan fəaliyyətə təhqiqat deyilir.[1] M.Ə. Cəfərquliyevə görə təhqiqat cinayətlərin izlərini müəyyən etmək, törədilmiş və ya hazırlanan cinayətlərin açılması və cinayətkarın aşkar edilməsi üçün təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri aparmaq məqsədi ilə cinayət-prosessual qanunla müəyyən edilmiş orqanlar və ya vəzifəli şəxslər tərəfindən həyata keçirilən fəaliyyətdir.[2]

C.H.Mövsümov göstərir ki, Cinayətin izlərini qeyd etmək, cinayətin açılması və cinayətkarın aşkar edilməsi üçün təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri aparmaq məqsədi ilə qanunla müəyyən edilmiş orqanlar və ya vəzifəli şəxslər tərəfindən aparılan fəaliyyətə təhqiqat deyilir.[3]

Rus cinayət prosesinin "dirəyi" hesab edilən M.S.Straqoviç yazır ki, təhqiqat dedikdə, faktiki olaraq onun bir növünü - ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı şəklində təhqiqatı nəzərdə tutulur. Təhqiqatın digər növü, yəni ibtidai istintaqı məcburi olmayan cinayət işləri üzrə təhqiqat haqqında onun yalnız ibtidai istintaqı əvəz edən fəaliyyət olması göstərilir.[4]

Digər rus prosessualist alimi V.A.Stremovski də "Cinayət prosesinin iştirakçıları"əsərində təhqiqatla bağlı M.S.Straqoviçlə eyni mövqedə dayanır.[5]

---

[1] Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri. Bakı, "Hüquq Yayın Evi", 2015, səh. 15

[2] Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının Cinayət Prosesi. Dərslik. Bakı, Qanun, 2008, səh.388

[3] Mövsümöv C.H. İbtidai istintaq. Bakı, "Maarif" 1973.səh 17

[4] Строгович М.С Курс советского уголовного процесса. М.1970.Т.II с,28

[5] Стремовский В.А. Участники предварительного следствия. Ростов на Дону. 1966. ст 68.

Sovet dövrünün məşhur prosessualist alimi M.A.Çeltsov yazır ki, təhqiqat-cinayət hadisəsi və onun maddi izlərinin müəyyən edilməsi üzrə fəaliyyətdir.[1] Digər bir prosessualist alim V.U.Qramov göstərir ki, təhqiqat istintaqın ilkin və ya sadə formasıdır.

Hüquq ədəbiyyatında cinayəti törətmiş şəxsi aşkar etmək üçün təhqiqat orqanı üzərinə qoyulan əməliyyat-axtarış fəaliyyətinin təhqiqatın anlayışına daxil edilib-edilməməsi barədə müxtəlif ziddiyyətli fikirlər vardır. Baxmayaraq ki, əməliyyat axtarış fəaliyyəti Cinayət - Prosessual qanunvericiliklə nəzərdə tutulub. Lakin o, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzim edilir. AR.CPM-nin 137-ci maddəsində göstərilir ki, yalnız əməliyyat-axtarış fəaliyyətinin gedişində əldə edilmiş materiallardan sübut kimi istifadə edilə bilər. Cinayət işinin istintaqında təhqiqat orqanları cinayət işinin hallarından asılı olaraq maddi sübutları aşkar etməkdə, cinayət törətmiş şəxsi müəyyən etməkdə, şahidləri axtarmaqda və s. məlumatları toplamaqda əməliyyat-axtarış tədbirlərindən geniş istifadə edirlər. Öz vəzifə səlahiyyətlərinin icrası zamanı ƏAF-nin subyektlərinə insan və vətəndaşların hüquq və azadlıqlarını, sağlamlığını, insanların həyatını, əmlakını və qanuni mənafelərini təhlükə altına alan hərəkətlərə yol vermək, zor işlətmək, hədələmək və şantaj etmək, hər hansı şəxsi qanun pozuntularına təhrik etmək, səlahiyyətindən kənara çıxan tədbirləri həyata keçirmək və qanunla müdafiə olunan mənafeləri

[1] Чельцов М.А. Советский уголовный процесс. М., 1957., ст 228

məhdudlaşdıran digər qanunsuz tədbirlərə əl atmaq qadağan olunur.

Əməliyyat-axtarış fəaliyyətinin nəticələrində konkret istintaq hərəkətinin aparılmasına əsas verə bilən faktiki məlumatlar mövcuddursa, bu məlumatlar cinayət işi üzrə istintaq hərəkətlərinin aparılmasına səbəb ola bilər. Əməliyyat-axtarış tədbirlərinin nəticələrində sübutların alınmasının yeni mərhələlərini göstərən vacib informasiya ola bilər. Cinayət işinin materialları ilə məcmuda əməliyyat məlumatları axtarışın aparılması, istintaqdan gizlənmiş şəxsin, cinayət alətlərinin axtarışında istifadə oluna bilər.

Cinayət işlərinin istintaqında aşağıdakı qeyri-prosessual formalardan istifadə oluna bilər:

- cinayətlər haqqında siqnallara təcili cavab verilməsi zəruri olduğu halda əməliyyat-istintaq qrupunun tərkibində birgə fəaliyyət;

- razılaşdırılmış istintaq və əməliyyat-axtarış tədbirlər planının tərtib edilməsi;

- törədilən cinayətlər, regionda, inzibati və digər sahələrdə kriminogen vəziyyət haqqında alınan informasiya ilə mübadilə aparmaq.

Əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən qanunların icrasına nəzarət qanunla Azərbaycan Respublikasının Baş Prokuroru və ümumilikdə prokurorluq orqanlarına həvalə edilmişdir. Bir qayda olaraq prokurorluq orqanları əməliyyat-axtarış fəaliyyətinə dair qanunların tələblərinin əməliyyat-axtarış orqanları tərəfindən icrasını təmin etmək məqsədi ilə bu orqanlar tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin keçirilməsi və

onların qəbul etdiyi qərarların qanuniliyi üzərində nəzarəti onlara verilən sənədlərdə göstərilən məlumatların məxfiliyi təmin edilməlidir.

Qeyd etmək lazımdır ki, əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələri barədə məlumatlar prokuror nəzarətinin predmetinə aid deyildir.

Əməliyyat-axtarış fəaliyyəti zamanı insanların hüquq və azadlıqlarına, hüquqi şəxslərin qanuni mənafelərinə ziyan vurulduqda və şəxsin hüquqpozmaya aidiyyəti təsdiq olunmadıqda Əməliyyat-axtarış fəaliyyəti orqanları maddi və mənəvi ziyanı ödəməyə borcludurlar. "Əməliyyat-axtarış fəaliyyəti" haqqında Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri tənzimləyir və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində hüquqi təminatlar sisteminin mövcudluğuna istinad edir.

İnsanın həyat və sağlamlığı, hüquq və azadlıqları, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, eyni zamanda dövlət təhlükəsizliyini cinayətkar qəsdlərdən qorumaq əməliyyat-axtarış fəaliyyətinin əsas məqsədidir.

Əməliyyat-axtarış fəaliyyəti müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla qanunvericilikdə müəyyən edilmiş qaydada hazırlanan və törədilən cinayətlərin qarşısının alınması, törədilmiş cinayətlərin aşkar edilməsi və açılması, cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması, naməlum

meyitlərin şəxsiyyətinin müəyyən edilməsi kimi vəzifələri yerinə yetirir.[1]

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli "Əməliyyat - axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyətlərinin bölgüsü haqqında" Fərmanına əsasən əməliyyat-axtarış tədbirlərinin hansı təhqiqat orqanı tərəfindən həyata keçirilməsi göstərilmişdir. Əməliyyat-axtarış fəaliyyəti haqqında Qanunun 10-cu maddəsinə əsasən respublikamızda əməliyyat-axtarış tədbirləri DİN, DTX, ƏN, VN, FHN, DGX, DSX və xüsusi XDMX tərəfindən həyata keçirilir.

Bir neçə ölkə istisna olunmaqla, o cümlədən də Rusiya Federasiyası, dünyanın əksər ölkələrində təhqiqatın aparılmasına maksimum 10 gün vaxt verirlər. Təhqiqatın aparılmasına belə az vaxt verilməsinin səbəbi təhqiqatın əsas əlaməti ilə bağlıdır. Təhqiqatın əsas əlaməti dedikdə isti izlərlə cinayətin tezliklə açılmasına və təqsirləndirilən şəxsin müəyyən edilməsinə yönəlmiş təxirəsalınmaz hərəkətlərin həyata keçirilməsidir. Digər bir sovet dövrünün hüquqşünas alimi İ.Q. Korşever yazır: "Təhqiqat cinayətin tezliklə açılması, cinayətkarın aşkar olunması və ilkin sübutların rəsmiləşdirilməsi üzrə ilkin və təxirəsalınmaz fəaliyyət, işin mürəkkəb olmayan hallarında isə ibtidai istintaqı əvəz edən və qanunla səlahiyyət verilmiş inzibati orqanlar tərəfindən onların idarə aidiyyəti sahəsinə və ya dövlət idarəçiliyi sferasına qəsd edən cinayətlər haqqında işlər üzrə cinayət

[1] Qəfərov M.S., Eyvazov H. Hüquq Mühafizə orqanları. Bakı, 2015. Səh 112

prosessual formada həyata keçirilən fəaliyyətdir.”[1] Bu yazı da yuxarıda təhqiqata verilən anlayışların bəzilərində təhqiqat orqanları qarşısında duran vəzifələr tam şəkildə açılmır. Bu baxımdan M.Ə.Cəfərquliyevin təhqiqata verdiyi anlayış daha dolğundur.

A.Ə.Teymurovun belə bir fikri ilə tam razılaşmaq olar ki, bəzi müəlliflər tərəfindən təhqiqata verilən anlayışlarda təhqiqat orqanları qarşısında duran vəzifələr tam həcmdə göstərilmir. Müəllif yazır ki, cinayət prosessual qanunvericilik təhqiqat orqanları üzərinə cinayətin tezliklə açılması, araşdırılması və onun qarşısının alınması üzrə zəruri olan bütün tədbirlərin görülməsi vəzifəsini qoyur. Cinayətin tezliklə açılması, araşdırılması və onun qarşısının alınması təhqiqat orqanlarının fəaliyyətində birinci yerdə durur.[2]

Cinayət-Prosessual qanunvericiliklə təhqiqat cinayət işlərinin istintaqının ilkin mərhələsi hesab olunur. Prof. C.H. Mövsümov göstərir ki, təhqiqat orqanları üzərinə cinayətlərin əlamətlərini və həmin cinayətləri etmiş şəxsləri tapmaq məqsədi ilə lazımi-əməliyyat axtarış tədbirləri görməklə yanaşı cinayətlərin qarşısını almaq və kökünü kəsmək üçün zəruri olan tədbirləri görmək vəzifəsi də düşür. Təhqiqat ibtidai araşdırmanı uğurla başa çatdırılması məqsədi ilə istintaqı cinayətin təzə izləri üzrə toplanmış və qeyd olunmuş ilkin materiallarla təmin edir.

---

[1] Коршевер И.Г . О понятии дознание в советском уголовном процессе. «Советское государство и право» М., 1954, №5.с.61

[2] Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri. Bakı., “Hüquq Yayın Evi”, 2015 səh.18

Digər bir müəllif – Ə.S.Piriyev yazır: “Cinayətin izlərini qeyd etmək, cinayətin və cinayətkarın aşkar edilməsi üçün təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri aparmaq məqsədi ilə qanunla müəyyən edilmiş orqanlar və ya vəzifəli şəxslər tərəfindən aparılan fəaliyyətə təhqiqat deyilir.” [1]

Ə.S.Piriyev düzgün olaraq göstərir ki, təhqiqat ibtidai istintaqın müvəffəqiyyətlə başa çatdırılması məqsədi ilə istintaqı cinayətin təzə izləri üzrə toplanmış və qeyd olunmuş ilk materiallarla təmin edir. Qeyd etmək lazımdır ki, təhqiqat orqanlarının üzərinə aşağıdakı bir sıra mühüm vəzifələr düşür:

- təhqiqat orqanları cinayətlərin əlamətlərini və onları törətmiş şəxsləri tapmaq üçün lazımi əməliyyat-axtarış tədbirləri görməlidirlər;
- yeni törədiləcək cinayətlərin qarşısını almaq və kökünü kəsmək məqsədilə zəruri tədbir görməlidirlər.

İbtidai araşdırma növü kimi təhqiqatla ibtidai istintaq arasında elə prinsipial fərq yoxdur. Çünki ibtidai istintaq kimi təhqiqat da cinayət prosessual qanunvericiliyin nəzərdə tutulan prinsiplərinə əsaslanır. (AR CPM-nin 10-34-cü mad.) İbtidai istintaq orqanları sırf prosessual fəaliyyəti həyata keçirirlər. Lakin təhqiqat orqanları həm prosessual həm də qeyri-prosessual fəaliyyəti həyata keçirirlər. Belə ki, təhqiqat orqanları istintaq hərəkətləri aparmaqla yanaşı, əməliyyat-axtarış tədbirləri həyata keçirərək həm də qeyri-prosessual fəaliyyətlə də məşğul olurlar. Az. Res-nın CPM-nin 86 və 214-cü maddələrinin məzmunundan məlum olur ki, təhqiqat

---

[1] Piriyev Əzim. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları Bakı, “Çıraq” 2005 s.310

orqanları əsas prosessual, bəzi hallarda isə prosessual fəaliyyətlə yanaşı qeyri-prosessual fəaliyyətlə də məşğul olurlar.

Təhqiqatçı ilə təhqiqat orqanlarını eyniləşdirmək olmaz. Təhqiqatçı özü prosessual fəaliyyəti həyata keçirir. Təhqiqat orqanları və onun əməkdaşları həm prosessual, həm də qeyri-prosessual fəaliyyətlə məşğul olurlar.

Rusiya Federasiyasının CPM-nin 140-145-ci maddələrindən də görünür ki, təhqiqat orqanları prosessual hərəkətlərin həyata keçirilməsindən başqa, habelə müstəntiqin tapşırığı əsasında qeyri-prosessual xarakterli fəaliyyət yəni, əməliyyat-axtarış fəaliyyətlərini həyata keçirirlər.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə 18 aprel 2014-cü tarixdə bəzi əlavə və dəyişikliklər edilmiş və təhqiqatçının hüquq və vəzifələrini genişləndirən AR. CPM-in 86.7; 86.7.3; 86.9-cu maddələrinə dəyişiklik edilmiş və məcəlləyə 86.7.2-1; 86.2-2 və 86.2-3-cü maddələr daxil edilmişdir.

AR. CPM-nin 86-cı maddəsində göstərilir ki, cinayət təqibini həyata keçirərkən təhqiqatçı qanunun tələblərini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan

Respublikasının Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanı ilə təhqiqat orqanlarının siyahısı və fəaliyyət dairəsi müəyyən edilmişdir. Hal- hazırda aşağıdakılar Azərbaycan Respublikasının əsas təhqiqat orqanları hesab edilirlər: daxili işlər, dövlət təhlükəsizliyi xidməti orqanları. Həqiqətən polis və dövlət təhlükəsizliyi orqanlarından başqa digər orqanların təhqiqat apardıqları işlərin dairəsi məhduddur.

Azərbaycan Respublikasının CPM-nin 214-cü maddəsinə əsasən Cinayət işləri üzrə təhqiqatı aşağıdakı təhqiqat orqanları və şəxslər aparırlar:

- Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının (təhqiqat orqanlarının) (Azərbaycan Respublikasının daxili işlər, dövlət təhlükəsizliyi xidməti, sərhəd xidməti, fövqəladə hallar, vergi və gömrük orqanlarının) təhqiqatçıları — Azərbaycan Respublikasının həmin müvafiq icra hakimiyyəti orqanları müstəntiqlərinin səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə;

- rəhbərlik etdikləri hərbi hissələrin, hərbi idarələrin (müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi) aid hərbi hissələr və hərbi idarələr istisna olmaqla) cəzaçəkmə müəssisələrinin, həbs yerlərinin, dəniz gəmilərinin yerləşdiyi ərazidə (ərazi üzrə) törədilmiş cinayətlərə dair cinayət işləri üzrə - müvafiq olaraq təhqiqatçı səlahiyyətlərini həyata keçirən hərbi hissə komandirləri, hərbi idarə rəisləri, cəzaçəkmə müəssisələrinin və ya həbs yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər; əks-kəşfiyyat fəaliyyətinin təminatı həyata keçirilən hərbi hissələrdə, hərbi

idarələrdə təhlükəsizlik orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə - müvafiq icra hakimiyyəti orqanlarının (Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti) təhqiqatçıları.

- müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi) aid hərbi hissələrin və hərbi idarələrin ərazisində hərbi qulluqçular tərəfindən və ya hərbi xidmət əleyhinə törədilmiş cinayətlərə dair işlər üzrə - müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi) təhqiqatçıları.

-Təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqiqat cinayətin izlərinin müəyyən edilməsi və rəsmiləşdirilməsi məqsədilə aparılır. Təhqiqatı bu şəkildə apararkən CPM-nin 147,148,153, 207, 209, 210, 226-232, 234, 236, 238-247, 264, 268-270, 273-276-cı maddələrinin müddəalarına müvafiq olaraq təhqiqatçı:

- cinayət işini başlayır və bu barədə dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir;

- şübhəli şəxsi tutmaq, onun, zərər çəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, müayinə (şəxsi müayinə) və götürmə kimi istintaq hərəkətlərini aparır;

- cinayət işinin başlanmasından sonra 10 (on) gündən gec olmayaraq sonrakı araşdırmanın aparılması üçün cinayət işini istintaq orqanına göndərir;

- cinayət işinin başlanmasından 10 (on) gün keçdikdən sonra müstəntiq və ya ibtidai araşdırmanı həyata keçirən

prokurorun tapşırığı ilə ayrı-ayrı istintaq hərəkətlərini aparır və ya əməliyyat-axtarış tədbirlərini həyata keçirir;

- cinayət işinin başlanmasından 10 (on) gün keçdikdən sonra cinayət açılmamış qalarsa, cinayəti törətmiş şəxsin müəyyən və aşkar edilməsi, tutulması və müstəntiqə təhvil verilməsinə dair tədbirlər görür.

- Məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127.1, 128-131, 174, 175, 177.1, 185.1, 186.1, 187.2 188, 197.1, 200.1, 201.1, 221.1, 256.1, 256.2, 258.1, 258.2, 259.1, 263.1 və 326-cı maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılır.

- Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CPM-nin 293-297-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun aparılır.

Öz səlahiyyətləri daxilində istintaq hərəkətlərini apararkən təhqiqatçı aparılan təhqiqatın növündən asılı olmayaraq müvafiq istintaq hərəkətlərinin keçirilməsi qaydasını nəzərdə tutan CPM-nin maddələrinin tələblərinin yerinə yetirilməsini təmin etməklə müstəntiqin hüquqlarından istifadə edir və onun vəzifələrini yerinə yetirir.

Təhqiqatçı aşağıdakı hüquqları həyata keçirir:

- hadisənin şahidlərinin izahatını almaq, hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək;

- şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə) üzləşdirmə, istintaq eksperimenti kimi təxirəsalınmaz istintaq hərəkətlərini aparmaq;

- şahid qismində şəxsləri çağırmaq;

- dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək; şəxslərin razılığı ilə onları müvafiq istintaq hərəkətlərinə hal şahidi, tərcüməçi, mütəxəssis və ya ekspert qismində cəlb etmək;

- dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək;

- müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

- müdafiəçinin cinayət işinin icraatında iştirakını istisna edən hallar müəyyən edildikdə, onun cinayət işinin icraatında iştirak etməkdən kənarlaşdırılması barədə prokuror qarşısında vəsatət qaldırmaq;

- hal şahidinə, tərcüməçiyə, mütəxəssisə və ya ekspertə verilmiş etirazlara baxmaq;

- cinayət prosesində iştirak edən şəxslərin vəsatətlərinə və cinayət işinin icraatı ilə əlaqədar digər şəxslərin ərizə və digər müraciətlərinə baxmaq;

- cinayət prosesində iştirak edən şəxslərin şikayətlərinə baxmaq;

- məhkəmənin müstəsna səlahiyyətlərinə aid olanlar istisna edilməklə, qətimkan tədbirlərinin seçilməsi, dəyişdirilməsi, ləğv edilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması barədə qərarlar qəbul etmək;

- cinayət işinin icraatına xitam verilməsi barədə qərar qəbul etmək və təsdiq olunması üçün prokurora təqdim etmək;

Təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri keçirməyə haqlı deyil.

- Cinayət işi prokuror və ya müstəntiq tərəfindən icraata qəbul olunduqdan sonra təhqiqatçı ayrı-ayrı istintaq hərəkətlərini, habelə müvafiq əməliyyat-axtarış tədbirlərini yalnız prokurorun və ya müstəntiqin göstərişləri ilə işlədiyi təhqiqat orqanı vasitəsilə həyata keçirir.

Cinayət təqibini həyata keçirən təhqiqatçı aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;

- şübhəli şəxsə tutulduğu andan hüquqlarını bildirmək və tutulmasının səbəblərini izah etmək;

- şəxsin tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək;

-zərurət olduqda şübhəli şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək;

- qanuni əsaslar olmadan və ya 48 saatdan artıq tutulan şəxsi azad etmək;

- müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı və ya mülki cavabdeh qismində tanımaq;

- cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün tədbirlər görmək;

- tutulmuş şübhəli şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;

- prokurorun və müstəntiqin göstərişlərini və qərarlarını icra etmək;

- prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;

- ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərini apardıqdan sonra cinayət işi başlanmasından 10 (on) gündən gec olmayaraq iş üzrə bütün materialları istintaq aidiyyəti qaydalarına uyğun olaraq istintaq orqanına göndərmək;

- şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

- böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə sadələşdirilmiş icraat şəklində aparılmış təhqiqat materiallarını təhqiqat başlanmasından 10 (on) gündən gec olmayaraq yekun protokolu ilə prokurora göndərmək;

CPM-də nəzərdə tutulmuş qaydada cinayət təqibini həyata keçirən təhqiqatçı səlahiyyətləri daxilində istintaq və

ya digər prosessual hərəkətlərin qanuni və vaxtında aparılmasına görə məsuliyyət daşıyır.

Təhqiqatla ibtidai istintaqın oxşar cəhətləri ilə yanaşı fərqli cəhətləri də var. Prof. C.Mövsümov, M.Qəfərov, H.Eyvazov və digər prosessualist alimlər təhqiqatla ibtidai istintaqı fərqləndirən əlamətləri öz əsərlərində göstərmişlər.

Təhqiqatla ibtidai istintaqı fərqləndirən əsas cəhətlər aşağıdakılardır:

İbtidai araşdırmanın bir növü kimi ibtidai istintaq AR CPM-nin 215.2-ci maddəsinə uyğun olaraq yalnız vəzifəli şəxs olan müstəntiq tərəfindən aparılır. İstintaq aparmaq, cinayətin törədilməsinə kömək edən səbəb və şəraiti müəyyən etmək müstəntiqin əsas və demək olar ki, yeganə vəzifəsini təşkil edir. Lakin təhqiqatın aparılması buna səlahiyyəti olan inzibati orqanın və vəzifəli şəxsin malik olduğu funksiyanın həyata keçirilməsində yeganə hal deyil, yalnız onun bir formasını əhatə edir.[1]

Müstəntiq ibtidai istintaqı həyata keçirərkən yalnız prosessual vasitələrdən istifadə edir. Çünki ibtidai istintaq orqanı qanuna əsasən yalnız prosessual fəaliyyətlə məşğul olurlar. Xüsusilə qeyd etmək lazımdır ki, ibtidai istintaq orqanlarından fərqli olaraq təhqiqat orqanları istintaq hərəkətləri aparmaqla yanaşı, həm də əməliyyat-axtarış tədbirlərini həyata keçirirlər.

İbtidai istintaqla təhqiqat aidiyyətinə görə bir-birindən fərqlənirlər. Təhqiqat orqanları AR.CPM-in 214.4-cü maddəsinə əsasən yalnız böyük ictimai təhlükə törətməyən

[1] M.Qəfərov. V.Abışov, H.Eyvazov. Azərbaycan Respublikasının Hüquq mühafizə orqanları. Bakı, Qanun, 2005. səh.253

bəzi aşkar cinayətlər üzrə ibtidai araşdırma apara bilər. Lakin ibtidai istintaq orqanlarının istintaq aidiyyətinə daha böyük ictimai təhlükəli, istintaqın aparılması cəhətdən mürəkkəb olan və xüsusi metodikanın tətbiqini tələb edən cinayətlər aiddir.

İbtidai istintaq öz prosessual rejiminə (araşdırılma müddətinə) görə təhqiqatdan daha çox fərqlənir. Təhqiqat hər bir halda cinayət işinin başlanmasından ən geci 10 (on) gündən artıq olmayan müddətdə başa çatır.

Cinayət işi üzrə ibtidai istintaq isə aşağıdakı müddətlərdə başa çatmalıdır:

- böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə - cinayət işinin başlanmasından ən geci 2 (iki) ay keçdikdən sonra;

- az ağır cinayətlər üzrə - cinayət işinin başlanmasından ən geci 3 (üç) ay keçdikdən sonra;

- ağır cinayətlər üzrə - cinayət işinin başlanmasından ən geci 3 (üç) ay keçdikdən sonra;

- xüsusilə ağır cinayətlər üzrə - cinayət işinin başlanmasından ən geci 4 (dörd) ay keçdikdən sonra. Təhqiqat və ibtidai istintaq bu prosesi aparan şəxslərin prosessual müstəqillik dərəcəsi ilə də bir-birindən demək olar ki, ciddi surətdə fərqlənirlər, çünki təhqiqat orqanlarından fərqli olaraq, cinayət-prosessual qanunvericiliyi müstəntiqə prosessual cəhətdən daha çox hüquqlar və buna münasib müstəqillik verir.

Yuxarıda qeyd etdiyimiz kimi, təhqiqat orqanları cinayətləri və onları törətmiş şəxsləri aşkar etmək məqsədilə əməliyyat-axtarış tədbirlərini də həyata keçirirlər.

Təhqiqatın mahiyyəti cinayət qanunu ilə cəzalandırılmalı olan, əməlin üstünün açılmasında, yəni cinayət əməlinin, həmin əməli törətmiş şəxsin təqsirliliyini və sübut edilməli olan digər halların müəyyən edilməsi üçün qanunla nəzərdə tutulmuş bütün tədbirlərin həyata keçirilməsində ifadə olunur.[1]

## 1.2. Daxili işlər orqanlarında təhqiqatın təşkili.

DİO sistemində təhqiqatın aparılmasında əsasən AR.CPM-in 214-cü maddəsi rəhbər tutulur. DİO sistemində təhqiqat orqanlarının dairəsini dəqiqləşdirərkən birinci olaraq CPM-in 214-cü maddəsində qeyd edildiyi kimi AR-nın müvafiq icra hakimiyyəti orqanları qismində AR.DİN-nin Baş İstintaq və Təhqiqat İdarəsini və onun rayon, şəhər polis orqanlarındakı hissələrini qeyd etmək olar.

Müstəqillik əldə etdikdən sonra respublikamızda təhqiqat orqanlarının dairəsi genişləndirilmiş, səlahiyyətləri artırılmış və bu xüsusiyyətlərindən asılı olmayaraq təcrübədə istintaq aparan orqanı kimi təhqiqat orqanı öz sisteminə malikdir.

Qanunda göstərildiyi kimi, təhqiqatın sisteminə iki, bəzən də daha çox subyektlər daxil olur. Belə ki, buraya təhqiqatın rəisi, təhqiqat rəisinin tabeçiliyində olan vəzifəli şəxslər və təhqiqatçılar aiddir.

Təhqiqat aparan şəxs – təhqiqat orqanı rəisinin tapşırığı ilə cinayət işi üzrə təhqiqatı həyata keçirən vəzifəli şəxsdir.

---

[1] Абдуллаев Ф, Зайцев О. Дознание по УПК РФ. М., «Интел-Синтез», 2002, №3, с 77-79.

Məlum olduğu kimi cinayət-prosessual qanunvericilikdə təhqiqatın aparılmasının iki forması müəyyən edilmişdir.

a) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı;

b) böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Qeyd olunduğu kimi təhqiqatın birinci formasında təxirəsalınmaz istintaq hərəkətlərinin həyata keçirilməsi məcburidir. Təhqiqat zamanı əsas məqsəd baş vermiş cinayətin izlərinin aşkar edilməsi və fiksəsidir. Məsələn, şübhəli şəxsi tutmaq, onun zərərçəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, baxış, şəxsi müayinə və götürmə kimi istintaq hərəkətlərinin aparılması.[1]

Dünya ölkələrinin tam əksəriyyətində, o cümlədən Azərbaycan Respublikasında təhqiqatın müddəti on gün müəyyən edilmişdir. Ekspertizanın keçirilməsi lazım gəldikdə və bəzi hallarda bu müddət əlavə olaraq 20 gün də artırıla bilər. RF və bir neçə ölkədə təhqiqatın müddəti 20 gün müəyyən edilmişdir.

18 aprel 2014-cü ildə AR.CPM-ə dəyişiklik edilərək (214.4-cü maddəyə) məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat AR.CM-nin 127.1, 128-131, 174,175,177.1, 185.1, 186.1, 187.1, 187.2, 188, 197.1, 200.1, 201.1, 221.1, 256.1, 256.2, 258.1, 258.2, 259.1, 263.1 və

[1] Səyyad Ağayev, Eldar Salayev, Anar Mikayılov - “DİO-da təhqiqat”, dərs vəsaiti, Bakı, 2010, s.15

326-cı maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılır.[1]

Avropa Şurası Nazirlər Komitəsinin "Cinayət ədalət mühakimə icraatının sadələşdirilməsinə dair" 17 sentyabr 1987-ci il tarixli R (87) 18 saylı Tövsiyəsinin preambulasında təhlükəlilik dərəcəsinə görə az əhəmiyyətli cinayətlər üzrə müxtəlif sadələşdirilmiş prosedurаların tətbiq edilməsinin zəruriliyi göstərilmişdir. Buna uyğun olaraq AR.CPM-nin 293-297-ci maddəsində (39-cu fəsil) məhkəməyədək sadələşdirilmiş icraatın qaydaları təsbit edilmişdir.

AR.CPM-nin 214.4-cü maddəsində sadalanan cinayətlər üzrə ibtidai istintaqın aparılması məcburi deyildir. Bu cinayətlərin ibtidai araşdırılması yalnız təhqiqat formasında aparılır.

AR.CPM-nin 214.4-cü maddəsinin tələbinə əsasən AR.CM-nin yalnız aşağıda göstərliən maddələri üzrə böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə sadələşdirilmiş icraat şəklində təhqiqat aparılır:

- 127.1-ci maddə (tövsifedici əlamətlər olmadan qəsdən sağlamlığa az ağır zərər vurma);
- 128-ci maddə (qəsdən sağlamlığa yüngül zərər vurma);
- 129-maddə (qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma);
- 130-cu maddə (zəruri müdafiə həddini aşmaqla sağlamlığa ağır və ya cinayət törətmiş şəxsin tutulması üçün

[1] Azərbaycan qəzeti, 4 may 2014-cü il.

zəruri həddi aşmaqla sağlamlığa ağır və ya ağır zərər vurma);

- 131-ci maddə (ehtiyatsızlıqdan sağlamlığa ağır və ya ağır zərər vurma);
- 174-ci maddə (qanunsuz olaraq övladlığa götürmə);
- 175-ci maddə (övladlığa götürmə sirrini yayma);
- 177.1-ci maddə (tövsifedici əlamətlər olmadan oğurluq);
- 185.1-ci maddə (tövsifedici əlamətlər olmadan, talama məqsədi olmadanqanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsini ələ keçirmə);
- 186.1-ci maddə (tövsifedici əlamətlər olmadan əmlakı qəsdən məhv etmə və ya zədələmə);
- 187.1-ci və 187.2-ci maddə (əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə);
- 188-ci maddə (torpaq üzərində mülkiyyət hüququnu pozma);
- 197-ci maddə (tövsifedici əlamətlər olmadan əmtəə nişanından qanunsuz istifadə etmə);
- 200.1-ci maddə (tövsifedici əlamətlər olmadan istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma);
- 201.1-ci maddə (tövsifedici əlamətlər olmadan əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmə);
- 221.1-ci maddə (tövsifedici əlamətlər olmadan xuliqanlıq);
- 256.1 və 256.2-ci maddələr (balıqları və başqa su heyvanlarını qanunsuz tutma);

- 258.1 və 258.2-ci maddələr (qanunsuz ov etmə);
- 259.1-ci maddə (tövsifedici əlamətlər olmadan qanunsuz ağac kəsmə)
- 263.1-ci maddə (tövsifedici əlamətlər olmadan yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma);
- 236-cı maddə (rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə).

S.X. Aslanov düzgün olaraq yazır ki, qanunverici tərəfindən CPM-in 214.4-cü maddəsində sadalanan CM-in müvafiq maddələrində göstərilmiş cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat formasında təhqiqat aparılmasının müəyyən edilməsi aşağıdakı əsaslara söykənir və məqsədləri izləyir:

- həmin cinayətlərin böyük ictimai təhlükə törətməyən cinayətlər olması (CM- in 15.2-ci maddəsi);
- həmin cinayətlər üzrə, bir qayda olaraq, mürəkkəb istintaq hərəkətlərinin aparılmasına zərurətin yaranmaması, yəni sübut edilməli olan halların (CPM-in 139-cu maddəsi) əksəriyyətinin icraat açılan anda müəyyən edilmiş olması (aşkarlıq əlaməti);
- ibtidai istintaq orqanlarının cinayət işləri ilə lüzumsuz yüklənməsinin qarşısının alınması;
- cinayət prosesi iştirakçılarının prosessual hüquqlarının uzun müddətə məhdudlaşdırılmasmın qarşısının alınması, icraat materiallarının qısa müddətdə (10 gün müddətində) məhkəməyə göndərilməsinin və məhkəmə tərəfindən

materiala mahiyyəti üzrə baxılaraq həll edilməsinin təmin olunması.[1]

Onu da qeyd etmək lazımdır ki, CPM-in 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda bu müddət 20 gün müəyyən edilmişdir.

AR.CPM-in 214.4-cü maddəsinə əsasən aidiyyəti üzrə böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat formasında əsasən daxili işlər orqanlarının əməkdaşları təhqiqat aparırlar.

CPM-in 214.4-cü maddəsində sadalanan cinayətlər hərbi hissələrin, hərbi idarələrin (Azərbaycan Respublikası Müdafiə Nazirliyinə aid hissə və idarələr istisna olmaqla), cəzaçəkmə müəssisələrinin, həbsdə saxlanılma yerlərinin, dəniz gəmilərinin yerləşdiyi ərazidə törədildikdə hərbi hissə komandirləri, hərbi idarə rəisləri, cəzaçəkmə yerlərinin və ya həbsdə saxlanılma yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər, Azərbaycan Respublikası Müdafiə Nazirliyinə aid hərbi hissə və idarələrdə törədildikdə isə Azərbavcan Respublikası Müdafiə Nazirliyinin təhqiqatçıları (CPM-in 214-cü maddəsi).[2]

Qanunvericiliyə əsasən bəzi əməkdaşların təqsirləndirilməsi ilə bağlı cinayət işləri üzrə icraat təhqiqat formasında deyil yalnız ibtidai istintaq formasında aparılmalıdır. Belə ki, cinayət AR.CPM-nin 215.3.2-ci maddəsinə əsasən Azərbaycan Respublikası Prezidentinin, Milli Məclisin deputatlarının, Baş nazirin, Azərbaycan

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun nəşriyyatı. 2015, səh 88
[2] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun nəşriyyatı. 2015. səh. 89

Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın), Məhkəmə-Hüquq Şurasının üzvlərinin, hakimlərin, prokurorluq orqanları əməkdaşlarının, Azərbaycan Respublikasının xaricdəki diplomatik idarələrinin və xarici dövlətlərin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin əməkdaşlarının, habelə ədliyyə, polis, təhlükəsizlik, miqrasiya, vergi və gömrük orqanları əməkdaşlarının təqsirləndirilməsi ilə bağlı cinayət işləri üzrə icraat ancaq ibtidai istintaq formasında aparılmalıdır. Bundan başqa AR.CPM-in 214.4-cü maddəsinin tələbinə əsasən yetkinlik yaşına çatmamış şəxslər, həm də cinayəti törədərkən anlaqsız vəziyyətdə olmuş, ya da ki, cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində icraat təhqiqat formasında yox, ibtidai istintaq formasında aparılmalıdır. Bu qaydaya əməl edilmədikdə iş məhkəmənin hazırlıq iclasında geri qaytarılır və həmin müstəntiq barəsində xüsusi qərar göndərilir. AR.CPM-in 294.3-cü maddəsində nəzərdə tutulmuş hallarda böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə icraat ibtidai istintaq formasında aparılmalıdır.

AR.CPM-in 294.3-cü maddəsinə əsasən böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayətə baxarkən və ya böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın gedişində məhkəməyədək sadələşdirilmiş prosedur daxilində aparılması mümkün olmayan istintaq hərəkətlərinin aparılması zərurəti yarandıqda, təhqiqatçının və ya müstəntiqin vəsatəti, yaxud öz təşəbbüsü ilə ibtidai araşdırmaya

prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin başlanması haqqında qərar qəbul etmək və ibtidai istintaqın aparılmasını müvafiq istintaq orqanına tapşırmaq hüququna malikdir.

CPM-in 214.4 və 37.2; 37.3; 37.6-cı maddələrinin tələbinə əsasən:

- məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CM-in ictimai ittiham qaydasında təqib olunan 129.1-ci, 130.1-ci, 131.2-ci, 174-cü, 187.2-ci və s. maddələrində nəzərdə tutulmuş cinayətlər barəsində həyata keçirilir.
- məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CM-in ictimai-xüsusi ittiham qaydasında təqib olunan 127.1-ci, 128-131-ci, 175-ci, 177.1-d, 186.1-ci, 187.1-ci, 201.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlər barəsində həyata keçirilir.

S.X.Aslanov göstərir ki, CPM-in 37.3-cü maddəsinə görə, ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərərçəkmiş şəxsin şikayəti əsasında və ya CPM-in 37.5-ci maddəsində nəzərdə tutulmuş hallarda prokurorun təşəbbüsü ilə[5] həyata keçirilir. Ona görə də, fikrimizcə, CM-in 127.1-ci, 128-131-ci, 175-ci, 177.1-ci, 186.1-ci, 187.1-ci və 201.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlər üzrə sadələşdirilmiş icraat zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin və ya nümayəndəsinin şikayəti ilə yanaşı, prokurorun təşəbbüsü ilə də açıla bilər.

İctimai ittiham qaydasında cinayət təqibi fiziki və hüquqi şəxslərin (vəzifəli şəxslərin), kütləvi informasiya vasitələrinin məlumatları (CPM-in 204-206-cı maddələri), habelə törədilmiş və ya hazırlanan cinayətlərin, o cümlədən

belə cinayətlər haqqında məlumatların məhkəmə və ya cinayət təqibi orqanı tərəfindən bilavasitə aşkar edilməsi əsasında həyata keçirilə bilər. Ona görə də, fikrimizcə, CM-in 129.1-ci, 130.1-ci, 131.2-ci, 174-cü və 187.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlər üzrə sadələşdirilmiş icraat zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin və ya nümayəndəsinin şikayəti olmadan da açıla bilər. Lakin CPM-in 293.1-ci maddəsində nəzərdə tutulmayan səbəblər əsasında məhkəməyədək sadələşdirilmiş icraat o halda açıla bilər ki, həmin mənbələrdə CPM-in 293.3.1-293.3.4-cü maddələrində təsbit olunan, cinayətin aşkarlığını göstərən məlumatlar olsun.

Digər tərəfdən isə CPM-in 106-cı maddəsinə uyğun olaraq, zərərçəkmiş şəxsin hüquqi varisi də CPM-in 214.4-cü maddəsində nəzərdə tutulmuş cinayətlər haqqında şikayət vermək hüququna malikdir.[1]

Hüquq ədəbiyyatında qeyd olunduğu kimi böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə icraatın açılması üçün səbəblər olmalıdır.

Cinayət Prosessual qanunvericiliyə əsasən cinayət işi üzrə icraatı başlamaq üçün səbəblər və əsaslar olmalıdır. M.Ə.Cəfərquliyev qeyd edir ki, cinayət işi başlamağa səbəblər dedikdə istintaq, prokurorluq və məhkəmə orqanlarının cinayətin edilməsi haqqında aldıqları qanunla müəyyən edilmiş məlumat mənbələri, cinayət işi başlamağa əsaslar dedikdə isə cinayətin əlamətlərinin mövcud olmasını göstərən faktik məlumatlar başa düşülür.[2] AR.CPM-nin

---

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun nəşriyyatı. 2015, səh 90

[2] Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının Cinayət Prosesi. Dərslik, Bakı, Qanun, 2008, səh 364.

134.3 və 204-208-ci maddələrinə əsasən cinayət işi başlamağa səbəblər aşağıdakılardır:

- fiziki şəxslərin məlumatları;
- hüquqi şəxslərin (vəzifəli şəxslərin) məlumatları;
- təqsirini boynuna almaqla könüllü gəlmə;
- törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların cinayət təqibi orqanı tərəfindən bilavasitə aşkar edilməsi;
- kütləvi informasiya vasitələrinin məlumatları.

Törədilmiş və ya hazırlanan cinayət haqqında cinayət işinin başlanması üçün səbəb hesab edilən fiziki şəxslərin məlumatları yazılı və şifahi şəkildə ola bilər.

F.M. Abbasova cinayət təqibi orqanı və ya məhkəmə tərəfindən bilavasitə aşkar edilmiş məlumatları və xarici dövlətin səlahiyyətli hakimiyyət orqanlarının müraciətlərini də cinayət işi başlamanın səbəblərinə aid edir.[1]

Əməliyyat-axtarış fəaliyyətinin nəticələrindən cinayət işinin başlanmasına səbəb və əsas qismində istintaq hərəkətlərinin aparılmasında və CPM-in müddəalarına əsasən cinayət işi üzrə sübutetmə prosesində istifadə oluna bilər.

Əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin müstəntiqə təqdim edilməsi idarə aktları ilə nəzərdə tutulmuş qaydada ƏAF-i həyata keçirən orqanın rəhbərinin qərarı üzrə həyata keçirilir. İdarə normativ aktlarında Əməliyyat-axtarış fəaliyyəti nəticələrinin müstəntiqə təqdim etmə qaydası konkretləşdirilir, bu nəticələr, habelə, informasiyanın maddi

---

[1] Abbasova F.M. Cinayət prosesi. Xüsusi hissə "Zərdabi" LTD MMC, Bakı, 2014, səh.17.

daşıyıcılarında qeyd oluna bilər. Müstəntiqə bu informasiyanın təqdim edilməsi ona konkret sənədlər və materialların qanunla müəyyən edilmiş qaydada verilməsini ifadə edir. Həmin sənədlər və materialların mümkünlüyü və gerçəkliyi müstəntiq tərəfindən qiymətləndirilir və sonra alınan sənədlər və materialların iş üçün əhəmiyyətindən asılı olaraq onlar sübut kimi cinayət işinə əlavə edilir.

Beləliklə, görülmüş əməliyyat-axtarış tədbirləri nəticələrinin müstəntiqə verilməsi aşağıdakıları özünə daxil edir:

- əməliyyat-axtarış fəaliyyətini həyata keçirən bölmənin rəhbəri tərəfindən əməliyyat-axtarış tədbirlərinin nəticələrinin müstəntiqə təqdim edilməsi barədə qərarın çıxarılması (qəbul edilməsi)
- yanında göndərilən sənədlərin rəsmiləşdirilməsini və materialların həqiqətən müstəntiqə verilməsini əməliyyat-axtarış tədbirlərinin nəticələri də cinayət işi başlamasına səbəb ola bilər.[1]

F.M.Abbasova göstərir ki, cinayət haqqında imzalanmamış məlumat; cinayət haqqında uydurma fiziki şəxs adından yazılmış ərizə və digər anonim məlumat cinayət işinin başlanması üçün səbəb ola bilməz.

Törədilmiş və va hazırlanan cinayət haqqında cınayət işinin başlanması üçün səbəb hesab edilən fiziki şəxslərin məlumatları yazılı və ya şifahi şəkildə ola bilər.

İstintaq hərəkətlərinin aparılması və ya məhkəmə baxışı zamanı, törədilmiş və ya hazırlanan cinayət haqqında verilmiş şifahi məlumat müvafiq olaraq istintaq hərəkəti və

---

[1] Kərimov Ş.M. "İbtidai araşdırma" dərs vəsaiti Bakı, "Elm və təhsil", səh.145

ya məhkəmə iclası protokoluna yazılır. Digər hallarda ayrıca protokol tərtib edilir. Protokolda məlumatı verən şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış və ya iş yerinin ünvanı, onun cinayətə münasibəti, məlumatı aldığı mənbə, habelə onun təqdim etdiyi vətəndaşın şəxsiyyət vəsiqəsi, pasport və ya şəxsiyyəti təsdiq edən digər sənəd haqqında məlumatlar qeyd edilməlidir.[1]

Beləliklə, cinayət işinin başlanması üçün səbəblər dedikdə, tərkibində cinayət əməlləri olan hadisə, fakt və ya əməl haqqında prosessual qanunvericiliklə müəyyən edilmiş mənələrdən alınmış məlumat nəzərdə tutulur. Mövcud qaydaya əsasən cinayət-prosessual münasibətlər məhz cinayət işinin başlanması üçün səbəblər məlum olduğu andan yaranır və bununla da cinayət prosesi başlanır. Cinayət-prosessual qanunun tələbinə əsasən cinayət işinin başlanması üçün səbəb dedikdə, cinayət faktı haqqında ilkin məlumatlar və ya onların mənbələri nəzərdə tutulur.[2]

Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatların alındığı hər bir halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı qərarlardan birini qəbul etməlidir:

- cinayət işi başlamaq;
- cinayət işinin başlanmasını rədd etmək;
- məlumatı istintaq aidiyyəti üzrə göndərmək;
- xüsusi ittiham qaydasında təqib olunan cinayətə dair məlumatı məhkəmə aidiyyəti üzrə göndərmək.

---

[1] Cəfər Mövsümov. Azərbaycan SSR Cinayət Prosesi. Xüsusi hissə. Bakı, “Maarif” nəş. 1977, səh.28

[2] Смирнов А.В. Калиновский К.Б. Уголовный Процесс. Санкт-Петербург, 2003, с.316

F.Y.Xəlilov göstərir ki, cinayət təqibinin başlanması üçün xüsusi səbəb kimi cinayət işlərinə dair hüquqi yardımın göstərilməsi üzrə icraat zamanı cinayət təqibinin (cinayət işinin) başlanması üçün səbəb qismində məzmunu qanunla müəyyən edilən, xarici dövlətin səlahiyyətli hakimiyyət orqanınının Azərbaycan Respublikasının ərazisində hüquqi yardımın göstərilməsi xahişi ilə rəsmi müraciəti çıxış edir.[1]

S.X.Aslanov hesab edir ki, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə icraatın açılması üçün səbəblər sırasına bunlar aiddir:

- zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin, nümayəndəsinin və ya zərərçəkmiş şəxsin hüquqi varisinin şikayəti (CM-in 127.1-ci, 128-131-ci, 175-ci, 177.1-ci, 186.1-ci, 187.1-ci və 201.1-ci maddələri üzrə);
- prokurorun təşəbbüsü (CM-in 127.1-ci, 128-131-ci, 175-ci, 177.1-ci, 186.1-ci, 187.1-ci və 201.1-ci maddələri üzrə);
- zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin, nümayəndəsinin, hüquqi varisinin şikayəti, fiziki və hüquqi (vəzifəli) şəxslərin, KİV-in məlumatları, cinayətin və ya cinayət haqqında məlumatların bilavasitə aşkar edilməsi (CM-in 129.1-ci, 130.1-ci, 131.2-ci, 174-cü, 187.2-ci maddələri üzrə).

Prokurorun sadələşdirilmiş icraat açmaq təşəbbüsü zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin, nümayəndəsinin, hüquqi varisinin şikayəti, habelə CPM-in 204-206-cı və 208-ci maddələrində nəzərdə tutulmuş məlumatlar əsasında mümkündür.

---

[1] Fərdin Xəlilov. İbtidai araşdırmada ittiham tərəfi. Bakı, - "Təknur"- 2011, səh 36

CPM-in 214.4-cü maddəsində nəzərdə tutulmuş cinayətlər haqqında zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin və ya nümayəndəsinin (zərərçəkmiş şəxsin hüquqi varisinin) şikayəti şifahi və ya yazılı formada olmalıdır. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlərə dair şikayətlər təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilir.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayət şifahi formada verildikdə, bu haqda təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən ayrıca protokol tərtib edilir, protokol şikayət vermiş və protokolu tərtib etmiş şəxs tərəfindən imzalanır.[1]

CPM-in 293.3-cü maddəsində sadalanan və böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə yazılı şikayətdə və ya şifahi şikayətin qəbul edilməsi barədə protokolda göstərilməli olan məlumatları əhəmiyyətinə görə iki qrupa bölmək olar:

1) haqqında məlumat verilən cinayətin aşkar olduğunu göstərən məlumatlar (CPM-in 293.3.1-293.3.4-cü maddələri);

2) ərizə verənin xahişi və ərizə ilə bağlı formal məlumatlar (CPM-in 293.3.5- 293.3.7-ci maddələri).

“Azərbaycan Respublikası CPM-in 293.1-ci maddəsinin və 297.0.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 yanvar 2011-ci il tarixli Qərarında vurğulanır ki, yuxarıda göstərdiyimiz birinci

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun nəşriyyatı. 2015, səh 91

qrupa aid olan məlumatların müvafiq sübutlar məcmusu da olmaqla mövcudluğu qanunverici tərəfindən həmin əməlin aşkar cinayət kimi qəbul olunmasının əsasını təşkil edir.

«Azərbaycan Respublikası CPM-in 293.1-ci maddəsinin və 297.0.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 yanvar 2011-ci il tarixli Qərarında deyilir ki, CPM-in 207.1.2-ci maddəsinə görə cinayət işinin başlanması üçün kifayət qədər əsaslar toplanması ilə əlaqədar aparılan ilkin yoxlama aşkar cinayətlərlə bağlı olan məlumatlar haqqında tətbiq olunmur. Belə hal məhkəməyədək sadələşdirilmiş icraatın cinayət əlamətləri olduqda fakt üzrə deyil, cinayəti törətmiş şəxs barəsində həyata keçirildiyini ehtiva edir.[1]

Seyfulla Aslanov qeyd edir ki, təhqiqat və istintaq orqanında böyük ictimai təhlükə törətməyən aşkar cinayətə dair şikayət (məlumat) qəbul edilib qeydə alındıqdan sonra ona müstəntiq, təhqiqatçı və ya prokuror tərəfindən baxılmalı və CPM-in 294.1.2-294.1.4-cü maddələrində nəzərdə tutulmuş qərarlardan biri çıxarılmalıdır. Hər bir halda belə qərar şikayətin (məlumatın) daxil olduğu vaxtdan 24 saatdan gec olmayaraq qəbul olunmalıdır.

AR.CPM-in 294.1.2-ci maddəsinə görə böyük ictimai təniukə törətməyən aşkar cinayətə dair şikayət üzrə təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror CPM-in 38-ci maddəsinə uyğun olaraq, cinayət təqibinin həyata keçirilməsi üçün

---

[1] Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 yanvar 2011-ci il tarixli Qərarı

səbəb və əsasların olması qənaətinə gəldikdə, yazılı şikayətə və ya şifahi şikayətin qəbul edilməsi barədə protokola dərkənar qoymaqla şikayətin daxil olduğu vaxtdan 24 saatdan gec olmayaraq, cinayət təqibi üzrə məhkəməyədək sadələşdirilmiş icraat açmalıdır.[1]

AR.CPM-in 214-cü maddəsinə uyğun olaraq böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayət verən şəxs on altı yaşına çatmış olduqda, ona bilə-bilə yalan xəbərçilik etməyə görə CM-in 296-cı maddəsinə əsasən cinayət məsuliyyəti haqqında xəbərdarlıq edilir.

Şikayət yazılı verildikdə həmin xəbərdarlıq şikayətdə qeyd edilir, şikayət şifahi verildikdə isə bu haqda tərtib olunmuş protokola daxil edilir və şikayət vermiş şəxs və təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən imzalanır.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət haqqında şikayət imzalanmadıqda, saxta imza ilə imzalandıqda, yaxud uydurma fiziki şəxs adından imzalandıqda, bu, məhkəməyədək sadələşdirilmiş icraatın açılması üçün səbəb ola bilməz.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət haqqında şikayət məhkəməyə daxil olduqda, məhkəmə həmin şikayəti məhkəməyədək sadələşdirilmiş icraatın açılması üçün təhqiqat aidiyyəti üzrə göndərməlidir.

AR.CPM-in 294-cü maddəsində böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayətə dair qəbul edilən qərarların növləri göstərilmişdi. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətə dair şikayət (məlumat) CPM-in

---

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi" 2018, s.316.

293-cü maddəsinin tələblərinə uyğun olaraq verildikdən sonra təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin şikayəti (məlumatı) dərhal qeydə almalı və ona baxmalıdır.

AR.CPM-in 293-cü maddəsində şikayətin məzmununa və formasına dair tələblər, habelə şikayət vermək hüququ olan şəxslərin dairəsi haqqında məlumatlar, öz əksini tapmışdır.

S.X.Aslanov qeyd edir ki, böyük ictimai təhlükə törətməyən aşkar cinayətə dair verilmiş şikayət (məlumat) onun istintaq və məhkəmə aidiyyətindən, habelə həmin şikayət (məlumat) üzrə məhkəməyədək sadələşdirilmiş icraat açılıb-açılmayacağından asılı olmayaraq təhqiqat və istintaq orqanı tərəfindən qəbul edilməli və qeydə alınmalıdır. CPM-in 294-cü maddəsində verilmiş şikayət (məlumat) üzrə ilkin yoxlamanın aparılması nəzərdə tutulmur. Bir qayda olaraq məhkəməyədək sadələşdirilmiş icraat yalnız aşkar cinayətlərlə bağlı tətbiq edilir.

Təhqiqatçı, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə CPM-in 295-ci maddəsinə uyğun olaraq 10 gün müddətində (CPM-in 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda 20 gün müddətində) yekun protokol tərtib etməlidir. Təhqiqatçı bütün zəruri sübutları topladıqdan sonra yekun protokol tərtib edə bilər, çünki məhkəmə baxışının hərtərəfli, tam və obyektiv araşdırılması üçün bunun böyük əhəmiyyəti var.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticəsinə

dair yekun protokolunun məzmununa daxil olan məlumatlar CPM-in 296.2-ci maddəsi ilə müəyyənləşdirilmişdir.

Məhkəməyədək sadələşdirilmiş icraatın nəticəsinə dair yekun protokolunun CPM-in 296.2-ci maddəsinin tələblərinə uyğun olmaması cinayət-prosessual qanunvericiliyin kobud pozuntusu hesab olunur və CPM-in 303.3.6-cı maddəsinə əsasən, məhkəmənin hazırlıq iclasında məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması üçün əsasdır.

Yekun protokolunda protokolun tərtib edildiyi tarix, vaxt və yer, protokolu tərtib etmiş təhqiqatçının soyadı, adı və atasının adı, vəzifəsi, böyük ictimai təhlüikə törətməyən aşkar cinayətlər üzrə şikayət vermiş şəxsin soyadı, adı və atasının adı, doğulduğu il, ay, gün və yer, ailə vəziyyəti, iş yeri və vəzifəsi, qeydiyyatda olduğu və faktiki yaşadığı yer, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer, ailə vəziyyəti, iş yeri və vəzifəsi, qeydiyyatda olduğu və faktiki yaşadığı yer, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədildiyi yer, onun vaxtı, üsulu, motivi, nəticələri və digər mühüm halları haqqında məlumat, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin təqsirliliyini təsdiq edən sübutlar, cinayət qanununun maddəsi göstərilməklə cinayət əməlini törətmiş şəxsin hərəkətlərinin tövsifi, məhkəmə iclasına çağırılmalı olan şəxslərin siyahısı göstərilməlidir.

CPM-in 296.3-cü maddəsində böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək

sadələşdirilmiş icraatın aparılmasının nəticələrinə dair yekun protokolu imzaladıqdan sonra təhqiqatçının yerinə yetirməli olduğu hərəkətlər öz əksini tapmışdır.

Təhqiqatçı cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsə, onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə, habelə zərərçəkmiş şəxsə, mülki iddiaçıya, mülki cavabdehə və onların nümayəndələrinə məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallarla tanış olmaq üçün imkan yaradılmasını təmin etməlidir. Təhqiqatçı sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun tərtib edilməsi və icraatın bütün materiallarının ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi üçün toplanmış sübutları kifayət hesab etdikdə, təhqiqat müddətinin başa çatmasına müəyyən müddət qalmasına baxmayaraq, təhqiqatın başa çatması barədə cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsə, onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə, zərərçəkmiş şəxsə, mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə bu haqda məlumat verməli və sadalanan şəxslərin icraat materialları ilə tanış olma hüquqlarım təmin etməlidir (sadalanan şəxslərə icraat materialları ilə tanış olma yeri və vaxtı barədə məlumat verilməlidir).[1]

CPM-in 296-cı maddəsi təhqiqatçı tərəfindən sadalanan şəxslərin məhkəməyədək sadələşdirilmiş icraat materialları ilə tanış olma vaxtının təxirə salınması imkanını nəzərdə tutmur.

---

[1] Seyfulla Aslanov. İbtidai istintaq. Bakı, Qanun nəşriyyatı, 2015. Səh.101-102

Təhqiqatçı sadalanan şəxslərin hər birinin icraat materialları ilə tanış olmalarına dair ayrıca protokol tərtib etməlidir.

AR.CPM-in 297-ci maddəsinə əsasən, böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraat materialları ona daxil olduqdan sonra ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

- daxil olmuş materiallara dərhal baxmaq və böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayətin baxılması zamanı təhqiqatçının hərəkətlərinin və həmin şikayət üzrə aparılmış məhkəməyədək sadələşdirilmiş icraatın qanuniliyini və əsaslılığını yoxlamaq;
- toplanmış sübutlar və təhqiqat zamanı araşdırıkmış hallar ittihamın irəli sürülməsinə imkan verdikdə, böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair təhqiqatçı tərəfindən tərtib edilmiş yekun protokolunda ittihamın irəli sürülməsini təsdiq etmək və bütün materialları məhkəməyə göndərmək;
- toplanmış sübutlar ittihamın irəli sürülməsi üçün kifayət qədər olmadıqda, məhkəməyədək sadələşdirilmiş icraatın materialları əsasında cinayət işinin başlanması haqqında qərar çıxarmaq və ibtidai araşdırılmanın aparılmasını müvafiq istintaq orqanına tapşırmaq;
- cinayət təqibini istisna edən hallar mövcud olduqda, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs barəsində cinayət təqibinə xitam verilməsi haqqında qərar şıxarmaq;

böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək icraatın materialları üzrə tanış olmuş şəxslərə özünün çıxardığı qərar haqqında məlumat vermək səlahiyyətinə malikdir.[1]

## 1.3. Təhqiqatın vəzifələri.

Təhqiqatın əsas vəzifələri AR.CPM-də və Polis haqqında Azərbaycan Respublikasının qanununda öz əksini tapmışdır.

Professor C.H. Mövsümov yazır ki, ibtidai istintaq qarşısında xüssi vəzifələr qoymaq və həmin vəzifələri cinayət mühakimə icraatı qarşısında duran vəzifələrdən fərqləndirmək düzgün olmazdı, çünki, prosessual qanunvericiliyi təkcə məhkəmə baxışının vəzifələrindən deyil, ümumiyyətlə, cinayət mühakimə icraatının vəzifələrindən bəhs edir.[2]

A.Ə. Teymurov da göstərir ki, CPM-in 8-ci maddəsində cinayət mühakimə icraatının qeyd edilən vəzifələri məhkəmə orqanları ilə yanaşı istintaq və təhqiqat orqanlarının da fəaliyyətinə aid edilir. Hesab etmək olar ki, cinayət prosesinin hər bir mərhələsinin qarşısında duran vəzifə onun səlahiyyətləri dairəsində cinayət mühakimə icraatının vəzifələrinin yerinə yetirilməsinə yönəlmişdir. Bu mənada təhqiqat və ibtidai istintaq oqranları öz səlahiyyətləri

---

[1] Səyyad Ağayev, Eldar Salayev, Anar Mikayılov - "DİO-da təhqiqat", dərs vəsaiti, Bakı, 2010, s.57

[2] Mövsümov C.H. İbtidai istintaq. Bakı, Maarif, 1973, s.9

dairəsində cinayət mühakimə icraatının vəzifələrini həyata keçirirlər.[1]

Deməli, istənilən təhqiqat orqanının ümimi şəkildə həyata keçirdiyi vəzifələr CPM-in 8-ci maddəsində təsbit edilmiş və həmin məcəllənin 214-cü maddəsində konkretləşdirilmişdir.

Hüquq ədəbiyyatında ibtidai istintaqın aparılmasının məcburi olub-olmamasından asılı olaraq təhqiqatın vəzifələri fərqləndirilir. Cinayət Prosessual hüquq ədəbiyyatında təhqiqatın vəzifələri ilə bağlı fikirlər də müxtəlifdir. Müəlliflərdən Səyyad Ağayev, Anar Mikayılov və digərləri qeyd edirlər ki, təhqiqatın vəzifələri dedikdə, cinayət-mühakimə icraatının vəzifələri başa düşülməlidir. Çünki təhqiqat cinayət mühakimə icraatının bir növüdür. Bu vəzifələr aşağıdakılardır:

a) şəxsiyyəti, cəmiyyəti və dövləti kriminal cinayətkar qəsdlərdən mühafizə etmək;

b) baş vermiş cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq;

c) həqiqi və ya ehtimal olunan cinayət törətməsi ilə bağlı şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qorumaq;

d) cinayətin subyektlərini ifşa etmək və cinayət məsuliyyətinə cəlb etmək.

Ümumiyyətlə, təhqiqatın vəzifələri sırasına qanunçuluğun möhkəmləndirilməsi cinayətlərin xəbərdar

---

[1] Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri. Bakı, “Hüquq Yayın evi” 2015, s.71.

edilməsi, baş vermiş cinayətlərin tezliklə açılması və əsasən də vətəndaşların ölkə konstitusiyasına və digər normativ-hüquqi aktların normalarına riayət etməsi daxildir.[1]

Təhqiqatın və ibtidai istintaqın vəzifələrinin CPM-in konkret normalarında olmaması prosessualist alimlər arasında təhqiqatın vəzifələri barədə fərqli fikirlər yaratmışdır.

Belə ki, prosesualist alimlərdən D.S. Karev göstərir ki, ibtidai istintaqın (eləcə də təhqiqatın) vəzifələrini cinayət tərkibinin olub olmaması haqqında sübutların toplanması, bu cinayətlərin edilməsində konkret şəxsin təqsirli olub-olmamasının müəyyən edilməsi cinayətin edilməsinə kömək etmiş səbəblərin aydınlaşdırılması təşkil edir.[2]

Prosesualist alimlərdən V.A. Stremovski qeyd edir ki, ibtidai istintaqın vəzifələrinə cinayətin açılması, yəni cinayətkarı müəyyən etmək və ifşa etmək, onu vaxtında cinayət məsuliyyətinə cəlb etmək və cinayət etməkdə əsassız olaraq şübhə edilən şəxsləri məsuliyyətdən azad etmək, aşkar edilmiş cinayətin qarşısını almaq, tədbirlər görmək, yeni cinayətin edilməsinin qarşısını almaq, məhkəmədə cinayət işinə mahiyyəti üzrə baxmaq üçün kifayətedici sübutlar toplamaq və digər zəruri tədbirlər görmək, cinayətin qarşısının alınması və vətəndaşların hüquqlarının və qanuni mənafeyinin qorunması üçün tədbirlər görmək, cinayət etmiş şəxsləri yenidən həmçinin, vətəndaşları qanunlara riayət etmək ruhunda tərbiyə etmək aid edilməlidir. [3]

---

[1] Səyyad Ağayev, Eldar Salayev, Anar Mikayılov. "DİO-da təhqiqat" dərs vəsaiti, Bakı, DİN-nin Polis Akademiyası, s.17

[2] Советский уголовный процесс. Под.ред. Проф.С.Д.Карева, М.1968.с.183

[3] Уголовный процесс. РСФСР Воронеж. 1968, с.165

Prosesualist alimlərin tam əksəriyyəti qeyd edir ki, ibtidai istintaqın vəzifələri həm də təhqiqata aiddir. Çünki, ibtidai araşdırma həm ibtidai istintaqı, həm də təhqiqatı əhatə edir.

N.V.Yoqin və F.N.Fatkullin ibtidai istintaqın vəzifələrinin daha geniş olduğunu göstərmişlər. Onlar qeyd edir ki, ibtidai istintaqın vəzifələrinə cinayətin tezliklə və bütünlüklə açılmasını, təqsirkarın cinayət məsuliyyətinə cəlb edilməsini, onun məhkəməyə verilməsi üçün zəruri şərait yaradılmasını, cinayət nəticəsində vurulan maddi zərərin ödənilməsini, cinayətin edilməsinə kömək edən şəraitin və səbəbin müəyyən edilməsi və aradan qaldırılmasını, vətəndaşların qanunlara və birgə yaşayış qaydalarına dönmədən riayət etmək ruhunda tərbiyə edilməsinə aid edirlər.[1]

Bir çox müəlliflər təhqiqatın vəzifələrinə cinayətin açılması və onun qarşısının alınmasını, cinayətin əlamətlərini və onu törətmiş şəxsin aşkar edilməsi məqsədilə zəruri əməliyyat-axtarış tədbirlərinin görülməsi və bir sıra digər prosessual vəzifələrin yerinə yetirilməsini aid etmişlər.[2]

AR.CPM-nin 214-cü maddəsi də təhqiqat orqanının üzərinə cinayətin və onu törətmiş şəxsin aşkar olunması məqsədilə zəruri əməliyyat axtarış və cinayət prosessual qanunda nəzərdə tutulmuş başqa tədbirlər görmək vəzifəsi qoyur. Buraya həm də cinayətin açılması, araşdırılması və

---

[1] Жогин Н.В., Фаткуллин Ф.Н. Предварительное следствие в советском уголовном процессе. Госюриздат М., 1965, с.39

[2] Чельцов М.А Советский уголовный процесс М., 1951, с.228-229

onun qarşısının alınması üçün zəruri olan bütün tədbirlərin görülməsi vəzifəsi daxildir.

A.Ə.Teymurov AR.CPM-ni rəhbər tutaraq qeyd edir ki, ibtidai istintaqın aparılması məcburi olan cinayət işləri üzrə təhqiqatın vəzifələri cinayətin izlərini müəyyən edib, rəsmiləşdirmək üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə), üzləşdirmə, istintaq eksperimenti kimi təxirəsalınmaz istintaq hərəkətlərinin aparılmasından irəli gəlir. [1]

Təhqiqatçı CPM-də nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;
- şübhəli şəxsə tutulduğu andan hüquqlarını bildirmək və tutulmasının səbəblərini izah etmək;
- şəxsin tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək (CPM-nin 153.2.5-153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq);

---

[1] Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri. Bakı, "Hüquq Yayın evi" 2015, s.72.

- zərurət olduqda CPM-nin 154-156, 160, 165-172-ci maddələrinin tələblərinə müvafiq olaraq şübhəli şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək;

- qanuni əsaslar olmadan və ya CPM-nin 148.4, 148.6, 148.7, 150.3 və 151.5-ci maddələrində nəzərdə tutulmuş müddətlərdən artıq tutulan şəxsi azad etmək;

-. müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı və ya mülki cavabdeh qismində tanımaq;

- cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün tədbirlər görmək;

- CPM-nin 193-cü maddəsinə uyğun olaraq tutulmuş şübhəli şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;

- prokurorun və müstəntiqin göstərişlərini və qərarlarını icra etmək;

- prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;

- ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərini apardıqdan sonra cinayət işi başlanmasından 10 (on) gündən gec olmayaraq iş üzrə bütün materialları istintaq aidiyyəti qaydalarına uyğun olaraq istintaq orqanına göndərmək;

- şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

- böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə sadələşdirilmiş icraat şəklində aparılmış təhqiqat materiallarını təhqiqat başlanmasından 10 (on) gündən, CPM-nin 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə

20 (iyirmi) gündən gec olmayaraq yekun protokolu ilə prokurora göndərmək;

- CPM-də nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

- Cinayət təqibini həyata keçirən təhqiqatçı səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri qanuni və vaxtında aparmağa borcludur.

- CPM-də nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı aşağıdakı hüquqları həyata keçirir:

- hadisənin şahidlərinin izahatını almaq, hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək;

- şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə) üzləşdirmə, istintaq eksperimenti kimi təxirəsalınmaz istintaq hərəkətlərini aparmaq;

- dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək; şəxslərin razılığı ilə onları müvafiq istintaq hərəkətlərinə hal şahidi, tərcüməçi, mütəxəssis və ya ekspert qismində cəlb etmək;

- dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək;

- müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-

axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

- müdafiəçinin cinayət işinin icraatında iştirakını istisna edən hallar müəyyən edildikdə, onun cinayət işinin icraatında iştirak etməkdən kənarlaşdırılması barədə prokuror qarşısında vəsatət vermək;

- hal şahidinə, tərcüməçiyə, mütəxəssisə və ya ekspertə edilmiş etirazlara baxmaq;

- cinayət prosesində iştirak edən şəxslərin vəsatətlərinə və cinayət işinin icraatı ilə əlaqədar digər şəxslərin ərizə və digər müraciətlərinə baxmaq;

- cinayət prosesində iştirak edən şəxslərin şikayətlərinə baxmaq;

- məhkəmənin müstəsna səlahiyyətlərinə aid olanlar istisna edilməklə, qətimkan tədbirlərinin seçilməsi, dəyişdirilməsi, ləğv edilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması barədə qərarlar qəbul etmək;

- cinayət işinin icraatına xitam verilməsi barədə qərar qəbul etmək və təsdiq olunması üçün prokurora təqdim etmək;

- CPM-də nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

- Təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri keçirməyə haqlı deyil.

- Cinayət işi prokuror və ya müstəntiq tərəfindən icraata qəbul olunduqdan sonra təhqiqatçı ayrı-ayrı istintaq hərəkətlərini, habelə müvafiq əməliyyat-axtarış tədbirlərini

yalnız prokurorun və ya müstəntiqin göstərişləri ilə işlədiyi təhqiqat orqanı vasitəsilə həyata keçirir.

- Təhqiqat orqanının ixtisaslaşmış təhqiqat qurumunun rəhbəri CPM-nin tələblərinə əməl edərək öz səlahiyyətləri daxilində:

- törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyata alınmasını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə təhqiqatın və ya ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını təhqiqatçıya, yaxud təhqiqatçılar qrupuna tapşırır;

- təhqiqatçının cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə nəzarəti həyata keçirir;

- törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlar üzrə ilkin yoxlamanın, təhqiqatın və ayrı-ayrı istintaq hərəkətlərinin təhqiqatçı tərəfindən həyata keçirilməsi üçün zəruri təşkilati tədbirlər görür;

- təhqiqatçının CPM ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirməsinə mane olan hallar (vəfat etməsi, ağır xəstəliyə tutulması və s.) yarandıqda, cinayət işinin digər təhqiqatçının icraatına verilməsi barədə vəsatəti ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir;

- zərərçəkmiş şəxsin, şahidin və cinayət prosesində iştirak edən digər şəxslərin təhlükəsizliyi üçün tədbirlər görülməsi ilə əlaqədar vəsatəti ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir;

- öz səlahiyyətləri daxilində fəaliyyət göstərən prokurorun təhqiqat orqanlarının fəaliyyətində qanunların icra və tətbiqini yoxlamaq imkanını təmin edir, habelə prokurorun və müstəntiqin göstərişlərinin və qərarlarının icrası üçün müvafiq tədbirlər görülməsini təşkil edir;

məhkəmə qərarlarının yerinə yetirilməsini təşkil edir.

- Təhqiqat orqanının əməkdaşı bu Məcəllənin tələblərinə əməl edərək öz səlahiyyətləri daxilində:

- cinayət qanunu ilə nəzərdə tutulmuş əməllərin qarşısının alınması üçün tədbirlər görür;

- cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törədən şəxsləri və şübhəli şəxsləri tutur;

- tutduğu yerdə tutulan şəxsin üstünü yoxlayır;

- tutulan şəxsə onun hüquqlarını izah edir;

- hadisə yerinin mühafizəsi, cinayətin izlərinin qorunması, hadisəni görən şəxslərin müəyyən edilib izahatlarının alınması üçün zəruri tədbirlər görür;

- hadisə yerində prosessual hərəkətlərin həyata keçirilməsi üçün müstəntiqin və ya prokurorun göstərişlərini yerinə yetirir.

- Təhqiqat orqanının rəhbəri təhqiqat orqanı əməkdaşlarının bu Məcəllə ilə müəyyən edilmiş hüquq və vəzifələrinin həyata keçirilməsini, məhkəmənin, prokurorun, müstəntiqin və təhqiqatçının qərar, göstəriş və ya tapşırıqlarının icrası üçün müvafiq tədbirlər görülməsini təşkil edir, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiqini yoxlamaq imkanını təmin edir.

# Fəsil 2. Cinayət haqqında ərizə və məlumatlara təhqiqat orqanları tərəfindən baxılması və həll edilməsi.

## 2.1. Daxili işlər orqanlarında cinayət haqqında ərizə və məlumatların qəbulu, qeydiyyatı, uçotu və baxılması qaydaları.

Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququ vardır.[1] [1, səh. 15, 24]

Hüquq qaydalarının möhkəmləndirilməsi, qanunçuluğa dönmədən əməl edilməsi, vətəndaşların hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən mühafizə olunması və cinayətkarlıqla barışmaz mübarizə polis orqanlarının qarşısında duran mühüm dövlət vəzifəsidir.

Hüquqi dövlət quruculuğunun müvəffəqiyyətlə həyata keçirilməsi ilk növbədə qanunçuluğa ciddi şəkildə əməl olunmasını tələb edir. Məhz hüquqi dövlətdə vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun həyata keçirilir. Dövlətlə şəxsiyyət arasında mənafelərin həmahəng uyğunluğu və qanun qarşısında qarşılıqlı məsuliyyəti təzahür edir.

Dərs vəsaitinin hazırlanmasında məqsəd Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına ərizə və

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Azərbaycan dilində. Bakı, "PG" nəşriyyatı – 2013. s.15,24

şikayətlərlə bağlı müraciət etməklə əlaqədar insan hüquqlarının həyata keçirilməsi və qorunmasında mühüm vasitə olduğunu aşılamaqdır.

Təhqiqat orqanlarının cinayət xarakterli ərizə və məlumatlarla əlaqədar prosessual fəaliyyəti vəsaitdə ətraflı şərh edilir. Burada Azərbaycan Respublikasının cinayət-prosessual qanununa və digər normativ hüquqi aktlara müvafiq olaraq ərizə və şikayətlərin qəbulu, qeydiyyatı və həlli ilə əlaqədar məsələlər araşdırılır.

Qeyd olunduğu kimi Azərbaycan Respublikasının Konstitusiyasına görə “hər bir vətəndaşa Konstitusiyanın 57-ci maddəsinə müvafiq olaraq müraciət etmək hüququ verilir”. Həmin maddəyə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşları dövlət orqanlarına şəxsən müraciət etmək hüququna malikdirlər. Dövlət orqanları öz növbəsində belə müraciətlərə qanunla müəyyən edilmiş qaydada baxaraq yazılı cavab verməlidirlər.

Azərbaycan Respublikasının “Polis haqqında” Qanununa görə, polis əməkdaşları cinayətlər haqqında daxil olan ərizə və məlumatları qəbul etməli və müvafiq qeydiyyatdan keçirməlidirlər. Həmçinin qanunla müəyyən edilmiş qaydada tədbirlərin görülməsini təmin etməlidirlər.[1]

DİN-in təhqiqat orqanlarının cinayət-prosessual fəaliyyəti cinayətlər haqqında ərizə və məlumatlar onlara daxil olduğu vaxtdan başlanır.

Cinayət-prosessual qanuna müvafiq olaraq cinayət işinə başlamaq cinayətlər haqqında ilkin məlumatların təhqiqat

---

[1] Polis haqqında Azərbaycan Respublikasının Qanunu. “Hüquq Yayın Evi”, Bakı, 2017. səh. 12

orqanlarına daxil olması, yaxud bu orqanlar tərəfindən bilavasitə cinayətin aşkar edilməsi səbəb ola bilər. Qanun təhqiqatçıya hazırlanan, yaxud törədilən cinayətin əlamətlərini əks etdirən əməllər barədə məlumat aldıqda, cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görməsini, həmçinin səlahiyyəti daxilində dərhal təhqiqat aparmasını üzərinə bir vəzifə kimi qoyur. Belə qayda təhqiqatçı tərəfindən cinayət hadisəsinin bilavasitə aşkar edildiyi hallara da aiddir (CPM-in 38-ci mad)[1]

Cinayət haqqında məlumata baxılması cinayət işinin başlanması mərhələsinin tərkib hissəsini təşkil edir və buraya cinayətin qəbulu, qeydiyyatı, ilkin məlumatın yoxlanılması və qərarın qəbul edilməsi kimi məsələlər daxildir. Cinayət işinin başlanması modelindən asılı olmayaraq cinayət haqqında məlumata baxılması bir tərəfdən ictimai ittihamlı işlər üzrə, həmçinin ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər, digər tərəfdən isə xüsusi ittiham qaydasında təqib olunan cinayətlərə görə bir-birindən fərqlənirlər.

**Cinayət haqqında məlumatın qəbulu, qeydiyyatı və uçotu** - İctimai və ya ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər barədə məlumatın qəbulu, qeydiyyatı və yoxlanılması məsələləri cinayət təqibi orqanlarının üzərinə vəzifə kimi qoyulmuşdur. Əvvəldə qeyd olunduğu kimi təhqiqatçının belə bir vəzifəsi Cinayət-Prosessual Məcəllənin 38.1-ci maddəsində nəzərdə tutulmuşdur.

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2018. səh. 59

Cinayət haqqında məlumatın qəbulu, qeydiyyatı və uçotu qaydalarının hüquqi tənzimlənməsi DİN-in müvafiq Təlimatı ilə həyata keçirilir (03 noyabr 680 nömrəli Qərarı: "Törədilmiş və ya hazırlanan cinayətlər və hadisələr barədə məlumatların qəbulu, qeydiyyatı və baxılması qaydaları haqqında Təlimatın təsdiq olunması barədə"). Lakin cinayət-prosessual qanun cinayət barəsində məlumatlara baxılması ilə əlaqədar bir neçə əlavə qaydalar müəyyən etmişdir.

İlk növbədə daxil olmuş məlumatın cinayət işinin başlanması üçün nəzərdə tutulan səbəblərdən məhz hansına aid olduğunu təyin etmək lazımdır. Buraya ərizə, təqsirini boynuna almaqla könüllü gəlmə və polis əməkdaşlarının tərtib etdikləri raportlar aiddir. Daxil olmuş məlumat cinayət işinin başlanması üçün yetərli deyilsə, belə məlumatlar inzibati qaydada və ya əməliyyat-axtarış xətti ilə yoxlanılmalıdır. İnzibati qaydada yoxlama idarədaxili normativ aktlarla tənzimlənir. Əməliyyat-axtarış xətti üzrə yoxlamalar isə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik əsasında (Azərbaycan Respublikasının "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanun), səlahiyyətli subyekt tərəfindən, xüsusi tədbirlər vasitəsilə müəyyən edilmiş müddətdə həyata keçirilir. Təhqiqat orqanının əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməkdaşları raport təqdim etdikdə, məlumat cinayət işinin başlanmasına səbəb olur (CPM-in 208.0.2-ci mad.).

Cinayət işinin başlanması üçün səbəb kimi daxil olmuş törədilmiş və ya hazırlanan cinayət haqqında verilən ərizədə hadisə ətraflı təsvir olunmalı və ərizənin verildiyi vaxt göstərilməlidir. Əgər yoxlama ilə müəyyən edilsə ki,

cinayətin istintaqı qanuna görə digər orqanın səlahiyyətinə aiddir və ya cinayət xüsusi ittiham qaydasında təqib olunan cinayətlər kateqoriyasına aid edilir, onda cinayət haqqında məlumatın istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərilməsi zərurəti yaranır.

DİN-in 03 noyabr 2011-ci il tarixli 680 nömrəli qərarı ilə təsdiq edilmiş (Törədilmiş və ya hazırlanan cinayət və hadisələr barədə məlumatların qəbulu, qeydiyyatı və baxılması qaydaları haqqında) TƏLİMAT-a görə məlumatların qəbulu dedikdə, cinayət və hadisələr barədə məlumatların alınması ilə bağlı hərəkətlər başa düşülür.

Məzmunundan və daxil olma formasından, baş vermə yerindən və vaxtından asılı olmayaraq cinayət və hadisələr barədə məlumatlar növbətçi hissələr tərəfindən gün ərzində fasiləsiz qəbul edilir.

Şəxs cinayət barədə şifahi məlumat verdiyi halda CPM-in 204-cü maddəsinə müvafiq olaraq protokol tərtib olunur. Cinayət haqqında yazılı və ya şifahi məlumat verən 16 yaşına çatmış şəxsə bilə-bilə yalan xəbərçilik etməyə görə cinayət məsuliyyəti haqqında yazılı xəbərdarlıq edilir və o, bunu öz imzası ilə təsdiqləyir.[1]

Cinayət barədə ərizə fiziki şəxs tərəfindən növbətçi hissəyə, təhqiqatçıya, yaxud təhqiqat orqanının digər əməkdaşına bilavasitə təqdim edildikdə və ya şifahi məlumatın qəbul edilməsi barədə protokol tərtib olunduqda, müvafiq müraciət (protokol) növbətçi hissədə dərhal

---

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2018. səh. 288

qeydiyyata alınır və şəxsə məlumatın qəbul edilməsini təsdiqləyən qəbz verilir.

Qəbz eyni qeydiyyat nömrəsi əks etdirilmiş əsas vərəqdən və kötükdən ibarətdir. Əsas vərəqdə ərizənin qəbul edilmə tarixi və vaxtı, qəbul edən əməkdaşın və müraciət edənin soyadı və adı, kötük hissəsində isə bu məlumatlardan əlavə müraciətin qısa məzmunu göstərilir. Əsas vərəq ərizəçiyə təqdim edilir və o, vaxtı və tarixi göstərməklə qəbzi alması barədə kötük hissəni imzalayır.

Qəbz kitabça şəklində tikilir və növbətçi hissədə saxlanılır. İstifadə olunduqdan sonra kötükləri ilə birlikdə dəftərxanaya təhvil verilir.

Saxta imza ilə imzalanmış, yaxud uydurma fiziki şəxs adından yazılmış (texniki rabitə kanalları ilə ötürülmüş) cinayətlər haqqında ərizə və ya digər məlumatlar cinayət işinin başlanması üçün səbəb ola bilməz. Bu ərizə və məlumatlarda əks olunan hallar aparılmış araşdırma zamanı öz təsdiqini tapdıqda, təhqiqat orqanının əməkdaşı rəisə raportla müraciət edir və həmin raport 1 nömrəli kitabda qeydiyyata alınaraq müvafiq qərar qəbul olunur.

Törədilmiş və ya hazırlanan cinayətlər barədə anonim məlumatlar cinayətlərin qarşısının alınması və ya açılmasında istifadə edilməsi məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən struktur qurumlara həvalə olunur.

Anonim olmasından asılı olmayaraq CPM-in 209.2-ci maddəsində göstərilən hadisələr barədə hər bir məlumat 1 nömrəli kitabda qeydiyyata alınıb araşdırılır və zəruri tədbirlər görülür.

“Müstəntiqlər üçün rəhbət təlimat” adlı kitabda anonim məlumatlar barədə maraqlı fikirlər qeyd olunur. Cinayət işinin başlanmsı əsaslarının mövcud olmaması cinayətin faktiki olaraq baş verməməsi qənaətinə gəlməyə əsas vermir. Belə halda cinayətin əlamətlərini aşkar etmək lazım gəlir. Geniş yayılmış yoxlama hərəkətlərindən biri də bilavasitə təhqiqatçı tərəfindən hadisə yerində keçirilən baxış istintaq hərəkətidir. Bu istintaq hərəkəti elə bir prosessual hərəkətdir ki, cinayət işi başlanılana qədər həyata keçirilə bilər. Digər hallarda isə anonim məlumatlar əməliyyat aparatına yoxlamaların keçirilməsi məqsədilə göndərilə bilər. Anonim məlumatlar bir qayda olaraq yazılı, şifahi, telefon vasitəsilə və ya digər texniki vasitələrlə daxil olurlar. Anonim ərizələri geniş şəkildə şərh etmək məsləhət görülmür. Ərizəçi barəsində müvafiq yoxlama hərəkətlərini apardıqdan sonra məlumatın anonimliyi qənaətinə gəlmək lazımdır. Ərizəçi dərketmənin müxtəlif səbələrindən ola bilər ki, məsələn, öz ünvanını deyil, yaşayış yerini və ya olduğu yeri ərizəsində göstərsin. Belə halda ərizə anonim hesab edilmir. Anonim o ərizələr hesab edilməlidir ki, onda ərizəçinin soyadı və yaşadığı yer göstərilməsin.[1]

Cinayətin əlamətlərini özündə əks etdirən ərizələr anonim ərizələr hesab edilə bilməz. Çox vaxt terror aktına hazırlıqların görülməsi barədə məlumatları gizli olaraq polis orqanlarına bildirirlər. Belə halda cinayətin əlamətlərini özündə əks etdirən məlumatların aşkar edilməsinə dair raport təqdim edilməli və dərhal cinayət işi başlanmalıdır.

---

[1] Руководство для следователей / Под общ. Ред. В.В.Мозякова. – М.: Издательство «Экзамен», 2005. – с.32

Cinayət barəsində ərizədə təhqiramiz ifadələrdən və ədəbsiz sözlərdən istifadə edilməsi ərizənin qəbulundan imtina edilməsinə əsas ola bilməz. Əgər həmin ərizədə hazırlanmış və ya törədilmiş cinayətin əlamətləri göstərilirsə, belə ərizələr qəbul edilməlidir. Belə ərizələrə ümumi qaydada baxılmalı və həll edilməlidir. Cinayət barəsində istənilən ərizələrə təxirəsalınmadan baxılmalı, lazım gəldikdə isə bu şəkildə baxılmanın tərkib hissəsi kimi yoxlamalar keçirilməlidir.[1]

İstintaq zamanı qeydiyyatda olmayan cinayətlər haqqında verilmiş şifahi məlumat istintaq hərəkəti protokoluna yazılır, eyni zamanda müstəntiq və ya təhqiqatçının raportu, yaxud zərərçəkmişin ərizəsi (şifahi məlumatın qəbul edilməsi barədə protokol) əsasında sənədləşdirilir. Təhqiqat orqanının hər hansı əməkdaşı öz səlahiyyətlərini icra edərkən cinayətin əlamətlərini aşkar etdikdə onun qarşısının alınması və açılması üçün ilk növbədə təxirəsalınmaz tədbirlər görməli, həmçinin növbətçi hissəni məlumatlandırmalı və ya orqan rəisinə raportla məruzə etməlidir.

Polis əməkdaşı xidməti ərazidə və ya onun hüdudlarından kənarda cinayət və hadisələr barədə verilən məlumatları qəbul etməli, aidiyyəti ərazi polis orqanına ötürməli və dərhal xidmət etdiyi orqanın rəisinə məruzə etməlidir.

Baş Mühafizə, Baş Dövlət Yol Polisi İdarələrinin, İnzibati həbs olunanların saxlanılma məntəqəsinin və

---

[1] Руководство для следователей / Под общ. Ред. В.В.Мозякова. – М.: Издательство «Экзамен», 2005. –с. 33

Yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzinin növbətçi hissələrindən şəhər, rayon, nəqliyyatda polis orqanlarına aşağıdakı məlumatlar ötürülür:

- mühafizə olunan obyektə kənar şəxslərin daxil olması ilə bağlı mühafizə siqnalizasiya cihazlarının işə düşməsi;

- ölümlə və ya sağlamlığa zərər vurma ilə nəticələnən yol-nəqliyyat hadisələri, nəqliyyat vasitələrinin talanması və ya talama məqsədi olmadan qaçırılması;

- inzibati həbs olunanlar və yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlər barədə.

Cinayət haqqında məlumatın qəbulu ilə əlaqədar mövcud prosessual qaydalarda diqqət çəkən məqamlardan biri Cinayət-Prosessual Məcəllənin 449-cu maddəsinə müvafiq olaraq zərər çəkmiş şəxs və onun qanuni nümayəndəsinin cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən məhkəməyə şikayət vermək hüququnun nəzərdə tutulmasıdır. CPM-in 449.3.1-ci maddəsinə görə zərərçəkmiş şəxs cinayət haqqında ərizənin qəbul edilməsindən imtina edilməsi ilə bağlı şikayət verə bilər. Burada cinayət prosesini həyata keçirən orqan dedikdə, CPM-in 7.0.5-ci maddəsinə görə icraatında cinayət təqibi ilə bağlı digər materiallar olan təhqiqat orqanları başa düşülür. Belə nəticəyə gəlirik ki, cinayət haqqında məlumatın qəbul edilməsindən imtina edildikdə, vətəndaş müvafiq qaydada yaşadığı yerin məhkəməsinə şikayət verə bilər.[1]

Təlimata görə *məlumatların qeydiyyatı dedikdə,* cinayət və hadisələr barədə daxil olan məlumatların hər birinə sıra

---

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2018. səh.40,443

nömrəsinin verilməsi və uçot sənədlərində onların qısa məzmununun əks etdirilməsi başa düşülür.

Cinayətlər barədə məlumatlar növbətçi hissənin əməkdaşları tərəfindən «Törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatların qeydiyyatı» kitabında qeydə alınır.

Rabitə və digər texniki kanallar ilə daxil olan məlumatlar «Hadisələr barədə rabitə və digər texniki vasitələrlə daxil olan məlumatların qeydiyyatı» kitabında (2 nömrəli kitab) qeydə alınır.

Cinayət və hadisələr barədə DİN-in aparatının əməliyyat-axtarış fəaliyyətini həyata keçirən qurumlarına, Bakı şəhər BPİ-yə və Nəqliyyatda Baş Polis İdarəsinə daxil olan məlumatlar ərazi aidiyyəti üzrə şəhər, rayon, nəqliyyatda polis orqanlarının növbətçi hissəsində qeydə alınır.

DİN-in «102» xidməti-zəng mərkəzi sistemindən daxil olan cinayətlər barədə məlumatlar təsdiqlənməsindən asılı olmayaraq birbaşa 1 nömrəli kitabda qeydə alınır (2 nömrəli kitabda qeydiyyata alınmadan) və prosessual araşdırmaya təqdim edilir.

Cinayət barədə 1 nömrəli kitabda qeydə alınmış məlumat aşağıdakı hallarda istintaq və ya ərazi aidiyyəti üzrə göndərilir:

- məlumatın araşdırılması Daxili İşlər Nazirliyinin qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərinə aid olmadıqda;
- hadisə polis orqanının xidməti ərazisindən kənarda törədildikdə.

Xüsusi ittiham qaydasında araşdırılan cinayətlərə dair müraciətlər 1 nömrəli kitabda qeydə alındıqdan sonra aidiyyəti birinci instansiya məhkəməsinə göndərilir.

Araşdırılması DİN-in səlahiyyətinə aid olmayan cinayətlər barədə məlumatlar 1 nömrəli kitabda qeydə alınaraq istintaq aidiyyəti üzrə dərhal müvafiq dövlət orqanına (prokurorluq, Fövqəladə Hallar, Ədliyyə, Vergilər, Müdafiə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd və Dövlət Təhlükəsizlik Xidməti) göndərilir.

Cinayət barədə ərazi aidiyyəti üzrə başqa polis orqanından daxil olmuş məlumatlar dəftərxanada (katiblikdə) və 1 nömrəli kitabda (ərazi aidiyyəti polis bölməsinindirsə, yalnız orada) qeydə alınaraq dərhal araşdırmaya yönəldilir.

Tabeliyində ərazi və nəqliyyatda polis şöbəsi və bölməsi olan şəhər, rayon, nəqliyyatda polis idarəsinə (şöbəsinə) daxil olan (təqdim edilən) cinayət barədə məlumat (müraciət) 1 nömrəli kitabda qeydə alındıqdan sonra baxılır və ya dəftərxanada (katiblikdə) qeydə alınaraq 24 saat ərzində ərazi polis bölməsinə (şöbəsinə) göndərilir. Bölmədə (şöbədə) həmin məlumatın (müraciətin) dərhal 1 nömrəli kitabda qeydə alınıb araşdırılması təmin olunur.

Ərazi aidiyyəti üzrə digər polis orqanın xidməti ərazisinə aid olan hadisə barədə məlumat (cinayət xarakterli olmayan) növbətçi hissənin əməkdaşı tərəfindən 2 nömrəli kitabda qeydə alınaraq dərhal telefon vasitəsilə müvafiq polis orqanının növbətçisinə ötürülür və bu barədə orqan rəisinə raportla məruzə olunur. Rəisin yazılı göstərişinə

əsasən həmin məlumatın aidiyyəti üzrə göndərilməsi təmin olunur və bu barədə 2 nömrəli kitabda zəruri qeyd aparılır.

Cinayət barədə eyni şəxsin eyni məsələyə dair yenidən daxil olmuş (təkrar) və ya müxtəlif ünvanlara göndərdiyi müraciətlər (eyni məzmunlu) 1 nömrəli kitabda təkrar qeydə alınmır.

Belə məlumatlar dəftərxanada (katiblikdə) müvafiq qaydada qeydiyyata alındıqdan sonra icrası polis orqanının rəisi tərəfindən müstəntiq və ya təhqiqatçıya həvalə olunur. Müstəntiq və ya təhqiqatçı müraciətə baxılmasının nəticələri haqqında şikayətçiyə məlumat verməklə ərizəni cinayət işinə, rədd materialına və ya icraatda olan digər materiala əlavə edir.

Müstəntiqin və ya təhqiqatçının icraatında olan ərizə və ya məlumata baxılması prosesində qanunazidd hərəkətlərə yol verməsi barədə daxil olan müraciətlərin araşdırılmasının hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilən əməkdaşa həvalə edilməsi yolverilməzdir.

Cinayət və hadisələr barədə məlumatlar müraciət edən şəxs tərəfindən bilavasitə təqdim olunduqda onların dəftərxanada qeydiyyata alınması qadağandır.

Poçt, teleqraf, kuryer və s. vasitələrlə daxil olan cinayət xarakterli məlumatlar dərhal dəftərxanada qeydə alınaraq polis orqanının rəisinə məruzə edilir. Rəisin yazılı göstərişi ilə həmin məlumat 1 nömrəli kitabda qeydiyyata alınır və araşdırılmasının təmini üçün aidiyyəti üzrə istintaq orqanı və ya ixtisaslaşmış təhqiqat qurumunun rəhbərinə yönəldilir. Cinayət xarakterli olmayan məlumatların araşdırılması isə digər xidmətlərin əməkdaşlarına (ictimai təhlükəsizlik,

cinayət-axtarış və s.) tapşırılır. Belə məlumatların cinayət xarakterli olması müəyyən edildikdə 1 nömrəli kitabda qeydiyyata alınması və prosessual qərar qəbul edilməsi təmin olunur.

1 və 2 nömrəli kitabların müvafiq rekvizitlərində hadisənin qısa məzmunu, baş verdiyi vaxt, görülmüş tədbirlər, verilən göstərişlər, yoxlamanı aparan və qərar qəbul edən şəxs haqqında məlumatlar tam və aydın şəkildə əks olunur.

İbtidai araşdırma prosesində daxili işlər orqanlarına məlum olmayan cinayətlərin aşkarlanmasına dair təhqiqatçı və ya müstəntiqin raportu, fiziki və ya hüquqi şəxsin məlumatı qeydiyyata alınarkən 1 nömrəli kitabda «araşdırma zamanı əlavə olaraq aşkar edilmişdir» məzmunlu qeydiyyat aparılır.

Şikayət vermiş şəxsin cinayət təqibindən imtina etməsi və ya barışıq barədə ərizələri «Vətəndaşların müraciətlərinin qeydiyyatı» kitabında qeydə alınaraq cinayət və cinayət-prosessual qanunvericiliyinə müvafiq qərar qəbul edilir.

Cinayət və hadisələr barədə məlumatlar qeydiyyata alınarkən sənədin üzərində qeydiyyat ştampı vurulur və polis orqanının adı, qeyd tarixi, sıra nömrəsi, məlumatı qəbul etmiş əməkdaşın soyadı göstərilməklə imzalanır.

Cinayət və hadisələr barədə məlumatların qeydiyyata alınması hər hansı obyektiv səbəbdən (məsələn, rabitənin nasazlığı üzündən polis sahə inspektorunun qəbul etdiyi məlumatı vaxtında məsul növbətçiyə çatdıra bilməməsi və s.) ləngidikdə 1 və 2 nömrəli kitabların 2-ci sütununda məlumatın növbətçi hissəyə daxil olma vaxtı ilə yanaşı onun

müvafiq əməkdaşa təqdim edildiyi tarix və dəqiq vaxt göstərilir. Bu halda məlumat üzrə tədbir görülmə müddəti onun araşdırmanı aparacaq əməkdaşa təqdim edildiyi vaxtdan hesablanır.

1 və 2 nömrəli kitablarda məlumatların dolğun qeyd olunmamasına, məzmununun təhrif edilməsinə, qeydiyyat qaydalarının pozulmasına görə növbətçi hissənin əməkdaşları, həmçinin araşdırmanın nəticələrinə dair yanlış məlumatların qeyd olunmasına görə dəftərxana əməkdaşları (işçiləri) məsuliyyət daşıyırlar.

Cinayət və hadisələr barədə məlumatların uçotu dedikdə, cinayət və hadisələr barədə qeydiyyata alınan məlumatların sayının və xarakterinin, baxılmasının nəticələrinin müvafiq hesabat formalarında və məlumat banklarında əks etdirilməsi başa düşülür. Daxil olmuş məlumat üzrə tədbir görmək daxili işlər orqanlarının səlahiyyətinə aid olmadığı və ya cinayət və hadisələrin daxili işlər orqanlarının xidməti ərazisində baş verdiyi hallarda həmin məlumatlar qeydiyyata götürüldükdən sonra aidiyyəti üzrə göndərilərək uçotdan çıxarılır və bu haqda 1 nömrəli kitabda müvafiq qeyd aparılır. Uçot-qeydiyyat intizamı üzrə vəziyyətin hər rüb daxili yoxlanması həyata keçirilir və bu haqda müvafiq akt tərtib edilir.

## 2.2. Cinayətlər haqqında məlumatlara baxılmasının mahiyyəti, hüquqi əhəmiyyəti, üsul və vasitələri.

Sualda cinayətlər haqqında məlumatlar üzrə ilkin yoxlama prosesində realizə olunan ayrı-ayrı prosessual hərəkətlərlə bağlı məsələlər araşdırılır, onların tətbiqi xüsusiyyətləri və problemli cəhətlərinin aydınlaşdırılmasından söhbət açılır.

Cinayətlər haqqında məlumatlara baxılması Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyi və daxili işlər orqanlarının bu sahədə fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar əsasında həyata keçirilir.

Cinayətin əlamətlərini özündə əks etdirən hadisə ilə bağlı ilkin yoxlama hərəkətləri Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə müvafiq aparılır.

**Cinayətlər haqqında məlumatlara baxılması -** AR CPM-in 207-ci maddəsində cinayətlər haqqında məlumatlara baxılmasının qaydası müəyyən edilmişdir.

*Respublika DİO-nun ixtisaslaşmış təhqiqat qurumları əməkdaşları tərəfindən 2011-2016-cı illər üzrə baxılmış cinayət xarakterli məlumatların statistikası*

| İllər | Daxil olmuş məlumat sayı | MSİ açılıb | Yekun protokolu ilə məhkəməyə göndərilib | Cinayət işi başlanıb | Cinayət işinin başlanması rədd edilib |
|---|---|---|---|---|---|
| 2016 | 150791(+29) | 2384 | 1247 | 865 | 95021 |
| 2015 | 116851(+5%) | 2166 | 1197 | 497 | 69384 |
| 2014 | 111074 (+21%) | 1847 | 1001 | 511 | 66306 |
| 2013 | 91506 (+12%) | 1519 | 768 | 414 | 52764 |
| 2012 | 81114(-22%) | 3211 | 1492 | 210 | 44481 |
| 2011 | 103977 | 4261 | 2179 | 204 | 65951 |

Təhlildən cinayət xarakterli məlumatlar üzrə daxili işlər orqanlarının təhqiqat qurumlarının prosessual fəaliyyətini aydın şəkildə görmək olur. Rəqəmlərdən cinayətkarlıqla mübarizə sahəsində təhqiqat xidmətinin işinin ildən ilə artdığını müşahidə edirik.

Cinayət məlumatları üzrə ilkin yoxlama hərəkətlərinin həyata keçirilmə üsulları daim öz aktuallığı ilə seçilmişdir.

Cinayət-prosessual qanunvericilik ilkin yoxlama zamanı prosessual baxımdan maraq doğuran məlumatların əldə olunması, prosessual əhəmiyyət kəsb edən halların

müəyyən olunması üçün müxtəlif hərəkətlərin həyata keçirilməsini nəzərdə tutur.

Ümumiyyətlə, bu hərəkətlərin hər biri prosessual xarakterə malikdir. Çünki, sözügedən hərəkətlər cinayət–prosessual fəaliyyət çərçivəsində həyata keçirilir və məqsəd etibarilə prosessual məsələlərin həllinə yönəlir.

Cinayətlər barəsində ilkin yoxlama zamanı həyata keçirilən bütün prosessual hərəkətlər 2 (iki) qrupa bölünür:

1) istintaq hərəkətləri;
2) qanunvericilikdə nəzərdə tutulmuş digər prosessual hərəkətlər.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 207.4-cü maddəsində deyilir ki, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxılarkən ərizəçilərdən əlavə sənədlər, onlardan və digər şəxslərdən izahatlar tələb edilə bilər. Bu zaman hadisə yerinə baxış və ekspertizanın təyin edilməsi istisna olmaqla, digər istintaq hərəkətlərinin aparılması qadağandır.

AR CPM-in 207.4-cü maddəsinin hərfi mənası belə nəticəyə gəlməyə əsas verir ki, ilkin yoxlama əlavə sənədlər və izahatlar tələb edilməklə həyata keçirilə bilər. Lakin, bu çərçivəni ərizələrin qəbulu və ifadələrin alınması kimi hərəkətlərlə genişləndirə bilərik, çünki ilkin yoxlama hərəkətlərinin dairəsinin yalnız qeyd olunan fəaliyyətlə məhdudlaşdırılması bu mərhələnin qarşısında duran vəzifələrin müvəffəqiyyətlə icrasını təmin edə bilməz.

AR.CPM-in 204.1-ci maddəsinə görə, törədilmiş (törədilən) və ya hazırlanan cinayətlər haqqında fiziki şəxslərin məlumatları yazılı və şifahi ərizə formasında ola

bilər. Fiziki şəxslərin yazılı ərizələri ərizə verənin şəxsi imzası ilə təsdiq edilməlidir. Şifahi ərizələr isə ayrıca protokol tərtib edilməklə rəsmiləşdirilməlidir. Cinayətin əlamətlərini özündə əks etdirən məlumatların ilkin mənbəyi haqqında informasiya fərziyyələrə, ehtimallara, şayiələrə əsaslanarsa, bu cinayət işinin başlanması üçün səbəb ola bilməz. Məs., məlumatın mənbəyi haqqında heç bir məlumat vermədən kiminsə soyğunçuluq cinayətini törətdiyinə dair ərizənin verilməsi. Nəzərdən qaçırmaq olmaz ki, hazırlanan cinayət haqqında verilmiş məlumat yalnız həmin cinayət ağır və ya xüsusilə ağır cinayətlər kateqoriyasına aid olduqda cinayət işinin başlanmasına səbəb olur. Polis əməkdaşına cinayət haqqında xəbər verən şəxslərin yazılı ərizə verməkdən imtina etməsi kimi hallarda müvafiq raport tərtib edilməlidir. Şifahi ərizənin qəbulu protokolunda, yaxud yazılı ərizədə qeyd formasında ərizəni verən şəxsə bilə-bilə yalan xəbərçilik etməyə görə cinayət məsuliyyəti barəsində xəbərdarlıq öz əksini tapmalıdır.[1]. Ancaq burada təqsirini könüllü boynuna alma haqqında ərizə ilə müraciət etmiş şəxs istisna edilir.

Könüllü gəlib təqsirini boynuna alma dedikdə, şəxsin törətdiyi cinayət haqqında könüllü olaraq təhqiqatçıya, müstəntiqə, prokurora və ya məhkəməyə məlumat verməsi başa düşülür.[2] Şəxsin ərizəsi aşağıdakı hallarda təqsirini könüllü boynuna alma kimi cinayət işinin başlanmasına səbəb olur: 1) şəxsin barəsində məlumat verdiyi cinayət,

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, “Hüquq Yayın Evi”, 2018. səh.236

[2] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, “Hüquq Yayın Evi”, 2018. səh.236

cinayət prosesini həyata keçirən orqanlara məlum olmamalıdır; 2) həmin cinayət açılmamış olmalıdır; 3) törədilmiş cinayət haqqında cinayət prosesini həyata keçirən orqanların məlumatı olsa da, bu barədə xəbər verən şəxsin məlumatı olmamalıdır. Təqsirini könüllü boynuna alma cinayət işi başlanıldıqdan sonra da mümkündür.[1]

AR CPM-in 143.2-ci maddəsinə əsasən təhqiqatçı cinayət prosesi tərəflərinin vəsatəti, yaxud öz təşəbbüsü ilə sübutların toplanması zamanı fiziki, hüquqi və vəzifəli şəxslərdən, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlardan cinayət təqibi üzrə əhəmiyyət kəsb edən sənəd və əşyaları təqdim etməyi, yoxlama və təftişin keçirilməsini səlahiyyətli orqanlardan və vəzifəli şəxslərdən tələb etməyə haqlıdır.[2]

Bəs sənədlər və əşyalar hansı qaydada tələb edilməlidir? Praktiki fəaliyyətdə bu məsələnin həlli müxtəlifdir. Bəzən sənədlərin və ya əşyaların tələb edilməsi sorğusuz, şifahi həyata keçirilir.[3] Əksər hallarda isə əşyalar və ya sənədlər yazılı sorğu əsasında tələb olunur. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlardan, həmçinin ayrı-ayrı müəssisələrdən istehsalat fəaliyyəti ilə bağlı sənədlər tələb olunduqda yazılı sorğu göndərilməlidir. Göndərilən sorğuda tələb olunan sənədlərin və ya əşyaların

---

[1] Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası C.H.Mövsümovun, B.C.Kərimovun və Ə.H.Hüseynovun redaktəsi ilə. «Digesta» nəşriyyatı, Bakı, 2010-cu il, səh.605

[2] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2018. səh.178

[3] В.В. Степанов. Предварительная проверка первичных материалов о преступлениях. Саратов, 1972. Стр. 78

dairəsi, sənədlərin təqdim olunma müddəti öz əksini tapmalıdır.

Əşya və sənədlərin, o cümlədən məlumatların təqdim edilməsindən sonra təhqiqatçı sənəd və məlumatların məzmunu ilə tanış olur, habelə əşyalara baxış keçirilir. Beləliklə, sənəd və məlumatlarda cinayət təqibi üçün əhəmiyyət kəsb edən hallar müəyyən olunur, əşyalarda isə iş üçün əhəmiyyəti olan xüsusiyyətlər aşkar edilir. Bundan sonra həmin hallar müvafiq protokolda öz əksini tapmaqla sübut əhəmiyyəti kəsb edir. Sonradan həmin əşyalar maddi sübut kimi, sənəd və məlumatlar isə "digər sənədlər" qismində cinayət təqibi üzrə icraatın materiallarına əlavə olunur. Təqdim edilən əşya, sənəd və məlumatların sübutların mümkünlüyü tələblərinə cavab vermədiyi müəyyən edildikdə, onların cinayət təqibi üzrə icraatın materiallarına əlavə olunmasından imtina edilir. Unutmaq olmaz ki, cinayət işi başlandıqdan sonra bu sənədlər bəzi ekspertizalar üçün obyekt rolunu oynaya bilər. Buna görə də onların mənşəyi şübhə doğurmamalıdır. [1]

Cinayət prosesinə görə şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və şahidlərin ifadələri şifahi və yazılı formada ola bilər. Cinayət mühakimə icraatında ifadələrin sübut növü kimi qəbul edilməsi üçün aşağıdakı şərtlərə əməl olunmalıdır: 1) ifadələr CPM-lə müəyyən olunmuş qaydada alınmalıdır; 2) ifadələr təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən alınmalıdır; 3) yalnız şübhəli, təqsirləndirilən, zərərçəkmiş şəxsdən və şahidlərdən alınmış ifadələr sübut kimi qəbul olunur.

---

[1] Firuzə Abbasova. Cinayət prosesi. Dərslik. Bakı, «Zərdabi LTD», 2012, səh.311

Təqsirləndirilən şəxsin ifadə verməsi onun vəzifəsi deyil, hüququdur. Təqsirləndirilən şəxs ifadə verməkdən imtina etməyə və bilə-bilə yalan ifadə verməyə görə məsuliyyət daşımır. Təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittihama dair bütün hallar barədə, cinayət təqibi üzrə ona məlum olan bütün başqa hallar, habelə cinayət təqibi üzrə materiallarda olan bütün sübutlar haqqında ifadə verə bilər. Təqsirləndirilən şəxs cinayət təqibi üzrə əhəmiyyət kəsb edən hər hansı hal barədə həm ifadə, həm də həmin hal (fakt) barədə izahat verə bilər. Şəxsin izahatı da onun ifadəsi kimi yoxlanılmalıdır.[1]

İfadə alınması üçün şəxs çağırılan zaman cinayət prosesini həyata keçirən orqanlar ehtiyatlı hərəkət etməlidirlər. Çünki çağırılmanın məqsədi barəsində çağırılmış şəxsdə (xüsusən də həmin şəxsin cinayətlə birbaşa əlaqəsinin olması ehtimalı böyükdürsə) məlumatın olması işin gedişatına mənfi təsir göstərə bilər. Bunun üçün çalışmaq lazımdır ki, şəxs əfsanələşdirilmiş mövzu ilə bağlı, əsl məqsəd gizli saxlanılmaqla orqana çağırılsın. Adətən cinayətlə əlaqəli olması ehtimal olunan şəxsdən məlumat alınması üçün şəxs o zaman çağırılır ki, bu məlumatların digər üsullarla alınması mümkün olmur.

İfadənin alınması üçün əvvəlcədən hazırlıq hərəkətlərinin görülməsi daha məqsədəuyğun olardı. Əldə olan materiallar ətraflı öyrənilməli və analizdən keçirilməlidir. Hazırlıq zamanı veriləcək sualların ardıcıllığına da fikir vermək lazımdır. Suallar cinayət barəsində ümumi şəkildə deyil, onun ayrı-ayrı halları

[1] Firuzə Abbasova. Cinayət prosesi. Dərslik. Bakı, «Zərdabi LTD», 2012, səh.277

barəsində və konkret formada qoyulmalıdır. Müstəntiq kəmiyyətcə çox məlumat almağa səy göstərməməli, daha çox cinayətin açılması üçün kömək edə biləcək məlumatların əldə olunmasına çalışmalıdır. Bunun üçün danışığın predmetini dəqiq müəyyən etmək zəruridir.[1]

Yaxşı olar ki, ifadəsi alınan şəxsə mümkün sayda onun şəxsi həyatı barəsində suallar verilsin. Verilən məlumatların düzgün qiymətləndirilməsi üçün ifadəsi alınan şəxs barəsində anket məlumatlar müstəntiqə məlum olmalıdır. Hətta onun başqa şəxslərlə münasibətləri barədə də müstəntiqdə məlumat olmalıdır. Adətən ilk öncə şəxsə maraq kəsb edən faktlar barəsində məlumat verməsi təklif olunur. Söhbət əsnasında müstəntiq tədricən özünə lazım olan faktlar barədə suallar verir. İfadə alınarkən şəxsə müəyyən sənədlər də təqdim oluna bilər. Bu o zaman edilir ki, müstəntiq şəxsin həmin sənədlər barədə hər hansı zəruri məlumat verə biləcəyini ehtimal edir. Lakin bu zaman diqqətli olmaq lazımdır ki, həmin sənədlərin təqdim olunmasından sonra ifadə verən şəxs cinayətin artıq açılmaq ərəfəsində olması barədə duyuq düşməsin. Ümumiyyətlə, ifadə alınması üçün çağırılmış şəxs müstəntiqin əlində olan ilkin materiallarla, o cümlədən digər şəxslərin ifadələri ilə tanış edilməməlidir.[2]

Zərərçəkmiş şəxs cinayət işinin nəticəsində maraqlı olduğu üçün onun ifadələri qiymətləndirilərkən qeyd olunan hal nəzərə alınmalıdır. Digər tərəfdən onun ifadələrinin

---

[1] В.В. Степанов. Предварительная проверка первичных материалов о преступлениях. Саратов, 1972. Стр 82.

[2] С.Н. Бодолова, S. В.А.Образчов, А.А.Тротасевич, Т.Й. Рзаев, А.А. Топорков. Следственные действия. Москва, 1999. стр. 152

formalaşmasına cinayət törədilən zaman keçirdiyi qorxu və s. hisslər öz təsirini göstərir. Ehtimallara və fərziyyələrə əsaslanan ifadələr sübut kimi qəbul edilə bilməz.

Şəxslər ifadə alınması üçün istintaq orqanına çağırış vərəqəsi göndərilməklə dəvət olunur. Şəxsin məcburi çağırışlara üzürlü səbəb olmadan gəlməməsi və ya çağırışları almaqdan boyun qaçırması kimi hallarda onun prosessual hərəkətlərin aparılmasında məcburi iştirakını təmin etmək üçün məcburi gətirilmə tətbiq edilir.[1]

Şəxslərdən ifadənin alınması dindirmə protokolu ilə rəsmiləşdirilir. İfadənin alınma prosesi başa çatdıqdan sonra müstəntiq dindirilən şəxsi protokolla tanış edir. Protokol müstəntiq və ifadəsi alınan şəxs tərəfindən onun axırında, habelə ifadə verən şəxs tərəfindən əlavə olaraq onun hər səhifəsində imzalanır.

Beləliklə, ilkin yoxlama zamanı prosessual əhəmiyyət kəsb edən başlanğıc məlumatların əldə olunmasından ötrü həyata keçirilən prosessual hərəkətlərin əhəmiyyətini nəzərə alaraq deyə bilərik ki, bu institutun nəzəri və qanunvericilik əsaslarının təkmilləşdirilməsinə zərurət vardır. Çünki, qeyd olunan prosessual hərəkətlərin tətbiqi zamanı hər hansı çatışmazlıq əldə edilən məlumatların qanuniliyini və əsaslılığını şübhə altına ala və istintaqın sonrakı gedişatında problemlərə səbəb ola bilər.

---

[1] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2018. səh.221

## 2.3. Təhqiqat orqanlarının təhqiqatçıları tərəfindən cinayət işinin başlanmasının xüsusiyyətləri.

**Cinayət işinin başlanması mərhələsində həyata keçirilən hərəkətlərin ümumi qaydası** - CPM-in 46-ci maddəsinə müvafiq olaraq cinayət işinin başlanması üçün müvafiq səbəb və əsaslar olduqda, təhqiqatçı cinayət işi başlayır və bu haqda prosessual qərar qəbul edir. Bu qayda ictimai ittiham və ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlərə aid edilir. Təhqiqat orqanları və təhqiqatçılar törədilmiş və ya hazırlanan cinayətlər haqqında istənilən məlumatları qəbul etməlidirlər. Bu onların vəzifəsidir. Lakin cinayət işinin başlanması məsələsində yalnız aidiyyəti olan cinayətlər üzrə cinayət işi başlamağa səlahiyyətlidirlər.

Təhqiqatın aidiyyəti növ aidiyyəti və ərazi aidiyyəti üsulları ilə müəyyən edilir.

Növ aidiyyətinə əsasən, CPM-in 214.4-cü maddəsində sadalanmış cinayət əməllərinin əksəriyyəti üzrə təhqiqat daxili işlər (polis) orqanlarının təhqiqatçılarının səlahiyyətinə aid edilmişdir (AR Prezidentinin 25 avqust 2000-ci il tarixli 387 saylı Fərmanının 3-cü bəndinin 2-ci abzası).

Ərazi aidiyyətinə əsasən, CPM-in 214.4-cü maddəsində sadalanmış əməllər CPM-in 214.2.2-ci maddəsində sadalanmış təsisatların (hərbi hissə və idarələrin, cəzaçəkmə müəssisələrinin, həbsdə saxlama yerlərinin, dəniz gəmilərinin) ərazisində törədildikdə, təhqiqatı həmin maddədə göstərilmiş təhqiqatçı səlahiyyətini həyata keçirən

şəxslər (hərbi hissə komandiri, hərbi idarə rəisi, cəzaçəkmə müəssisəsinin və ya həbsdə saxlama yerinin rəisi, dəniz gəmisinin kapitanı və ya digər müvəkkil edilmiş şəxs) aparırlar.

Təhqiqatın aidiyyəti ilə bağlı mübahisə yarandıqda ərazi aidiyyətinə üstünlük verilməlidir.

*Cinayət işinin başlanması haqqında qərarın forma və məzmunu.* CPM-in 210.2-ci maddəsinə görə cinayət işinin başlanması barədə qərarda aşağıdakılar göstərilməlidir:

1. qərarın çıxarıldığı tarix, vaxt və yer;
2. qərarı çıxarmış şəxsin soyadı, adı və atasının adı, vəzifəsi;
3. cinayət işinin başlanmasına səbəb, əsas və ya fakt;
4. cinayət işinin başlanmasına dair cinayəti nəzərdə tutan cinayət qanununun maddəsi;
5. cinayət işinin başlanmasından sonra onun ibtidai araşdırılma aparılması üçün icraata götürülməsi və ya verilməsi.

AR CPM-nə əsasən cinayət işinin başlanması haqqında qərar qəbul edilir.

Cinayət işinin başlanması haqqında məsələnin həllində iki variant mümkündür: 1) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması məqsədilə cinayət işinin başlanması; 2) cinayət təqibinin həyata keçirilməsi üçün səbəb və əsaslar olduqda, şikayətin daxil olduğu vaxtdan 24 saatdan gec olmayaraq cinayət təqibi üzrə sadələşdirilmiş icraat açmaq.

Birinci variant üzrə təhqiqatçı müstəqil şəkildə cinayət işinin başlanması haqqında qərar qəbul edir və bu qərarı

razılaşdırmağa ehtiyac yoxdur. İkinci variantda isə təhqiqatçı cinayət işinin başlanmasına dair qərar qəbul etmir, yazılı şikayətə və ya şifahi şikayətin qəbul edilməsi barədə protokola dərkənar qoymaqla cinayət təqibinə başlamış olur.

Cinayət işinin başlanması barədə qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir (CPM-in 210.4-cü mad.). Cinayət işinin başlanmasından sonra təhqiqatçı prokuroru cinayət işinin başlanması haqqında məlumatlandırmaqla cinayət işi üzrə təhqiqat aparır (CPM-in 210.6.3-cü mad.).

Statistikaya nəzər saldıqda müxtəlif illərdə (2010, 2011, 2012, 2013-cü illər) cinayət işlərinin başlanması və açılma faizi real rəqəmlər vasitəsilə aydın şəkildə görmək olar:

•2010-cu ildə 4621 cinayət faktı qeydə alınıb, onlardan 4040 cinayət faktının üstü açılıb, açılma faizi 90% təşkil edir;

•2011-ci ildə 4795 cinayət faktı qeydə alınıb, 3916 cinayət faktının üstü açılıb, açılma faizi 85,5% təşkil edir. Bu cinayətlərin 27-i xarici ölkə vətəndaşları, 525-i qadınlar, 277-i əvvəllər məhkum olunmuş şəxslər, 205-nin isə sərxoş vəziyyətdə olan şəxslər tərəfindən törədildiyi qeyd olunur;

•2012-ci ildə 8763 cinayət hadisəsi qeydə alınıb, 7816 cinayətin üstü açılıb, açılma faizi 90,7% təşkil edir;

•2013-cü ildə 6774 cinayət faktı qeydə alınıb, açılma faizi 88,8% təşkil edir. Bu cinayətlərin 36-ı xarici ölkə vətəndaşları tərəfindən, 396-ı qadınlar tərəfindən, 127-i yetkinlik yaşına catmayanlar tərəfindən, 385-i əvvəllər

məhkum olunmuş şəxslər tərəfindən, 245-i isə sərxoş vəziyyətdə olan şəxslər tərəfindən törədilib.

Xüsusi ittiham qaydasında həyata keçirilən cinayət təqibi dedikdə, cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində birbaşa ziyan vurulmuş zərər çəkmiş şəxsin şikayəti əsasında AR CM-in 147-ci (böhtan), 148-ci (təhqir), 165.1-ci (tövsifedici əlamətlər olmadan müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma) və 166.1-ci (tövsifedici əlamətlər olmadan ixtiraçılıq və patent hüquqlarını pozma) maddələrində nəzərdə tutulmuş cinayətlər üzrə həyata keçirilən cinayət təqibi başa düşülür. Xüsusi ittiham qaydasında şikayətə baxılması zamanı məhkəmə müşavirə otağına gedənədək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda cinayət təqibinə xitam verilir. Xüsusi ittiham qaydasında cinayət təqibini təsbit edən qanunverici zərər çəkmiş şəxsə imkan verir ki, yuxarıda qeyd olunmuş cinayət əməlləri ilə onun hüquqlarına və qanuni maraqlarına zərər toxunduğu halda təqsirkar şəxsin cinayət məsuliyyətinə cəlb olunması üçün ədalət mühakiməsi orqanına müraciət etməyi, habelə xüsusi ittihamı müdafiə etməyi özü həll etsin. Ona görə də bu işlər xüsusi ittihamlı işlər adlanır.

Xüsusi ittihamlı işlər üzrə cinayət təqibi şəxsi cinayət məsuliyyətinə cəlb etmək barədə zərərçəkmiş şəxsin məhkəməyə şikayət verməsi yolu ilə başlanır. Zərərçəkmiş şəxs tərəfindən məhkəməyə verilən ərizəyə qoyulan tələblər CPM-in 293.3-cü maddəsində olduğu kimidir. Şikayət şifahi olduqda bu barədə protokol tərtib edilir və həmin protokol şikayəti verən şəxs və həmin protokolu tərtib edən vəzifəli

şəxs tərəfindən imzalanır. Təhqiqatçı xüsusi ittiham qaydasında təqib edilən cinayətlər haqqında zərər çəkmiş şəxslərin şikayətlərini məhkəmə aidiyyəti üzrə birinci instansiya məhkəməsinə göndərməlidir.

Xüsusi ittihamlı işlər üzrə məhkəmə xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsi və məhkəmə baxışının təyin edilməsi barədə qərar çıxaranadək şikayət vermiş zərərçəkmiş şəxsə barışmaq hüququ olduğunu izah edir. Lakin bu halda heç bir təsirə yol verilə bilməz və barışıq könüllü xarakter daşımalıdır. Əgər barışıq olmazsa, onda məhkəmə şikayətin məhkəmədə baxılması üçün kifayət qədər əsaslar olduğu qənaətinə gəldikdə hazırlıq iclasının yekununda xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsi və məhkəmə baxışının təyin edilməsi barədə qərar çıxarır. Qərarın surətini aldığı andan barəsində şikayət verilmiş şəxs təqsirləndirilən şəxs hesab olunur.

## 2.4. Cinayət işləri üzrə təhqiqatın aparılmasını isitisna edən hallar.

**Cinayət işinin başlanmasının rədd edilməsinin əsasları və qaydası** - AR CPM-in 39-cu maddəsi cinayət təqibi başlanmasının rədd edilməsi, habelə başlanmış cinayət təqibinə xitam verilməsi hallarını müəyyən edir.

CPM-in 40-cı maddəsində cinayət təqibinə xitam verilməsinin başqa halları da nəzərdə tutulmuşdur. Həmin hallar aşkar olunduqda təhqiqatçı cinayət təqibini başlamaya və ya ona xitam verə bilər. Təhqiqatçının bu haqda müvafiq

qərarı prokurorla razılaşdırıldıqdan sonra qəbul olunur (CPM-in 40.2-ci mad.).

Təhqiqatçı tərəfindən cinayət təqibini başlama haqqında məsələ həll edilərkən daxil olmuş materialların yoxlanması zamanı cinayət təqibini istisna edən halların aşkar edilməsi cinayət təqibini başlamanın rədd edilməsinə, gedişat zamanı aşkar olunduqda isə cinayət təqibinə xitam verilməsinə səbəb olur.

Beləliklə, cinayət işi aşağıdakı hallarda başlanıla bilməz:

1) cinayət hadisəsinin olmaması, cinayət təqibi başlanması üçün faktın (hadisənin) olmaması, yəni ictimai-təhlükəli hərəkət və hərəkətsizliyin həqiqətdə mövcud olmaması kimi başa düşülməlidir;

2) cinayət tərkibinin əlamətlərinin mövcud olmaması cinayət təqibini istisna edir.

Cinayətin subyektinin, subyektivcəhətinin, obyekti-nin və obyektiv cəhətinin zəruri əlamətlərindən hər hansı birinin olmaması əməldə cinayət tərkibi olmasını aradan qaldırır. Bu cür hallarda törədilmiş əməl cinayət xarakterli olmadığına görə onu törədən şəxslər barəsində cinayət təqibi başlana bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir;

3) cinayət məsuliyyətinə cəlb etmə müddətləri AR CM-in 75-ci maddəsində müəyyən edilmişdir. Həmin maddəyə əsasən: 1) böyük ictimai təhlükə törətməyən cinayətin törədildiyi gündən iki il keçdikdə; 2) az ağır cinayətin törədildiyi gündən yeddi il keçdikdə; 3) ağır cinayətin törədildiyi gündən on iki il keçdikdə; 4) xüsusilə ağır

cinayətin törədildiyi gündən on beş il keçdikdə şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Burada nəzərə alınmalıdır ki, təhqiqatçı böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə təhqiqat aparmaq səlahiyyətinə malikdir;

4) cinayət əməlinin baş verdiyi anda onu törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmaması cinayət təqibini istisna edən müstəqil əsasdır. AR CM-in 20-ci maddəsinə əsasən, cinayət törədənədək on altı yaşı, bəzi cinayətlər üzrə isə on dörd yaşı tamam olmuş şəxslər cinayət məsuliyyətinə cəlb edilə bilərlər. Cinayət əməlini törədərkən cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs barəsində heç bir halda cinayət təqibi başlana bilməz;

5) şəxs cinayət əməli törətdikdən sonra öldükdə, cinayət təqibi başlana bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir. Lakin ölmüş şəxsə bəraət verilməsinin zəruri olduğu hallarda, həmin şəxs barəsində cinayət təqibi üzrə icraat həyata keçirilə bilər;

6) şəxs barəsində eyni ittiham üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya məhkəmənin cinayət təqibini qeyri-mümkün edən ləğv edilməmiş digər qərarı preyudisiallığa malik olduğundan cinayət təqibini istisna edən xüsusi hal hesab edilir;

7) şəxs barəsində eyni ittiham üzrə təhqiqatçının, müstəntiqin və ya prokurorun (o cümlədən xarici dövlətin cinayət təqibi orqanının) cinayət işi başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında ləğv edilməmiş

qərarı preyudisiallığa malik olduğundan cinayət təqibini istisna edən hal hesab edilir;

8) zərərçəkmiş şəxsin şikayəti olmadıqda (cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildikdə, habelə prokurorun təşəbbüsü olmadığı halda cinayət təqibi ictimai-xüsusi ittiham qaydasında həyata keçirildikdə);

9) zərərçəkmiş şəxslə təqsirləndirilən şəxs barışdıqda (cinayət təqibi yalnız xüsusi ittiham qaydasında həyata keçirildikdə);

10) şəxs cinayət əməlini anlaqsız vəziyyətdə törətdikdə (bu şəxslərə qarşı tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi halları istisna olunmaqla);

11) cinayət qanunu müddəalarının qüvvəsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsaslar olduqda;

12) amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda.

CPM-in 40-cı maddəsinə müvafiq olaraq şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün AR CM-in 72, 73.1, 73-1.3 və 74-cü maddələrində nəzərdə tutulmuş hallarda təhqiqatçının *prokurorla razılaşdırılmış qərarına* əsasən cinayət təqibi başlanılmaya və ya ona xitam verilə bilər:

- səmimi peşmanlıq çəkdikdə;
- zərərçəkmiş şəxslə barışdıqda;
- şərait dəyişdikdə.

Cinayət işinin başlanmasının rədd edilməsinin mahiyyət - cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın çıxarılması ilə (həmin qərar ləğv edilmədiyi hallarda) cinayət mühakimə icraatı başa çatmış olur. Belə qərarın

qəbul edilməsinin ardınca CPM-ə müvafiq olaraq aparılan sənədləşdirmə - cinayət-prosessual hərəkətlər, istintaq hərəkətləri, o cümlədən prosessual məcburiyyət tədbirləri və qətimkan tədbirləri ilə bağlı aparılan icraat başa çatır.

Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın forma və məzmunu - cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olduğu və ya əsasın olmadığı halda təhqiqatçı və ya müstəntiq cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar çıxarır. Qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, habelə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə göndərilir.

Təhqiqatçının cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarından müvafiq olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, yuxarı prokurora, yaxud məhkəməyə şikayət verilə bilər.

Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın çıxarılması şərtləri aşağıdakılardır: a) cinayət işinin başlanması üçün səbəblər qanunsuz olmalıdır; b) cinayət işinin başlanması üçün əsas olmamalıdır, yəni cinayət təqibini istisna edən hallardan hər hansı biri mövcud olmalıdır (CPM-in 39 və 40-cı mad.).

Cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olması dedikdə, törədilmiş, törədilməkdə olan və ya hazırlanan cinayət haqqında imzalanmamış, saxta imza ilə imzalanmış, uydurma fiziki (hüquqi və ya vəzifəli) şəxs adından yazılmış ərizənin, yaxud digər anonim məlumatın

daxil olması, habelə cinayətin əlamətləri haqqında ərizədə və məlumatlarda əks olunmuş faktiki halların həqiqətə uyğun olmaması başa düşülür.

Cinayət işinin başlanması üçün *əsasın olmaması dedikdə*, cinayət haqqında məlumatda cinayətin törədilməsini təsdiq edən kifayət qədər dəlillərin (cinayət təqibini istisna edən CPM-in 39-cu maddəsində nəzərdə tutulan 12 hal) olmaması başa düşülür.

Rədd qərarı əsaslandırılmalıdır. Qərarda cinayət işinin başlanması üçün əsasların olmamasını müəyyən edən hallar göstərilməlidir. Başqa sözlə, cinayət işinin başlanmasının rədd edilməsi üçün əsasların olması haqqında təhqiqatçının gəldiyi nəticə konkret dəlillərlə təsdiq edilməlidir.

Rədd qərarı hüquqlarına və maraqlarına toxunduğu bütün şəxslər müvafiq qərarla və cinayət haqqında məlumatın ilkin yoxlanılmasına (CPM-in 212-ci mad.) dair materiallarla tanış olmaq hüququna malikdirlər. Təhqiqatçı sadalanan şəxslərin məlumatın ilkin yoxlanılması materialları ilə tanış olmalarını təmin etməlidir. Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar (ləğv edilməmişdirsə) preyudisiallıq əhəmiyytinə malikdir.

Belə qərar gələcəkdə konkret şəxs barəsində eyni ittihamla əlaqədar cinayət təqibi (cinayət işi) üzrə icraatın xitam edilməsi üçün əsas kimi çıxış edir (CPM-in 39.1.7 və 65-ci mad.).

## 2.5. Təhqiqat orqanları və təhqiqatçılar tərəfindən cinayət haqqında ərizələrin (məlumatların) istintaq və məhkəmə aidiyyəti üzrə göndərilməsi.

CPM-in 207.5.3-cü maddəsinə müvafiq olaraq təhqiqatçı cinayət haqqında məlumatlar aldıqda məlumatı istintaq aidiyyəti üzrə, xüsusi ittiham qaydasında təqib olunan cinayətə dair məlumatı isə məhkəmə aidiyyəti üzrə göndərməlidir.

Təhqiqatçı cinayət işini başlamadan cinayət haqqında məlumatı aşağıdakı istintaq aidiyyəti üzrə göndərə bilər:

1) həmin cinayətin araşdırılması onun səlahiyyətinə aid olmadıqda;

2) cinayət onun fəaliyyət dairəsinin hüdudlarından kənar ərazidə törədildikdə.

Təhqiqatçı xüsusi ittiham qaydasında təqib edilən cinayətlər haqqında zərər çəkmiş şəxslərin şikayətlərini məhkəmə aidiyyəti üzrə birinci instansiya məhkəməsinə göndərməlidir.

Cinayət haqqında məlumatın istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, habelə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə göndərilir.

Törədilmiş, törədilməkdə olan və ya hazırlanan cinayət haqqında məlumat istintaq və ya məhkəmə aidiyyəti

üzrə cinayət işi başlamadan, yaxud cinayət işi başlandıqdan sonra göndərilə bilər.

Cinayət haqqında məlumat o halda istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərilir ki, həmin məlumat qəbul edilərək qeydiyyatdan keçirilsin və yoxlama nəticəsində həmin cinayətin araşdırılmasının başqa orqanın (istintaq və ya məhkəmə orqanının) səlahiyyətinə aid olduğu müəyyən edilsin. Bu halda təhqiqatçı cinayət işi başlamadan müvafiq məlumatı istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərməlidir.

Cinayət haqqında məlumat cinayət işi başlamadan istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərildikdə, həmin məlumat uçotdan çıxarılır və bu barədə qeydiyyat sənədində (qeydiyyat-nəzarət vərəqə-lərində) müvafiq qeyd aparılır. Cinayət haqqında məlumat istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərildikdə, göndərilən istintaq orqanında və ya məhkəmədə təkrar qəbul edilərək qeydiyyata alınmalı və CPM-lə müəyyən edilmiş qaydada yoxlanılmalıdır. Məlumatın təkrar yoxlanılması zamanı cinayət işinin başlanması (CPM-in 207.5.1-ci mad.), yaxud cinayət işinin başlanmasının rədd edilməsi (CPM-in 207.5.2-ci mad.) haqqında iki qərardan biri qəbul edilməlidir. Cinayət haqqında məlumatı və ya başlanılmış cinayət işini istintaq aidiyyəti üzrə almış təhqiqatçı CPM-in 207, 209 və 210-cu maddəsinin tələblərinə uyğun tədbirlər görməlidirlər.

Cinayət haqqında məlumat üzrə cinayət işinin başlanması anında cinayətin törədildiyi yerin, cinayətin tövsifinin dəqiq müəyyən edilmədiyi və s. səbəblərdən aidiyyəti müəyyən etmək mümkün olmadıqda, təhqiqatçı

CPM-lə onlar üçün müəyyənləşdirilmiş növ aidiyyəti üzrə cinayəti təxmini tövsif etməklə cinayət işinin başlanması haqqında qərar çıxarmalıdır. Bundan sonra təhqiqatçı təxirəsalınmaz istintaq və digər prosessual hərəkətləri həyata keçirdikdən sonra aidiyyəti dəqiq müəyyən etməklə cinayət işini aidiyyəti üzrə göndərməlidir.

Əgər məlumatın (ərizənin) ilkin yoxlanması zamanı müəyyən edilsə ki, cinayət xüsusi ittiham qaydasında təqib olunan cinayətdir, təhqiqatçı CPM-in şərh olunan 213.3-cü maddəsinə uyğun olaraq həmin ərizəni (zərərçəkmiş (cinayət-hüquqi mənada) şəxsin şikayətini) məhkəmə aidiyyəti üzrə göndərməlidir.

Cinayət haqqında məlumat cinayət işi başlamadan aidiyyət üzrə göndərildikdə təhqiqatçı tərəfindən cinayətin izlərinin qorunub saxlanılması üçün hadisə yerinə baxış və digər prosessual qeyri-məcburiyyət tədbirləri həyata keçirilməlidir.

Cinayət haqqında məlumatda cinayətin əlamətlərini göstərən kifayət qədər dəlillər (cinayət işinin başlanması üçün əsaslar) varsa və cinayətin izlərinin, cinayət işi üzrə sübut əhəmiyyəti kəsb edən sənədlərin, əşyaların və məlumatların, o cümlədən cinayət törətmiş şəxsin qaçıb gizlənməsinin, cinayət yolu ilə əldə edilmiş əmlakın özgəninkiləşdirilməsinin, məhv edilməsinin və s. qarşısının alınması zərurəti yaranarsa, təhqiqatçı dərhal cinayət işinin başlanması haqqında qərar çıxarmalı və CPM-in 86.4.2-ci maddəsində göstərilmiş təxirəsalınmaz istintaq hərəkətlərini həyata keçirməlidir. Bundan sonra cinayət haqqında

məlumat toplanmış materiallarla birlikdə istintaq aidiyyəti üzrə göndərilməlidir.

CPM-in 213.2-ci maddəsinə görə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror yalnız *iki halda* cinayət işi başlamadan cinayət haqqında məlumatı istintaq aidiyyəti üzrə göndərir: a) məlumatda göstərilmiş cinayət onun fəaliyyət dairəsinin hüdudlarından kənarda törədildikdə; b) cinayət işinin başlanması haqqında məsələnin həll edilməsi ilə əlaqədar cinayətin törədildiyi yer üzrə yoxlama hərəkətlərinin aparılması zərurəti olduqda.

Sonuncu halda cinayət prokurorun fəaliyyət dairəsinin hüdudları daxilində törədilsə də, cinayət işinin başlaması haqqında məsələnin həlli üçün yoxlama hərəkətlərinin aparılması zəruri olduğundan cinayət haqqında məlumat cinayətin törədildiyi yer üzrə istintaq orqanına göndərilə bilər.

Cinayət haqqında məlumatın istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qərarın surəti, həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, habelə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə göndərilməlidir.

## 2.6. Cinayət xarakterli ərizə və məlumatlarla əlaqədar təhqiqatçı tərəfindən qəbul edilən qərarlar.

AR CPM-in 207.5-ci maddəsinə müvafiq olaraq, təhqiqatçı cinayət xarakterli ərizə və məlumatlar alındığı hər bir halda aşağıdakı qərarlardan birini qəbl etməlidir:

1) cinayət işi başlamaq;
2) cinayət işinin başlanmasını rədd etmək;
3) məlumatı istintaq aidiyyəti üzrə göndərmək;
4) xüsusi ittiham qaydasında təqib olunan cinayətə dair məlumatı məhkəmə aidiyyəti üzrə göndərmək.

Təhqiqatçı yuxarıda sadalanan 4 (dörd) qərardan əlavə DİN-in 03 noyabr 2011-ci il tarixli 680 nömrəli əmrinin 4.3-cü bəndinə əsasən daha 2 (iki) qərar qəbul etmək sılahiyyətinə malikdir. Bu qərarlar:

1) məhkəməyədək sadələşdirilmiş icraat açmaq;
2) məhkəməyədək sadələşdirilmiş icraat açılmasından imtina barədə qərar qəbul etmək.

AR CPM-in 294-cü maddəsində təhqiqatçı tərəfindən böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayətə dair qəbul edilən qərarlar göstərilir. Təhqiqatçı daxil omuş yazılı və şifahi şikayətin qəbul edilməsi barədə protokola dərkənar qoymaqla, 24 saatdan gec olmayaraq cinayət təqibi üzrə məhkəməyədək sadələşdirilmiş icraat açmaq məsələsini həll edir.

Cinayət təqibinin həyata keçirilməsi üçün səbəb və əsasların olmaması qənaətinə gəldikdə, şikayətin daxil olduğu vaxtdan gec olmayaraq qəbul edilmiş qərarın əsaslarını göstərməklə cinayət təqibi üzrə məhkəməyədək

sadələşdirilmiş icraat açılmasından imtina barədə qərar qəbul edilir.

Təhqiqatçı böyük ictimai təhlükə törətməyən aşkar cinayət dair daxil olmuş şikayətin məhkəmə aidiyyati və ya istintaq aidiyyatı üzrə göndərilməsi qənaətinə gəldiyi halda bu məsələni 24 saat müddətində həyata keçirməlidir. Belə nəticə hasil olur ki, təhqiqatçı böyük ictimai təhlükə törətməyən cinayətlər məlumatların həll edilməsi barədə qərarları 24 saat ərzində qəbul etməlidir (CPM-in 294.1.2 - 294.1.4-cü mad.).

Müvafiq qərarların qəbulu bu, cinayət xarakterli ərizə və məlumatlarla əlaqədar aparılmış ilkin yoxlama hərəkətlərinin nəticəsini özündə əks etdirən prosessual sənəddir.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətə dair məhkəməyədək sadələşdirilmiş icraatın açılması barədə qəbul edilən qərar cinayət təqibini həyata keçirən orqanların fəaliyyətinin əsas və məsuliyyətli anını təşkil edir. Məhkəməyədək sadələşdirimiş icraatın açılması barədə çıxarılan qərar öz hüquqi mahiyyətinə görə təhqiqatçının sadələşdirilmiş icraatın formasında ibtidai araşdırma aparmasını və cinayət təqibinin həyata keçirilməsinin davamı kimi başa düşülür. Vaxtında və düzgün olaraq məhkəməyədək sadələşdirilmiş icraatın açılması barədə qəbul edilən qərar vətəndaşların konstitusiya ilə nəzərdə tutulan hüquq və azadlıqlarının təmin edilməsinə xidmət etmiş olur. Həmçinin, cinayət mühakimə icraatının vəzifələrinin həyata keçirmək mümkün olur.

Məhkəməyədək sadələşdirimiş icraat barədə qərar vaxtında çixarılmalıdır. Böyük ictimai təhlükə cinayətlər üzrə 24 saat müddətində, törədilmiş və ya hazıranan cinayətlər barədə 3 (üç) gün, müstəsna hallarda 10 (on) gün, ekspert rəyinin alınması ilə əlqədar olan işlər üzrə isə 30 (otuz) gündən gec olmayaraq qərar qəbul edilməlidir.

A.Teymurov qeyd edir ki, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın 10 (on) günlük və ya 20 (iyirmi) günlük müddətinin sadələşdirilmiş icraatın açıldığı andan hesablanması daha düzgündür, çünki daxil olmuş şikayətə baxılması zamanı həmin şikayət üzrə sadələşdirilmiş icraatın açılmasından imtina oluna, yaxud da şikayət istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərilə bilər. Fikrimizcə, bu məsələdə A.Teymurovun mövqeyi ilə razılaşmaq olar.[1]

Cinayət xarakterli ərizə və məlumata baxan təhqiqatçı səlahiyyəti daxilində cinayət işi başlamaq hüququna malikdir. Prosessual qaydada bu məsələ qərarın çıxarılması ilə rəsmiləşdirilməlidir.

Cinayət işinin başlanması haqda qəbul edilən qərara qoyulan prosessual tələblər CPM-in 210.2-ci maddəsində göstərilmişdir. Qərar üç hissədən ibarət olur: giriş, təsviri-əsaslandırıcı və nəticəvi hissədən. Cinayət işinin başlanması haqda qərarda aşağıdakılar göstərilməlidir:

- cinayət işinin başlanmsına səbəb, əsas və ya fakt;
- cinayət işinin başlanmasına dair cinayəti nəzərdə tutan cinayət qanunun maddəsi;

[1] Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri. Bakı, "Hüquq Yayın evi" 2015, s.71.

- cinayət işinin başlanmasından sonra ibtidai araşdırılma aparılması üçün icraata götürülməsi və ya aidiyyəti üzrə verilməsi.

Cinayət işinin başlanması anında cinayətin törədilməsindən zərər çəkmiş şəxs məlum olduqda cinayət işinin başlanması ilə eyni vaxtda həmin şəxs zərər çəkmiş şəxs kimi tanınır. Cinayətin törədilməsi barədə məlumatla birlikdə mülki iddia verildikdə, həmin şəxs qərarda həmçinin mülki iddiaçı kimi tanınır.

Cinayət işinin başlanması barədə qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

Cinayət işinin başlanması ilə eyni vaxtda davam edən və təkrar cinayətlərin qarşısının alınması, habelə cinayətin izlərinin iş üçün əhəmiyyətli ola biləcək əşya və sənədlərin saxlanılması və mühafizəsi üçün tədbirlər görülməlidir.

Təhqiqatçı böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayət vermiş şəxsə onun şikayəti üzrə məhkəməyədək sadələşdirilmiş icraatın açılması barədə yazılı məlumat verməlidir (CPM-in 294.4.1-ci mad.) Məhkəməyədək sadələşdirilmiş icraat açılmasından imtina barədə qərar çıxarıldıqda 3 (gün) müddətində qəbul edilmiş qərarın surəti şikayət vermiş şəxsə təqdim edilir və ya poçtla göndərilir (CPM-in 294.4.2-ci mad.)

Cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olduğu və ya əsasın olmadığı halda təhqiqatçı cinayət işinin

başlanmasının rədd edilməsi haqqında qərar çıxarır (CPM-in 212-ci mad.).

Cinayət işinin başlanmasının rədd edilməsi haqda qərar aşağıdakı hallarada çıxarılır:

1) cinayət işinin başlanmasına səbəblər qanunsuz olduqda;

2) cinayət işinin başlanmasına əsaslar olmadıqda;

3) yoxlama zamanı müəyyən edilmiş hallar cinayət işinin başlanmasına ziddiyyətlər yaradarsa.

Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın surəti ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə göndərilir.

Təhqiqatçının cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarından müvafiq olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, yuxarı prokurora, yaxud məhkəməyə şikayət verilə bilər.

Cinayət işinin başlanmasının rədd edilməsi haqqında çıxarılmış qərardan verilmiş şikayət üzrə aşağıdakı hərəkətlər yerinə yetirilir:

1) ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokuror göstərilən qərarı ləğv edir, 10 (on) gündən artıq olmayan müddətə əlavə yoxlmam keçirilməklə və yaxud keçirilməməklə, cinayət işinin başlanmsı haqqında qərar qəbul edir və onu ibtidai itintaqın aparılması üçün müstəntiqə göndərilir, yaxud cinayət işinin başlanmasının rədd edilməsi haqqında çıxarılmış qərarı dəyişdirilmədən saxlayır;

2) məhkəmə nəzarəti funksiyalarını həyata keçirən məhkəmə, göstərilən qərarı ləğv edir və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun diqqətini cinayətlər haqqında məlumatlara baxılma qaydası (207-ci mad.), cinayət işinin fakt üzrə dərhal başlanması qaydalarına (209-cu mad.) və cinayət işinin başlanması qaydasına cəlb etməklə (210-cu mad) bu tələblərin yerinə yetirilməsinin təmin edilməsi barədə qərar qəbul edir, yaxud cinayət işinin başlanmsının rədd edilməsi haqqında çıxarılmış qərarı dəyişdirilmədən saxlayır.

Məlum olduğu kimi, təhqiqatçının böyük ictimai təhlükə törətməyən cinayət üzrə şikayətə dair qəbul etdiyi qərarlardan biri də məhkəməyədək sadələşdirilmiş icraat açılmasından imtina barədə qərardır. Qüvvədə olan qanunvericiliyin tələbinə görə CPM-in 39-cu maddəsində ("Cinayət təqibini istisna edən hallar") göstərilən 12 haldan hər hansı birinin mövcud olmaması qənaətinə gəldikdə, icraatın başlanmasından imtina barədə qərar qəbul etmək hüququna malikdir. Belə tələb CPM-in 38-ci maddəsinin məzmunundan irəli gəlir.

Cinayət-prosessual qanunvericilik tələb edir ki, cinayət təqibi cinayət məsuliyyətini istisna edən hallar aşkar edilənədək həyata keçirilməlidir (CPM-in 38.4-cü mad). Qanunun 7.0.4-cü maddəsində cinayət təqibinə verilən anlayışdan məlum olur ki, cinayət təqibi cinayət hadisəsinin müəyyən edilməsi məqsədi ilə həyata keçirilən cinayət-prosessual fəaliyyətdir. Bu səbəbdən Qanunun 40-cı maddəsində cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallaradan biri kimi şəxsin cinayət məsuliyyətindən və

cəzadan azad edilməsi üçün cinayət qanununda göstərilən əsaslar hesab olunur. Bu əsaslar Cinayət Məcəlləsinin 72-74-cü maddələrində "Cinayət məsuliyyətindən və cəzadan azad etmə" fəslində göstərilir. CPM-in 40-cı maddəsinə müvafiq olaraq, aşağıdakı hallarda təhqiqatçının prokurorla razılaşdırılmış qərarına əsasən cinayət işi başlanılmaya və ya xitam verilməsinə səlahiyyətli olduğunu müəyyən etmək olur. Bunlar:

1) səmimi peşmanlıq çəkdikdə;
2) zərər çəkmiş şəxslə barışdıqda;
3) şərait dəyişdikdə.

Cinayət qanununda göstərilən bu əsaslar təhqiqatçı tərəfindən cinayət xarakterli ərizə və məlumatın baxılması nəticəsində cinayət-prosessual qanuna əsasən qəbul etdiyi qərarlardan biri hesab edilir.

Qeyd olunduğu kimi, təhqiqatçının böyük ictimai təhlükə törətməyən cinayətlər barədə məlumatlara baxarkən qəbul etdiyi qərarlar sırasına şikayətin məhkəmə aidiyyatı və ya istintaq aidiyyatı üzrə göndərilməsi barədə 24 saat müddətində çıxardığı qərar da aid edilir. Bu zaman təhqiqatçı şikayətlə əlaqədar müvafiq materiallar toplamaqla işin aidiyyatı üzrə göndərilməsi barədə öz qərarını qəbul edir. Təhqiqatçı belə qərar qəbul etdikdən sonra maraqlı şəxslərə məlumat veriri və özündə zəruri qeydiyyatlar aparır.

# Fəsil 3. Təhqiqatın növləri.

## 3.1. Təhqiqatın növlərinin anlayışı və əhəmiyyəti.

AR CPM-nin 214-cü maddəsində təhqiqatın iki növü göstərilir:

- ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı;
- böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Təhqiqat cinayət prosessual hüququn müstəqil institutudur. Təhqiqat cinayət prosesində ibtidai araşdırmanın ibtidai istintaqa nisbətən daha sadə formasıdır. S.X.Aslanov yazır: "Təhqiqat ibtidai araşdırmanın ilk mərhələsidir". Bu mərhələdə təhqiqatçı cinayətin izlərinin müəyyən edilməsi, cinayətin "isti izlərlə" açılmasının təmin edilməsi, hadisə yerinin mühafizəsi və müayinə edilməsi üçün tədbirlər görülməsi, hadisənin bilavasitə şahidlərin dairəsini dəqiqləşdirməklə izahatlarının, yaxud ifadələrinin alınması, maddi sübutların götürülməsi və rəsmiləşdirilməsi məqsədilə təxirəsalınmaz istintaq hərəkətlərinin və digər prosessual hərəkətlərin aparılmasını təmin edir.[1]

İbtidai araşdırma zamanı təhqiqatçı hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək hüququna malikdir.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində təhqiqatın iki növü fərqləndirilir.

---

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun, 2015, s.82

Birincisi, ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı qaydasında təhqiqatdır.

Qeyd etmək lazımdır ki, cinayət-prosessual qanunvericilikdə təxirəsalınmaz istintaq hərəkətlərindən bəhs edən bir sıra xüsusi normalar mövcuddur. CPM-in 214-cü maddəsində təxirəsalınmaz istintaq hərəkətlərinin bütün hüquqi təbiəti dəqiq müəyyən olunur. Qanunverici onların siyahısı və icraatının bəzi şərtlərini göstərməklə kifayətlənir. Hesab edirik ki, məhz buna görə də cinayət mühakimə icraatında təxirəsalınmaz istintaq hərəkətlərinin anlayışı və əhəmiyyətinin aydınlaşdırılması hüquq elminin vəzifələrindən biri kimi bir daha nəzərdən keçirilməlidir.[1] A.Ə.Teymurovla tam şəkildə razılaşmaq olar ki, hüquq ədəbiyyatında təxirəsalınmaz istintaq hərəkətləri tam və aydın şərh olunmamışdır. Həqiqətən hüquq ədəbiyyatında bu və ya digər istintaq hərəkətinin təxirəsalınmazlıq müvafiq istintaq hərəkətinin icraatının yalnız faktiki tərəfini xarakterizə edən kateqoriya kimi nəzərdən keçirilir. Buradan belə bir ümumi nəticəyə gəlinir ki, cinayət işinin ibtidai araşdırmasının istənilən mərhələsində hər cür istintaq hərəkəti təxirəsalınmaz ola bilər.[2]

M.A.Çeltsov yazır ki, birinci növ təxirəsalınmaz istintaq hərəkəti cinayət törədərək istintaq və məhkəmədən gizlənən, şübhəli şəxsə təsir göstərmək vəzifəsini daşıyır. Bu şübhəli şəxsin tutulmasıdır. İkinci növ təxirəsalınmaz

---

[1] Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri Bakı, “Hüquq Yayın Evi” 2015, s.104

[2] Мальцев Е.Г. О неотложных и первоначальных следственных действиях. Перм, 1966 с.157-158

istintaq hərəkətinə cinayətin izlərinin aşkar olunub qorunması üzrə müxtəlif hərəkətlər aid edilir.[1]

A.Ə.Teymurov haqlı olaraq qeyd edir ki, tutma təkcə istintaq və məhkəmədən gizlənən şübhəli şəxsə təsir göstərməyə yönəlmir. Onun mühüm əhəmiyyəti həm də hazırlanan və törədilən cinayətin qarşısını almaqda ifadə olunur. Təhqiqat orqanı və ya müstəntiqin fəaliyyəti birinci növbədə cinayətin hazırlanması və ya törədilməsinə dair məlumatın alınmasına yönəlməlidir.[2]

Cinayət işinin başlanması üçün əsasların yoxlanılmasını N.V.Joqin və F.N.Fatkullin təxirəsalınmaz istintaq hərəkətlərinin köməyi ilə yerinə yetirilən digər mühüm vəzifə kimi göstərirlər.[3]

Təxirəsalınmaz istintaq hərəkətləri ilə həll edilən əsas vəzifələr aşağıdakılardır:

- hazırlanan və törədilən cinayətin qarşısının alınması;
- cinayət işinin başlanılması üçün əsasların yoxlanılması (hadisə yerinə baxış və ekspetizanın təyin edilməsi);
- cinayətin maddi izlərinin aşkar olunması və rəsmiləşdirilməsi.

Təxirəsalınmaz istintaq hərəkətlərinin məqsədi olmasa da, təxirəsalınmaz istintaq hərəkətlərinin köməyi ilə həll edilən əsas vəzifələrdən başqa, bütünlükdə istintaq hərəkətlərinə aid olan digər vəzifələr də vardır:

---

[1] Чельцов М.А. Советский уголовный процесс. М., 1962. с.248

[2] Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri Bakı, "Hüquq Yayın Evi" 2015, s.113

[3] Жогин Н.В., Фаткуллин Ф.Н. Возбуждение уголовного дела. Госюриздан. М., с.176

- cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin müəyyən edilməsi;

- cinayəti törətmiş şəxsin şəxsiyyətinin öyrənilməsi;

- istintaq aidiyyəti və istintaqın sonrakı istiqamətinin müəyyən edilməsi;

- sübutların toplanması;

- cinayətdə vurulan maddi ziyanın ödənilməsi.

AR.CPM-nin 214.3-cü maddəsinin tələblərinə uyğun olaraq təxirəsalınmaz istintaq hərəkətləri üzrə cinayət işlərinin əlamətləri mövcud olduqda təhqiqat orqanı cinayət işini başlayır və qanunvericiliyi rəhbər tutaraq cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək, habelə cinayət törətmiş şəxsi tapmaq məqsədi ilə əməliyyat-axtarış tədbirləri və təxirəsalınmaz istintaq hərəkətləri aparır.

S.X.Aslanov ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı qaydasında təhqiqatla bağlı yazır ki, təhqiqatın bir növü kimi ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı qaydasında təhqiqat prosessual fəaliyyətdir, ciddi surətdə cinayət prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada, həddə və qanuna uyğun surətdə həyata keçirilir.

Təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqiqat cinayətin izlərinin müəyyən edilməsi və rəsmiləşdirilməsi məqsədilə aparılır. Təhqiqatı bu şəkildə apararkən CPM-in 147, 148, 148-1, 153, 207, 209, 210, 226-232, 234, 236, 238-247, 264, 268-270, 273-276-cı maddələrinin müddəalarına müvafiq olaraq təhqiqatçı:

- cinayət işini başlayır və bu barədə dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir;

- şübhəli şəxsi tutmaq, onun, zərərçəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, müayinə (şəxsi müayinə) və götürmə kimi istintaq hərəkətlərini aparır;

- cinayət işinin başlanmasından sonra 10 gündən gec olmayaraq sonrakı araşdırmanın aparılması üçün cinayət işini istintaq orqanına göndərir;

- cinayət işinin başlanmasından 10 gün keçdikdən sonra müstəntiq və ya ibtidai araşdırmanı həyata keçirən prokurorun tapşırığı ilə ayrı-ayrı istintaq hərəkətlərini aparır və ya əməliyyat-axtarış tədbirlərini həyata keçirir;

- cinayət işinin başlanmasından 10 gün keçdikdən sonra cinayət - açılmamış qalarsa, cinayəti törətmiş şəxsin müəyyən və aşkar edilməsi, tutulması ya - müstəntiqə təhvil verilməsinə dair tədbirlər görür.[1]

Öz səlahiyyətləri daxilində istintaq hərəkətlərini apararkən təhqiqatçı aparılan təhqiqatın növündən asılı olmayaraq müvafiq istintaq hərəkətlərinin keçirilməsi qaydasını nəzərdə tutan CPM-in maddələrinin tələblərinin yerinə yetirilməsini təmin etməklə müstəntiqin hüquqlarından istifadə edir və onun vəzifələrini yerinə yetirir (CPM-in 214.6-cı maddəsi).

Cinayət prosessual qanunvericiliyinə əsasən CPM-də nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı aşağıdakı hüquqları həyata keçirir:

---

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun nəşriyyatı. 2015, səh. 84

- hadisənin şahidlərinin izahatmı almaq, hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək;

- şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə) üzləşdirmə, istintaq eksperimenti kimi təxirəsalınmaz istintaq hərəkətlərini aparmaq;

- dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək; şəxslərin razılığı ilə onları müvafiq istintaq hərəkətlərinə hal şahidi, tərcüməçi, mütəxəssis və ya ekspert qismində cəlb etmək;

- dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək;

- müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

- müdafiəçinin cinayət işinin icraatında iştirakmı istisna edən hallar müəyyən edildikdə, onun cinayət işinin icraatında iştirak etməkdən kənarlaşdırılması barədə prokuror qarşısında vəsatət vermək;

- hal şahidinə, tərcüməçiyə, mütəxəssisə və ya ekspertə edilmiş etirazlara baxmaq;

- cinayət prosesində iştirak edən şəxslərin vəsatətlərinə və cinayət işinin icraatı ilə əlaqədar digər şəxslərin ərizə və digər müraciətlərinə baxmaq;

- cinayət prosesində iştirak edən şəxslərin şikayətlərinə baxmaq;

- məhkəmənin müstəsna səlahiyyətlərinə aid olanlar istisna edilməklə, qətimkan tədbirlərinin seçilməsi, dəyişdirilməsi, ləğv edilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması barədə qərarlar qəbul etmək;

- cinayət işinin icraatına xitam verilməsi barədə qərar qəbul etmək və təsdiq olunması üçün prokurora təqdim etmək;

CPM-də nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək (CPM-in 86.4-cü maddəsi).

Təhqiqatçı CPM-in 86.2-ci maddəsində nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;

- şübhəli şəxsə tutulduğu andan hüquqlarmı bildirmək və tutulmasının səbəblərini izah etmək;

- şəxsin tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək;

- zərurət olduqda CPM-in 154-156,160,165-172-ci maddələrinin tələblərinə müvafiq olaraq şübhəli şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək;

- qanuni əsaslar olmadan və ya CPM-in 148.4, 148.6, 148.7, 150.3 və 151.5-ci maddələrində nəzərdə tutulmuş müddətlərdən artıq tutulan şəxsi azad etmək;

- müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı və ya mülki cavabdeh qismində tanımaq;

- cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün tədbirlər görmək;

CPM-in 193-cü maddəsinə uyğun olaraq tutulmuş şübhəli şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;

- prokurorun və müstəntiqin göstərişlərini və qərarlarmı icra etmək;

- prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;

- ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərini apardıqdan sonra cinayət işi başlanmasından 10 gündən gec olmayaraq iş üzrə bütün materialları istintaq aidiyyəti qaydalarına uyğun olaraq istintaq orqanına göndərmək;

- şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

- böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə sadələşdirilmiş icraat şəklində aparılmış təhqiqat materiallarmı təhqiqat başlanmasından 10 gündən, CPM-in 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 20 gündən gec olmayaraq yekun protokolu ilə prokurora göndərmək;

CPM-də nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Təhqiqat orqanının rəhbəri təhqiqat orqanı əməkdaşlarının CPM ilə müəyyən edilmiş hüquq və vəzifələrinin həyata keçirilməsini, məhkəmənin, prokurorun, müstəntiqin və təhqiqatçının qərar, göstəriş və ya tapşırıqlarının icrası üçün müvafiq tədbirlər görülməsini təşkil edir, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiqini yoxlamaq imkanını təmin edir (CPM-in 86.9-cu maddəsi).

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılan təhqiqatı ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı şəklində aparılan təhqiqatdan fərqləndirmək lazımdır. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın (CPM-in 214.1.2-ci maddəsi) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı şəklində təhqiqatdan (CPM-in 214.1.1-ci maddəsi) başlıca fərqi ondan ibarətdir ki, birinci halda həmin işlər üzrə sübutların toplanması, işin zəruri hallarının tam, obyektiv, hərtərəfli və təxirə salınmadan araşdırılması CPM-in 295-ci maddəsinə uyğun olaraq, cinayət işi başlanılmadan həyata keçirilir. Cinayət prosesinin qeyd edilən mərhələsində cinayəti törətmiş şəxsə ittiham elan olunmur. CPM-in 296-cı maddəsinə uyğun olaraq ibtidai araşdırmanın yekun sənədi kimi ittiham aktı deyil, yekun protokolu tərtib edilir (CPM-in 295-296-cı maddələri).

İbtidai istintaqın aparılması məcburi olan cinayət işləri üzrə təhqiqat orqanları cinayəti törətməkdə şübhə edilən şəxsi təqsirləndirilən şəxs qismində cəlb etmək, işi dayandırmaq və ya xitam etmək hüququna malik deyillər. Cinayət işi üzrə təhqiqat aparan şəxsin hansı nəticəyə gəlməsindən asılı olmayaraq o, işi öz qərarı ilə müstəntiqə göndərməlidir. Cinayətin istintaqı və gələcək istiqaməti ilə əlaqədar olan bütün məsələləri, o cümlədən cinayət işini xitam etməyi, ittiham aktını tərtib etməyi və sairə məsələləri müstəntiq həll edir. İş müstəntiqə verildikdən sonra təhqiqat orqanı yalnız müstəntiqin tapşırığı ilə həmin iş üzrə əməliyyat-axtarış hərəkətləri apara bilər. Cinayət törətmiş şəxsin tapılması mümkün olmadığı hallarda isə təhqiqat orqanları cinayətkarı müəyyən etmək üçün əməliyyat-axtarış tədbirlərinin aparılmasını davam etdirməli və nəticəsi barədə müstəntiqə məlumat verməlidirlər.[1]

Bir çox cinayət işləri üzrə, xüsusilə cinayətin edilməsi nəticəsində hadisə yerində və cinayətin edilməsi ilə əlaqədar yerlərdə maddi izlər qaldıqda təhqiqat orqanlarının fəaliyyəti xüsusilə qeyd edilməlidir. Təhqiqat orqanları göstərilən hallarda aşağıdakı hərəkətləri etməlidirlər:

- cinayət hadisəsi haqqında məlumat alan kimi dərhal hadisə yerinə getməli və hadisə yerinin qorunmasını təmin etməli;
- tələb edilən hallarda zərərçəkmiş şəxsə ilk tibbi yardım göstərmək və onun şəxsiyyətini müəyyən etmək;

---

[1] Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının Cinayət Prosesi. Bakı, Qanun, 2008. səh.393

- hadisə yerinə müstəntiqin gəldiyi hallarda, o gələnə qədər hadisə yerinin vəziyyətinin toxunulmazlığını təmin etmək;

- hadisəni gözü ilə görən və hadisə yerinə yaxın yaşayan şəxslərin sorğu-sual edilməsi yolu ilə hadisənin halları haqqında zəruri məlumatları toplamaq, gələcəkdə şahid ola bilən, şəxslərin şəxsiyyətini müəyyən etmək;

- imkan dairəsində hadisə haqqında, xüsusilə cinayətkar barəsində məlumatlar toplamaq;

Cinayətkarın müəyyən edilməsi və onun yaxalanması üçün fəal tədbirlər görmək.[1]

Təhqiqat orqanlarının apardıqları təxirəsalınmaz istintaq hərəkətləri içərisində şübhəli şəxslərin tutulması və onların dindirilməsi mühüm yer tutur.

Prosessual məcburiyyət tədbirlərinin bir növü kimi tutulma və onun tətbiqi AR.CPM-nin 147-ci maddəsində nəzərdə tutulmuşdur.

Tutulma – prosessual məcburiyyət tədbirinin bir növü olub, cinayət etməkdə şübhəli şəxsin, əgər həmin əməl üstündə qanunda müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulursa, qısa müddətli (48 saat) həbsə alınmasından ibarətdir. Qeyd etmək lazımdır ki, cinayət törətməsinə şübhə yarandıqda şəxsin tutulması 48 saatdan artıq davam edə bilməz. Lakin 18 aprel 2014-cü il tarixli qanunla AR CMP-nı 148.7-ci maddə əlavə edilmiş AR CM-nin 102, 114, 120.2.11, 168, 214, 214-1, 214-3, 215.3,217, 218, 219-1, 220, 274, 275, 276, 277, 279, 280, 282 və ya 283-1-ci maddələri ilə istintaqı aparılan cinayət işləri üzrə

[1] Mövsümov C.H. İbtidai istintaq, “Maarif” nəşriyyatı Bakı, 1973, səh.27

şübhəli və ya təqsirləndirilən şəxslərin sayının çoxluğu işin xüsusi mürəkkəbliyi və ya toplanmış materialların həcminin böyüklüyü AR. CPM-nin 148.6-cı maddəsində nəzərdə tutulan hərəkətlərin 48 saat müddətində həyata keçirilməsinə mane olduqda, həmin müddət müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə 48 saatdan artıq olmayan müddətə artırıla bilər.[1] Yəni faktiki olaraq göstərilən konkret cinayətlər üzrə tutulma maksimum 96 saat ola bilər. Sovet dövründə tutulmanın müddəti 72 saat (üç sutka) müəyyən edilmişdir. Şübhəli şəxsin tutulması onun tərəfindən cinayət əməlinin davam etdirilməsinin qarşısını almaq və onun cinayət məsuliyyətindən qaçıb gizlənmək imkanını aradan qaldırmaq məqsədi daşıyır.

İbtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı şəklində təhqiqat aparılması zamanı təhqiqatçı cinayət işi başlayır və ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə 10 gündən artıq olmayan müddətə təxirəsalınmaz istintaq hərəkətləri aparır və cinayət işini istintaq orqanına göndərir.

Cinayət işləri üzrə təhqiqat AR CPM-in 214.2-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanlarının təhqiqatçıları və qanunla səlahiyyət verilmiş şəxslər tərəfindən aparılır.

AR.CPM-in 214-cü maddəsinə müvafiq olaraq təhqiqatın bir növü də böyük ictimai təhlükə törətməyən bəzi

---

[1] AR.CPMəcəlləsi. Bakı, “Hüquq Yayın Evi” 2017, s.185

aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatdır.

Qeyd etmək lazımdır ki, böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat aparılması zamanı cinayət işi başlanmır, sadələşdirilmiş icraat açılır, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə təhqiqat şikayətin təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora daxil olduğu vaxtdan 10 gün müddətində, CPM -in 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 20 gün müddətində aparılır, nəticədə yekun protokol tərtib edilir.

Böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat AR CM-in böyük ictimai təhlükə törətməyən cinayətlər nəzərdə tutan bütün normaları ilə deyil, yalnız qanunvericinin konkretləşdirdiyi - AR CPM-in 214.4-cü maddəsində göstərilən AR CM-in 127.1, 128-131, 174,175, 177.1, 185.1, 187.1, 187.2, 188, 197.1, 200.1, 201.1, 221.1, 256.1, 256.2, 258.1, 258.2, 259.1, 263.1 və 326-cı maddələrində nəzərdə tutulan əməllər üzrə aparılır.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat ibtidai araşdırmanın - təhqiqatın bir növüdür[1].

"Cinayət ədalət mühakimə icraatının sadələşdirilməsinə dair" Avropa Şurasının Nazirlər Komitəsinin 17 sentyabr

---

1 Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası. 2-ci cild (Xüsusi hissə) C.H. Mövsümovun redaktəsi ilə, Bakı: «Digesta» nəşriyyatı, 2003-cü il, sah: 306-327.

1987-ci il tarixli, R(87) 18 saylı Tövsiyəsinin preambulasında təhlükəlilik dərəcəsinə görə az əhəmiyyətli cinayətlər üzrə müxtəlif sadələşdirilmiş prosedurаların tətbiq edilməsinin zəruriliyi vurğulanmışdır. Həmin tövsiyəyə uyğun olaraq, CPM-in 39-cu fəslində (CPM-in 293-297-ci maddələri) məhkəməyədək sadələşdirilmiş icraatın qaydaları təsbit edilmişdir.

CPM-in 214.4-cü maddəsində sadalanan cinayətlər üzrə ibtidai istintaqın aparılması məcburi deyildir və həmin cinayətlərin sadələşdirilmiş icraat formasında təhqiqatı bütövlükdə ibtidai araşdırmam nəzərdə tutur.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə sadələşdirilmiş icraat şəklində təhqiqat yalnız Azərbaycan Respublikası Cinayət Məcəlləsinin aşağıda göstərilən maddələri ilə nəzərdə tutulmuş əməllər (CPM-in 214.4-cü maddəsi) üzrə aparılır:

- tövsifedici əlamətlər olmadan qəsdən sağlamlığa az ağır zərər vurma (CM-in 127.1-ci maddəsi);

- qəsdən sağlamlığa yüngül zərər vurma (CM-in 128-ci maddəsi);

- qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma (CM-in 129-cu maddəsi);

- zəruri müdafiə həddini aşmaqla sağlamlığa ağır və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla sağlamlığa ağır və ya az ağır zərər vurma (CM-in 130-cu maddəsi);

- ehtiyatsızlıqdan sağlamlığa az ağır və ya ağır zərər vurma (CM-in 131-ci maddəsi);

- qanunsuz olaraq övladlığa götürmə (CM-in 174-cü maddəsi);

- övladlığa götürmə sirrini yayma (CM-in 175-ci maddəsi);

- tövsifedici əlamətlər olmadan oğurluq (CM-in 177.1-ci maddəsi);

- tövsifedici əlamətlər olmadan, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə (CM-in 185.1-ci maddəsi);

- tövsifedici əlamətlər olmadan əmlakı qəsdən məhv etmə və ya zədələmə (CM-in 186.1-ci maddəsi);

- əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə (CM-in 187.1-ci və 187.2-ci maddələri);

- torpaq üzərində mülkiyyət hüququnu pozma (CM-in 188-ci maddəsi);

- tövsifedici əlamətlər olmadan əmtəə nişanlarından qanunsuz istifadə etmə (CM-in 197.1-ci maddəsi);

- tövsifedici əlamətlər olmadan istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma (CM-in 200.1-ci maddəsi);

- tövsifedici əlamətlər olmadan əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmə (CM-in 201.1-ci maddəsi);

- tövsifedici əlamətlər olmadan xuliqanlıq (CM-in 221.1-ci maddəsi);

- balıqları və başqa su heyvanlarını qanunsuz tutma (CM-in 256.1 və 256.2-ci maddələri);

- qanunsuz ov etmə (CM-in 258.1 və 258.2-ci maddələri);

- tövsifedici əlamətlər olmadan qanunsuz ağac kəsmə (CM-in 259.1-ci maddəsi);

- tövsifedici əlamətlər olmadan yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma (CM-in 263.1-ci maddəsi);

Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə (CM-in 326- cı maddəsi).

Qanunverici tərəfindən CPM-in 214.4-cü maddəsində sadalanan CM-in müvafiq maddələrində göstərilmiş cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat formasında təhqiqat aparılmasının müəyyən edilməsi aşağıdakı əsaslara söykənir və məqsədləri izləyir:

- həmin cinayətlərin böyük ictimai təhlükə törətməyən cinayətlər olması (CM- in 15.2-ci maddəsi);

- həmin cinayətlər üzrə, bir qayda olaraq, mürəkkəb istintaq hərəkətlərinin aparılmasına zərurətin yaranmaması, yəni sübut edilməli olan halların (CPM-in 139-cu maddəsi) əksəriyyətinin icraat açılan anda müəyyən edilmiş olması (aşkarlıq əlaməti);

- ibtidai istintaq orqanlarının cinayət işləri ilə lüzumsuz yüklənməsinin qarşısının alınması;

- cinayət prosesi iştirakçılarının prosessual hüquqlarının uzun müddətə məhdudlaşdırılmasının qarşısının alınması, icraat materiallarının qısa müddətdə (10 gün müddətində) məhkəməyə göndərilməsinin və məhkəmə tərəfindən materiala mahiyyəti üzrə baxılaraq həll edilməsinin təmin olunması.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat formasında təhqiqat

aşağıdakı təhqiqat orqanları və vəzifəli şəxslər tərəfindən aparılır:

Aidiyyəti nəzərə alınmaqla əsasən, CPM-in 214.4-cü maddəsində sadalanan cinayətlər üzrə daxili işlər (polis) orqanları;

CPM-in 214.4-cü maddəsində sadalanan cinayətlər hərbi hissələrin, hərbi idarələrin (Azərbaycan Respublikası Müdafiə Nazirliyinə aid hissə və idarələr istisna olmaqla), cəzaçəkmə müəssisələrinin, həbsdə saxlanılma yerlərinin, dəniz gəmilərinin yerləşdiyi ərazidə törədildikdə hərbi hissə komandirləri, hərbi idarə rəisləri, cəzaçəkmə yerlərinin və ya həbsdə saxlanılma yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər, Azərbaycan Respublikası Müdafiə Nazirliyinə aid hərbi hissə və idarələrdə törədildikdə isə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təhqiqatçıları (CPM-in 214-cü maddəsi).

CPM-in 214.4-cü maddəsində sadalanan cinayət əməlləri cinayət törədərkən anlaqsız vəziyyətdə olmuş, yaxud cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər, yetkinlik yaşına çatmayan şəxslər, habelə CPM-in 215.3.2-ci maddəsində sadalanan şəxslər[3] tərəfindən törədildikdə, həmin cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat formasında təhqiqat aparıla bilməz. Belə hallarda, həmçinin CPM-in 214.4-cü maddəsində nəzərdə tutulmuş cinayətlər üzrə icraat ibtidai istintaqı məcburi olan cinayət işinin icraatı ilə birləşdirildikdə, həmin cinayət əməlləri üzrə icraat ibtidai istintaq formasında aparılmalıdır.

Bundan başqa, CPM-in 294.3-cü maddəsində nəzərdə tutulmuş hallarda böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə icraat ibtidai istintaq formasında aparılmalıdır.

CPM-in 293.1-ci maddəsində böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın açılmasının səbəbləri nəzərdə tutulmuşdur. Həmin maddəyə görə, məhkəməyədək sadələşdirilmiş icraatın açılması üçün səbəb qismində yalnız zərərçəkmiş şəxsin (cinayət-hüquqi mənada), onun qanuni nümayəndəsinin və ya nümayəndəsinin şikayəti çıxış edir. Hesab edirik ki, həmin səbəblərin dairəsinin dəqiqləşdirilməsinə ehtiyac vardır. Fikrimizcə, məhkəməyədək sadələşdirilmiş icraatın açılmasının səbəblərinə cinayət təqibinin növləri kontekstindən yanaşılmalıdır. Ona görə də CPM-in 37-ci, 204-208-ci, 214-cü və 293-cü maddələrinin sistemli təhlili aşağıdakıları müəyyən etməyə imkan verir:

- məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CM-in ictimai ittiham qaydasında təqib olunan 129.1-ci, 130.1-ci, 131.2-ci, 174-cü, 187.2-ci və s. maddələrində nəzərdə tutulmuş cinayətlər barəsində həyata keçirilir (CPM-in 37.2-ci, 37.3- cü, 37.6-cı və 214.4-cü maddələrinin təhlili);

- məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CM-in ictimai-xüsusi ittiham qaydasında təqib olunan 127.1-ci 128-131-ci, 175-ri, 177.1-ri, 186.1-ci, 187.1-ci, 201.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlər barəsində həyata keçirilir.

CPM-in 37.3-cü maddəsinə görə, ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərərçəkmiş şəxsin şikayəti əsasında və ya CPM-in 37.5-ci maddəsində nəzərdə tutulmuş hallarda prokurorun təşəbbüsü ilə həyata keçirilir. Ona görə də, fikrimizcə, CM-in 127.1-ci, 128-131-ci, 175-ci, 177.1-ci, 186.1-ci, 187.1-ci və 201.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlər üzrə sadələşdirilmiş icraat zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin və ya nümayəndəsinin şikayəti ilə yanaşı, prokurorun təşəbbüsü ilə də açıla bilər.

İctimai ittiham qaydasında cinayət təqibi fiziki və hüquqi şəxslərin (vəzifəli şəxslərin), kütləvi informasiya vasitələrinin məlumatları (CPM-in 204-206-cı maddələri), habelə törədilmiş və ya hazırlanan cinayətlərin, o cümlədən belə cinayətlər haqqında məlumatların məhkəmə və ya cinayət təqibi orqanı tərəfindən bilavasitə aşkar edilməsi əsasında həyata keçirilə bilər. Ona görə də, fikrimizcə, CM-in 129.1- ci, 130.1-ci, 131.2-ci, 174-cü və 187.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlər üzrə sadələşdirilmiş icraat zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin və ya nümayəndəsinin şikayəti olmadan da açıla bilər. Lakin CPM-in 293.1-ci maddəsində nəzərdə tutulmayan səbəblər əsasında məhkəməyədək sadələşdirilmiş icraat o halda açıla bilər ki, həmin mənbələrdə CPM-in 293.3.1-293.3.4-cü maddələrində təsbit olunan, cinayətin aşkarlığını göstərən məlumatlar olsun.

Digər tərəfdən isə CPM-in 106-cı maddəsinə uyğun olaraq, zərərçəkmiş şəxsin hüquqi varisi də CPM-in 214.4-cü maddəsində nəzərdə tutulmuş cinayətlər haqqında şikayət vermək hüququna malikdir.

Qeyd olunan mülahizələrin yekunu olaraq hesab edirik ki, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə icraatın açılması üçün səbəblər sırasına bunlar aiddir:

- zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin, nümayəndəsinin və ya zərərçəkmiş şəxsin hüquqi varisinin şikayəti (CM-in 127.1-ci, 128-131-ci, 175-ci, 177.1-ci, 186.1-ci, 187.1-ci və 201.1-ci maddələri üzrə);
- prokurorun təşəbbüsü (CM-in 127.1-ci, 128-131-ci, 175-ci, 177.1-ci, 186.1-ci, 187.1-ci və 201.1-ci maddələri üzrə);
- zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin, nümayəndəsinin, hüquqi varisinin şikayəti, fiziki və hüquqi (vəzifəli) şəxslərin, KİV-in məlumatları, cinayətin və ya cinayət haqqında məlumatların bilavasitə aşkar edilməsi (CM-in 129.1-ci, 130.1-ci, 131.2-ci, 174-cü, 187.2-ci maddələri üzrə).

Prokurorun sadələşdirilmiş icraat açmaq təşəbbüsü zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin, nümayəndəsinin, hüquqi varisinin şikayəti, habelə CPM-in 204-206-cı və 208-ci maddələrində nəzərdə tutulmuş məlumatlar əsasında mümkündür.

CPM-in 214.4-cü maddəsində nəzərdə tutulmuş cinayətlər haqqında zərərçəkmiş şəxsin, onun qanuni nümayəndəsinin və ya nümayəndəsinin (zərərçəkmiş şəxsin hüquqi varisinin) şikayəti şifahi və ya yazılı formada olmalıdır. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlərə dair şikayətlər təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilir.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayət şifahi formada verildikdə, bu haqda təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən ayrıca protokol tərtib edilir, protokol şikayət vermiş və protokolu tərtib etmiş şəxs tərəfindən imzalanır.

CPM-in 293-cü maddəsində böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayətin verilməsinin xüsusi müddəaları müəyyən edilmişdir. Həmin müddəalara zidd olmayan törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların verilməsi qaydalarına dair CPM-in 204-cü maddəsinin müddəaları CPM-in 214.4-cü maddəsində sadalanan cinayətlərə dair şikayətlərin verilməsinə də şamil olunmalıdır. Məsələn, böyük ictimai təhlükə törətməyən aşkar cinayət haqqında şikayət verən şəxs tərəfindən vətəndaşın şəxsiyyət vəsiqəsi, pasport və ya şəxsiyyəti təsdiq edən digər sənəd təqdim edilmədikdə, onun şəxsiyyəti haqqında məlumatların yoxlanılması üçün digər tədbirlər görülməlidir.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə yazılı şikayətdə və ya şifahi şikayətin qəbul edilməsi barədə protokolda şikayət vermiş şəxs haqqında məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış yeri və məşğuliyyət növü, vəzifəsi), törədilmiş cinayət barədə məlumatlar (cinayət qanunu ilə nəzərdə tutulmuş məhz hansı əməlin törədilməsi, onun harada, nə vaxt və necə törədilməsi, bu zaman zərər vurulmuşdursa, məhz hansı zərər vurulduğu, o cümlədən maddi ziyanın məbləği), cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin kim tərəfindən törədilməsi (şəxsin soyadı, adı, atasının adı və yaşayış yeri)

və əməlin məhz həmin şəxs tərəfindən törədilməsinin nə ilə təsdiq edildiyi, şikayətdə göstərilən cinayətin törədilmə hallarının hansı şahid ifadələri ilə (şəxsin soyadı, adı, atasının adı və yaşayış yeri), hansı sənədlərlə, habelə hansı digər sübutlarla təsdiq edildiyi, cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında xahiş, şikayətin verildiyi tarix (il, ay və gün) yer və şikayəti vermiş şəxsin imzası göstərilməlidir.

CPM-in 293.3-cü maddəsində sadalanan və böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə yazılı şikayətdə və ya şifahi şikayətin qəbul edilməsi barədə protokolda göstərilməli olan məlumatları əhəmiyyətinə görə iki qrupa bölmək olar:

- haqqında məlumat verilən cinayətin aşkar olduğunu göstərən məlumatlar (CPM-in 293.3.1-293.3.4-cü maddələri);

- ərizə verənin xahişi və ərizə ilə bağlı formal məlumatlar (CPM-in 293.3.5- 293.3.7-ci maddələri).

«Azərbaycan Respublikası CPM-in 293.1-ci maddəsinin və 297.0.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 yanvar 2011-ci il tarixli Qərarında vurğulanır ki, yuxarıda göstərdiyimiz birinci qrupa aid olan məlumatların müvafiq sübutlar məcmusu da olmaqla mövcudluğu qanunverici tərəfindən həmin əməlin aşkar cinayət kimi qəbul olunmasının əsasını təşkil edir.

Lakin CPM-in 293-cü maddəsində və başqa normalarında şəxsin verdiyi yazılı və ya şifahi ərizədə həmin məlumatların tam olmamasının nəticələri öz təsbitini

tapmamışdır. Məsələ burasındadır ki, məhz həmin məlumatlar konkret əməlin aşkar cinayət olduğunu göstərməklə məhkəməyədək sadələşdirilmiş icraatın aparılmasına imkan verirsə, deməli həmin məlumatların natamamlığı məhkəməyədək sadələşdirilmiş icraatın keçirilməsini qeyri-mümkün edə bilər. Hesab edirik ki, CPM-in 293-cü maddəsində bu məsələyə birbaşa aydınlıq gətirilməlidir.

Hazırda isə ərizədə göstərilməli olan, CPM-in 293.3.1-293.3.4-cü maddələrində sadalanan məlumatların tam olmaması halında aşağıdakılar edilməlidir. Şəxs ərizəsini şifahi verdikdə həmin ərizənin qəbul edilməsi barədə protokol tərtib edən təhqiqatçı, müstəntiq və ya prokuror göstərilən məlumatların ərizəçidən alınmasına, yazılı ərizə verilmiş olduqda isə ərizəçinin izahatını alarkən həmin məlumatları tamamlamağa cəhd etməlidir. Əgər göstərilən üsullarla həmin məlumatları əldə etmək mümkün olarsa, CPM-in 39-cu fəslində nəzərdə tutulmuş qaydada məhkəməyədək sadələşdirilmiş icraatla bağlı növbəti hərəkətlər edilməlidir. Həmin məlumatları dəqiqləşdirmək mümkün olmadıqda isə məhkəməyədək sadələşdirilmiş icraatın həyata keçirilməsi mümkün olmayacaqdır, çünki barəsində məlumat verilən cinayətin aşkarlıq əlaməti mövcud deyildir.

Bu halda təhqiqatçı, müstəntiq və ya prokuror mövcud məlumatların məzmunundan asılı olaraq alternativ hərəkətlərdən birini etməlidir:

- ərizədə verilən məlumatlar cinayət təqibi başlamaq üçün CPM-in 38-ci maddəsinə uyğun səbəb və əsasın

olmasını təsdiq edirsə, cinayət işinin başlanması haqqında qərar çıxarmalıdır (bu halda işin istintaqı başqa cinayət təqibi orqanına aid olduqda CPM-in 294.1.4-cü maddəsinə müvafiq olaraq şikayəti cinayət işinin başlanılması məqsədilə istintaq aidiyyəti üzrə göndərməlidir);

- ərizədə göstərilən məlumatlar cinayət təqibi başlamaq üçün yetərli olmadıqda, yəni cinayət təqibinin həyata keçirilməsi üçün əsasların olmadığı müəyyən edildikdə, CPM-in 294.1.3-cü maddəsinə uyğun olaraq məhkəməyədək sadələşdirilmiş icraat açılmasından imtina barədə qərar çıxarılmalıdır.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayət verən şəxs on altı yaşına çatmış olduqda, ona bilə-bilə yalan xəbərçilik etməyə görə CM-in 296-cı maddəsinə əsasən cinayət məsuliyyəti haqqında xəbərdarlıq edilir.

Şikayət yazılı verildikdə həmin xəbərdarlıq şikayətdə qeyd edilir, şikayət şifahi verildikdə isə bu haqda tərtib olunmuş protokola daxil edilir və şikayət vermiş şəxs və təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən imzalanır.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət haqqında şikayət imzalanmadıqda, saxta imza ilə imzalandıqda, yaxud uydurma fiziki şəxs adından imzalandıqda, bu, məhkəməyədək sadələşdirilmiş icraatın açılması üçün səbəb ola bilməz.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət haqqında şikayət məhkəməyə daxil olduqda, məhkəmə həmin şikayəti məhkəməyədək sadələşdirilmiş icraatın açılması üçün təhqiqat aidiyyəti (CPM-in 214-cü maddəsi) üzrə göndərməlidir.

CPM-in 294-cü maddəsində böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayətə dair qəbul edilən qərarların növləri öz əksini tapmışdır. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətə dair şikayət (məlumat) CPM-in 293-cü maddəsinin tələblərinə uyğun olaraq verildikdən sonra təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin şikayəti (məlumatı) dərhal qeydə almalı və ona baxmalıdır.

Xüsusilə qeyd etmək lazımdır ki, Respublikamızda böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək icraatın bu növü üzrə təhqiqat yeni CPM-nin müddəalarına uyğun olaraq Seyfulla Aslanov tərəfindən geniş tədqiq olunmuşdur.

AR. CPM-nə uyğun olaraq böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayət verən şəxsə bilə-bilə yalan xəbərçilik etməyə görə cinayət məsuliyyəti barədə xəbərdarlıq edilir və bu barədə şikayətdə müvafiq xəbərdarlıq edilir. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayət şifahi formada verilərsə onda bu barədə protokolda məlumat verilir və protokol şikayət vermiş şəxs və protokolu tərtib etmiş şəxs tərəfindən imzalanır.

Təhqiqatçı, müstəntiq və ya prokuror böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayət vermiş şəxsə onun şikayəti üzrə məhkəməyədək sadələşdirilmiş icraatın açılması haqqında yazılı məlumat verməlidir. Sadələşdirilmiş icraatın açılmasından imtina barədə qərar qəbul edilibsə onda CPM-in müddəalarına əsasən üç gün

müddətində çıxarılmış qərarın surətini şikayət vermiş şəxsə təqdim etməli və ya poçtla ona göndərməlidir.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat zamanı istintaq hərəkətlərini apararkən təhqiqatçı CPM-in müvafiq istintaq hərəkətlərinin aparılma qaydasını nəzərdə tutan maddələrinin tələblərini rəhbər tutmalıdır.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticələrinə dair təhqiqatçı yekun protokolu tərtib edir, onu imzalayır, cinayət törətmiş şəxsi, onun müdafiəçisini və qanuni nümayəndəsini, habelə zərər çəkmiş şəxsi, mülki iddiaçını, mülki cavabdehi və onların nümayəndələrini bu materiallarla tanış edir və bundan sonra icraat üzrə bütün materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir.[1]

Təhqiqatçı, müstəntiq və ya prokuror verilmiş şikayətin xüsusi ittiham qaydasında təqib edilən cinayət barəsində olduğunu müəyyən etdikdə şikayətin daxil olduğu vaxtdan 24 saatdan gec olmayaraq məhkəmə aidiyyəti üzrə göndərilməsi haqqında qərar çıxarmalıdır.

Məhkəməyədək sadələşdirilmiş icraat təhqiqatçı tərəfindən açılmışdırsa, təhqiqatın başlanması və ərizənin öz icraatına qəbul edilməsi haqqında vahid qərar çıxarılır. Məhkəməyədək sadələşdirilmiş icraat müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən açılmışdırsa, təhqiqatçı prokurorun göstərişi ilə

---

[1] Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının Cinayət Prosesi. Dərslik. Bakı. Qanun, 2008, səh. 396.

sadələşdirilmiş icraatın öz icraatına qəbul edilməsi haqqında qərar çıxarmaqla təhqiqata başlayır. Məhkəməyədək sadələşdirilmiş icraat açıldıqdan sonra bu haqda 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verilməlidir.[1]

AR.CPM-in 297-ci maddəsinə uyğun olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın materialları ilə tanış olmuş şəxslərə özünün çıxardığı qərar haqqında məlumat bildirməlidir.

## 3.2. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın anlayışı, əhəmiyyəti və vəzifələrindən danışarkən qeyd etməliyik ki, mühakimə icraatının operativliyi mühüm əhəmiyyət kəsb edir. Böyük ictimai təhlükə törətməyən qeyri-mürəkkəb işlər üzrə mühakimə icraatının Azərbaycan Respublikası CPM-in 293-cü maddəsində sadələşdirilməsi bu cür operativliyin təmin edilməsi vasitəsidir.

Qanunverici cinayət tərkiblərini müəyyən edərkən, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraata yol verir.

---

[1] Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri. Bakı, "Hüquq Evi" 2015, səh.171.

Təhqiqat, ibtidai istintaq və məhkəmə orqanlarının işinin effektivliyinin gələcəkdə artırılmasına yönəlmiş qanunvericiliyin icrası üzərində nəzarətin həyata keçirilməsində prokurorluq orqanlarının vəzifələri haqqında qanunda göstərilir ki, yeni qanunvericilik cinayətin ağırlığı və xarakterindən, işin mürəkkəbliyi və ittihamın həcmindən asılı olaraq gələcəkdə cinayət-mühakimə icraatının diferensiyasına, habelə vətəndaşların və vəzifəli şəxslərin istintaq və məhkəmə orqanlarının qanuni tələblərinin icra edilməsinə görə məsuliyyətin artırılmasına yönəldilmişdir.

Respublikanın təcrübəsinin və DİO sistemində istintaqı həyata keçirən müəxəssislərdən səmərəli istifadə olunması zərurətini nəzərə alaraq, Azərbaycan Respublikası DİN-in böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın genişləndirilməsi haqqında təkliflərlə qanunverici orqanlara dəfələrlə müraciət etmişlər. Bu cür diferensiya DİO-nun müstəntiqlərinin üzərinə düşən yükü azaltmış, onların işlərində böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılmasından azad etmişdir. Cinayət prosesinin diferensiya məsələlərinə müxtəlif yanaşılması idarələrarası xarakterli təhqiqatların keçirilməsini tələb edir.

Müstəntiqlərin işlərinin yükünün azaldılması onların fəaliyyətinin effektivliyinə müsbət təsir göstərmişdir. Təhqiqatın və böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın tətbiq edilməsi sferasının genişləndirilməsi, cinayət törədərkən təqsirkarın cəzalanmasının və məhkum olunmasına əlverişli

şərait yaratmışdır. Bununla da hüquqpozmalara cinayət-hüquqi təsirin effektivliyini artırmışdır.

Bu, vətəndaşların inzibati orqanlara çatdırılması hallarının xeyli azaldılmasına imkan yaratmış, istintaq və təhqiqat orqanları səmərəsiz işdən azad etmiş, daha təhlükəli olan və naməlum şəraitdə baş verən cinayətlərin istinaqına qüvvələri səfərbər etməyə imkan vermişdir.

«Polis haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 1999-cu il tarixli Fərmana əsasən, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polis öz vəzifələrini yerinə yetirərkən bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqazidd əməllərdən qoruyur. Polisin hər hansı şəxslə insanın ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir.

Cinayət-prosessual qanunvericiliyi istintaq baxımından çox da mürəkkəb olmayan və böyük ictimai təhlükə törətməyən bir qrup işlər üzrə, daha doğrusu, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127.1, 128-132, 174-176, 177.1, 186.1, 187.1, 187.2, 196.1, 197.1, 201.1-ci maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılır. Məcəllədə göstərilən cinayət işlərinin icraatının ayrıca 7-ci bölməsində müəyyən edilməsi həmin işlərə baxılmasını maksimum sürətləndirmək, mühakimə icraatının səmərəli həyata keçirilməsini, cinayət törətmiş hər bir şəxsin vaxtında və ədalətli cəzalandırılmasını təmin etmək məqsədini daşıyır. Böyük

ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayət zərər çəkmiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi tərəfindən CPM-in 214-cü maddəsində nəzərdə tutulmuş cinayətlərə dair yazılı və ya şifahi formada təhqiqatçıya, müstəntiqə və ya ibtiadai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilir.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayət təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora şifahi formada verildiyi halda, o, protokola daxil edilir və şikayəti vermiş və protokolu tərtib etmiş şəxslər tərəfindən imzalanır.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayətdə və ya şifahi şikayətin qəbul edilməsi barədə protokolda aşağıdakılar göstərilir:

1) şikayət vermiş şəxs haqqında məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış yeri və məşğuliyyət növü, vəzifəsi);

2) törədilmiş cinayət barədə məlumatlar (cinayət qanunu ilə nəzərdə tutulmuş məhz hansı əməlin törədilməsi, bu zaman zərər vurulmuşdursa, məhz hansı zərərin vurulduğu, o cümlədən, maddi ziyanın məbləği);

3) cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin kim tərəfindən törədilməsi (şəxsin soyadı, atasının adı və yaşayış yeri və əməlin məhz həmin şəxs tərəfindən törədilməsinin nə ilə təsdiq edildiyi);

4) şikayətdə göstərilən cinayətin törədilmə hallarının hansı şahid ifadələri ilə və konkret olaraq hansı şəxslərin ifadələri ilə (şəxsin soyadı, adı, atasının adı və yaşayış yeri, hansı sənədlərlə, habelə hansı digər sübutlarla

təsdiq edildiyi);

5) cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında xahiş;

6) şikayətin verildiyi tarix (il, ay, gün) və yer;

7) şikayəti vermiş şəxsin imzası.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayət verən şəxsə bilə-bilə yalan xəbərçilik etməyə görə cinayət məsuliyyəti haqqında xəbərdarlıq edilir və bu barədə şikayətdə qeyd edilir. Şikayət şifahi verildikdə, bu izah protokola daxil edilərək şikayəti vermiş və protokolu tərtib etmiş şəxs tərəfindən imzalanır.

*Böyük ictimai təhlükə törətməyən cinayət üzrə şikayətə dair qəbul edilən qərarlar.*

Təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

- böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayəti dərhal qeydə almaq və ona baxmaq;

- CPM-in 38-ci maddəsinə uyğun olaraq, cinayət təqibinin həyata keçirilməsi üçün səbəb və əsasların olması qənaətinə gəldikdə, yazılı şikayətə və ya şifahi şikayətin qəbul edilməsi barədə protokola dərkənar qoymaqla, şikayətin daxil olduğu vaxtdan 24 saatdan gec olmayaraq, cinayət təqibi üzrə məhkəməyədək sadələşdirilmiş icraat açmaq;

- CPM-in 38-ci maddəsinə uyğun olaraq cinayət işinin təqibini həyata keçirilməsi üçün səbəb və əsasların olmaması qənaətinə gəldikdə, şikayətin daxil olduğu vaxtdan 24 saatdan gec olmayaraq, qəbul edilmiş qərarın əsaslarını

göstərməklə, cinayət təqibi üzrə məhkəməyədək sadələşdirilmiş icraat açılmasından imtina barədə qərar çıxarmaq;

- Şikayətin məhkəmə aidiyyəti və ya istintaq aidiyyəti üzrə göndərilməsi qənaətinə gəldikdə, onun daxil olduğu vaxtdan 24 saatdan gec olmayaraq, cinayətin izlərinin rəsmiləşdirilməsi (hadisə yerinin baxışı, bu zaman aşkar edilmiş əşyaların götürülməsi və müayinəsi) üzrə təxirəsalınmaz, istintaq hərəkətlərini aparmaq və cinayətin törədilməsini görmüş şahidlərdən izahat almaq, öz qərarı ilə şikayəti toplanmış bütün materiallarla birlikdə müvafiq olaraq məhkəməyə və ya istintaq orqanına göndərmək.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CPM-in 214 və 215-ci maddələrində nəzərdə tutulmuş qaydalara riayət etməklə həyata keçirilir.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayətə baxarkən və ya böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın gedişində məhkəməyədək sadələşdirilmiş prosedur daxilində aparılması mümkün olmayan istintaq hərəkətlərinin aparılması zərurəti yarandıqda, təhqiqatçının və ya müstəntiqin vəsatəti, yaxud öz təşəbbüsü ilə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin başlanması haqqında qərar qəbul etmək və ibtidai istintaqın aparılmasını müvafiq istintaq orqanına tapşırmaq hüququna malikdir.

Təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakıları yerinə yetirməlidir:

-böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayət vermiş şəxsə onun şikayəti üzrə məhkəməyədək sadələşdirilmiş icraatın açılması barəsində yazılı məlumat verməli;

-böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayətə dair məhkəməyədək sadələşdirilmiş icraat açılmasından imtina barədə qərar çıxardıqdan 3 (üç) gün müddətində qəbul edilmiş qərarın surətinin şikayət vermiş şəxsə təqdim edilməsini və ya poçtla ona göndərilməsini təmin etməli.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılma əsasları, forması və qaydası. Sadələşdirilmiş icraatın aparılma müddəti.

Azərbaycan Respublikası CPM-in 295-ci maddəsinə əsasən, məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə şikayətin təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora daxil olduğu vaxtdan 10 (on) gün müddətində aparılır.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraat zamanı təhqiqatçı məhkəmə baxışının hərtərəfli, tam və obyektiv aparılmasını təmin etmək üçün zərərçəkmiş şəxsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsi, şahidləri və digər şəxsləri dindirməklə, habelə zəruri arayışlar tələb etməklə

cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi hallarını, onu törədənin şəxsiyyətini və zəruri olan digər halları müəyyən edir. CPM-in 295.2-ci maddəsində göstərilənlər məhkəmə baxışının aparılması üçün kifayət etmədikdə, böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraat zamanı zəruri sübutların toplanılması məqsədilə, təhqiqatçı axtarış, götürmə, şəxsi müayinə, baxış və istintaq eksperimenti, tanınmaya təqdim etmə və üzləşdirmə kimi istintaq hərəkətlərini apara bilər.

CPM-in 295.3-cü maddəsində nəzərdə tutulmuş istintaq hərəkətləri təhqiqatçı tərəfindən həmçinin aşağıdakı hallarda aparıla bilər:

- özləri şəxsən zəruri sübutları təqdim edə bilmədikdə və ya onlar haqqında məlumat verə bilmədikdə, şikayət vermiş şəxsin, onun qanuni nümayəndəsinin və ya nümayəndəsinin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin və onun müdafiəçisinin vəsatəti üzrə;
- ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun tapşırığı ilə.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraat zamanı istintaq hərəkətlərinin aparılması zamanı təhqiqatçı CPM-in müvafiq istintaq hərəkətlərinin aparılma qaydasını nəzərdə tutan maddələrinin tələblərini rəhbər tutmalıdır.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılma nəticələrinə dair yekun protokol, onun tərtib edilmə qaydası və məzmunu - CPM-in 296.1-ci maddəsinə əsasən, böyük ictimai təhlükə

törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticələrinə dair təhqiqatçı yekun protokolu tərtib edir.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticələrinə dair yekun protokolunda aşağıdakılar göstərilir:

- protokolun tərtib edildiyi vaxt, tarix və yer;
- protokolu tərtib etmiş təhqiqatçının soyadı, adı, atasının adı və vəzifəsi;
- böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayət vermiş şəxsin soyadı, atasının adı, doğulduğu il, ay, gün və yer, ailə vəziyyəti, iş yeri və vəzifəsi, qeydiyyatda olduğu və faktiki yaşadığı yer;
- cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer, ailə vəziyyəti, iş yeri və vəzifəsi, qeydiyyatda olduğu və faktiki yaşadığı yer;
- cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədildiyi yer, onun vaxtı, üsulu, motivi, nəticələri və digər mühüm halları haqqında məlumat;
- cinayət qanunu ilə nəzərdə tutulmuş maddə göstərilməklə, əməli törətmiş şəxsin hərəkətlərinin tövsifı;
- məhkəmə iclasına çağırılmalı olan şəxslərin siyahısı.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticələrinə dair yekun protokolunu imzaladıqdan sonra, təhqiqatçı aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

- cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsə, onun müdafiəçisinə və ya qanuni şəxsə, mülki

iddiaçıya, mülki cavabdehə və onların nümayəndələrinə məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallarla tanış olmaq üçün imkan yaradılmasını təmin etmək;

- məhkəməyədək sadələşdirilmiş icraat üzrə bütün materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərmək.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın aparılması nəticələrinə dair prokurorun hərəkətləri.

Azərbaycan Respublikası CPM-in 297-ci maddəsinə əsasən, böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraat materialları ona daxil olduqdan sonra ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

1) daxil olmuş materiallara dərhal baxmaq və böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə şikayətin baxılması zamanı təhqiqatçının hərəkətlərinin və həmin şikayət üzrə aparılmış məhkəməyədək sadələşdirilmiş icraatın qanuniliyini və əsaslılığını yoxlamaq;

2) toplanmış sübutlar və təhqiqat zamanı araşdırılmış hallar ittihamın irəli sürülməsinə imkan verdikdə, böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair təhqiqatçı tərəfindən tərtib edilmiş yekun protokolunda ittihamın irəli sürülməsini təsdiq etmək və bütün materialları məhkəməyə göndərmək;

3) toplanmış sübutlar ittihamın irəli sürülməsi üçün kifayət qədər olmadıqda, məhkəməyədək

sadələşdirilmiş icraatın materialları əsasında cinayət işinin başlanması haqqında qərar çıxarmaq və ibtidai istintaqın aparılmasını müvafiq istintaq orqanına tapşırmaq;

4) cinayət təqibini istisna edən hallar mövcud olduqda, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs barəsində cinayət təqibinə xitam verilməsi haqqında qərar çıxarmaq;

5) böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraatın materialları ilə tanış olmuş şəxslərə özünün çıxardığı qərar haqqında məlumat vermək səlahiyyətinə malikdir.

Böyük ictimai-təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat zamanı müəyyən edilməli olan hallar.

Cinayət-prosessual qanunvericiliyi böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın aparılmasının prosessual qaydasını çox geniş və dəqiq surətdə şərh etmişdir. Bu qaydalara CPM-in VII bölməsində böyük bir fəsil həsr edilmişdir.

Təhqiqat CPM-in 207 və 214-cü maddələrinə əsasən törədilmiş və ya hazırlanan cinayətlər və hadisələr barədə məlumatlara baxılmaqla ilkin yoxlama, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat və cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətləri şəklində yalnız təhqiqatçılar tərəfindən aparılır.

Təhqiqat aparatının strukturu DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin təhqiqat şöbəsindən, Naxçıvan MR DİN-

in təhqiqat qrupundan, şəhər, rayon, xətt polis idarə və şöbələrinin, habelə digər təhqiqat şöbə, bölmə və qruplarından ibarətdir.

Cinayətkarlıqla mübarizə, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi sahəsində təhqiqat aparatlarının işi aşağıdakı istiqamətlər və prinsiplər üzrə təşkil edilir:

1) cinayətlərin tezliklə açılması və bütün halları hərtərəfli araşdırılması, cinayəti törətmiş şəxslərin ifşası və məsuliyyətə cəlb edilməsi;

2) cinayətlər nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi üçün vaxtında tədbirlər görülməsi;

3) cinayətin törədilməsinə imkan yaradan halların (səbəb və şəraitin) müəyyən edilməsi və aradan qaldırılması üçün tədbirlər görülməsi.

Təhqiqat işinin nəticələri barədə statistik məlumatların mərkəzləşdirilmiş qaydada qeydə alınması və saxlanması DİN-in Əməliyyat-Statistik İnformasiya İdarəsi tərəfindən həyata keçirilir.

Daxili işlər orqanlarının rəisləri, təhqiqat şöbə və bölmələrinin rəisləri, təhqiqat qruplarının rəhbərləri tabeliklərindəki təhqiqat aparatlarının işini təşkil edir, cinayətin açılması, ilkin yoxlama və ibtidai araşdırmalar zamanı təhqiqatçıların işinə ümumi nəzarəti həyata keçirirlər. Təhqiqat zamanı prosessual rəhbərlik bilavasitə prokuror tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası DİN-in 30 avqust 2002-ci il tarixli 323 saylı əmrinə əsasən, daxili işlər orqanlarının təhqiqat qurumlarının işinin təşkili Baş İstintaq və Təhqiqat

İdarəsinin rəisi, onun müavini, təhqiqat şöbəsinin rəisi, təhqiqat qurumlarında ibtidai araşdırmanın keyfiyyətinin yaxşılaşdırılması və prosessual qanunvericiliyin tələblərinə uyğun aparılması, təhqiqatçıların işində nöqsanların aradan qaldırılması üçün səlahiyyətləri daxilində zəruri tədbirlər həyata keçirirlər.

Daxili işlər orqanlarının təhqiqat qurumlarının işinin təşkili - Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi, onun müavini (Təhqiqat şöbəsinin rəisi), təhqiqat qurumlarında ibtidai araşdırmanın keyfiyyətinin yaxşılaşdırılması və prosessual qanunvericiliyin tələblərinə uyğun aparılması, təhqiqatçıların işində olan nöqsanların aradan qaldırılması üçün səlahiyyətləri daxilində zəruri tədbirlər həyata keçirirlər.

Təhqiqat işinin təşkili və təkmilləşdirilməsi üzrə tədbirlər Baş İdarənin Təhqiqat şöbəsinin və ərazi təhqiqat aparatlarının iş planlarında əks etdirilir.

Baş İdarənin Təhqiqat şöbəsi cinayətlərin qarşısının alınması, açılması və təhqiqatı ilə əlaqədar tabelikdəki müvafiq aparatlara rəhbərliyi və nəzarət işini aşağıdakı qaydada təşkil edir:

- təhqiqat aparatlarının fəaliyyətinin məqsədyönlü və normativ hüquqi aktların tələblərinə uyğun təşkili məqsədilə göstərişlər və metodik sənədlər hazırlayır. Təhqiqat qurumlarının xidməti fəaliyyətinin yoxlanılması və əməli köməklik göstərilməsini, habelə müvafiq əməkdaşların peşə hazırlığının təmini məqsədilə zona müşavirələrinin, seminarların keçirilməsini təşkil edir;

- cinayətkarlığa qarşı mübarizədə təhqiqatçıların rolunun artırılması və onların fəaliyyətinin digər xidmət sahələri ilə əlaqələndirilməsi sahəsində qabaqcıl iş təcrübəsini öyrənir, ümumiləşdirir və yayır;

- təhqiqat qurumlarının fəaliyyətinin nəticələri barədə hesabatların alınmasını, ümumiləşdirilməsini, təhlilini və yekun sənədlərinin hazırlanmasını təşkil edir;

- baş İdarənin rəis müavini - Təhqiqat İdarəsinin rəisi təhqiqatçının CPM-in 86-cı maddəsində nəzərdə tutulmuş səlahiyyətlərindən istifadə edir;

-baş İdarənin Təhqiqat şöbəsinin işini təşkil və üzərinə düşən funksional vəzifələrin yerinə yetirilməsini təmin edir;

- DİN-in təhqiqat aparatı işçilərinin seçilib yerləşdirilməsi, vəzifədə irəli sürülməsi, yaxud azad edilməsi, onlar barədə materialların attestasiya komissiyasına təqdim olunması, eləcə də, xüsusi rütbələrə təqdim olunması barədə təkliflər verir;

- Baş İdarənin Təhqiqat şöbəsi əməkdaşları arasında funksional vəzifə bölgüsünü aparır və iş planını tərtib edir;

- DİN-in rəhbərliyinin, Baş İstintaq və Təhqiqat İdarəsi rəisinin tapşırığı ilə digər nazirlik, idarə, müəssisə və təşkilatlarda DİN-i təmsil edir;

- cinayət xarakterli məlumatlara baxılmasını, məhkəməyədək sadələşdirilmiş icraat və cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətləri şəklində təhqiqatın, məlumatlar üzrə ilkin yoxlanılmasının, habelə ayrı-ayrı prosessual hərəkətlərin aparılmasını bilavasitə şöbənin təhqiqatçılarına tapşırır. Zərurət yarandıqda yoxlama və sadələşdirilmiş icraat materiallarını, cinayət işlərini tələb

edir, öyrənir, səlahiyyətləri daxilində tapşırıqlar verir, təhqiqat qurumları rəhbərlərinin hesabatlarını dinləyir;

- təhqiqat qurumlarının əməkdaşları barədə daxil olmuş təqdimatlara, xüsusi qərar və şikayətlərə baxır, nöqsanların aradan qaldırılması, qanunçuluğun möhkəmləndirilməsi, təhqiqatçının intizam tənbehi və mükafatlandırılması məsələləri üzrə təkliflər verir;

- Baş İdarənin təhqiqat şöbəsinin təhqiqatçıları bölgələr üzrə (Naxçıvan MR DİN-in İstintaq və Təhqiqat şöbəsinin təhqiqat qrupuna, Bakı şəhəri BPİ-nin İstintaq və Təhqiqat İdarəsinin təhqiqat şöbəsinə, Gəncə şəhəri Pİ-nin İstintaq və Təhqiqat şöbəsinin təhqiqat qrupuna, digər təhqiqat qurumlarına) kuratorluğu həyata keçirir, təhqiqat işinin vəziyyətini yoxlayır, əməli köməklik göstərir, həmçinin, bilavasitə təhqiqatçı funksiyalarını həyata keçirir;

- təhkim olunmuş təhqiqat şöbəsi, bölməsi və qruplarında təhqiqat işinin vəziyyətini təhlil edir, müvafiq nəzarət icraatını aparır;

- təhqiqat işi barədə statistik göstərişlər və digər informasiyaları toplayır, onları sistemləşdirməklə təhlil edir və təhqiqat qurumlarının işinin təşkilində istifadə edir;

- Azərbaycan Respublikası qanunlarının, DİN-in əmr və göstərişlərinin təhqiqat qurumları tərəfindən icra vəziyyətini öyrənir, əsassız qəbul edilmiş qərarların ləğvi məsələsinə baxılmasına dair prokurorluq orqanları qarşısında vəsatət qaldırılması barədə təkliflər verir;

- qabaqcıl iş təcrübəsini öyrənir, onun daxili işlər orqanlarının təhqiqat orqanlarının fəaliyyətində tətbiqi barədə təkliflər verir;

- Baş İdarənin Təhqiqat şöbəsi rəisinin tapşırığı ilə daxili işlər orqanlarının təhqiqatçılarının barəsində şikayətlərə, məhkəmələrin və prokurorluq orqanlarının aktlarına baxır, nəticələri üzrə təkliflər verir;

- Naxçıvan MR DİN-in İstintaq və Təhqiqat şöbəsinin təhqiqat qrupunda, Bakı şəhər BPİ-in İstintaq və Təhqiqat İdarəsinin təhqiqat şöbəsində, Gəncə şəhər Pİ-nin İstintaq və Təhqiqat şöbəsinin təhqiqat bölməsində, Nəqliyyatda BPİ-in İstintaq və Təhqiqat şöbəsinin təhqiqat qrupunda, digər orqanların təhqiqat qurumlarında təhqiqat aparatlarının işi həmin təhqiqat orqanlarının rəhbərləri tərəfindən təşkil edir. Təhqiqat orqanının rəhbəri Azərbaycan Respublikası CPM-in 86.7- ci maddəsinin müvafiq olaraq öz səlahiyyətləri daxilində:

- təhqiqat orqanının səlahiyyətinə aid olan törədilmiş və ya hazırlnan cinayətlərə və hadisələrə dair daxil olmuş ərizə və digər materialların (1 və 2 nömirəli cinayətlərin və hadisələrin qeydiyyatı kitabında) qeydiyyata alınmasını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə təhqiqatın və ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını təhqiqatçıya, yaxud təhqiqatçılar qrupuna tapşırır;

- təhqiqatçının cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə nəzarəti həyata keçirir;

- təhqiqat orqanının səlahiyyətlərinə aid olan cinayətlər üzrə təhqiqatçı tərəfindən hadisə yerinə baxış keçirilən zaman texniki və kriminalistik vasitələrlə təchiz olunmuş əməliyyat qrupunun iştirakını təmin edir;

- təhqiqat qurumlarının işində xidməti intizama riayət edilməsinə nəzarət edir;

- təhqiqatçıların işi barədə statistik hesabatların müəyyən edilmiş qaydalar üzrə hazırlanıb DİN-ə və İbtidai araşdırmaya nəzarəti həyata keçirən prokurora göndərilməsini təmin edir (hesabat forması əlavə olunur);

- təhqiqatçıların iş vaxtı və ya işdən sonrakı vaxtlarda ictimai əsayişin qorunmasına, təhqiqat və cinayət işlərinin istintaqı ilə bağlı olmayan tələblərinə (dövlət əhəmiyyətli və DİN-in müəyyən etdiyi qaydada keçirilən xüsusi tədbirlər istisna olunmaqla) cəlb edilməsinə yol verilmir;

- təhqiqat şöbəsinin, bölməsinin rəisi, təhqiqat qrupunun rəhbəri (baş təhqiqatçı) təhqiqatçının CPM-in 86.1-86.6-cı maddələrində nəzərdə tutulmuş hüquqlarından istifadə edir;

- cinayətlərin qarşısının alınması, açılması, araşdırılması üzrə təhqiqatçıların fəaliyyətinə rəhbərlik edir;

- təhqiqat zamanı qanunçuluğa, prosessual qaydalara və müddətinə riayət edilməsinə, cinayət təqibi üzrə ibtidai araşdırmanın tam, hərtərəfli və obyektiv aparılmasına nəzarəti həyata keçirir;

- şöbənin (bölmənin, qrupun) işini planlaşdırır, təhqiqatçıların funksional vəzifələrini müəyyən edir və onların yerinə yetirilməsinə nəzarət edir;

- baxılması üçün təhqiqat aparatına daxil olmuş materialların və cinayət işlərinin qeydiyyatını aparır (müvafiq jurnalların forması əlavə olunur). Törədilmiş və ya hazırlanan cinayətlər və hadisələr barədə məlumatların

təhqiqatçılar tərəfindən dərhal araşdırılması üçün, onların hadisə yerinə göndərilməsini təşkil edir;

- təhqiqatçıların daxili işlər orqanlarının digər xidmət sahələrinin əməkdaşları, prokurorluq orqanları, məhkəmələr və ictimaiyyətlə qarşılıqlı əlaqəsi işini təşkil edir;

- təhqiqatçılar tərəfindən qanunvericiliyin müddəalarına müntəzəm surətdə öyrənilməsini təmin edir, onların peşə hazırlığının yüksəldilməsi üçün tədbirlər görür;

- Naxçıvan MR DİN-in İstintaq və Təhqiqat şöbəsinin təhqiqat qrupunda, Bakı şəhəri BPİ-nin İstintaq və Təhqiqat İdarəsinin təhqiqat şöbəsində, Gəncə şəhəri Pİ-nin İstintaq və Təhqiqat şöbəsinin təhqiqat bölməsində, Nəqliyyatda BPİ-nin İstintaq və Təhqiqat şöbəsinin təhqiqat qrupunda, digər orqanların təhqiqat, şöbə, bölmə və qruplarında fəaliyyət göstərən təhqiqatçı (baş təhqiqatçı) CPM-in 86.1 - 86.6-cı maddələrində göstərilən hüquq və vəzifələrini həyata keçirir;

- təhqiqat orqanının səlahiyyətinə aid olan cinayətlər üzrə tam tərkibli əməliyyat qrupu ilə birgə hadisə yerinə gedir, hadisə yerinin baxışını keçirir, onun müayinəsinin keyfiyyətinə görə şəxsən məsuliyyət daşıyır;

- baxışda iştirak edən mütəxəssislər və digər xidmətlərin əməkdaşları təhqiqatçının rəhbərliyi ilə və onun göstərişlərinə əsasən öz səlahiyyətləri çərçivəsində hərəkət etməlidirlər;

- cinayətlər və hadisələr barədə məlumatların yoxlanılmasını, məhkəməyədək sadələşdirilmiş icraatın və cinayət işləri təxirəsalınmaz istintaq hərəkətlərinin vaxtında və keyfiyyətli yerinə yetirilməsini təmin edir, Cinayət-

Prosessual Məcəllənin tələblərinə müvafiq prosessual qərarlar qəbul edir;

- təhqiqatçı cinayət işinin başlanmasının rədd edilməsi və cinayət təqibinə xitam verilməsi barədə qəbul etdiyi qərarla aidiyyətli polis bölməsinin rəisinə imza etdirməklə, tanış edir və qərarı təhqiqat orqanının rəhbərinə təqdim edir, təhqiqat orqanının rəhbəri təhqiqatçının qəbul etdiyi qərarla razı olduqda onu imzalayır;

- təhqiqatçının qəbul etdiyi qərarla razılaşmadıqda təhqiqat orqanının rəhbəri, bilavasitə aidiyyəti polis bölməsinin rəisi isə təhqiqat orqanının rəhbəri vasitəsilə həmin qərarın ləğv edilməsi barədə prokuror qarşısında vəsatət qaldırır.

Azərbaycan Respublikası DİN-in 59 nömrəli 17.10.2006-cı il tarixli Göstərişinə əsasən «Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə cinayət təqibinin həyata keçirilməməsinə imkan verən halların tətbiqinə dair tələb olunur ki, zərər çəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması ilə əlaqədar cinayət təqibinin həyata keçirilməməsi və başlanmış cinayət təqibinə xitam verilməsi barədə Azərbaycan Respublikası Cinayət-

Prosessual Məcəlləsinin 37.4, 40.2.2-ci və Cinayət Məcəlləsinin 73-cü maddələrində nəzərdə tutulmuş müddəaların müstəntiqlər, təhqiqatcılar, habelə aidiyyəti əməkdaşlar tərəfindən düzgün tətbiq edilsin, böyük ictimai təhlükə törətməyən qəsdən sağlamlığa yüngül zərər vurma və döymə cinayətləri üzrə ilkin araşdırma aparılarkən zərərçəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması nəticəsində cinayət təqibinə xitam verilməsi barədə

qanunvericiliklə nəzərdə tutulmuş müddəaların mahiyyətini proses iştirakçılarına ətraflı izah edilməsinə xüsusi dliqqət yetirilsin, böyük ictimai təhlükə törətməyən cinayətlərə aid edilən qəsdən sağlamlığa yüngül zərərvurma və döymə cinayətlərinin araşdırılması prosesində cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar daha geniş tətbiq olunsun və belə halların tətbiqi zamanı qanunculuğa ciddi riayət olunması ərazi polis orqanlarının və aidiyyəti xidmət rəislərinin xüsusi nəzarətində saxlanılması qeyd olunub.

Bunlardan əlavə DİN-in 50 nömrəli 08 avqust 2006-cı il tarixli «Göstərişində» birbaşa qeyd olunur ki, (DİO-da təhqiqat işinin səmərəliliyinin artırılması üzrə əlavə tədbirlər barədə) böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın vaxtında acılması və qanunla müəyyən edilmiş müddətdə tamamlayaraq yekun protokolu ilə məhkəməyə göndərilməsi təmin edilsin, sadələşdirilmiş icraat materialları üzrə süründürməçilik hallarının qarşısının alınması, törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatlara baxılması, onların tam və hərtərəfli araşdırılması, materiallar üzrə obyektiv prosessual qərarların qəbul edilməsi və təhqiqat işinin təşkilində nəzarətin gücləndirilməsi barədə ətraflı məlumatlar öz əksini tapmışdır.

## 3.3. İbtidai istintaqı məcburi olan cinayət işləri üzrə təhqiqatın aparılması.

Təhqiqatın bir növü kimi ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı qaydasında təhqiqat prosessual fəaliyyətdir, ciddi surətdə cinayət prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada, həddə və qanuna uyğun surətdə həyata keçirilir.

Təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqiqat cinayətin izlərinin müəyyən edilməsi və rəsmiləşdirilməsi məqsədilə aparılır. Təhqiqatı bu şəkildə apararkən CPM-in 147, 148, 153, 207, 209, 210, 226-232, 234, 236, 238-247, 264, 268-270, 273-276-cı maddələrinin müddəalarına müvafiq olaraq təhqiqatçı:

- cinayət işini başlayır və bu barədə dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir;

- şübhəli şəxsi tutmaq, onun, zərər çəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, müayinə (şəxsi müayinə) və götürmə kimi istintaq hərəkətlərini aparır;

- cinayət işinin başlanmasından sonra 10 gündən gec olmayaraq sonrakı araşdırmanın aparılması üçün cinayət işini istintaq orqanına göndərir;

- cinayət işinin başlanmasından 10 gün keçdikdən sonra müstəntiq və ya ibtidai araşdırmanı həyata keçirən.prokurorun tapşırığı ilə ayrı-ayrı istintaq hərəkətlərini aparır və ya əməliyyat-axtarış tədbirlərini

həyata keçirir;

- cinayət işinin başlanmasından 10 gün keçdikdən sonra cinayət-açılmamış qalarsa, cinayəti törətmiş şəxsin müəyyən və aşkar edilməsi, tutulması və müstəntiqə təhvil verilməsinə dair tədbirlər görür (CPM-in 214.3-cü maddəsi).

Öz səlahiyyətləri daxilində istintaq hərəkətlərini apararkən təhqiqatçı aparılan təhqiqatın növündən asılı olmayaraq müvafiq istintaq hərəkətlərinin keçirilməsi qaydasını nəzərdə tutan CPM-in maddələrinin tələblərinin yerinə yetirilməsini təmin etməklə müstəntiqin hüquqlarından istifadə edir və onun vəzifələrini yerinə yetirir (CPM-in 214.6-cı maddəsi).

Cinayət prosessual qanunvericiliyinə əsasən CPM-də nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı aşağıdakı hüquqları həyata keçirir:

- hadisənin şahidlərinin izahatını almaq, hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək;

- şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə) üzləşdirmə, istintaq eksperimenti kimi təxirəsalınmaz istintaq hərəkətlərini aparmaq;

- dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək; şəxslərin razılığı ilə onları müvafiq istintaq hərəkətlərinə hal şahidi, tərcüməçi, mütəxəssis və ya ekspert qismində cəlb etmək;

- dövlət orqanlarından və ya auditor təşkilatlarından

təftişlərin, inventarlaşdırmalarm, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək;

- müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

- müdafiəçinin cinayət işinin icraatında iştirakını istisna edən hallar müəyyən edildikdə, onun cinayət işinin icraatında iştirak etməkdən kənarlaşdırılması barədə prokuror qarşısında vəsatət vermək;

- hal şahidinə, tərcüməçiyə, mütəxəssisə və ya ekspertə edilmiş etirazlara baxmaq;

- cinayət prosesində iştirak edən şəxslərin vəsatətlərinə və cinayət işinin icraatı ilə əlaqədar digər şəxslərin ərizə və digər müraciətlərinə baxmaq;

- cinayət prosesində iştirak edən şəxslərin şikayətlərinə baxmaq;

- məhkəmənin müstəsna səlahiyyətlərinə aid olanlar istisna edilməklə, qətimkan tədbirlərinin seçilməsi, dəyişdirilməsi, ləğv edilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması barədə qərarlar qəbul etmək;

- cinayət işinin icraatına xitam verilməsi barədə qərar qəbul etmək və təsdiq olunması üçün prokurora təqdim etmək;

- CPM-də nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək (CPM-in 86.4-cü maddəsi).

Təhqiqatçı CPM-in 86.2-ci.maddəsində nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;
- şübhəli şəxsə tutulduğu andan hüquqlarını bildirmək və tutulmasının səbəblərini izah etmək;
- şəxsin tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək;
- zərurət olduqda CPM-in 154-156,160,165-172-ci maddələrinin tələblərinə müvafiq olaraq şübhəli şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək;
- qanuni əsaslar olmadan və ya CPM-in 148.4, 148.6, 148.7, 150.3 və 151.5-ci maddələrində nəzərdə tutulmuş müddətlərdən artıq tutulan şəxsi azad etmək;
- müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı və ya mülki cavabdeh qismində tanımaq;
- cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün tədbirlər görmək;
- CPM-in 193-cü maddəsinə uyğun olaraq tutulmuş şübhəli şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;
- prokurorun və müstəntiqin göstərişlərini və qərarlarını icra etmək;

- prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;

- ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərini apardıqdan sonra cinayət işi başlanmasından 10 gündən gec olmayaraq iş üzrə bütün materialları istintaq aidiyyəti qaydalarına uyğun olaraq istintaq orqanına göndərmək;

- şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

- böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə sadələşdirilmiş icraat şəklində aparılmış təhqiqat materiallarını təhqiqat başlanmasından 10 gündən, CPM-in 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 20 gündən gec olmayaraq yekun protokolu ilə prokurora göndərmək;

- CPM-də nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Təhqiqat orqanının rəhbəri təhqiqat orqanı əməkdaşlarının CPM ilə müəyyən edilmiş hüquq və vəzifələrinin həyata keçirilməsini, məhkəmənin, prokurorun, müstəntiqin və təhqiqatçınm qərar, göstəriş və ya tapşırıqlarının icrası üçün müvafiq tədbirlər görülməsini təşkil edir, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiqini yoxlamaq imkanını təmin edir.[1]

[1] Seyfulla Aslanov. İbtidai istintaq. Bakı,  Qanun nəşriyyatı, 2015. Səh.85-86

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılan təhqiqatı ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı şəklində aparılan təhqiqatdan fərqləndirmək lazımdır. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın (CPM-in 214.1.2-ci maddəsi) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı şəklində təhqiqatdan (CPM-in 214.1.1-ci maddəsi) başlıca fərqi ondan ibarətdir ki, birinci halda həmin işlər üzrə sübutların toplanması, işin zəruri hallarının tam, obyektiv, hərtərəfli və təxirə salınmadan araşdırılması CPM-in 295-ci maddəsinə uyğun olaraq, cinayət işi başlanılmadan həyata keçirilir. Cinayət prosesinin qeyd edilən mərhələsində cinayəti törətmiş şəxsə ittiham elan olunmur. CPM-in 296-cı maddəsinə uyğun olaraq ibtidai araşdırmanın yekun sənədi kimi ittiham aktı deyil, yekun protokolu tərtib edilir (CPM-in 295-296-cı maddələri).

İbtidai istintaqı məcburi olan cinayət işləri üzrə təhqiqatın aparılmasının anlayışı və əhəmiyyətindən danışarkən qeyd etməliyik ki, ibtidai istintaq geniş mənada iki formada - ibtidai istintaq və təhqiqat formasında başa düşülür. Bəzi cüzi istintaq və təhqiqat fərqlərini nəzərə almaqla, ibtidai istintaqın aparılmasını nizama salan prosessual normalar eynilə təhqiqata da aiddir. İbtidai istintaq geniş mənada, ya təhqiqat, ya da həm təhqiqat və həm də istintaq yolu ilə aparıla bilər.

İbtidai istintaq sözün dar mənasında istintaqın ali və yüksək formasıdır. Bundan fərqli olaraq, təhqiqat cinayət işlərinin istintaqının ilk mərhələsidir.

**Təhqiqat -** ibtidai istintaqın müvəffəqiyyətlə başa çatdırılması məqsədi ilə istintaqı cinayətin təzə izləri üzrə toplanmış və qeyd olunmuş ilk materiallarla təmin edir.[1] Çox az miqdarda cinayət işlərində isə təhqiqat ibtidai istintaqı əvəz edir. Belə hallarda təhqiqat materialları prokurorun istintaqından sonra, işə mahiyyəti üzrə baxılmaq üçün bilavasitə məhkəməyə göndərilir. Bununla bərabər hər bir cinayət işinin istintaqı təhqiqat aparılmadan, əvvəldən axıra qədər ibtidai istintaq formasında aparıla bilər.

Azərbaycan Respublikası CPM-in 214-cü maddəsinə əsasən, cinayət işləri üzrə təhqiqatın aparılması nəzərdə tutulub.

Təhqiqat ibtidai araşdırmanın növü kimi aşağıdakı şəkildə aparılır:

- ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı;
- böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Cinayət işləri üzrə təhqiqatı aşağıdakı təhqiqat orqanları və şəxslər aparırlar:

1. Azəbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının (təhqiqat orqanlarının) təhqiqatçıları;

---

[1] Səyyad Ağayev, Eldar Salayev, Anar Mikayılov - "DİO-da təhqiqat", dərs vəsaiti, Bakı, 2010, s.67

- Azərbaycan Respublikasının həmin müvafiq icra hakimiyyəti orqanları müstəntiqlərinin səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə.

2. Rəhbərlik etdikləri hərbi hissələrin, hərbi idarələrin, cəzaçəkmə müəssisələrinin, həbsdə saxlanılma yerlərinin, dəniz gəmilərinin yerləşdiyi ərazidə (ərazi üzrə) törədilmiş cinayətlərə dair cinayət işləri üzrə- müvafiq olaraq təhqiqatçı səlahiyyətlərini həyata keçirən hərbi hissə komandirləri, hərbi idarə rəisləri, cəzaçəkmə müəssisələrinin və ya həbsdə saxlanılma yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər;

3. Əks-kəşfiyyat fəaliyyətinin təminatını həyata keçirən hərbi hissələrdə, hərbi idarələrdə təhlükəsizlik orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə - müvafiq icra hakimiyyəti orqanlarının təhqiqatçıları.

Təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqiqat cinayətin izlərinin müəyyən edilməsi və rəsmiləşdirilməsi məqsədilə aparılır.

Təhqiqatı bu şəkildə apararkən Azərbaycan Respublikası CPM-in 147, 148, 153, 207, 209, 210, 226-232, 234, 236, 238-247, 264-270, 273-276-cı maddələrinin müddəalarına müvafiq olaraq təhqiqatçı:

- cinayət işini başlayır və bu barədə dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir;

- şübhəli şəxsi tutmaq, onun, zərər çəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, baxış (şəxsi müayinə) və götürmə kimi istintaq hərəkətlərini aparır;

- cinayət işinin başlanmasından sonra 10 (on) gündən gec olmayaraq, sonrakı araşdırmanın aparılması üçün cinayət işini istintaq orqanına göndərir;

- cinayət işinin başlanmasından 10 (on) gün keçdikdən sonra müstəntiq və ya ibtidai araşdırmanı həyata keçirən prokurorun tapşırığı ilə ayrı-ayrı istintaq hərəkətlərini aparır və ya əməliyyat-axtarış tədbirlərini həyata keçirir;

- cinayət işinin başlanmasından 10 (on)gün keçdikdən sonra cinayət açılmamış qalarsa, cinayət törətmiş şəxsin müəyyən və aşkar edilməsi, tutulması və müstəntiqə təhvil verilməsinə dair tədbirlər görür. Demək olar ki, cinayət prosesində təhqiqatla ibtidai istintaq arasında elə bir prinsipial fərq yoxdur. Çünki ibtidai istintaq kimi təhqiqat da, cinayət prosesinin ümumi prinsiplərinə və tələblərinə əsaslanan prosessual fəaliyyətdir. Hər iki fəaliyyət nəticəsində əldə edilən məlumatlar isə məhkəmə sübutları kimi qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, istər ibtidai istintaqın, istərsə də təhqiqatın qarşısında duran vəzifə eyni olub, əsasən cinayətin qarşısının alınması və və cinayət törətmiş şəxsləri məsuliyyətə cəlb etməyə yönəlmişdir. Lakin təhqiqat və ibtidai istintaqın arasında ümumi oxşar cəhətlərlə yanaşı, bunları bir-birindən fərqləndirən bir sıra əlamətlər də vardır. Bu əlamətlər əsasən aşağıdakılardır:

a) ibtidai istintaq qanunla qabaqcadan müəyyən edilmiş vəzifəli şəxs olan müstəntiq tərəfindən aparılır. İstintaq aparmaq, cinayətin edilməsinə kömək edən şəraiti və səbəbi aşkar etmək müstəntiqin əsas və yeganə vəzifəsidir. Lakin təhqiqat aparmaq buna səlahiyyəti olan inzibati

idarənin funksiyasının həyata keçirilməsində yeganə hal deyil, yalnız onun bir formasıdır;

b) ibtidai istintaq orqanları öhdəsinə düşən vəzifələri yerinə yetirərkən yalnız prosessual vasitələrdən istifadə edir.

Həmin orqanlar yalnız prosessual fəaliyyətlə məşğul olurlar. Təhqiqat orqanlarının fəaliyyəti isə, həm prosessual, həm də qeyri-prosessual fəaliyyətlə xarakterizə olunur. Belə ki, təhqiqat orqanları istintaq hərəkətlərini aparmaqla yanaşı, əməliyyat-axtarış tədbirlərini də həyata keçirirlər.

c) ibtidai istintaq öz prosessual rejiminə görə də təhqiqatdan fərqlənir;

d) təhqiqat və ibtidai istintaq bu prosesi aparan şəxslərin prosessual müstəqillik dərəcəsi ilə də bir-birindən fərqlənir. Təhqiqat orqanlarından fərqli olaraq, qanun müstəntiqə prosessual cəhətdən daha çox müstəqillik verir.

CPM-in 85-ci maddəsində qeyd edilir ki, məhkəmənin qərarı alması qanunda nəzərdə tutulan hallardan başqa, ibtidai istintaqı apararkən istintaqın istiqaməti və istintaq hərəkətlərinin aparılması haqqında bütün qərarları müstəntiq müstəqil surətdə qəbul edir, bu qərarların qanuni olması və vaxtında yerinə yetirilməsi üçün tam məsuliyyət daşıyır.

Təhqiqat və ibtidai istintaqda təqsirləndirilən şəxsi məhkəməyə vermək üçün cinayət işinin faktiki halları dəqiq, tam və hərtərəfli tədqiq edilir. İbtidai istintaq yolu ilə cinayətlərin açılması, cinayət törətməkdə təqsiri olan şəxsləri cinayət məsuliyyətinə cəlb edilməsi və beləliklə, işin məhkəmədə mahiyyəti üzrə baxılmasına tam şərait yaradılması təmin edilir. Bu baxımdan ədalət mühakiməsinin

vəzifələrinin həyata keçirilməsində ibtidai istintaq orqanlarının fəaliyyəti mühüm əhəmiyyətə malikdir.

İbtidai istintaqı məcburi olan cinayət işləri üzrə təhqiqat apararkən, təhqiqatçının hüquq və vəzifələri - ibtidai istintaq və ya təhqiqat şəklində ibtidai araşdırma (hadisə yerinə baxış keçirilməsindən başqa bütün istintaq hərəkətləri daxil olmaqla) yalnız cinayət işinin başlanması haqqında qərar çıxarıldıqdan sonra aparılır.

Cinayət işinin başlanmasından sonra müstəntiq və ya təhqiqatçı CPM-in 85 və 86-cı maddələrində nəzərdə tutulmuş səlahiyyətlərinə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişinə əsasən, onu öz icraatına qəbul edir və müvafiq qərar çıxarmaqla, iş üzrə ibtidai araşdırmaya başlayır. Cinayət işi eyni müstəntiq və ya təhqiqatçı tərəfindən başlandıqda və onlar tərəfindən öz icraatına qəbul edildikdə, cinayət işinin başlanması və onun öz icraatına qəbul edilməsi haqqında vahid qərar tərtib edilir.

Azərbaycan Respublikası CPM-in 86.4-cü maddəsində nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı aşağıdakı hüquqları həyata keçirir:

1) hadisənin şahidlərinin izahatını almaq, hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək;

2) şübhəli şəxsi tutmaq, onu, zərərçəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə) kimi təxirəsalınmaz istintaq hərəkətlərini aparmaq;

3) dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək, şəxslərin razılığı ilə onları müvafiq istintaq hərəkətlərinə hal şahidi, tərcüməçi, mütəxəssis, yaxud da ekspert qismində cəlb etmək;

4) dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək;

5) müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

6) müdafiəçinin cinayət işinin icraatında iştirakını istisna edən hallar müəyyən edildikdə, onun cinayət işinin icraatında iştirak etməkdən kənarlaşdırılması barədə prokuror qarşısında vəsatət qaldırmaq;

7) hal şahidinə, tərcüməçiyə, mütəxəssisə və ya ekspertə edilmiş etirazlara baxmaq.

Hal şahidinə etiraz məsələsini istintaq hərəkətlərini aparan şəxs həll edir. CPM-in 117.1 -ci maddəsinə əsasən, tərcüməçi və mütəxəssis CPM-in 109.1.3- 109.1.8-ci maddələrində nəzərdə tutulmuş hallardan hər hansı biri mövcud olduqda, habelə onlar qanuna və ya məhkəmənin hökmünə əsasən, tərcüməçi və ya mütəxəssis olmağa haqlı deyilsə, cinayət prosesində iştirak edə bilməzlər. Şəxsin tərcüməçi və ya mütəxəssis qismində cinayət prosesində əvvəlki iştirakı onun müvafiq qisimdə bundan sonrakı cinayət prosesində iştirakını istisna etmir.

Tərcüməçiyə və ya mütəxəssisə etiraz aşağıdakı qaydada həll edilir:

- təhqiqat və ya ibtidai istintaq aparılarkən müvafiq olaraq təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən;

- cinayət işinə və ya digər materiala hakim tərəfindən təkbaşına və ya andlı iclasçıların iştirakı ilə baxılarkən məhkəmə iclasında sədrlik edən şəxs tərəfindən.

Ekspert aşağıdakı hallarda cinayət prosesində iştirak edə bilməz:

- CPM-in 109.1.3-109.1.8-ci maddələrində nəzərdə tutulmuş halların hər hansı biri mövcud olduqda;

- qanuna və ya məhkəmənin hökmünə əsasən, onun ekspert olmaq hüququ olmadıqda;

- o, təftiş, yaxud digər yoxlama hərəkətləri aparmışdırsa və nəticədə bunlar cinayət işinin başlanmasına əsas olmuşdursa.

Ekspertə etiraz aşağıdakı qaydada həll edilir:

- ibtidai istintaq və ya təhqiqat aparılarkən müvafiq olaraq təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən;

- cinayət işinə və ya digər materiala məhkəmədə hakim tərəfindən təkbaşına və ya andlı iclasçılar tərəfindən baxılarkən məhkəmə iclasında sədrlik edən şəxs tərəfindən;

- cinayət işinə məhkəmədə kollegial tərkibdə baxılarkən məhkəmə tərkibi tərəfindən.

8) cinayət prosesində iştirakedən şəxslərin vəsatətlərinə və cinayət işinin icraatı ilə əlaqədar digər şəxslərin ərizə və digər müraciətlərinə baxmaq;

9) cinayət prosesində iştirak edən şəxslərin şikayətlərinə baxmaq;

10) məhkəmənin müstəsna səlahiyyətlərinə aid olanlar istisna edilməklə, qətimkan tədbirlərinin seçilməsi,

dəyişdirilməsi, ləğv edilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması barədə qərarlar qəbul etmək;

11) cinayət işinin icraatına xitam verilməsi barədə qərar qəbul etmək və təsdiq olunması üçün prokurora təqdim etmək.

12) CPM-in maddələrində nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

Təhqiqatçı öz icraatında olan işlə əlaqədar, qeyri- aşkar üsullarla əməliyyat-axtarış tədbirləri keçirməyə haqlı deyil.

Cinayət işi prokuror və ya müstəntiq tərəfindən icraata qəbul olunduqdan sonra, təhqiqatçı ayrı-ayrı istintaq hərəkətlərini, habelə müvafiq əməliyyat-axtarış tədbirlərini yalnız prokurorun və ya müstəntiqin göstərişləri ilə işlədiyi təhqiqat orqanı vasitəsilə həyata keçirir.

Təhqiqat orqanının rəhbəri CPM-in tələblərinə əməl edərək, öz səlahiyyətləri daxilində:

- törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyatını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə təhqiqatın və ya ayrı-ayrı istintaq hərəkətlərnin aparılmasını təhqiqatçıya, yaxud təhqiqatçılar qrupuna tapşırır;

- təhqiqatçının cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə nəzarəti həyata keçirir;

- öz səlahiyyətləri daxilində fəaliyyət göstərən prokurorun, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiqini yoxlamaq imkanını təmin edir, habelə prokurorun və müstəntiqin göstərişlərinin

və qərarlarının icrası üçün müvafiq tədbirlər görülməsini təşkil edir;

- məhkəmə qərarlarının yerinə yetirilməsini təşkil edir.

Təhqiqat orqanının əməkdaşı CPM-in tələblərinə əməl edərək, öz səlahiyyətləri daxilində:

- cinayət qanunu ilə nəzərdə tutulmuş əməllərin qarşısının alınması üçün tədbirlər görür;
- cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törədən şəxsləri və şübhəli şəxsləri tutur;
- tutduğu yerdə şəxsin üstünü yoxlayır, tutulan şəxsə onun hüquqlarını izah edir.

Hadisə yerinin mühafizəsi, cinayət izlərinin qorunması, hadisəni görən şəxslərin müəyyən edilib, izahatlarının alınması üçün lazımi tədbirlər görür.

Hadisə yerində digər prosessual hərəkətlərin həyata keçirilməsi üçün müstəntiqin və ya prokurorun göstərişlərini yerinə yetirir.

Cinayət təqibini həyata keçirən təhqiqatçı qanunun tələblərini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qanuni göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, öz səlahiyyətləri daxilində istintaq və digər prosessual hərəkətləri həyata keçirir.

Təhqiqatçı CPM-də nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

1) törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına qəbul etmək, cinayətin açılması, işin hərtərəfli, tam

və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və digər prosessual hərəkətləri həyata keçirmək;

2) şübhəli şəxsə tutulduğu andan hüquqlarını bildirmək və tutulmasının səbəblərini izah etmək;

3) şəxsin tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək (CPM-in 153.2.5-153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq);

4) zərurət olduqda CPM-in 154-156, 160, 165- 172-ci maddələrinin tələblərinə müvafiq olaraq, şübhəli şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək;

5) qanuni əsaslar olmadan və ya 48 saatdan artıq tutulan şəxsi azad etmək;

6) müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı və ya mülki cavabdeh qismində tanımaq;

7) cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün tədbirlər görmək;

8) CPM-in 193-cü maddəsinə uyğun olaraq tutulmuş şübhəli şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;

9) prokurorun və müstəntiqin göstərişlərini və qərarlarını icra etmək;

10) prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;

11) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərini apardıqdan sonra, cinayət işinin başlanılmasmdan 10 (on) gündən gec olmayaraq, iş üzrə bütün materialları istintaq aidiyyatı

qaydalarına uyğun olaraq istintaq orqanına göndərmək;

12) şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər işlərə toxunan hallar barədə məlumatları yaymamaq;

13) böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə sadələşdirilmiş icraat şəklində aparılmış təhqiqat materiallarını təhqiqat başlanmasından 10 (on) gündən gec olmayaraq, yekun protokolu ilə prokurora göndərmək.

14) Azərbaycan Respublikasının CPM-də nəzərdə tutulmuş digər vəzifələri də yerinə yetirir.

Cinayət təqibini həyata keçirən təhqiqatçı səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətərin qanuni və vaxtında aparılmamasına görə məsuliyyət daşıyır.

*İbtidai istintaqı məcburi olan cinayət işləri üzrə təhqiqatçı tərəfindən təxirəsalınmaz istintaq hərəkətlərinin keçirilməsinin əsasları və prosessual qaydası.*

İbtidai istintaqı məcburi olan cinayətlər üzrə təhqiqat son zamanlar çox geniş keçirilir. Bu təhqiqatı çox zaman aşağıdakı orqanlar həyata keçirir:

- Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının (təhqiqat orqanlarının) təhqiqatçıları;

- Azərbaycan Respublikasının həmin müvafiq icra hakimiyyəti orqanları müstəntiqlərinin səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə;

- rəhbərlik etdikləri hərbi hissələrin, hərbi idarələrin, cəzaçəkmə müəssisələrinin, həbsdə saxlanılma yerlərinin, dəniz gəmilərinin yerləşdiyi ərazidə (ərazi üzrə) törədilmiş cinayətlərə dair cinayət işləri üzrə müvafiq olaraq təhqiqatçı səlahiyyətlərini həyata keçirən hərbi hissə komandirləri,

hərbi idarə rəisləri, cəzaçəkmə müəssisələrinin və ya həbsdə saxlanılma yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər;

- əks-kəşfiyyat fəaliyyətinin təminatını həyata keçirən hərbi hissələrdə, hərbi idarələrdə təhlükəsizlik orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə müvafiq icra hakimiyyəti orqanlarının təhqiqatçıları.

Praktikada məlumdur ki, əksər hallarda hazırlanan və ya törədilmiş cinayət haqqında ilkin məlumatlara dərhal reaksiya verilə bilər. Bunu nəzərə alaraq, qanunvericilik təhqiqat orqanlarına cinayətin əlamətləri olduqda cinayət işi başlamağı və təxirəsalınmaz istintaq hərəkətləri aparmağı həvalə edir.

Təhqiqatın başlanması haqqında ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verilir. Azərbaycan Respublikası CPM-in 85-ci maddəsinə görə, müstəntiq ona cinayət işinin nə vaxt veriləcəyini gözləməməli, təhqiqat orqanı tərəfindən iş qaldırılması haqqında məlumat alan zaman bu işin aidiyyətini müəyyənləşdirməli, səlahiyyəti çatarsa, onu öz icraatına qəbul etməli və istintaq hərəkətlərinin keçirilməsinə başlamalıdır.

Prokurorun göstərişi və özünün təşəbbüsü ilə müstəntiq istənilən ilkin istintaq hərəkətlərinin qurtarmasını gözləmədən, işi öz icraatına qəbul edə bilər. Təxirəsalınmaz hərəkətlərin keçirilməsini qanun müəyyən edir. Bu təxirə salınmaz istintaq hərkətlərinin keçirilməsi cinayətin izlərinin aşkar edilməsi, saxlanılması və möhkəmləndirilməsinə yönəlmişdir.

Onlara aiddir:

1) baxış;
2) götürmə;
3) axtarış;
4) şəxsi müayinə;
5) mülki iddiaçının, mülki cavabdehin dindirilməsi;
6) şübhəli şəxsi tutmaq və dindirmək;
7) şahidin dindirilməsi;
8) zərərçəkmiş şəxsin dindirilməsi.

Təhqiqat orqanlarının apardıqları təxirəsalınmaz istintaq hərəkətləri içərisində şübhəli şəxslərin tutulması və onların dindirilməsi mühüm yer tutur. Təhqiqat orqanları və təhqiqat aparan şəxs bir tərəfdən isə ibtidai istintaq məlumatlarının yayılmaması üçün tədbir görməli, istintaq hərəkətlərinin keçirilməsində texniki vasitələrin tətbiqi, imza etməkdən imtina etməni müəyyənləşdirmə və ya istintaq hərəkəti protokoluna imza etmənin mümkün olmasını qeyd etmə, dindirmə zamanı səsyazma vasitələrinin tətbiqi, iş üçün əhəmiyyətli olan vasitələrin təmin edilməsi qaydalarını bilməli və bunlara riayət etməlidir.

Təxirəsalınmaz istintaq hərəkətləri keçirərkən təhqiqat aparan şəxs cinayətin izlərini aşkar etmək və möhkəmləndirmək,cinayət törətməkdə şübhəli şəxsi tutmaq, cinayətin törədilməsinə kömək etmiş səbəb və şəraiti kənarlaşdırmaq üçün tədbirlər görməlidir.

Cinayət törədilməsinə kömək edən səbəb və şəraitin üzə çıxarılması üçün təxirəsalınmaz hərəkətlər o halda keçirilir ki, bu səbəb və şəraiti öyrənmək, yeni cinayətlərin qarşısını almaq üçün mümkün olsun.

Təhqiqatı aparan şəxs bu fəaliyyətə cəlb edilmiş vətəndaşlara hüquqlarını izah etməli və bu hüquqları təmin etməlidir. Təhqiqat orqanı təxirəsalınmaz istintaq hərəkətləri keçirərkən mülki iddia və ola biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün tədbirlər görməlidir. Təhqiqat aparılarkən, proses iştirakçılarının etiraz etmələri barəsindəki qaydalara riayət olunmalıdır. Əgər təhqiqat aparan şəxsin işin nəticəsi ilə düzünə və yanakı marağı olmasını təsdiq edən hallar varsa, onda o, bu işin istintaqında iştirak edə bilməz və özü etiraz etməlidir. Təhqiqat aparan şəxsə prosesin digər iştirakçıları:

- şübhəli şəxs, zərərçəkmiş, mülki iddiaçı və cavabdeh, müdafiəçi tərəfindən etiraz edilmişsə, onda o, bu barədə dərhal prokurora məlumat verir və prokuror yaranmış problemi həll edir.

Təhqiqat aparan şəxsə etiraz etmə - cinayət işi qaldırıldıqdan sonra və ya təxirəsalınmaz istintaq hərəkətləri keçirilərkən verilir. Etiraz etmə üçün əsaslar CPM-in 107-ci maddəsində göstərilmişdir. Etiraz etmə haqqında ərizə motivli olmalıdır. Bu ərizə prokurora göndərilir və 24 saat ərzində prokuror mahiyyəti üzrə onu həll etməlidir. Bu barədə prokuror əsaslı qərar çıxarır və bu qərardan yuxarı prokurora şikayət verilə bilər. İbtidai istintaqı aparılması məcburi olan cinayət işləri üzrə icraatına qəbul etmək haqqında qərar barədə dərhal prokurora məlumat verməlidir. Təhqiqat orqanı cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək, habelə cinayətkarın axtarışını təşkil etmək məqsədi ilə təxirəsalınmaz istintaq hərəkətləri keçirdikdən sonra, istintaq aidiyyəti üzrə aparılması üçün işi

müstəntiqə göndərməlidir. Belə təxirəsalınmaz istintaq hərəkətləri tezliklə icra edilməli və 10 (on) gün müddətində qurtarmalıdıır. Təhqiqat orqanlarının təxirəsalınmaz istintaq hərəkətlərinin aparılmasındakı gecikmə halları cinayətin izlərinin pozulmasına və ya məhv olmasına, cinayət etməkdə şübhəli şəxsin istintaqdan gizlənməsinə səbəb olmaqla bərabər, cinayətin açılmasını və cinayət etmiş şəxsin ifşa olunmasını ciddi qorxu altına ala bilər.

CPM-in 214-cü maddəsinə əsasən, təhqiqat orqanlarına müayinə, axtarış, götürmə, şəxsi müayinə, şübhəli şəxsləri tutma və dindirmə vəzifələri, zərərçəkmiş şəxsləri və şahidləri dindirmə kimi təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması həvalə edilmişdir. Həmin hərəkətlər ibtidai istintaq orqanları üçün cinayət- prosessual qanunla müəyyən edilmiş qaydalar rəhbər tutulmaqla aparılmalıdır. Təhqiqat orqanlarının apardıqları təxirəsalınmaz istintaq hərəkətləri içərisində şübhəli şəxslərin tutulması və onların dindirilməsi mühüm yer tutur. Tutma-prosessual məcburiyyət tədbirinin bir növü olub, cinayət etməkdə şübhəli şəxsin, əgər həmin əməl üstündə qanunda azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulursa, qısamüddətli (48 saat) həbsə alınmasından ibarətdir. Şübhəli şəxsi tutma, onun tərəfindən cinayət əməlinin davam etdirilməsinin qarşısını alma və onun barəsində cinayət işinin qaldırılması məqsədini daşıyır.

Azərbaycan Respublikası CPM-in 148-ci maddəsinə əsasən, şəxsin cinayət törətməsinə bilavasitə şübhə yarandıqda, təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror onun tutulmasını aşağıdakı hallarda tətbiq edə bilər:

1) şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törədərkən, yaxud bilavasitə bundan sonra cinayət başında yaxalandıqda;

2) zərərçəkmiş, yaxud hadisəni görən digər şəxslər cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərdikdə;

3) şəxsin bədənində, üstündə, paltarında və ya istifadə etdiyi digər əşyalarda, yaşayış yerində, nəqliyyat vasitəsində cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsini göstərən aşkar izlər müəyyən olunduqda.

Şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsindən şübhələnməyə əsas verən digər məlumatlar olduqda o, təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror tərəfindən aşağıdakı hallarda tutula bilər:

-hadisə yerindən qaçıb gizlənməyə, yaxud cinayət prosesini həyata keçirən orqandan gizlənməyə cəhd göstərdikdə;

-daimi yaşayış yeri olmadıqda;

-şəxsiyyəti müəyyən edilmədikdə.

Beləliklə, cinayət-prosessual qanunvericiliyinə əsasən, həbsə alma, yuxarıda qeyd olunan əsaslardan hər hansının mövcud olması şərtilə yalnız cinayəti etməkdə şübhəli şəxsin əməldə qanunla azadlıqdan məhrumetmə şəklində cəza nəzərdə tutularsa, tətbiq edilə bilər. Qanunda azadlıqdan məhrumetmə şəklində cəza nəzərdə tutulmayan cinayət işləri üzrə həbsə alma yolverilməzdir.

CPM-in 153-cü maddəsində nəzərdə tutulmuşdur ki, bütün tutulma hallarında təhqiqat orqanı dərhal protokol

tərtib etməlidir. Protokolda tutulan şəxsin adı, soyadı, atasının adı, anadan olduğu yer, ay, il, gün, tutulanın şəxsiyyəti, tutulma şəraiti, yeri və vaxtı (il, ay, gün və saat), haqqındakı digər məlumatlar, tutulmuş şəxs tərəfindən ətraflı təsvir edilməlidir. Tutulma zamanı protokol iştirak edən şəxslər tərəfindən imzalanır. Qanunvericilik həbsə almanın qanuni və əsaslı olmasını təmin etmək məqsədi ilə müəyyən edir ki, təhqiqat orqanı cinayət etməkdə şübhəli şəxsi tutmanın bütün halları barədə 24 (iyirmi dörd) saat ərzində prokurora məlumat verməlidir. Belə qərar qəbul olunsa da, şəxsin tutulması 48 saatdan artıq davam edə bilməz.

Tutulmuş şəxsə tutulduğu andan 48 saat keçənədək, ittiham elan edilməli, o, məhkəməyə gətirilməli, məhkəm işə təxirəsalınmadan baxmalı və onun haqqında həbs qətimkan tədbirinin seçilməsi və ya onun azad edilməsi haqqında qərar çıxarmalıdır.

Azərbaycan Respublikasının CPM-in 232-ci maddəsinə əsasən, şübhəli şəxsin dindirilməsi onun tutulmasından və ya barəsində qətimkan tədbirinin tətbiq edilməsi barədə qərar ona elan edildikdən dərhal sonra aparılır.

Yadda saxlamaq lazımdır ki, ifadə vermək şübhəli şəxsin yalnız hüququdur. Təqsirləndirilən şəxsin dindirilməsində olduğu kimi, şübhəli şəxsdən də hədə- qorxu gəlməklə və ya vədlər verməklə ifadə almaq qadağan edilir.

Dindirmədən qabaq şübhəli şəxsə izah edilməlidir kı, onun təhqiqat aparan şəxsin, müstəntiqin və ya prokurorun hərəkətlərindən şikayət etməyə, izahatlar verməyə və vəsatətlər qaldırmağa hüququ vardır. Ona hansı cinayət

etməkdə şübhələnildiyi elan edilməli və bu barədə dindirmə protokolunda qeyd olunmalıdır.

Şübhəli şəxs cinayətin halları, habelə onun şəxsiyyətini müəyyən etmək üçün zəruri olan hallar haqqında və iş üzrə zəruri olan hallar haqqında dindirilə bilər. Bu barədə tərtib edilən protokolda şübhəli şəxsin ifadələri yazılır. Protokolu şübhəli şəxs və dindirməni aparan şəxs imza edirlər.

Təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətində qanunçuluğa ciddi əməl edilməsi istintaqın keyfiyyətinin yüksəldilməsi və məhkəmənin çıxaracağı hökmün ədalətli olması üçün mühüm əhəmiyyətə malikdir. Cinayət-prosessual qanunun şübhəli şəxsin və ya təqsirləndirilən şəxsin hüquqlarının təminatına, yaxud ayrı-ayrı istintaq hərəkətlərinin aparılması və rəsmiləşdirilməsi qaydalarına aid olub-olmamasından asılı olmayaraq, onun hər bir göstərişinə ciddi əməl edilməsi zəruridir.

Azərbaycan Respublikasının 28 oktyabr 1998-ci il tarixli "Polis haqqında" Qanununa əsasən, polis vəzifələrinin yerinə yetirilməsində dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ayrı-ayrı şəxslərin iştirakını zəruri hesab edir. "Polis haqqında" Qanunun 10- cu maddəsinə əsasən:

1) dövlət hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərməlidirlər;

2) hər bir şəxs polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərə bilər. Polis üzərinə düşən vəzifələri yerinə yetirmək üçün heç kəsi əməkdaşlığa məcburi cəlb edə bilməz;

3) hazırlanan, törədilən və ya törədilmiş cinayət barəsində xəbəri olan hər bir şəxs bu barədə polisə məlumat verməlidir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda bu məlumatların verilməməsi cinayət məsuliyyətinə səbəb olur.

4) polis əməkdaşı olmayan dövlət hakimiyyəti orqanlarının əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edildikdə, bu sahədə polisin vəzifələri onların da üzərinə qoyulur. Belə halda polis əməkdaşları üçün nəzərdə tutulan hüquqi, maddi və sosial təminatlar onlara da şamil edilir.

## 3.4. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə sadələşdirilmiş icraat materiallarına məhkəmələrdə baxılması.

Böyük ictimai təhlükə törətməyən qeyri-mürəkkəb işlər üzrə mühakimə icraatının Azərbaycan Respublikası CPM-in 293-cü maddəsinə görə sadələşdirilməsi bu cür operativliyin təmin edilməsi vasitəsidir. Qanunverici cinayət tərkiblərini müəyyən edərkən böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraata yol verir.

Qanunvericilikdə və onun tətbiqi təcrübəsində olan dəyişikliklər prosessual fərmanı diferensiasiya edir, siyahısı

qanunla müəyyən edilmiş böyük ictimai təhlükə doğurmayan cinayət üzrə işlərin məhkəmə icraatının effektivliyini artırır.

Təhqiqat, ibtidai istintaq və məhkəmə orqanlarının işinin effektivliyinin gələcəkdə artırılmasına yönəlmiş qanunvericiliyin icrası üzərində nəzarətin həyata keçirilməsində prokurorluq orqanlarının vəzifələri qanunda göstərilir ki, yeni qanunvericilik cinayətin ağırlığı və xarakterindən işin mürəkkəbliyi və ittihamının həcmindən asılı olaraq gələcəkdə cinayət mühakimə icraatının diferensiasiya, habelə vətəndaşların və vəzifəli şəxslərin istintaq və məhkəmə orqanlarının qanuni tələblərini icra edilməsinə görə məsuliyyətinin artırılmasına yönəldilmişdir.

İbtidai istintaq prokurorluq, təhqiqat və məhkəmə orqanları, ədalət mühakiməsinin vəzifələrini həyata keçirərək Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərmanını rəhbər tutmalıdırlar. Bu fərmana əsasən, insan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur. Fərmanda Azərbaycan Respublikasının Prokurorluğuna,

Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərinə, habelə Ali Məhkəməyə tapşırılmışdır ki, təhqiqat, istintaq və məhkəmə orqanları tərəfindən insan hüquqları sahəsində qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsini, insan hüquq və azadlıqlarının pozulması hallarının aradan qaldırılmasını təmin etsinlər, eyni zamanda azadlıqdan məhrum edilmiş və ibtidai istintaq zamanı həbsə alınmış

şəxslərin saxlanılması şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirsinlər.

«Polis haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 1999-cu il tarixli Fərmanına əsasən insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polis öz vəzifələrini yerinə yetirərkən bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqazidd əməllərdən qoruyur. Polisin hər hansı şəxslə insanın ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir.

Şəxsi hüquq və azadlıqlarına qarşı polis tərəfindən bu Qanunla nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə yalnız Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş əsaslarla və qaydada yol verilir.

Polis tutulan və ya həbsə alınan şəxsin hüquqlarının həyata keçirilməsini təmin edir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda və qaydada cinayət işlərini başlamaq təhqiqat və istintaq aparmaq səlahiyyətinə malikdir.

1. Sadələşdirilmiş icraat materiallarına məhkəmələr tərəfindən baxılmasının mahiyyəti, əhəmiyyəti və xüsusiyyətləri.

Azərbaycan Respublikası CPM-in 298.1-ci maddəsinə əsasən, birinci instansiya məhkəməsinə daxil olmuş cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları hakimlər arasında işlərin bərabər bölüşdürülməsi qaydasına

riayət edilməklə onlara baxmalı olan hakimə və ya hakimlərə verilir. Bu qaydalara müvafiq olaraq məhkəməyə daxil olmuş bütün cinayət təqibi ilə bağlı digər materialların hakimlər arasında bölüşdürülməsi onların icraatında olan işlərin və digər materialların həcmi və miqdarı nəzərə alınmaqla aparılmalıdır (Azərbaycan Respublikası "Məhkəmələr və hakimlər haqqında" Qanunun 23-cü maddəsi). Qanunvericilikdə məhkəməyə daxil olmuş məhkəməyədək sadələşdirilmiş icraatın materialları ilə bağlı məhkəmənin hazırlıq iclasının keçirilməsi nəzərdə tutulmuşdur. CPM-in 298.2-ci maddəsində qeyd edildiyi kimi, məhkəmənin hazırlıq iclası məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət məhkəməyə daxil olduqdan sonra 7 (yeddi) gün müddətində keçirilir. Həmin müddət məhkəməyədək sadələşdirilmiş icraat materiallarının birinci instansiya məhkəməsinin dəftərxanasına daxil olduğu və qeydiyyata alındığı vaxtdan hesablanır. CPM-in 298.2-ci maddəsində göstərilmiş müddət işə hazırlıq iclasında baxılmasının başlamaq üçün son müddətidir. Daxil olmuş materialın həcmi və hazırlıq hərəkətlərinin xarakteri nəzərə alınaraq, hazırlıq iclası daha yaxın vaxta təyin oluna bilər, lakin hər bir halda 3 gün müddətindən daha yaxın vaxta təyin oluna bilməz.

Məhkəmənin icraatına müvafiq olaraq məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin daxil olması və məhkəmənin hazırlıq iclasının keçirilməsi barədə məhkəmə, təqsirləndirilən şəxsə, onun müdafiəçisinə, habelə dövlət ittihamçısına (cinayət

təqibi ictimai və ya ictimai-xüsusi ittiham qaydasında aparıldıqda) zərərçəkmiş şəxs, xüsusi ittihamçıya (cinayət təqibi xüsusi ittiham qaydasında aparıldıqda), mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə məlumat verməlidir. Bu məlumat məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmənin hazırlıq iclasının keçirilməsinə ən azı 3 (üç) gün qalmış müddətdə yuxarıda sadalanan proses iştirakçılarına mütləq şəkildə çatdırılmalıdır.

Azərbaycan Respublikası CPM-in 298.4-cü maddəsinin tələbləri yerinə yetirilərkən (yəni proses iştirakçılarına məhkəmənin hazırlıq iclası barədə məlumat göndərildikdə) məhkəmə göstərilən şəxslərə müvafiq olaraq məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun və ya xüsusi ittiham qaydasında şikayətin surətini göndərməlidir. Məhkəmə, həmçinin Azərbaycan Respublikası CPM-in 298.3-cü maddəsində göstərilmiş şəxslərə aşağıdakılara dair bildiriş göndərməlidir. Məhkəmənin icraatında müvafiq olaraq məhkəməyədək sadələşdirilmiş icraat materiallarının daxil olması haqqında (təqsirləndirilən şəxsin soyadı, adı, atasmın adı, ona qarşı irəli sürülmüş ittihamın mahiyyəti, habelə məhkəmənin tərkibinə daxil olan hakimlərin soyadı və vəzifəsi göstərilməklə); məhkəməyə vəsatət və ərizələrin göndərilməsi qaydası və müddətinin izahı daxıf olmaqla bildirişin göndərildiyi şəxsin hüquq və vəzifələrinin izahı haqqında; məhkəmənin hazırlıq iclasında iştirak etmək üçün məhkəməyə gəlməyin vaxtı barədə qeyd etmək lazımdır ki,

hakimlər məhkəmənin hazırlıq iclası keçirilənədək baxılmaq üçün onlara verilmiş məhkəməyədək sadələşdirilmiş icraat materiallarını, habelə proses iştirakçılarının sonradan təqdim etdiyi əlavə sənədləri, vəsatət və ərizələri diqqətlə öyrənməlidirlər. Bu zaman hazırlıq iclasında baxılmalı olan məsələlərin, habelə dəqiqləşdirilməli olan halların dairəsi müəyyən edilir, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və ya digər materiallara baxılması üçün kifayət qədər hüquqi əsasların olub-olmadığı öyrənilir.

2. Sadələşdirilmiş icraat materiallarına məhkəmədə ilkin baxılmasının müddəti və həll edilməli olan məsələlər.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 299-cu maddəsinə müvafiq olaraq məhkəmənin hazırlıq iclasının keçirilməsi prosedurunu müəyyən etmişdir. Bu maddənin məzmunundan aydın olur ki, məhkəmənin hazırlıq iclası dedikdə, cinayət işində, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarında və ya xüsusi ittiham qaydasında şikayətdə irəli sürülmüş ittihamın mahiyyəti üzrə cinayət prosesi tərəflərinin iştirakı ilə məhkəmə baxışının təyin edilməsinin mümkünlüyünün yoxlanılması məqsədi ilə keçirilən ilkin dinləmələr başa düşülür. Bu iclasın (hazırlıq) keçirilməsinin qaydalarını məhkəmələr müəyyən edirlər. Məhkəmələr, həmçinin cinayət prosesi tərəflərinin hazırlıq iclasının keçirilməsi qaydasına dair təkliflərini nəzərə ala bilərlər.

CPM-in 299.3-cü maddəsinə əsasən, məhkəmənin hazırlıq iclasında hər bir halda cinayət prosesi tərəflərinin iştirakı ilə aşağıda sadalanan məsələlərə baxılmalıdır:

1) məhkəməyə daxil olmuş cinayət işinin,

məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının və yaxud xüsusi ittiham qaydasında şikayətin ona aid olub-olmaması barədə;

2) cinayət təqibi (cinayət işi) üzrə icraatın dayandırılması və yaxud ona xitam verilməsi üçün əsasların olub-olmaması barədə;

3) aparılmış ibtidai araşdırma zamanı cinayət prosessual qanunvericiliyinin tələblərinin pozulub-pozulmaması barədə;

4) cinayət işi üzrə qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsasların olub-olmaması barədə.

Məhkəmənin hazırlıq iclası zamanı, həmçinin aşağıdakı məsələlər öz həllini tapmalıdır:

1) ittiham və müdafiə tərəfi məhkəmə baxışı zamanı təqdim etdikləri sübutlar siyahısı barədə;

2) verilmiş vəsatət və etirazların təmin olunması və ya onların təmin edilməsinin rədd edilməsi barədə;

3) məhkəmə baxışından sübut kimi yol verilməz materialların xaric edilməsi barədə;

4) müvafiq olaraq cinayət işinin, böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin sonrakı hərəkəti barədə.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə sadələşdirilmiş icraat materiallarına məhkəmələr tərəfindən baxılması zamanı yazılı və yaxud şifahi vəsatətlər daxil ola bilər (maraqlı tərəflərdən). Yazılı və ya şifahi vəsatət və etirazlar həll olunarkən cinayət prosesinin tərəfləri prosesin

hansı iştirakçısının vəsatətinə baxılmasından asılı olmayaraq öz fikirlərini bildirmək hüququna malikdirlər. Əgər məhkəmə daxil olmuş vəsatəti rədd edərsə, həmin vəsatət məhkəmə baxışı zamanı təkrarən verilə bilər.

Cinayət-Prosessual Məcəllənin 299.6-cı maddəsinin məzmunundan aydın olur ki, məhkəmənin hazırlıq iclası zamanı aşağıda sadalanan hərəkətlər müvafiq sistemli ardıcıllıqla həyata keçirilməlidir:

-dövlət ittihamçısı və yaxud xüsusi ittihamçı məhkəmə baxışı zamanı tədqiq etmək niyyətində olduqları müvafiq olaraq cinayət işini, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını və yaxud xüsusi ittiham qaydasında şikayət üzrə sübutlar siyahısını məhkəməyə təqdim edir;

-təqsirləndirilən şəxsin müdafiəçisi (onun köməyindən imtina edildiyi hallarda isə təqsirləndirilən şəxsin özü), habelə zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh şəxsə və ya öz nümayəndəsi vasitəsilə özlərinin qanuni mənafelərinin müdafiəsi üçün əhəmiyyətli olan sübutlar siyahısını təqdim edir, hər hansı şəxsin (onların soyadlarını, adlarını, atalarının adlarını və yaşayış yerlərini göstərməklə) məhkəmə iclasına çağırılması və şahid qismində dindirilməsi haqqında vəsatətlər verir, onların göstərdikləri sübutların məhkəmədə hansı məqsədlə tədqiq edilməsini və onların vasitəsilə məhkəmə baxışı zamanı hansı halların müəyyən edilə biləcəyini izah edir.

Cinayət-Prosessual Məcəllənin 299.7-ci maddəsinə əsasən, məhkəmənin hazırlıq iclası zamanı məhkəmə yalnız işə aid olmayan və yaxud yolverilməz hesab etdiyi halda

sübutların təqdim edilməsi ilə bağlı vəsatətləri rədd etmək hüququna malikdir. Bu zaman sübut formal cəhətdən yol verilməli olduqda, lakin məhkəmə tərəfindən işə aid olmayan hesab edilərsə, müdafiə tərəfi onu məhkəməyə öz hesabına təqdim etmək hüququna malikdir.

Xüsusi ittihamçının üzürlü səbəblərin olmasının əvvəlcədən bildirmədən məhkəmənin hazırlıq iclasına təkrarən gəlməməsi ittihamdan imtinaya bərabər tutulur və xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina barədə qərar çıxarılmasına məhkəməyə əsas verir. Cinayət-prosessuai qanunvericiliyinə görə, məhkəmənin hazırlıq iclası təqsirləndirilən şəxsin iştirakı olmadan aşağıdakı hallarda aparıla bilər:

a) təqsirləndirilən şəxs məhkəməyə gəlməkdən təkrarən imtina etdiyi və yaxud boyun qaçırdığı halda;

b) təqsirləndirilən şəxsin xahişi ilə qanunla işin qiyabi baxılmasına yol verildiyi halda.

Cinayət-Prosessual Məcəllənin 299.10-cu maddəsinin tələbinə görə, təqsirləndirilən şəxsin müdafiəçisinin (təmsil etdiyi şəxs onun köməyindən imtina etməmişdirsə və yaxud onun cinayət prosesində məcburi iştirakını müəyyən edən hal mövcuddursa) məhkəmənin hazırlıq iclasında iştirakı məcburidir. CPM-in 300-cü maddəsinə müvafiq olaraq məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində məhkəmə tərəfindən qəbul edilən qərarlar aşağıdakılardır:

1) təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında;

2) xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbulu və məhkəmə baxışının təyin edilməsi haqqında;

3) xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina edilməsi haqqında;

4) müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və yaxud xüsusi ittiham qaydasında şikayətin məhkəmə aidiyyəti üzrə göndərilməsi haqqında;

5) cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması haqqında;

6) cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması haqqında;

7) cinayət işi və böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında.

Hazırlıq iclasında məhkəmə yuxarıdakı I, V, VI bəndlərdə göstərilən qərarları çıxarmaqla bərabər, aşağıdakı hərəkətləri də etməyə borcludur (CPM-in 300. 2-qi mad).

- təqsirləndirilən şəxs barəsində qətimkan tədbirinin tətbiq olunmasının və ya olunmamasının əsaslılığı barədə məsələyə baxmaq;

-qətimkan tədbiri seçildiyi halda onun növünün əsaslılığı və yaxud əsassızlığı barədə məsələyə baxmaq;

- qətimkan tədbiri məsələsinə dair qərar çıxarmaq. Əgər məhkəmə iclası bitdikdə aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması

haqqında qərarı çıxarmışsa, CPM-in tələblərini kobud surətdə pozan şəxslər barəsində də xüsusi qərar çıxarmağa borcludur.

CPM-in 300.4-cü maddəsinin tələbinə görə, məhkəmənin hazırlıq iclasında qəbul olunmuş qərarların surətləri qəbul olunduğu vaxtdan 3 (üç) gün müddətində aşağıdakı şəxslərin şəxsən özünə verilir və yaxud onların ünvanlarına poçtla göndərilməlidir:

a) təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyini barədə, xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina barədə qərar çıxarıldıqda təqsirləndirilən şəxsə, müdafiəçiyə, dövlət ittihamçısına, zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə;

b) xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbulu və məhkəmə baxışının təyin edilməsi barədə qərar çıxardıqda-xüsusi ittihamçıya, barəsində şikayət verilmiş şəxsə və onların nümayəndələrinə.

CPM-in 300.5-ci maddəsinin məzmunundan aydın olur ki, məhkəmənin hazırlıq iclasında qəbul olunan qərarlardan (CPM-in 300.1.3, 300.1.6 - 300.1.7-ci mad) həmin məcəllənin IX bölməsi ilə nəzərdə tutulan müddəalara uyğun olaraq tərəflər apellyasiya şikayəti və apellyasiya protesti vermək hüququna malikdirlər.

Məhkəmənin hazırlıq iclasının yekununda cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması

barədə qərarın çıxarılmasının qaydası və əsasları CPM-in 303-cü maddəsində nəzərdə tutulmuşdur.

Məhkəmə hazırlıq iclasında hansı qərarın qəbul ediləcəyindən asılı olmayaraq, qətimkan tədbiri ilə bağlı məsələyə də baxmalıdır. Bu zaman məhkəmə CPM-in 17-ci fəslinin müvafiq normalarını rəhbər tutaraq təqsirləndirilən şəxs (şəxslər) barəsində qətimkan tədbiri seçə bilər, seçilmiş qətimkan tədbirini dəyişdirə və ya ləğv edə bilər.

Məhkəmənin hazırlıq iclasının yekununda qəbul etdiyi qərarların bəzi növlərindən (CPM-in 300.1.1-ci, 300.1.2-ci, 300.1.4-cü və 300.1.5-ci maddələrində

göstərilmiş qərarlar istisna olmaqla) CPM-in 47-ci fəslində nəzərdə tutulmuş ümumi qaydalarda (elan olunduqdan sonra 20 gün müddətində) apellyasiya şikayəti və ya protesti verilə bilər.

3. Sadələşdirilmiş icraat materiallarına məhkəmə iclasında baxılmasının qaydası və yekun məhkəmə qərarları.

Azərbaycan Respublikası CPM-in 301 -ci maddəsinə əsasən təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında qərarda aşağıdakılar göstərilməlidir:

1) qərarın çıxarıldığı tarix, vaxt və ay;

2) məhkəmənin adı və tərkibi (hər bir hakimin adı, soyadı və atasının adı);

3) təqsirləndirilən şəxsin soyadı, adı və atasının adı;

4) təqsirləndirilən şəxsə istinad edilən cinayət qanununun maddəsi üzrə tövsifi;

5) qətimkan tədbirini dəyişdirmədən saxlanılması, ləğv edilməsi, dəyişdirilməsi və ya seçilməsi və vurulmuş

zərərin ödənilməsinin təmin edilməsi üçün tədbirlər görülməsi haqqında qərar;

6) cinayət prosesi iştirakçılarının etirazlarının, vəsatətlərinin və digər ərizələrinin həlli;

7) məhkəmənin tərkibi haqqında və müvafiq hallarda andlı iclasçılar kollegiyasının seçilməsində iştirak etmək üçün çağırılmalı olan andlı iclasçıların sayının müəyyən edilməsi;

8) təqsirləndirilən şəxs tərəfindən seçilmiş müdafiəçi qismində işə buraxılması və ya təqsirləndirilən şəxsə müdafiəçinin təyin edilməsi;

9) məhkəmə baxışı zamanı məhkəmə iclasına çağırılmalı olan şəxslərin siyahısı;

10) qanunla işə qiyabi baxılmasına yol verildiyi hallarda təqsirləndirilən şəxsin iştirakı olmadan baxılmasının əsaslandırılması;

11) məhkəmə baxışının yeri və vaxtı haqqında məlumatlar;

12) Azərbaycan Respublikası CPM-də nəzərdə tutulmuş hallarda işə qapalı məhkəmə iclasında baxılmasının əsaslandırılması;

13) cinayət mühakimə icraatının dilinin seçilməsi.

Məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə baxılması üçün - məhkəmənin hazırlıq iclasının keçirildiyi andan 7(yeddi) gündən artıq olmayan müddətdə həll edilməlidir.

Məhkəmə baxışı təyin edildikdən sonra məhkəmə iclasında sədrlik edən hakim məhkəmə iclaslarının təşkili

üzrə tədbirlərin görülməsi üçün məhkəmə aparatına zəruri göstərişlər verir.

Məhkəmə baxışında iştirakı nəzərdə tutulmuş şəxslər CPM-in 226-cı maddəsində göstərilmiş qaydalara uyğun olaraq məhkəmə iclasına çağırılırlar.

CPM-in 303.1-ci maddəsində göstərilmişdir ki, məhkəmənin hazırlıq iclasında məhkəməyədək icraat zamanı aradan qaldırılmadan müvafiq olaraq məhkəməyədək sadələşdirilmiş icraat materialının mahiyyəti üzrə qanuni həll edilməsi mümkün olmayan kobud pozuntularına yol verildiyini müəyyən etdikdə məhkəmə məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verir və onu ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarır.

Məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onu ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması məhkəmənin əsaslandırılmış qərarı ilə həyata keçirilir.

Məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərar aşağıdakı kobud pozuntulara yol verildikdə çıxarılır:

1) təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması;

2) cinayət mühakimə icraatının aparıldığı dili bilməyən təqsirləndirilən şəxsin ana dilindən və ya tərcüməçinin köməyindən istifadə etmək hüququnun pozulması;

3) məhkəməyədək icraat etiraz edilməli və ya özü-özünə etiraz etməli olan şəxs tərəfindən aparılması;

4) məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun məhkəməyə təqdim olunmuş materiallarda olmaması;

5) ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunda ittihamın irəli sürülməsinin təsdiq edilməməsi;

6) məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun müvafiq olaraq Cinayət-Prosessual Məcəllənin 289 və 293.2-ci maddələrinin və ya 296.2-ci maddəsinin tələblərinə uyğun olmaması;

7) məhkəməyədək icraat materialları ilə tanış etmə vəzifəsinə dair müvafiq olaraq Cinayət-Prosessual Məcəllənin 284-286, 288 və ya 296.3.1-ci maddələrinin tələblərinin pozulması;

8) məhkəməyədək icraatın ibtidai istintaq şəklində aparılmasının məcburiliyinə dəlalət edən halların olmasına baxmayaraq onun məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat formasında aparılması.

Məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərarda belə qərarın çıxarılması üçün əsaslar göstərilir.

Məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verildikdə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarıldıqda

o, prokurorluğa daxil olduğu vaxtdan istintaq müddəti əvvəllər aparılmış məhkəməyədək icraat zamanı hesablanmış müddətə əlavə olaraq hesablanır.

Cinayət-Prosessual Məcəllənin 304-cü maddəsində məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraatın dayandırılması qaydası göstərilmişdir.

Məhkəmənin hazırlıq iclasında aşağıdakılar müəyyən edildikdə məhkəmə məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraatın dayandırılması haqqında əsaslandırılmış qərar çıxarır:

-təqsirləndirilən şəxs gizləndikdə və onun olduğu yer məlum olmadıqda;

-təqsirləndirilən şəxs onun məhkəmə baxışında iştirakını istisna edən ağır xəstəliyə tutulduqda;

-məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraat zamanı tətbiq edilmiş normativ hüquqi aktın Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması ilə bağlı sorğu olduqda.

Məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi - Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəllənin 305.1-ci maddəsinə əsasən məhkəmənin hazırlıq iclasında CPM-in 39-cu maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə məhkəmə məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında əsaslandırılmış qərar çıxarır.

Məhkəmənin hazırlıq iclasının nəticələrinə dair çıxarılan xüsusi qərar.

Məhkəmə CPM-in 307.1-ci maddəsinə əsasən hazırlıq iclasının nəticələrinə dair məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması haqqında qərarla yanaşı məhkəməyədək icraat zamanı Cinayət-Prosessual Məcəllənin tələblərinin kobud surətdə pozulmasına yol vermiş şəxslər barəsində xüsusi qərar çıxarmalıdır. Məhkəmənin xüsusi qərarında^ onun məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə və kim tərəfindən çıxarıldığı qeyd edilməli, işin mahiyyəti, dəqiq olaraq Cinayət-Prosessual Məcəllənin 300.3-cü maddəsində nəzərdə tutulmuş kobud pozuntulardan hansı pozuntu və kimin tərəfindən yol verildiyi ətraflı göstərilməlidir.

Məhkəmə tərəfindən çıxarılmış xüsusi qərar təsir tədbirlərinin görülməsi üçün aşağıdakı şəxslərə göndərilməlidir:

- müstəntiq, təhqiqatçı və təhqiqat orqanının əməkdaşı barəsində tabeçiliyindən asılı olaraq Azərbaycan Respublikası müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbərinə:

- ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və prokurorluğun müstəntiqi barəsində Azərbaycan Respublikasının Baş Prokuroruna.

Məhkəmə qərarının ünvanlandığı vəzifəli şəxslər həmin qərar onlara daxil olduqdan sonra 30 (otuz) gündən gec olmayan müddətdə aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

- görülmüş tədbirlər barədə məhkəməyə məlumat vermək.

Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılma qaydasına əməl edilməsi pozuntular və cinayətkarlıqla effektiv mübarizənin zəruri şərtidir. “Məhkəmə, prokurorluq, polis və digər hüquq-mühafizə orqanları qanunçuluq və hüquq qaydalarının gələcəkdə gücləndirilməsi, vətəndaşların qanunla hüquq və mənafelərinin mühafizəsinin möhkəmləndirilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyi kimi qanunçuluğa ciddi əməl edilməsində əsl nümunə olmalıdırlar.

Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli “Polis haqqında” Qanununa əsasən, polis vəzifələrinin yerinə yetirilməsində dövlət orqanlarının yerli özünüidarəetmə orqanlarının və ayrı-ayrı şəxslərin iştirakını zəruri hesab edir. “Polis haqqında” Qanunun 10-cu maddəsinə əsasən:

1. Dövlət hakimiyyəti orqanları və yerli özünüidarə-etmə orqanları polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərməlidir.

2. Hər bir şəxs polisə öz vəlifələrini yerinə yetirməkdə kömək göstərə bilər. Polis üzərinə düşən vəzifələri yerinə yetirmək üçün heç kəsi əməkdaşlığa məcburi cəlb edə bilməz.

3. Hazırlanan, törədilən və ya törədilmiş cinayət barəsində xəbəri olan hər bir şəxs bu barədə polisə məlumat verməlidir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda bu məlumatların verilməsi cinayət məsuliyyətinə səbəb olur.

4. Polis əməkdaşı olmayan dövlət hakimiyyəti

orqanlarının əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edildikdə bu sahədə polisin vəzifələri onların da üzərinə qoyulur.

Belə olduğu halda polis əməkdaşları üçün nəzərdə tutulan hüquqi, maddi və sosial təminatlar onlara da şamil edilir.

# Fəsil 4. Təhqiqat və ibtidai istintaq.

## 4.1. Cinayətlərin açılması və istintaqında iştirak edən orqanların qarşılıqlı əlaqəsinin anlayışı, hüquqi əsasları və formaları.

Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin vəzifələrindən biri kimi, cinayətlərin tezliklə açılması, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması müəyyən edilir. Bu vəzifənin yerinə yetirilməsində iştirak edən dövlət orqanları sırasında təhqiqat orqanları xüsusi rol oynayır. Baş vermiş cinayət hadisələrinin araşdırılmasında təhqiqat orqanlarının rolu cinayət-prosessual qanunla müəyyən edilir. CPM-in 86-cı maddəsi ilə təhqiqatçının öz səlahiyyəti daxilində zəruri prosessual qərarlar qəbul etməsi, istintaq və digər prosessual hərəkətlərin aparılmasına səlahiyyətli olduğu göstərilir. Həmçinin təhqiqatçı müvafiq təhqiqat orqanlarına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq hüququna malik olması bildirilir.

Cinayət-prosessual qanun cinayət işlərinin təhqiqatçı və ya müstəntiqə aidiyyəti qaydalarını dəqiq müəyyən edir. Bununla yanaşı, qanun təhqiqatçının cinayətin açılmasında, cinayət törətmiş şəxsin tutulmasında və digər məsələlər üzrə də prosessual imkanlara malik olmasını nəzərdə tutur.

Cinayətin açılması və istintaqında iştirak edən orqanların qarşılıqlı əlaqəsinin əsas vəzifələri aşağıdakılardır:

- cinayətlər baş verdikdə, təxirəsalınmaz istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin təmin edilməsi;

- cinayətlərin qarşısının alınması, hərtərəfli və obyektiv araşdırılması, cinayət törətmiş şəxslərin vaxtında ifşa olunaraq, cinayət məsuliyyətinə cəlb edilməsi, habelə, cinayət törədən, istintaqdan gizlənən şəxslərin axtarışı;

- cinayətkar qəsdlər nəticəsində vətəndaşların pozulmuş hüquqlarının bərpası, habelə mülkiyyət formasından asılı olmayaraq, vətəndaşlara və təşkilatlara dəymiş ziyanın günahkar şəxslər tərəfindən ödənilməsi istiqamətində tədbirlərin həyata keçirilməsidir.

Qarşılıqlı əlaqənin normativ-hüquqi əsaslan aşağıdakılardır:

1) Azərbaycan Respublikasının Konstitusiyası;

2) Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyi;

3) Azərbaycan Respublikasının "Polis haqqında" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, Azərbaycan Respublikası DİN-in Əsasnaməsi;

4) cinayətkarlıqla mübarizə məsələləri üzrə hüquq-mühafizə orqanlarının qarşılıqlı əlaqələrinə dair idarələrarası birgə təlimat və göstərişlə, həmçinin, Azərbaycan

Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar, müqavilələr, götürdüyü öhdəliklər;

5) DİN-in normativ-hüquqi aktları.

Təhqiqat aparatlarının cinayətlərin açılması və istintaqında bilavasitə iştirak edən təhqiqat orqanları ilə qarşılıqlı əlaqəsinin səmərəli olması üçün müəyyən prinsiplərə əsaslanmalıdır. Yəni qanunun tələbindən irəli gələn, təhqiqatçılar və təhqiqat orqanları tərəfindən mütləq riayət edilməli olan əsas rəhbər tələblərə (müddəalara) cavab verməlidir.

Qarşılıqlı əlaqənin əsas prinsipləri qanuna əsasən aşağıdakılarla müəyyən edilir:

-cinayətkarlıqla mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təminində qanunçuluğa, vətəndaşların konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarının qorunması işinə riayət olunması ilə;

-daxili işlər orqanlarının qüvvə və vasitələrindən kompleks, səmərəli istifadə edilməsi ilə;

-istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə və nəticələrinə görə təhqiqatçının, müvafiq əməkdaşların və aidiyyəti olan xidmət rəhbərlərinin şəxsi məsuliyyətləri ilə;

-cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq, qərarların qəbul edilməsində təhqiqatçının müstəqilliyi ilə;

-əməliyat-axtarış fəaliyyəti üzrə metod və vasitələrin seçilməsində əməliyyat aparatı əməkdaşlarının qüvvədə olan qanunvericilik çərçivəsində zəruri qərar qəbul etmələri ilə;

-istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin əlaqələndirilməsi və planlaşdırılması;

-cinayət işi üzrə yekun qərar qəbul edilənədək cinayətin istintaqında və açılmasında təşkilatçılıq fəaliyyətində qarşılıqlı əlaqənin fasiləsiz olması ilə.

Təhqiqatçının təhqiqat orqanları ilə sıx əməkdaşlıq etməsinin zərurəti o səbəbdən irəli gəlir ki, bir nazirlik daxilində hər iki orqan - təhqiqat aparatları və təhqiqat orqanları ümumi vəzifəni müxtəlif metodlarla həyata keçirirlər. Təhqiqatçı bu vəzifəni prosessual formada, ayrı-ayrı prosessual hərəkətlər və istintaq hərəkətləri aparmaqla həyata keçirir. Təhqiqat orqanı isə öz vəzifələrini əsasən, əməliyyat-axtarış tədbirlərindən istifadə etməklə həyata keçirir.

Bir məqamı da qeyd etmək lazımdır ki, cinayətlərin açılması və istintaqında iştirak edən orqanların qarşılıqlı şəkildə fəaliyyət göstərməsi təcrübənin tələbatından irəli gəlir. Cinayətkarlar cinayətin törədilmə üsullarını ətraflı düşünür, öz cinayətkar niyyətlərinin həyata keçirilməsində müasir dövrün elmi və texniki nailiyyətlərindən istifadə edirlər. Onlar çalışırlar ki, elə hərəkət etsinlər ki, mümkün qədər az izlər qoysunlar. Bir sıra hallarda cinayətkarlar hətta cinayət təqibi orqanlarını aldatmağa çalışırlar. Bu kimi cinayət əməllərinin araşdırılmasında təhqiqat orqanları və aparatları yalnız öz bacarığına, qüvvəsinə və prosessual imkanlarına arxalana bilməz. İş üzrə həqiqətin müəyyən edilməsinə bu kifayət etmir. Yaranmış çətinliklərin öhdəsindən gəlmək xüsusi vasitələrin və metodların tətbiq edilməsini tələb edir. Cinayət-prosessual və əməliyyat-axtarış fəaliyyətlərinin bacarıqla əlaqələndirilməsi cinayətin müvəffəqiyyətlə açılmasına təminat yaradır və bunu artıq

qabaqcıl təcrübə sübut etmişdir. Nə qədər ki, təhqiqat aparatları və təhqiqat orqanları müstəqil, bir-birindən asılı olmayan sistemləri təmsil edirlər, o qədər də bu iki xidmət sahəsinin bir-biri ilə qarşılıqlı əlaqəsinin zəruriliyinə ehtiyac duyulacaqdır.

Təhqiqatçının icraatında olan cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları ilə əlaqədar təhqiqat orqanlarının fəaliyyətinin xarakteri və dərəcəsi təhqiqatçının bununla əlaqədar verdiyi tapşırıq və göstərişlərdən asılı olur. Təhqiqatçının bu səlahiyyəti CPM-in 86.4.5-ci maddəsi ilə müəyyən edilir.

Cinayətin açılması və istintaqında iştirak edən orqanların qarşılıqlı əlaqəsinin yaradılması işində DİO-nun növbətçi hissələrinin rolunu xüsusilə qeyd etmək lazımdır. Məlumdur ki, cinayətlər barədə ilkin məlumatlar DİO-nun növbətçi hissəsinə daxil olur. Polis orqanının növbətçisi istintaq-əməliyyat qrupunu, o cümlədən, aidiyyətli sahə inspektorunun və digər əməkdaşların dərhal hadisə yerinə çıxmasını və onların kriminalistik texnika, rabitə və nəqliyyat vasitəsi ilə təmin olunmaları barədə təşkilati işlər görür.

Zəruri hallarda hadisə yerinin baxışına məhkəmə-tibb eksperti, ekspert-kriminalist və digər sahələr üzrə mütəxəssislərin, həmçinin, cinayətin "isti izlərlə" açılması üçün əlavə qüvvə və vasitələrin cəlb olunmasını təmin edir.

Baş vermiş cinayət hadisəsi, onu törətmiş şəxsin əlamətləri, oğurlanmış əşyalar və başqa hallar barədə digər polis orqanlarını təlimatlandırır. Hadisə zamanı həlak olanların, həmçinin, tibb müəssisələrinə aparılmış

zərərçəkənlərin şəxsiyyətinin müəyyən edilməsi üçün tədbirlər görür.

Qarşılıqlı əlaqənin prosessual formaları ən əvvəl onunla xarakterizə olunur ki, bu əlaqə forması cinayət-prosessual qanunun tələblərindən irəli gəlir.

Qanunla əsaslandırılmış təhqiqatçılar və təhqiqat orqanlarının əməkdaşlığının üsulları həmin orqanların fəaliyyətinin birgə xarakterini və cinayət prosesində onların cinayətin açılmasında və istintaqında imkanlarının məqsədəuyğun olmasını təmin edən vasitələr qarşılıqlı əlaqənin prosessual formaları adlanır.

Qarşılıqlı əlaqənin adı çəkilən prosessual formasına aşağıdakıları aid etmək olar:

- təhqiqatçının dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək hüququnun cinayət-prosessual qanunla müəyyən edilməsi (CPM-in 86.4.3-cü mad)

- dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək hüququna təhqiqatçının malik olmasını (CPM-in 86.4.4-cü mad).

- müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq hüququ qanunla təhqiqatçının səlahiyyətinə aid edilir (CPM-in 86.5-ci mad).

Qarşılıqlı əlaqənin bu forması təhqiqatçının səlahiyyətinə aiddir.

Cinayətin açılması və istintaqında iştirak edən orqanların qarşılıqlı əlaqəsi qaçırılmış, oğurlanmış nəqliyyat vasitələrinin və yol-nəqliyyat hadisəsi yerindən qaçmış sürücülərin axtarışının təşkili üzrə də həyata keçirilir. Bu sahədə işlər DİN-in 26.08.2002-ci il tarixli 317 saylı əmri ilə tənzimlənir. Əmrin təyinatı qaçırılmış, oğurlanmış nəqliyyat vasitələrinin və yol-nəqliyyat hadisəsi zamanı hadisə yerindən qaçmış sürücələrin axtarışı ilə bağlı polis orqanlarının fəaliyyətini nizamlayır.

Bu sahədə işlər üzrə əməkdaşlığa DYP və digər xidmət əməkdaşlarının cəlb edilməsini DİN-in cinayət- axtarış xidmətləri həyata keçirir.

DİO-nun qüvvə və vasitələrinin istifadəsinin ilkin təşkili işi rayon və şəhər polis orqanlarının növbətçi hissələri tərəfindən təmin olunur.

Qarşılıqlı əməkdaşlığa nəqliyyat vasitələrinin hərəkətinin ehtimal olunduğu istiqamətlərdə xidmət aparan post-patrul və yol patrul xidməti naryadları da cəlb edilir.

Hadisə yerinə baxış keçirilərkən DYP əməkdaşları şahidlərin müəyyən edilməsində, nəqliyyat vasitəsinin tezliklə aşkar edilməsi, hadisənin baş vermə yerinin sxeminin hazırlanmasında təhqiqatçıya lazımi köməklik göstərir.

Əməliyyat müvəkkili cinayətin şahidlərini müəyyən etmək məqsədilə, təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri, habelə nəqliyyat vasitələrinin tapılması və cinayət etmiş şəxsləri aşkar etmək üçün tədbir görür.

Haqqında danışdığımız cinayət hadisəsi ilə əlaqədar DİN-in istintaq bölmələri, cinayət axtarışı, yol polisi, post-

patrul xidməti naryadları və polis sahə inspektorları ilə qarşılıqlı istintaq və əməliyyat-axtarış tədbirləri hazırlanıb, həyata keçirilir.

Polis yanğınla əlaqədar işlərə adətən, ərazi yanğından mühafizə xidmətinin əməkdaşlarının cəlb edilməsi ilə əməliyyat qrupunun üzvləri tərəfindən axtarış tədbirlərini təmin edir.

Görülmüş istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində axtarışda olan nəqliyyat vasitəsinin aşkar edildiyi yerə təhqiqatçının, DYP əməkdaşının, kriminalist-təhqiqatçının və kinoloqun iştirakı ilə baxış keçirilməsi işini növbətçi hissə təşkil edir. Tapılmış nəqliyyat vasitəsinə baxış protokolu və onun saxlanca təhvil verilməsi haqqında akt tərtib edilərək axtarışın təşəbbüskarlarına göndərilir.

Törədilmiş və ya hazırlanan cinayətlərə dair məlumatların yoxlanılması zamanı görülən ilkin tədbirlər və onların aparılması qaydası əsasən, məlumat müvafiq səlahiyyətli orqana daxil olduqdan dərhal sonra cinayət prosessual qanunvericiliyin tələblərinə əsasən, həmin məlumatın ilkin yoxlanılması təşkil edilir. İlkin yoxlama dedikdə - cinayət təqibinin başlanması üçün kifayət edən dəlillərin mövcud olub-olmamasının müəyyən edilməsi məqsədi ilə Azərbaycan Respublikası Cinayət- Prosessual Məcəlləsinin müddəalarına uyğun olaraq aparılan prosessual fəaliyyətdir.

İlkin yoxlama keçirilən zaman hadisə yerinə baxışdan, sübut mənbəyi ola biləcək məlumatların toplanılmasından, zəruri hallarda ekspertizanın keçirilməsindən və cinayətin

izlərinin müəyyən edil-məsinə və rəsmiləşdirilməsinə yönələn digər tədbirlərdən ibarətdir.

Qeyd etmək lazımdır ki, törədilmiş və ya hazırlanan cinayətlərə dair məlumatların yoxlanılması zamanı görülən ilkin tədbirlər, ilkin yoxlamanın gedişində səlahiyyətli orqanlar tərəfindən həyata keçirilən əməliyyat, təhlükəsizlik, təşkilatı, təminedici və digər təxirəsalınmaz tədbirlərdir. Bu tədbirlər hadisə yerinə çıxma, hadisə yerinin mühafizəsi və ondan irəli gələn məsələlərin həll edilməsi, cinayət izlərinin qorunub saxlanılması, əhalinin və ətraf ərazinin təhlükəsizliyinin təmin edilməsi, hadisə yerində təxirəsalınmaz istintaq hərəkətlərini aparan müstəntiq və təhqiqatçının göstərişlərinin icra edilməsindən və qanunvericiliklə müəyyən edilmiş digər zəruri hərəkətlərdən ibarətdir.

Hadisə yerinə çıxan istintaq - əməliyyat qrupunun tərkibi müstəntiq və ya təhqiqatçıdan, əməliyyat işçilərindən, habelə zəruri hallarda müvafiq mütəxəssis və ekspertlərdən ibarət olmalıdır.

Müstəntiq (təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqiqat zamanı - təhqiqatçı).

- istintaq əməliyyat qrupuna rəhbərliyi həyata keçirir, onun işini müəyyənləşdirir, cinayətin izlərinin müəyyən edilməsinə, sübut bazasının formalaşdırılmasına və möhkəmləndirilməsinə yönələn birgə fəaliyyətini təmin edir;
- hadisə yerinə baxış aparılmasında köməklik göstərilməsi üçün müxtəlif mütəxəssisləri cəlb edir, əməliyyat və digər xidmətlərin əməkdaşlarına axtarış tədbirlərinin görülməsi barədə tapşırıqlar və göstərişlər verir.

Cinayətlərin qarşısının alınması və istintaqında iştirak edən orqanların arasında DİN-in ictimai təhlükəsizlik xidmətinin post-patrul naryadlarının rolunu da qeyd etmək yerinə düşərdi. Statistikaya müraciət etsək, görərik ki, 2000-ci ildə baş vermiş cinayətlərin hər dörd cinayətdən üçünün açılmasında və həmin ildə axtarışda olanların 29,1 % tutulmasında post-patrul naryadlarının iştirakı qeydə alınmışdır (DİN-in 29 may 2001-ci il tarixli KQ 3/1 saylı kollegiya qərarı).

2. Cinayətin açılması və istintaqında təhqiqat aparatlarının təhqiqat orqanları ilə qarşılıqlı əlaqəsi.

DİN-in müvafiq normativ aktı ilə təhqiqat aparatlarının işinin təşkili həmin təhqiqat orqanlarının rəhbərlərinin üzərinə qoyulmuşdur. Təhqiqat orqanının rəhbəri Azərbaycan Respublikası CPM-in 86.7-ci maddəsinə müvafiq olaraq öz səlahiyyətləri daxilində aşağıdakı işlərin təşkilini və yerinə yetirilməsinə nəzarəti həyata keçirir:

1) təhqiqat orqanının səlahiyyətinə aid olan törədilmiş və ya hazırlanan cinayətlərə və hadisələrə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyata alınmasını təşkil edir (1 və 2 nömrəli cinayətlərin və hadisələrin qeydiyyatı kitabında). Onlara baxılmasını, cinayət işi üzrə təhqiqatın və ya ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını təhqiqatçıya, yaxud təhqiqatçılar qrupuna tapşırır;

2) təhqiqatçının cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə nəzarəti həyata keçrir;

3) təhqiqat orqanının səlahiyyətinə aid olan

cinayətlər üzrə təhqiqatçı tərəfindən hadisə yerinə baxış keçirilən zaman texniki və kriminalistik vasitələrlə təchiz olunmuş əməliyyat qrupunun iştirakını təmin edir;

4) təhqiqat qurumlarının işində xidməti intizama riayət edilməsinə nəzarət edir;

5) təhqiqatçının işi barədə statistik hesabatların müəyyən edilmiş qaydalar üzrə hazırlanıb DİN-ə, ibtidai araşdırmaya nəzarəti həyata keçirən prokurora göndərilməsini təmin edir (hesabat formasında).

Cinayətin açılması və istintaqında təhqiqat şöbəsinin (bölmənin, təhqiqat qrupunun rəhbəri) rəisi təhqiqatçıların DİO-nun digər xidmət sahələrinin əməkdaşları, prokurorluq orqanları, məhkəmələr və ictimaiyyətlə qarşılıqlı əlaqəsini təşkil edir. Təhqiqat şöbəsinin rəisinin qarşılıqlı əlaqənin yaradılması sahəsindəki hüquqları CPM-in 85.6.1 -85.6.4-cü maddələri ilə tənzimlənir.

Əməkdaşlığın üsul və metodlarından geniş istifadə edilməsi polisin birgə fəaliyyətində təhqiqat aparatları və təhqiqat orqanlarının qarşılıqlı əlaqəsini müəyyən etməyə imkan verir.

Təhqiqat orqanlarının təşkilinin müasir mərhələsi, bu orqanların strukturu, əməkdaşların elmi-texniki və maddi cəhətdən təmin edilməsi ilə müəyyən olunur.

DİO sistemində təhqiqat əlbəttə ki, polisin üzərinə düşür. Təhqiqatın həm də əməliyyat-axtarış fəaliyyəti ilə əlaqəli şəkildə aparılması cinayətkarlığa qarşı mübarizəni gücləndirir.

Təhqiqat aparatlarının DİO-nun struktur xidmət sahələri ilə cinayətlərin istintaqında birgə iştirakı dəqiq,

özünəməxsus sərhədlərlə qorunur və qanunvericiliyə əsaslanır.

Ümumiyyətlə, hazırlanan və törədilən cinayətlərin böyük əksəriyyəti haqqında məlumatlar təhqiqat orqanları tərəfindən əldə edilir.

DİN-in normativ aktlarında öz əksini tapmış və əvvəlcədən yoxlama yolu ilə əldə edilmiş materiallar müstəntiqə verilir. Bu materialların əhatə dairəsi çox genişdir. Bunlara demək olar ki, bütün istintaq sənədləri (ərizə və izahatlar, protokol və qərarlar və s.) aiddir.

Materialların yığılması və qiymətləndirilməsi prosesinin yoxlanılması, polisin üzərinə gələcəkdə maddi sübut ola biləcək predmetlərin qorunması vəzifəsini də qoyur. Yoxlanılan materialların obyektiv və keyfiyyətli toplanması, birgə məsləhətlər və fərziyyələr, məlumatların dəyişdirilməsi yolu ilə mümkün olur.

Cinayət işinin istintaqı zamanı, onun tez və uğurla açılmasının ən vacib şərtlərindən biri - təxirəsalınmaz istintaq hərəkəti olan hadisə yerinə baxışdır. Bu zaman əvvəlcədən hazırlanmış iş üsulları ilə təhqiqatçının hadisə yerinə baxışını təşkil etmək, mütəxəssislərin və digər şəxslərin iştirakını təmin etmək lazımdır. Hadisə yerinə baxış DİN-in müvafiq xidmət sahəsi (növbətçi hissə) tərəfindən təşkil edilir. Bu istintaq hərəkətinin vacibliyi və təxirəsalınmaz olması nəzərə alınaraq DİO-da əməliyyat-istintaq qrupları təşkil edilmişdir.

Təhqiqatçı təhqiqat orqanının səlahiyyətinə aid olan cinayətlər üzrə tam tərkibli əməliyyat qrupu ilə birgə hadisə yerinə gedir.

Təhqiqatçı hadisə yerinin baxışının keçirilməsinə və baxışın keyfiyyətli aparılmasına şəxsən məsuliyyət daşıyır.

Baxışda iştirak edən mütəxəssislər və digər xidmətlərin əməkdaşları təhqiqatçının rəhbərliyi ilə və onun göstərişinə əsasən öz səlahiyyətləri çərçivəsində hərəkət edirlər.

Hadisə yerinə baxış CPM-in 236-cı maddəsinin tələbləri yerinə yetirilməklə aparılır. Belə ki, cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının və iş üçün əhəmiyyətli olan digər halların müəyyən edilməsi məqsədi ilə təhqiqatçı hadisə yerinin baxışını aparır. Təhqiqatçı binaların, sənədlərin, əşyaların, insan meyitinin və heyvan cəsədinin də baxışını apara bilər.

Hadisə yerinin baxışının aparılmasında azı 2 (iki) hal şahidi iştirak edir.

Hadisə yerinə baxış keçirilərkən vətəndaşların hüquqlarının pozulmasına yol verilmir. Zəruri hallarda baxışın aparıldığı yer və ayrı-ayrı əşyalar ölçülür. Yerin və ayrı-ayrı əşyaların planı, sxemi və cizgiləri tərtib edilir. Foto, video və kino çəkilişlərinin aparılmasına qanunla yol verilir.

Baxış zamanı mütəxəssisin köməyi ilə izlər, əşyalar, sənədlər, habelə gələcəkdə iş üzrə sübut əhəmiyyəti kəsb edə biləcək digər əşyalar götürülür.

Baxış istintaq hərəkətinin sonunda təhqiqatçı protokol tərtib edir. Baxış protokolu CPM-in 236.6-cı maddəsinin tələblərinə uyğun tərtib edilməlidir.

Baxış protokolu bu istintaq hərəkətinin keçirilməsində iştirak etmiş bütün iştirakçılar və təhqiqatçı tərəfindən imzalanır.

Əməliyyat-axtarış fəaliyyəti yolu ilə əldə olunan məlumatlar cinayət işlərinin istintaqında bilavasitə sübut kimi istifadə edilə bilməz. Bu məlumatlar cinayət işinə aidiyyəti olduqda və cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq əldə edildikdə, sübutetmə prosesində istifadə oluna bilər (CPM-in 137- ci mad).

Əməliyyat-axtarış tədbirlərinin təşkili səlahiyyətli təhqiqat orqanının üzərinə düşür. Təhqiqatçı isə öz növbəsində, təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq hüququna malikdir (CPM-in 86.4.5-ci mad). Təhqiqat orqanları ilə təhqiqatçının daha aydın, tam və hərtərəfli birgə fəaliyyəti öz səlahiyyətlərinə aid olan cinayətlərin istintaqı mərhələsində daha aydın nəzərə çarpır. K.F.Qutsenko qeyd edir ki, -“təhqiqat orqanı və təhqiqatçının malik olduğu üsul və vasitələrin birgə işlədilməsi cinayətkarlığa qarşı hərtərəfli və effektiv mübarizə aparmağa imkan verir”.

Təhqiqat orqanının səlahiyyətinə aid olan cinayətlər üzrə təhqiqatçının təhqiqat orqanları ilə birgə, razılaşdırılmış fəaliyyəti mümkün olur.

Qüvvədə olan cinayət-prosesual qanunvericiliyi təhqiqatçılara cinayətin əlamətləri mövcud olduqda, cinayət işini başlamaq və təxirəsalınmaz istintaq hərəkətlərini həyata keçirmək hüququ verir. Bu zaman təhqiqatçı təxirəsalınmaz istintaq hərəkətlərim ozu həyata keçirir. Lakin təhqiqatçı bu barədə prokurora məlumat verməlidir. Artıq məlum olduğu kimi, təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqıqa cinayətin izlərinin müəyyən edilməsi və

rəsmiləşdirilməsi məqsədilə aparılır. Təxirəsalınmaz istintaq hərəkətləri CPM-in 86.4.2-ci maddəsi ilə müəyyən edilir. Bunlar aşağıdakılardır:

1) şübhəli şəxsin tutulması;
2) şübhəli şəxsin dindirilməsi;
3) zərər çəkmiş şəxsin dindirilməsi;
4) şahidlərin dindirilməsi;
5) ekspertizanın təyin edilməsi;
6) tanınmaya təqdim etmə;
7) baxış;
8) axtarış;
9) götürmə;
10) şəxsi müayinə;
11) üzləşdirmə;
12) istintaq eksperimenti keçirmək.

Təhqiqatçı sadalanan istintaq hərəkətlərini apararkən cinayət-prosessual qanunun bu hərəkətlərin keçirilməsini tənzimləyən qaydalarını rəhbər tutmalıdır.

Təcrübə göstərir ki, oğurlanmış əşyaların tapılmasında təhqiqatçının qüvvə və vasitələri buna kifayət etmir. Yalnız əməliyyat-axtarış xidməti sahəsini bu işə cəlb etməklə uğur qazanmaq mümkün olur.

Oğurlanmış əşyaların tapılması üzrə əməliyyat- axtarış işinin əsas forması bu əşyaların mümkün realizə oluna biləcək yerlərə nəzarəti həyata keçirməkdir. Bu yerlərə aid edilir: bazarlar, lombardlar, dəmiryolu vağzalı, avtobus stansiyaları, komission mağazalar və s.

Oğurlanmış əşyalarla əlaqədar axtarış işlərinin təhiili onu göstərir ki, cinayətkarlar lombardlardan oğurlanmış

əşyaların gizlədilməsi məqsədilə istifadə edir, bu əşyaları lombardlara girov qoymaqla oradan pul alırlar. Bununla da, cinayətkarlar oğurladıqları əşyaları asanlıqla realizə edib, onu pula çevirə bilirlər.

Axtarılan əşyalar dəmiryolu vağzallarında, aeroportlardakı, müəyyən müddət ərzində müvəqqəti saxlama kameralarında saxlanıla bilər. Axtarış planına bu yerlərin də yoxlanılması daxil edilir.

Cinayət yolu ilə oğurlanmış əşyaların axtarışında, nəinki bu sahədə aparılan müvafiq axtarış işləri köməklik edir, həmçinin, təhqiat orqanlarının keçirdikləri əməliyyat tədbirləri də bu növ işlərin açılmasında böyük rol oynayır.

## 4.2. Daxili işlər orqanları sistemində təhqiqat və ibtidai istintaqın qarşılıqlı əlaqəsi.

Azərbaycan dövləti öz müstəqilliyini bərpa etdikdən sonra təhqiqat və ibtidai istintaq orqanları ilə bağlı qanunvericiliklə bir sıra əlavə və dəyişiklər edilmişdir. AR-nın 2000-ci il CPM-də ilk dəfə olaraq təhqiqat və ibtidai istintaq ifadələrinin yerinə qısaca olaraq "İbtidai araşdırma" terminindən istifadə edilir. AR.CPM-in 7.0.22 maddəsində göstərilir ki, ibtidai araşdırma – cinayət işləri üzrə ibtidai istintaq və təhqiqat növündə məhkəməyədək aparılan icraatdır.

Cinayət mühakimə icraatının müstəqil mərhələsi kimi ibtidai araşdırma təhqiqat və ya ibtidai istintaq formasında həyata keçirilir. İbtidai istintaq ibtidai araşdırmanın bir forması olduğundan sonuncuya yuxarıda verilmiş anlayışda

onu səciyyələndirən zəruri keyfiyyət xüsusiyyətlərini, demək olar ki, eynilə ibtidai istintaqa da aid etmək olar. Təsadüfi deyildir ki, hüquq ədəbiyyatında ibtidai araşdırmaya, sözün geniş mənasında ibtidai istintaq kimi də anlayış verilir. İbtidai araşdırmanın bir mərhələsi kimi ibtidai istintaqa isə, sözün məhdud mənasında ibtidai istintaq adlandırır.[1]

Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edildiyi kimi ibtidai istintaq ibtidai araşdırmanın ali və yüksək formasıdır.[2]

İbtidai istintaq - cinayət prosesinin mərhələsidir. Bu mərhələdə müstəntiq cinayət işinin düzgün həlli üçün mühüm əhəmiyyəti olan halların məcmusunu araşdırır yə konkret şəxsə ittiham elan edilməsi haqqında məsələni həll edir. İbtidai istintaq cinayət işi başlandıqdan sonra başlanır və işin ittiham aktı ilə prokurora göndərilməsi və yaxud cinayət işinə xitam verilməsi və ya iş üzrə icraatın dayandırılması ilə qurtarır.[3]

İbtidai istintaq cinayət işi başlamasından ittiham aktı tərtib edilənədək, yaxud cinayət işi üzrə icraata xitam verilənədək olan bütün bir mərhələni əhatə edir və qeyd edilən prosessual sənədlərin tərtibi ilə ibtidai istintaq başa, çatmış hesab olunur. Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat və cinayət törətdikdən sonra psixi

---

[1] Cəfər Mövsümov. İbtidai istintaq. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, “Maarif”nəşriyyat, 1973, səh:11

[2] Cəfər Mövsümov. Sovet cinayət prosesi. Dərslik. Bakı, “Maarif” nəşriyyatı, 1989, səh:141.

[3] Hüquq ensiklopedik lüğəti, Bakı, Azərbaycan. Ensiklopediyasının Baş redaksiyası, 1991, səh: 177-178.

xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat üzrə isə işin məhkəməyə göndərilməsi haqqında müstəntiq tərəfindən müvafiq qərar qəbul edilməsi ilə ibtidai istintaq qurtarır. Hüquq ədəbiyyatında bəzən ibtidai istintaqın dayandırılmasını da bu sıraya aid edərək, istintaqın qurtarması hesab edirlər. Bu dəqiq ifadə deyildir, qüsurludur. Belə ki, ibtidai istintaqın dayandırılması, adətən, müvəqqəti xarakter daşıyır və həmin işlər üzrə qanunla müəyyənləşdirilən əsaslar yarandıqda ibtidai istintaq yenidən təzələnir.

İbtidai istintaq müstəntiqlər tərəfindən Azərbaycan Respublikası Cinayət-prosessual qanunvericiliyinə uyğun və qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilir. Bu zaman müstəntiq cinayət hadisəsinin baş vermə faktını və hallarını, şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətlərini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şəxsin təqsirliliyini, cəzanı yüngülləşdirən və ağırlaşdıran halları müəyyənləşdirir.[1]

Professor M.Ə. Cəfərquliyev qeyd edir ki, ibtidai istintaq işin başlanmasından ittiham aktının tərtib edilməsi ilə işin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi və ya tibbi xarakterli tədbirlərin tətbiqi haqqında məsələyə baxmaq üçün qərarla işin məhkəməyə verilməsi, yaxud iş üzrə icraatın xitam edilməsi və ya dayandırılması dövrünü əhatə edir. Xüsusi ittihamlı işləri nəzərə almasaq, cinayət-prosessual

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun, 2015. Səh.80

qanunvericiliyin tələbinə görə, bütün cinayət işləri ibtidai istintaq mərhələsindən keçir.[1]

İbtidai istintaqda əsas vəzifəli şəxs müstəntiqdir. Əməlin düzgün tövsifində müstəntiqin rolu böyükdür.

Sübut etmək müstəntiqin vəzifəsi və borcudur. Bu vəzifəni heç bir halda, heç bir əsasla təqsirləndirilən şəxsin və ya qarşı tərəfin üzərinə qoymaq olmaz. Sübut edilməli olan halları, o cümlədən cinayət hadisəsinin baş vermə faktını və hallarını, şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətlərini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şəxsin təqşirliliyini, cəzanı yüngülləşdirən və ağırlaşdıran halları və s. icraatında cinayət işi olan müstəntiq ibtidai istintaq zamanı sübuta yetirməyə borcludur.

Təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunması əsaslarını və onun təqsirli olub-olmamasını sübutetmə vəzifəsi müstəntiqin üzərinə düşür. Həmin ittihamın qanuni, əsaslı və ədalətli həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədilə sübutların əldə edilməsi, yoxlanılması və qiymətləndirilməsi müstəntiqin vəzifə borcudur.

S.X. Aslanov düzgün olaraq yazır ki, ibtidai istintaq şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq, cinayət hadisəsinin müəyyən etmək, cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq, cinayət qanunu ilə

---

[1] Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının Cinayət Prosesi. Dərslik. Bakı. Qanun, 2008, səh. 386.

nəzərdə tutulmuş əməli törətmiş şəxsi ifşa və cinayət məsuliyyətinə cəlb etmək, zəruri olduqda prosessual məcburiyyət tədbirlərini tətbiq etmək, həqiqi və ya ehtimal edilən cinayət törətməsi ilə əlaqədar şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qorumaq və səmərəli hüquqi müdafiə vasitələri ilə təmin etmək məqsədilə həyata keçirilir.[1]

Hüquq ədəbiyyatında bəzən qeyd edilir ki, cinayət-prosessual qanunvericilikdən irəli gələn tələbə görə böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində aparılan təhqiqat istisna olmaqla, bütün cinayət işləri üzrə ibtidai istintaqın aparılması məcburidir. Həmin müddəa CPM-in 215.1-ci maddəsində[4] də öz əksini tapmışdır. Bu dəqiq ifadə deyildir. Belə ki, cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirilən işlər üzrə də ibtidai istintaq aparılmır.

Xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərərçəkmiş şəxsin məhkəməyə şikayət ərizəsi verməsi ilə başlayır, məhkəmənin xüsusi ittiham qaydasında şikayəti öz icraatına qəbul edilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında qərarı ilə məhkəmə baxışına verilir.

CPM-in 37.2-ci maddəsinə əsasən, xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147 (Böhtan), 148 (Təhqir), 165.1 (Tövsifedici əlamətlər olmadan müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma) və 166.1-ci (Tövsifedici əlamətlər olmadan ixtiraçılıq və patent hüquqlarını pozma) maddələrində

---

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun, 2015. Səh.81

göstərilən cinayətlər üzrə həyata keçirilir və məhkəmə müşavirə otağına gedənədək zərərçəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda ona xitam verilir.[1]

Bunlardan əlavə, nəzərə almaq lazımdır ki, CPM-in 430-cu maddəsinə əsasən, yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəklində aparılır.

Bu o deməkdir ki, yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlər qanunda nəzərdə tutulan böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər olsa belə, həmin işlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat təhqiqat şəklində aparıla bilməz, yalnız cinayət işi başlanılmalı və ibtidai istintaq aparılmalıdır.

Qanunverici orqan eyni qaydanı anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat və cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatla əlaqədar da müəyyən etmişdir. Yəni həmin işlər üzrə də təhqiqat aparılmır, məhkəməyədək icraat yalnız ibtidai istintaq formasında aparılır.

Beləliklə, ibtidai araşdırmanın bir forması kimi ibtidai istintaq – cinayət mühakimə icraatının müstəqil mərhələsi olub, şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq, cinayət hadisəsini müəyyən etmək, cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsi ifşa və cinayət

---

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun, 2015. Səh.81

məsuliyyətinə cəlb etmək, zəruri olduqda prosessual məcburiyyət tədbirlərini tətbiq etmək, həqiqi və ya ehtimal edilən cinayət törətməsi ilə əlaqədar şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qorumaq və səmərəli hüquqi müdafiə vasitələri ilə təmin etmək məqsədilə, cinayət hadisəsinin baş vermə faktını və hallarını, şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətlərini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şəxsin təqsirliliyini, cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanı yüngülləşdirən və ağırlaşdıran halları, Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyi ilə başqa hal nəzərdə tutulmamışsa, cinayət prosesi iştirakçısının və ya cinayət prosesində iştirak edən digər şəxsin öz tələbini əsaslandırdığı halların sübut edilməsi üçün, icraatında cinayət işi və ya cinayət təqibilə bağlı digər materiallar olan təhqiqatçı, müstəntiq və ya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilən cinayət prosessual fəaliyyətdir.

Təhqiqat – ibtidai araşdırmanın ilk mərhələsidir. Bu mərhələdə təhqiqatçı cinayətin izlərinin müəyyən edilməsi, cinayətin "isti izlərlə" açılmasının təmin olunması, hadisə yerinin mühafizə və müayinə edilməsi üçün tədbirlər görülməsi, hadisənin bilavasitə şahidlərin dairəsini dəqiqləşdirməklə izahatlarının, yaxud ifadələrinin alınması, maddi sübutların götürülməsi və rəsmiləşdirilməsi məqsədilə, təxirəsalınmaz istintaq hərəkətlərinin və digər prosessual hərəkətlərin aparılmasını təmin edir.

Bu zaman təhqiqatçı hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəşi olaq şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək huququna malikdir.

Seyfulla Aslanov göstərir ki, təhqiqat - cinayət prosesində ibtidai araşdırmanın ibtidai istintaqa nisbətən daha sadə formasıdır. Yuxarıda göstərilən ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı qaydasında təhqiqatdan əlavə, qanunda nəzərdə tutulan hallarda böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat da təhqiqat formasında aparılır.[1]

Ona görə də, bəzən təhqiqatı ibtidai araşdırmanın ilkin mərhələsi də adlandırırlar. Lakin bu zaman nəzərə almaq lazımdır ki, böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat materialları, ibtidai istintaq aparılmadan, işin birinci instansiyası məhkəməsində baxılmasına əsas olur. Deməli, təhqiqat - cinayət prosessual hüququnun müstəqil institutudur.

Təhqiqat - müvafiq təhqiqat orqanları tərəfindən qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilən prosessual fəaliyyətdir. Odur ki, prosessual fəaliyyət olan təhqiqatı, həmin orqanlar tərəfindən aşkar və ya qeyri-aşkar üsullarla həyata keçirilən əməliyyat-axtarış fəaliyyətindən fərqləndirmək lazımdır.

CPM-in 86.5-ci maddəsinə əsasən, təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-

---

[1] Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun, 2015. Səh.82

axtarış tədbirləri keçirməyə haqlı deyildir. CPM-in 86.4.5-ci maddəsinə isə göstərilir ki, təhqiqatçının müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş, şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq hüququ vardır.

AR.CPM-in 214.2-ci maddəsinə əsasən cinayət işləri üzrə təhqiqatı aşağıdakı təhqiqat orqanları və şəxslər aparırlar: Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının (təhqiqat orqanlarının) təhqiqatçıları - Azərbaycan Respublikasının həmin müvafiq icra hakimiyyəti orqanları müstəntiqlərinin səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə rəhbərlik etdikləri hərbi hissələrin, hərbi idarələrin (müvafiq icra hakimiyyəti orqanına aid hərbi hissələr və hərbi idarələr istisna olmaqla), cəzaçəkmə müəssisələrinin, həbsdə saxlanılma yerlərinin, dəniz gəmilərinin yerləşdiyi ərazidə (ərazi üzrə) törədilmiş cinayətlərə-dair cinayət işləri üzrə - müvafiq olaraq təhqiqatçı səlahiyyətlərini həyata keçirən hərbi hissə komandirləri, hərbi idarə rəisləri, cəzaçəkmə müəssisələrinin və ya həbsdə saxlanılma yerlərinin rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər; əks-kəşfiyyat fəaliyyətinin təminatı həyata keçirən hərbi hissələrdə, hərbi idarələrdə təhlükəsizlik orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə - müvafiq icra hakimiyyəti orqanlarının təhqiqatçıları; müvafiq icra hakimiyyəti orqanına aid hərbi hissələrin və hərbi idarələrin ərazisində hərbi qulluqçular tərəfindən və ya hərbi xidmət əleyhinə törədilmiş cinayətlərə

dair işlər üzrə - müvafiq icra hakimiyyəti orqanının təhqiqatçıları.

### 4.3. Müstəntiqin təhqiqat orqanları ilə qarşılıqlı əlaqəsi.

Müstəntiqin təhqiqat orqanları ilə qarşılıqlı əlaqəsinin anlayışı, hüquqi əsasları və prinsipləri.

Qüvvədə olan cinayət-prosessual qanunvericiliyi müstəntiqin səlahiyyətlərini müəyyən edərək və cinayətlərin araşdırılmasının gedişini müəyyən edən məsələlərdə onun müstəqiliyini qeyd edərək, təhqiqat orqanlarının hüquqi və təşkilati imkanlarından istifadə etmək üzrə müstəntiqə səlahiyyətlər verir. (CMP-nin 85.4.5, 85.4.6, 85.4.7 mad)

Hüquq tətbiqi təcrübəsində cinayətlərin araşdırılması zamanı müstəntiq təhqiqat orqanlarına kömək göstərmək üçün tez-tez müraciət edir. Bir çox hallarda təhqiqat orqanları tərəfindən göstərilən bu kömək effektli və nəticə etibarilə səmərəli, cinayətin araşdırılması üzrə müstəntiqin və təhqiqat orqanlarının fəaliyyəti isə xeyirli və kəsərli olur.

Bununla əlaqədar olaraq qarşılıqlı əlaqənin forma və prinsiplərinin düzgün müəyyən edilməsi vacib nəzəri və praktik əhəmiyyət qazanır.

Cinayətlərin araşdırılması və təqsirli şəxslərin ifşa edilməsi təkcə istintaq orqanlarının deyil, digər hüquq-mühafizə orqanlarının da vəzifəsidir. Cinayətlərin araşdırılması zamanı müstəntiqdən kömək almaq üçün təhqiqat orqanlarına müraciət etmək zərurəti yaranır.

Cinayət – prosessual məcəllədə belə qarşılıqlı əlaqənin hüquqi əsasları və formaları müəyyən edilmişdir. Lakin ilk əvvəl “qarşılıqlı əlaqə” terminin özünün məzmununu müəyyən etmək lazımdır.

Rus dilində qarşılıqlı əlaqə iki təzahürün əlaqəsi, qarşılıqlı kömək mənasını ifadə edir. Bununla əlaqədar olaraq qarşılıqlı əlaqə cinayətlərin araşdırılması prosesində təhqiqat orqanlarının və istintaq orqanlarının bir-birinə göstərdiyi qarşılıqlı kömək kimi baxıla bilər. Həqiqətən, çox vaxt elə bir vəziyyət yaranır ki, yalnız müstəntiqlərin və təhqiqat orqanlarının birgə fəaliyyəti, onların cinayət işi üzrə fəal qarşılıqlı əlaqəsi cinayət mühakimə icraatının vəzifələrinin müvəffəqiyyətlə həll edilməsinin zəmanətinə xidmət edir.

Qarşılıqlı əlaqənin mahiyyətini, formaları və prinsiplərini qiymətləndirməkdən əvvəl, müstəntiq qarşılıqlı əlaqədə olmasını güman etdiyi cinayət mühakimə icraatının iştirakçısını özündə dəqiq təsəvvür etməlidir. Ona görə də “təhqiqat orqanı” terminini açıqlamaq lazımdır.

Azərbaycan Respublikasının CMP-də təhqiqat orqanın məzmununu müəyyən edən norma yoxdur. AR-nın CPM-nin 86-cı maddəsində yalnız təhqiqatçının səlahiyyətləri, hüquq və vəzifələri müəyyən edilmişdir.

Rusiya Federasiyasının CPM-nin 5-ci maddəsinin 24-cü bəndində qeyd edilir: təhqiqat orqanları-təhqiqat və digər prosessual hərəkətləri həyata keçirməyə vəkil edilmiş dövlətin vəzifəli şəxsləridir.

RF-nın CMP-nin 40-cı maddəsinin 1-ci hissəsinə əsasən təhqiqat orqanlarına əməliyyat-axtarış fəaliyyətinin

həyata keçirilməsi üzrə federal qanunlara müvafiq olaraq səlahiyyətlərə malik olan Rusiya Federasiyasının daxili işlər orqanları və icra hakimiyyətinin digər orqanları aid edilir.

**Qarşılıqlı əlaqənin prinsipləri -** Qanunçuluğa riayət etmək - öz praktiki fəaliyyətində təhqiqat orqanları və müstəntiq qüvvədə olan qanunvericiliyin müddəalarını rəhbər tutmalıdırlar. Qarşılıqlı əlaqə zamanı nəinki cinayət-prosessual qanunun, habelə digər qanunverici aktların, müəssisələrin normativ aktlarının tələbləri, AR-nın Baş Prokurorunun və digər mərkəzi dövlət hakimiyyəti orqanlarının göstərişləri nəzərə alınmalıdır.

Müstəntiqin təşkiledici rolu-müstəntiqin əlaqələndirici rolu və onu təşəbbüs göstərməsi , habelə təhqiqat orqanı tərəfindən əməliyyat-axtarış tədbirlərinin nəticələri barədə müstəntiqi vaxtında məlumatlandırmaq. Cinayətin araşdırılmasına görə məhz müstəntiq şəxsən məsuliyyət daşıyır, ona görə də o, qarşılıqlı əlaqə prosesində təşkiledici rolu öz üzərinə götürür.

Qarşılıqlı əlaqənin qüvvə, vasitə və metodlarının seçilməsi zamanı təhqiqat orqanlarının müstəqilliyi (sərbəstliyi)-təhqiqat orqanları tərəfindən öz fəaliyyətinin xarakteri və metodlarının müəyyən etməsinə müstəntiqin qarışmaması. Müstəntiq qarşılıqlı əlaqənin yalnız vəzifələrini və məqsədini müəyyən edir, o, təhqiqat orqanlarına bu məqsəd və vəzifələrin həlli yollunu göstərmir. Bununla belə, bəzi hallarda bu və ya digər hərəkətlərin aparılması müstəntiq və təhqiqat orqanının arasında müəyyən razılaşmanın mövcud olması mümkündür. Məsələn, cinayət törətmiş şəxslərin müəyyən edilməsini

təhqiqat orqanına tapşıraraq, müstəntiq tapşırığın yerinə yetirilməsini müəyyən yerlə əlaqələndirməyə haqlı deyil. Eyni zamanda, təhqiqat orqanına baxış və axtarışın aparılmasını tapşıraraq, müstəntiq tapşırığın icra edilməsi yerini konkret şəkildə göstərməyə haqlıdır.

Hərəkətlərin yekdilliyi və əldə edilmiş nəticələrinin kompleks şəkildə istifadəsi aparılan işlərin nəticələri barədə informasiyanın nəticələri barədə informasiyanın daimi mübadiləsini, habelə planlaşdırılan tədbirlər haqqında məsəlləri nəzərdə tutur. İstintaq hərəkətləri və əməliyyat - axtarış tədbirləri cinayətin effektiv sürətdə araşdırılmasına kömək edən razılaşdırılmış hərəkətlər sistemini ifadə etməlidir.

İbtidai istintaq gedişində və əməliyyat- axtarış tədbirlərinin həyata keçirilməsi zamanı əldə olunmuş məlumataların yayılmaması cinayət işi üzrə icraat aparılan zaman prosesin iştirakçıları tərəfindən əldə olunmuş məlumatların müstəntiqin icazəsi olmadan yayılmasına yolverilməzliyini nəzərdə tutur. Əks halda AR-sı CMP-nın 225.5 maddəsinə əsasən bu məlumatları yayan şəxs məsuliyyətə cəlb olunur.

Qarşılıqlı əlaqənin əsas vəzifələri:

- cinayətlərin xəbərdarlığı və qarşısının alınması;
- təxirəsalınmaz istintaq hərəkətlərinin və əməliyyat – axtarış tədbirlərinin təmini;
- cinayətlərin tam, hərtərəfli və obyektiv araşdırılması;
- ibtidai istintaq orqanlarından gizlənən şəxslərin axtarışının həyata keçirilməsi;

- təqsirli şəxslərin hərəkətləri nəticəsində vurulmuş zərərin ödənilməsinin təmin edilməsi.

**Qarşılıqlı əlaqənin formaları -** Qarşılıqlı əlaqənin formaları dedikdə, cinayətin araşdırılması zamanı müstəntiqin və təhqiqat orqanlarının mövcud ola bilən birgə fəaliyyətinin müxtəliflikləri və üsulları başa düşülür.

Birgə fəaliyyət həm cinayət işinin başlanması mərhələsində, iş üzrə həm də ibtidai istintaqın gedişi zamanı ola bilər. Qarşılıqlı əlaqənin formaları prosessual xarakterə malik olmaqla, həm də digər normativ aktlarının normaları ilə nizama salına bilər. Bununla belə lazımdır ki, digər normativ aktlar yalnız qanunla müəyyən edilmiş prosessual formaları konkretləşdirir və tamamlayır.

Prosessual formada qarşılıqlı əlaqə - müstəntiqin və təhqiqat orqanının razılaşdırılmış, cinayət-prosessual qanunun normaları ilə tənzimlənən fəaliyyətidir.

Təşkilati formada qarşılıqlı əlaqə-müəssisə normativ aktlarının müddəaları ilə tənzimlənən müstəntiqin hüquq-mühafizə və ya xidmətləri ilə əməkdaşlığı.

Qarşılıqlı əlaqə formaları prosessual və digərinə ayrılması hüquqi nəticələrə gətirib çıxarması nöqteyi-nəzərindən müəyyən əhəmiyyət kəsb edir. Belə ki, prosessual formasında qarşılıqlı əlaqə zamanı qanunvericinin göstərişlərinin yerinə yetirməməsi qarşılıqlı əlaqə çərçivəsində həyata keçirilən fəaliyyətin qanunsuz kimi, əldə edilmiş sübutların isə yolverilməzliyi kimi hesab edilməsinə gətirə bilər(səbəb ola bilər)

Eyni zamanda qarşılıqlı əlaqənin təşkilati qaydalarına riayət edilməməsi ibtidai araşdırmanın maraqlarına xələl gətirsə də, yuxarıda qeyd olunan nəticələrə gətirə bilməz.

Qarşılıqlı əlaqənin CPM-si ilə tənzimlənən prosessual formaları. Əməliyyat-axtarış tədbirlərinin aparılması haqqında müstəntiqin təhqiqat orqanına yazılı tapşırıqları (CMP-nin 85.4.6,85.4.7-ci maddəsi) - Müstəntiq təhqiqat orqanına bu cür tapşırıqları o zaman verir ki, nə vaxt cinayət işi üzrə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zəruriliyi meydana gəlir və istintaq  və digər prosessual hərəkətlərin aparılması ilə lazımı nəticələr əldə etmək mümkün olmur. Məsələn, hadisəni görmüş şahidlərin müəyyən edilməsi zəruri olduqda. Belə tapşırıqları verərkən, müstəntiq qarşıya qoyulmuş məqsədə hansı qüvvə və vasitələrlə nail olunması barədə təhqiqat orqanına göstəriş verməyə haqlı deyil. Ona görə də, müstəntiqin bu cür tapşırığında bir qayda olaraq, yalnız nəyin müəyyən edilməsi və aşkar edilməsi barədə göstəriş olur.

Cinayət–prosessual və əməliyyat–axtarış fəaliyyətinin subyektləri müxtəlif vəzifəli şəxslər olmalıdır.

Rusiya Federasiyasının CMP-nin 41-ci  maddəsinin 2-ci hissəsinə müvafiq olaraq cinayət işi üzrə əməliyyat-axtarış tədbirlərini aparmış  və ya aparan şəxsin üzərinə həmin iş üzrə təhqiqat aparmaq səlahiyyətini qoymağa yol verilmir.

Azərbaycan Respublikasının CMP-nin 86.5-ci maddəsinə görə təhqiqatçı öz icraatında  olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat - axtarış tədbirləri keçirməyə haqlı deyil.

AR-nın "Əməliyyat - axtarış fəaliyyəti haqqında" Qanunun 7-ci bəndinə müvafiq olaraq təhqiqatçı icraatında olan cinayət işi üzrə əməliyyat-axtarış tədbirlərinin keçirməsi barədə əməliyyat- axtarış tədbirlərinin keçirməsi barədə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqana tapşırıq verməyə haqlıdır. Həmin qanunun müddəalarının məzmunundan görünür ki, keçirilmiş əməliyyat-axtarış tədbirlərinin nəticələri barədə məlumat nəinki müstəntiqə və məhkəməyə, habelə təhqiqat orqanına da göndərilir.

Beləliklə, nəticəyə gəlmək olar ki, qanunverici təhqiqat orqanlarını və əməliyyat–axtarış fəaliyyəti subyektlərini ayırır.

Ayrı-ayrı istintaq hərəkətlərinin aparılması haqqında müstəntiqin yazılı tapşırıqları (AR.CPM-nin 85.4.7. maddəsi) - cinayət işi üzrə sübutlar ibtidai araşdırmanın yalnız lazımi subyekti, yəni icraatında həmin cinayət işi olan vəzifəli şəxs tərəfindən alınmalıdır. Müstəntiq istintaq hərəkətlərinin aparılmasını cinayət prosesinin digər iştirakçısına, məsələn təhqiqat orqanına, həvalə etdikdə, təhqiqat orqanı sübutların toplanmasının lazımi subyekti statusunu əldə edir.

Belə halda təhqiqat orqanına hansı istintaq hərəkətin aparılması tapşırılır. Dəqiq göstərilməlidir ki, əldə olunan sübut mümkünlük xüsusiyyətini (xassəsini) itirməsin.

Cinayət-prosessual qanunda (məcəllədə) aparılması təhqiqat orqanına həvalə edilə bilən istintaq hərəkətlərinin siyahısı və həcmi göstərilməyib. Belə vəziyyət müstəntiqə tapşırdığı istintaq hərəkətin həcminin özü müəyyən etməsinə imkan verir. İstintaq hərəkətinin aparılmasını təhqiqat

orqanına tapşıraraq, müstəntiqin tərəfdar olmalı meyarlar barədə hüquq ədəbiyyatında müxtəlif fikirlər söylənilir. Q.V.Drozdov, Q.D.Lukovnikov hesab edirlər ki, müstəntiq təhqiqat orqanına daha vacib istintaq hərəkətlərinin aparılmasını tapşırmağa haqlı deyil. Lakin daha vacib hərəkətlər dedikdə, nə başa düşülməlidir, qeyd olunan müəlliflər bunu izah etmirlər. V.K.Bıkov vacib istintaq hərəkətlərinə aparılması gedişində vacib sübutlar alına bilən hərəkətləri aid edir. Hesab edirik ki, V.M.Bikovun bu mövqeyi mübahisəlidir, çünki müəllifin sübutların da ola bilməsi barədə nəticəyə gəlməyə əsas verir, bu isə sübut hüquqi nöqteyi-nəzərindən mənasız fikirdir.

Qeyd etmək lazımdır ki, cinayətlərin araşdırılması zamanı müstəntiq apardığı istintaq hərəkətinin nəticəsini hər vaxt qabaqcadan duya bilməz. Sübutun nə dərəcədə dəyərli olması barədə fikri bu sübutun işdə olan digər sübutlarla tutuşdurmaqla qiymətləndirdikdən sora irəli sürmək olar.

Digər alimlər hesab edirlər ki, müstəntiq bütün hallarda mütləq özü aparmalı istintaq hərəkətlərinin yerinə yetirilməsini təhqiqat orqanına tapşıra bilməz.

Həqiqətən, ümumi qaydaya görə icraatında olan cinayət işi üzrə istintaq hərəkətlərini müstəntiq özü aparmalıdır. Çünki məhz müstəntiq ibtidai araşdırmanın lazımi subyektidir. Lakin obyektiv səbəblərə görə müstəntiqin cinayət işi üzrə zəruri istintaq hərəkətlərini şəxsən özü aparmağı bütün hallarda imkan olmur. Bunu nəzərə alaraq, müstəntiqin təhqiqat orqanına tapşırıqlar vermək hüququ qanunla nəzərdə tutulmuşdur. Cinayət-prosessual qanunvericilikdə bu məsələyə dair hər-hansı

məhdudiyyətlər və qadağalar yoxdur. Müstəntiq cinayət işinin konkret hallarını nəzərə alaraq, bu və digər istintaq hərəkətinin aparılmasını təhqiqat orqanına həvalə edilməsi zəruriliyini özü müəyyən edir

Ümumi qaydaya görə istintaq hərəkətləri ibtidai araşdırmanın aparıldığı yer üzrə yerinə yetirilir. Lakin, zəruri hallarda, istintaq və axtarış hərəkətləri başqa yerdə də aparıla bilər(şəhərdə yaşayan şahidin dindirilməsi, başqa rayonda olan sənədlərin götürülməsi)

Tutulma, təqsirləndirilən, şübhəli şəxslərin, şahidin, zərər çəkmiş şəxsin məcburi gətirilməsi haqqında qərarların məcburi icrası barədə tapşırıqlar – AR.CPM-nin 85.4.6-cı maddəsinə müvafiq olaraq müstəntiq tutulma, məcburi gətirilmə və digər prosessual məcburiyyət tədbirlərinin aparılmasını müvafiq təhqiqat orqanına tapşırmaq, habelə ondan istintaq və digər prosessual hərəkətlərin həyata keçirilməsinə kömək göstərilməsini tələb etmək hüququna malikdir. Bu maddənin məzmununda görünür ki, birincisi, qanun təhqiqat orqanına tapşırıla bilən prosessual qərarların tam siyahısını vermir. İkincisi, qanun müstəntiqə prosessual qərarların icrasına yönəlmiş prosessual hərəkətlərin aparılması haqqında tapşırıqlar vermək hüququnu verərək, təhqiqat orqanına cinayət işi üzrə prosessual qərarlar qəbul etmək səlahiyyətini vermir. Qanunun bu müddəası haqlıdır, çünki prosessual qərarların qəbul edilməsi sübutların qiymətləndirilməsini tələb edir, bu isə cinayət işi icraatında olan şəxsin müstəsna səlahiyyətidir. Buna görə də prosessual qərarın qəbul edilməsi təhqiqat orqanına tapşırıla bilməz. Təhqiqat orqanına istintaq hərəkətlərinin aparılması ilə

birgə müstəntiqin qəbul etdiyi prosessual qərarların (məsələn məcburi gətirilmə, tutulma haqqında) icrasının tapşırılması başqa məsələdir.

Cinayət törətmiş şəxsin müəyyən edilməsi üçün axtarış və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi. Axtarışın nəticələri barədə müstəntiqi məlumatlandırmaq - qarşılıqlı əlaqənin bu forması iki hallar mövcud olduqda olur.

1. Törədilmiş cinayət faktı üzrə müstəntiq cinayət işi başlayır və ibtidai istintaqın gedişində prosessual vasitələrlə cinayəti törətmiş şəxsi müəyyən etmək mümkün olmur. Belə halda müstəntiq cinayəti etmiş şəxsin müəyyən edilməsi məqsədli axtarış və əməliyyat-axtarış tədbirlərinin görülməsi haqqında təhqiqat orqanına tapşırıq göndərir.

2. İstintaq aidiyyəti müstəntiqə aid olan cinayət faktı üzrə təhqiqat orqanı cinayət işi başlayır və 10 gün ərzində təxirəsalınmaz istintaq hərəkətlərini aparır, 10 gün keçdikdə iş ibtidai istintaq orqanına göndərilir, təhqiqat orqanı isə, müstəntiqin tapşırığı olmadan, cinayəti törətmiş şəxsi müəyyən etmək məqsədilə axtarış və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini davam edirlər.

İstintaqdan gizlənmiş şübhəli şəxsin, təqsirləndirilən şəxsin axtarışı haqqında müstəntiqin tapşırığı - Rusiya Federasiyasının cinayət-prosessual qanunu istintaqdan gizlənmiş həm şübhəli, həm də təqsirləndirilən şəxsin axtarışı haqqında təhqiqat orqanına tapşırığın verilməsini nəzərdə tutur. (RF.CMP-nin 210-cu maddəsi)

AR-nın CMP-nin 277.5.3. maddəsi isə yalnız gizlənmiş təqsirləndirilən şəxsin axtarışı barədə tapşırığı nəzərdə tutur.

Şübhəli şəxsin, təqsirləndirilən şxsin axtarışı həm ibtidai istintaq aparılan zaman, həm də iş üzrə icraatın dayandırılması zamanı elan edilə bilər. Əgər axtarış iş üzrə ibtidai istintaq aparılan zaman elan edilmişsə, onda təhqiqat orqanına həm istintaq hərəkətlərinin tapşırılması, həm də əməliyyat-axtarış tədbirlərinin keçirilməsi tapşırıla bilər.

## 4.4. Təhqiqatçının prokurorluq, məhkəmə və digər orqanlarla qarşılıqlı əlaqəsi.

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsində aydın surətdə göstərilmişdir: "Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir". Prokurorun qanunların icrasına nəzarət etməsi sahəsindəki səlahiyyətləri "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda, Cinayət - Prosessual Məcəlləndə öz əksini tapmışdır.

Məlum olduğu kimi, hazırlanan və ya törədilən cinayətlərin əksəriyyəti barəsindəki məlumatlar və ərizələr polisə daxil olur. Təhqiqat orqanları belə xarakterli ərizə və məlumatları qəbul etməyə borcludurlar. İstənilən hazırlanan və ya törədilmiş cinayət hadisəsi zamanı öz səylərini birləşdirməli və müvafiq tədbirlər görməlidirlər. Prokuror isə mütəmadi qaydada təhqiqat orqanına daxil olmuş məlumatların, ərizələrin vəziyyəti ilə tanış olmalı, onların

hansı səviyyədə icra edilməsinə nəzarət edir. CPM-in 84-cü maddəsində qeyd edilmişdir ki, prokuror təhqiqatçıdan cinayət işinin materiallarını, sənədlərini, ibtidai araşdırmanın gedişi haqqında məlumatları tələb edə, habelə cinayət işlərinin materiallarını və sənədlərini yoxlaya, ibtidai araşdırmanın gedişi vəziyyəti ilə yerində tanış ola bilər. O, habelə cinayət işinin ibtidai istintaqını aparan bir orqandan digərinə verilməsi halları istisna olmaqla, istintaqın tam və hərtərəfli, obyektiv araşdırılmasını təmin emək məqsədilə, qanunun tələblərinin pozulması ilə istintaqı aparılan cinayət işini təhqiqatçının icraatından götürərək, digər təhqiqatçının icraatına verə bilər. O, təhqiqatçının qərar və prosessual hərəkətlərindən daxil olmuş şikayətlərə də baxa bilər.

Prokuror qətimkan tədbirinin seçilməsi, dəyişdiri- məsi və ya ləğv edilməsi, əməlin tövsifi, yekun protokolunun məzmunu, qərarların qəbul edilməsi, habelə istintaq və digər prosessual hərəkətlərin aparılması barədə təhqiqatçıya yazılı göstərişlər verə bilər.

Törədilmiş və ya hazırlanan cinayət haqqında cinayət işinin başlanması üçün səbəb fiziki şəxslərin məlumatları ola bilər. Bu məlumatların şifahi və ya yazılı olmasının məcburi xarakter daşıması Qanunverici tərəfindən nəzərdə tutulmamışdır. Bundan başqa, törədilmiş və ya hazırlanan cinayət haqqında cinayət işinin başlanması üçün səbəb hüquqi şəxslərin (vəzifəli şəxslərin) də məlumatları ola bilər. Cinayətin törədilməsi və ya onun törədilməsinə hazırlıq faktına dair müvafiq kütləvi informasiya vasitəsinə məlum olmuş, cinayət işinin başlanması üçün səbəb hesab edilən kütləvi informasiya vasitəsinin məlumatları mətbuatda,

radioda, televiziyada əks etdirildikdən sonra, cinayət təqibi orqanlarına göndərilməlidir.

Cinayət-prosessual qanunda nəzərdə tutulmuş səbəblər və əsaslar mövcud olduğu bütün hallarda təhqiqatçı, müstəntiq və ya prokuror dərhal cinayət işinə başlamalıdır. Cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olduğu və ya əsasın olmadığı halda təhqiqatçı, müstəntiq və ya prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar çıxarır. Aşağıdakı hallardan biri mövcud olduqda isə təhqiqatçı və ya müstəntiq cinayət işi başlamadan törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatı istintaq aidiyyəti üzrə göndərə bilər (CPM-in 213.1-ci mad):

- həmin cinayətin araşdırılması onun səlahiyyətinə aid olmadıqda;
- cinayət onun fəaliyyət dairəsinin hüdudlarından kənar ərazidə törədildikdə.

Buradan göründüyü kimi, təhqiqatçı, müstəntiq və ya prokuror adı çəkilən qərarlardan hökmən birini qəbul etməlidir. Bu qərarlardan hansının qəbul edilməsindən asılı olmayaraq, qanunçuluğun pozulması halları mövcud olarsa, cinayətkarlıqla mübarizənin effektivliyi aşağı düşmüş olur. Prokuror tərəfindən cinayət işi qaldırılarkən onun qanuniliyi və əsaslılığı, eləcə də, cinayət işinin başlanmasının rədd edilməsinin qanunun tələblərinə cavab verməsi ilə şərtlənməlidir. Cinayət işinin aidiyyəti üzrə göndərilməsi zamanı da qanunçuluğun prinsipləri rəhbər tutulmalıdır.

Cinayət işinin başlanması barədə qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən bir sutka ərzində cinayət

haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

Prokuror törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş məlumatlara baxır, kifayət qədər səbəb və əsas olduqda, cinayət işi başlayır. Prokuror cinayət işinin ibtidai istintaqını özü də apara bilər və ya onu təhqiqatçıya, yaxud müstəntiqə tapşıra bilər.

Cinayət işinin başlanmasının rədd edilməsi barədə qərarda əsas və səbəblərin kifayət qədər olmasını nəzərə alan prokuror öz qərarı ilə təhqiqat orqanının çıxardığı qərarı ləğv edir və yenidən cinayət işinin başlanması barədə qərar çıxarır. Zərurət yaranarsa, belə halda prokuror 10 (on) gündən artıq olmayan müddətə əlavə yoxlama keçirməyə qanunla səlahiyyətlidir (CPM-in 212.4.1-ci mad).

Materialların məhkəməyədək sadələşdirilmiş icraat formasında prosessual qaydalara müvafiq olaraq tərtib edilməsi, təhqiqat orqanının prokurorla cinayət- prosessual münasibətlərə daxil olması ilə şərtləndirilir. Törədilmiş cinayətin xarakteri, bu və ya digər halları yekun protokolunda öz əksini tapmaqla, təhqiqatçı materialları hüquq pozuntusu törətmiş şəxsə təqdim etdikdən sonra, prokurora göndərir. Prokuror ona daxil olmuş materiallarla tanış olduqdan sonra, yekun protokolunda irəli sürülən ittihamı təsdiq edir və işi məhkəməyə göndərir. Bundan başqa, prokuror əgər bu materialların səthi yığılması ilə, bu və ya digər əlavələr edilməsi qənaətinə gələrsə, materialları geri qaytarmaq hüququna malikdir.

Təhqiqatçı prokurorun qanuni göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir və öz səlahiyyətləri daxilində istintaq və digər prosessual hərəkətləri həyata keçirir. Cinayət işi prokuror tərəfindən icraata qəbul edildikdən sonra, təhqiqatçı ayrı-ayrı istintaq hərəkətlərini yalnız prokurorun göstərişləri olduqda həyata keçirir. Burada bir məsələni qeyd etmək lazımdır ki, təhqiqatçı öz icraatında olan işlə əlaqədar qeyri-aşkar üsullarla əməliyyat-axtarış tədbirləri həyata keçirməyə haqlı deyil. Təhqiqat orqanının əməkdaşının öz səlahiyyətləri daxilində hansı hərəkətləri etməsi CPM-in 86-cı maddəsində öz əksini tapmışdır.

CPM-in 84-cü maddəsində prokurorun üzərinə bir sıra vəzifələr qoyulmuşdur. Belə ki, prokuror təhqiqatçıya verilmiş etirazlara, habelə təhqiqatçının öz-özünə vermiş etirazına baxa bilər. O, istintaq və digər prosessual hərəkətlərin aparılması zamanı təhqiqatçıya yazılı göstərişlər verə bilər. O, təhqiqatçı tərəfindən tutulma, məcburi gətirilmə və digər prosessual məcburiyyət tədbirlərinin aparılmasının qanuniliyinə nəzarət edir. Belə hallarda təhqiqat aparatları ilə prokuror arasında olan qarşılıqlı münasibət təhqiqat orqanı və müstəntiq arasında mövcud olan qarşılıqlı əlaqəyə oxşarlıq təşkil edir. CPM-in 84.5.19-cu maddəsində bu barədə qeyd edilmişdir ki, təhqiqatçı və ya müstəntiq tərəfindən tutulan, məcburi gətirilməyə və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılmasının qanuniliyinə nəzarət etmək, habelə prosessual hərəkətlərin aparılmasını təhqiqat orqanlarına tapşırmaq prokurorun səlahiyyətləri çərçivəsindədir.

Belə oxşarlıq həm də cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat- axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barəsində məlumat almaq və s. məsələlərdə də mövcud olmuş olur (CPM-in 86.4.5-ci mad).

Təhqiqat orqanlarının prokurorla prosessual münasibətlərə girə bilməsinin bir halı da o vaxt mövcud olur ki, prokuror öz hüquqlarından istifadə edərək, təhqiqatın icraatında iştirak etmiş olsun. Belə halda prokuror şəxsən özü ayrı-ayrı istintaq hərəkətlərini aparır və ya istintaqı tam həcmdə üzərinə götürmüş olur.

Əlbəttə ki, belə hallara iş üzrə həqiqətin tam müəyyən edilməsi zamanı təsadüf olunur. Lakin bu zaman prokurorun bütün hərəkətləri cinayət-prosessual qanunvericiliklə tam surətdə üst-üstə düşməlidir.

Prokuror ittiham aktını, habelə CPM-də nəzərdə tutulmuş hallarda təhqiqatçının və ya müstəntiqin qərarlarını təsdiq etmək, yaxud bundan imtina edərək, icrası məcburi olan göstərişləri ilə cinayət işini müstəntiqə qaytara bilər.

Prokurorla təhqiqat orqanı arasında qarşılıqlı münasibətlər yaranan zaman təhqiqatçının tabeçiliyi ifrat həddə çatmamalı, onun qanun tərəfindən ona verilmiş prosessual müstəqilliyi qorunmalıdır.

Təhqiqatçının məhkəmə orqanları ilə qarşılıqlı əlaqəsi artıq cinayət işinin başlanması mərhələsindən yaranmış olur. Məlumdur ki, təhqiqatçı törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxarkən, sonda müvafiq qərarlar qəbul etməlidir. Həmin qərarlardan biri də CPM-in 207.5.4-cü maddəsində göstərilən xüsusi ittiham qaydasında təqib

olunan cinayətə dair məlumatı məhkəmə aidiyyəti üzrə göndərmək barədə çıxarılan qərarıdır.

Təhqiqatçı CPM-in 213.3-cü maddəsinə uyğun olaraq xüsusi ittiham qaydasında təqib edilən cinayət haqqında zərər çəkmiş şəxsin şikayətini məhkəmə aidiyyəti üzrə birinci instansiya məhkəməsinə göndərir.

CPM-in 212-ci maddəsində cinayət işinin başlanmasının rədd edilməsini tənzimləyən qaydalar göstərilir. Qarşılıqlı əlaqənin yaranmasına başqa bir misal kimi təhqiqatçının cinayət işinin başlanmasının rədd edilməsi haqda qərarından məhkəməyə şikayətin verilməsini qeyd etmək olar. Bu halda məhkəmə nəzarəti funksiyalarını həyata keçirən məhkəmə təhqiqatçının cinayət işinin başlanmasının rədd edilməsi haqda qərarını ləğv etmək səlahiyyətinə malikdir. Eyni vaxtda prokurorun diqqətini CPM-in 207, 209 və 210-cu maddələrinin tələblərinin pozulmasına cəlb etməklə bu tələblərin yerinə yetirilməsinin təmin edilməsi barədə qərar qəbul edir. Əsaslar olmadıqda, təhqiqatçının cinayət işinin başlanmasının rədd edilməsi haqqında çıxarılmış qərarını dəyişdirilmədən öz qüvvəsində saxlaya bilər.

Məhkəməyədək icraat mərhələsində təhqiqatçı tərəfindən sadələşdirilmiş icraat formasında toplanmış materiallar və xüsusi ittiham qaydasında daxil olmuş şikayətlər məhkəmə aidiyyəti qaydasına uyğun olaraq birinci instansiya məhkəməsinə göndərilir (CPM-nin 298- ci mad). Məhkəmə daxil olmuş məhkəməyədək sadələşdirilmiş icraat materiallarını və ya xüsusi ittiham qaydasında şikayətlə əlaqədar materialları 7 (yeddi) gün müddətində hazırlıq

iclasına çıxarır. Hazırlıq iclasının keçirilməsinə 3 (üç) gün qalmış müddətdə məhkəmə müvafiq şəxslərə bildiriş göndərir. Məhkəmə eyni zamanda yekun protokolunun və ya xüsusi ittiham qaydasında şikayətin surətinin göndərilməsini də təmin etməlidir (CPM-in 298.4-cü mad).

Məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə məhkəmənin hazırlıq iclasında baxılmasından sonra 7 (yeddi) gün müddətində məhkəmə baxışı təyin edilir (CPM-in 301.4-cü mad). Bütövlükdə, istər məhkəməyədək sadələşdirilmiş icraat formasında hazırlanan materiallara, istərsə də xüsusi ittiham qaydasında təqib olunan cinayətlərə dair daxil olmuş şikayətlə əlaqədar materiallara birinci instansiya Məhkəməsində 14 (on dörd) gündən artıq olmayan müddətdə baxılır.

Bir məqamı da qeyd etmək lazımdır ki, bəzi hallarda məhkəmənin hazırlıq iclasında məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması haqqında əsaslandırılmış qərar çıxarılır. Belə qərarın çıxarılmasına əsas CPM-in 304.1-ci maddəsinə müvafiq olaraq aşağıdakılardır:

1) təqsirləndirilən şəxs gizləndikdə və onun olduğu yer məlum olmadıqda;

2) təqsirləndirilən şəxs onun məhkəmə baxışında iştirakını istisna edən ağır xəstəliyə tutulduqda;

3) icraat zamanı tətbiq edilmiş normativ hüquqi aktın Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğunun yoxlanılması ilə bağlı sorğu olduqda.

CPM-in 319-cu maddəsində məhkəmə baxışında icraatın dayandırılması qaydası şərh edilir. Adı çəkilən maddənin tələbinə görə məhkəmə baxışında təqsirləndirilən şəxsin gizlənməsi və ya xroniki, yaxud digər ağır xəstəliyə tutulduğuna görə onun məhkəmə iclasına gəlməsi qeyri-mümkün olduqda, məhkəmə həmin təqsirləndirilən şəxs tapılanadək və sağalanadək onun barəsindəki məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatı dayandırır.

Məhkəmə eyni vaxtda məhkəmədən gizlənən təqsirləndirilən şəxsin axtarışını elan edir və bu məsələ üzrə qəbul etdiyi qərarı prosessual rəhbərliyi həyata keçirmiş prokurora göndərir. Prokuror da öz növbəsində qərarın icrasına nəzarəti həyata keçirir.

Təhqiqatçının qarşılıqlı əlaqəsinə hüquq məsləhət-xanaları vasitəsilə vətəndaşlara hüquqi yardımın göstərilməsi ilə bağlı fəaliyyətini göstərmək olar. Hüquq məsləhətxanaları təhqiqat orqanlarının tələbləri üzrə müqavilənin həyata keçirilməsi üçün vəkillər təyin edir. Hüquqi yardım göstərilməsi ilə əlaqədar vətəndaşlarla, idarə, müəssisə və təşkilatlarla müqavilələr bağlayırlar.

Hüquq məsləhətxanası hüquqi şəxsdir. Bankda cari hesabı üzərində adı və mənsubiyyəti göstərilmiş möhürə və ştampa malikdir.

Hüquq məsləhətxanasına müdir rəhbərlik edir. Hüquq məsləhətxanasının müdiri məsləhətxananın işini təşkil edir.

Haqqında danışdığımız hüquqi yardımın həyata keçirilməsi Azərbaycan Respublikası Konstitusiyasının 61-ci

maddəsinin “hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır” tələbindən irəli gəlir.

Təhqiqat orqanları dövlət orqanlarından tərcüməçi, mütəxəssis və ekspertin ayrılmasını tələb etmək hüququna malikdir (CPM-in 86.4.3-cü mad).

Dövlət orqanları belə tələbin yerinə yetirilməsini təmin etməyə borcludurlar. Bununla da cinayət- mühakimə icraatının vəzifələrinin həyata keçirilməsində təhqiqat orqanlarına köməklik etmiş olurlar.

Qarşılıqlı əlaqənin yarandığı başqa bir sahə dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək hüququ ilə təhqiqatçının çıxış etməsidir (CPM-in 86.4.4-cü mad). Belə məzmunlu tələblər cinayət işinin başlanmasına qədər, yaxud cinayət işi üzrə icraatın gedişatı zamanı da mümkün olur. Keçirilmiş yoxlama hərəkətləri əsasında daxil olmuş şikayətlə əlaqədar cinayət işi başlanır, məhkəməyədək sadələşdirilmiş icraat açılır, yaxud da xüsusi ittihamlı iş kimi məhkəməyə göndərilir. Əks halda isə yoxlama materialları cinayət işinin başlanmasının rədd edilməsi, məhkəməyədək sadələşdirilmiş icraatın açılmasından imtina barədə qərarların qəbul edilməsi ilə nəticələnir.

# Fəsil 5. Yetkinlik yaşına çatmayanlar barəsində ictaatın xüsusiyyətləri

## 5.1. Yetkinlik yaşına çatmayanlar və onlar barəsində qanunvericiliyin inkişaf tarixi.

Cinayət mühakimə icraatında yetkinlik yaşına çatmayanlar dedikdə 14 yaşı tamam olmuş və 18 yaşına çatmamış şəxslər başa düşülür.

Qüvvədə olan CM-in 84-cü maddəsində 14 yaşdan 18 yaşa qədər olan şəxslər yetkinlik yaşına çatmayanlar qrupuna aid edilərkən, onların kifayət qədər əqli yetkinliyə çatmaması və həyat təcrübələrinin az olması halları nəzərə alınmışdır. Buna görə də cinayət qanunvericiliyində yetkinlik yaşına çatmayanlann törətdiyi cinayətə görə məsuliyyətin həllində və cəza təyinində onlann əqli və iradəvi xüsusiyyətlərinin nəzərə alınması məcburi sayılır.

Əvvəllər qüvvədə olan CM-də yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərə görə məsuliyyətin və cəzanın həllində xeyli güzəştlər müəyyən edilirdi. Lakin bütün bunlar köhnə qanunun müxtəlif fəsillərində pərakəndə formada təsbit edilirdi.

Qüvvədə olan cinayət qanunu yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinin və cəzasının xüsusiyyətləri ilə bağlı məsələləri müstəqil bölmə və fəsil altında vermişdir (V Bölmə, 14-cü fəsil). Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddini müəyyən edən Məcəllənin 20-ci maddəsi istisna təşkil edir və bu maddə yetkinlik yaşına çatmayanların cinayət

məsuliyyəti və cəza məsələsini tənzim edən normaların cəmləşdiyi 14-cü fəslə daxil edilməmişdir.

Məcəllənin 84-cü maddəsində ilk dəfə olaraq cinayət-hüquqi məsuliyyətin subyekti kimi yetkinlik yaşına çatmayanların anlayışı verilir.

Şəxsin 14 yaşa çatması onun doğulduğu gün deyil, həmin günün son saatının son dəqiqəsi tamam olan andan, yəni həmin gün gecə saat 24-dən sayılır.[1]

Azərbaycan Respublikası Ali Məhkəməsinin "Yetkinlik yaşına çatmayanlann cinayətləri, onları cinayətkar və sair cəmiyyətə zidd fəaliyyətə cəlbetmə işləri haqqında SSRİ Ali Məhkəməsi Plenumu qərarının Azərbaycan SSR məhkəmələri tərəfindən yerinə yetirilməsinin gedişi haqqında" 26 aprel 1988-ci il tarixli 1 №li qərarında yetkinlik yaşına çatmayanların törətdiyi cinayətlərə görə cəza təyini təcrübəsində sərt cəzaların tətbiqi tənqid edilmişdir. Qərarda məhkəmələrə tövsiyə edilirdi ki, böyük ictimai təhlükə törətməyən cinayət edən yetkinlik yaşına çatmayanların islah edilməsinə və yenidən tərbiyə edilməsinə tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqi ilə nail oluna bilərsə, onların barəsində cinayət cəzasının tətbiqinə yol verilməməlidir.

Professor M.Ə. Cəfərquliyev qeyd edir ki, yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işi üzrə icraat hər hansı bir gecikdirilməyə yol verilmədən aparılmalıdır. Cinayət işinin vaxtında, gecikdirilmədən istintaq edilməsi, cinayət törətmiş şəxsin qisa müddətdə ədalət məhkəməsi

---

[1] F.Y. Səməndərov. Cinayət hüququ. Ümumi hissə. Dərslik. "Digesta", Bakı 2009, səh.562

qarşısında əməllərinə görə cavab verməsi bütün hallarda vacib amillərdən biridir. Lakin yetkinlik yaşına catmayanların barəsində aparılan ibtidai istintaqla bağlı bu yeni məna və xüsusiyyət təşkil edir. Çünki belə kateqoriyadan olan şəxslər çox keçmədən hadisəni bütün təfsilatı və incəliyi ilə xatırlaya bilmirlər, daha tez təsir altına düşməyə meyllidirlər, hədə-qorxu və maraqlı şəxslərin diqtəsi nəticəsində istənilən vaxı ifadələrini dəyişə bilərlər. Qeyd olunanlar və digər hallar bir daha tələb edir ki, yetkinlik yaşına çatmayanlar barədə ibtidai istintaq mümkün qədər tez bir zamanda aparılmalıdır.[1]

Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslər daha tez mənəvi zədə alır, müstəntiqin hərəkətləri qanuna zidd olduqda ona tab gətirə bilmirlər. Nəzərə alınmalıdır ki, yetkinlik yaşına çatmayan şəxslərdə emosional səbirsizlik, yüksək dərəcədə həyəcan, təsir altına tez düşmə, şəraitləri düzgün qiymətləndirə bilməmək, öz imkanlarını düzgün hesablamamaq və s. bu kimi zəif xüsusiyyətlər mövcuddur.[2]

Yetkinlik yaşına çatmamış şəxslər barəsində icraatın aparılmasının özünəməxsus xüsusiyyətləri var. Belə ki, prof. M.Ə.Cəfərquliyevin dediyi kimi, yetkinlik yaşına çatmayanların barəsində icraatın aparılmasının özünəməxsus xüsusiyyətləri, birinci növbədə, onların həyat tərzi və şəxsiyyət inin psixoloji aspektləri ilə bağlıdır. Onlar yaşlı şəxslərlə müqayisədə emosional hissiyatlıqla xarakterizə

---

[1] M.Ə. Cəfərquliyev. Azərbaycan Respublikasının Cinayət Prosesi. "Qanun", Bakı 2002, səh. 746

[2] T.Qafarov, V.Hüseynov, F.Səməndərov. Həddi buluğa çatmayanların cinayətləri və məsuliyyət. "Elm", Bakı 1979, səh. 62

edilən özünəməxsus psixi xüsusiyyətlərə malikdir.[1] Baxmayaraq ki, dünya miqyasında yetkinlik yaşına çatmayanlar barəsində icraatı həyata keçirən yuvenal (uşaq) ədliyyəsinin bir əsrlik tarixi var. Amma Respublikamızda bu institut müstəqillik illərində yaradılmış və inkişaf etdirilmişdir.

Yuvenal ədliyyənin tələblərinə əsasən, beynəlxalq insan hüquqları sənədləri yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə aid olan məsələlərin nəzərə alınmasını şərtləndirən bir çox ümumi prinsiplər müəyyən etmişdir, lakin onlardan ən vacibləri a) ayrı-seçkiliyin olmaması; b) uşaq maraqlarının üstünlüyü; c) uşağın yaşamaq, həyatda qalmaq və inkişaf etmək hüququnun təmin edilməsi; ç) uşağın fikirlərinə hörmət etmək prinsipləridir.[2]

Dünya təcrübəsinə nəzər salsaq görərik ki, yetkinlik yaşına çatmayan şəxslərin cinayət təqibini həyata keçirən xüsusi orqanlar ayrı-ayrı ölkələrdə fərqli illərdə yaradılmışdır.

Belə ki, yetkinlik yaşına çatmayan şəxslərin cinayət təqibini həyata keçirən xüsusi orqanlar İngiltərə və Uelsdə 1905-ci ildə, ABŞ-da 1899-cu idə, Kanadada 1908-ci ildə, Belçikada 1912-ci ildə, Fransada 1914-cü ildə, Yaponiyada 1923-cü ildə, Türkiyədə 1924-cü ildə yaradılmışdır. Sovet dövründən fərqli olaraq 2000-ci il iyulun 14-də qəbul edilən yeni CPM-nin 10-cu bölməsinin 50-ci fəsli, daha dəqiq desək, CPM-nin 428-435-2 maddələri yetkinlik yaşına çatmayanlar barəsində icraata həsr olunmuşdur.

---

[1] Mirağa Cəfərquliyev. Azərbaycan Respublikası Cinayət-Prosesi. Dərslik Azərbaycan dilində. Bakı: “Qanun” 2008. Səh.635-636

[2] Yuvenal Ədliyyə. Dərs vəsaiti. Red K.Səlimov. Bakı, 2006, səh. 24

Dövlət müstəqilliyinin ilk illərində respublikamız BMT-nin 44-cü (1989) sessiyasında qəbul edilmiş Uşaq hüquqları Konvesiyasına (1992) qoşulmuşdur.

Uşaq hüquqları konvensiyasının 4-cü maddəsində göstərilir ki, iştirakçı dövlətlər bu konvensiyada tanınan hüquqların həyata keçirilməsi üçün bütün lazımi qanunvericilik tələblərini inzibati və digər tədbirləri görməlidirlər.

Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsinin hazırlanmasında və qəbulunda, insan hüquqları ilə bağlı digər Konvensiyalarla yanaşı BMT-nin «Uşaq hüquqları haqqında Konvensiya»sının tələbləri də nəzərə alınmışdır.

Bu o deməkdir ki, yetkinilik yaşına çatmayan şəxslər barəsində ibtidai araşdırma, həmçinin məhkəmə icraatı aparılarkən CPM-də nəzərdə tutulmuş ümumi qaydalara da ciddi əməl olunmalıdır. Bu əslində, yetkinlik yaşına çatmayanların hüquq və azadlıqlarının daha da etibarlı qoruması üçün qanunvericiliyin müəyyən etdiyi əlavə təminatlardır.

Beynəlxalq aləmdə Pekin qaydaları kimi tanınan, BMT-nin 29 noyabr 1985-ci il tarixli “Yetkinlik yaşına çatmayan şəxslər barəsində ədalət mühakiməsinin icrasına aid minimal standart qaydaları” artıq respublikamızda 2002-ci ilin may ayının 31-də Milli Məclisdə ratifikasiya edildikdən sonra əsas beynəlxalq normativ akt hesab edilir. Prof. F.M. Abbasovanın qeyd etdiyi kimi bu beynəlxalq sənəd yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatının ümumi prinsiplərini, ibtidai istintaq və məhkəmə

araşdırmasının, məhkəmə qərarlarının çıxarılmasının və təsir tədbirlərinin seçilməsinin xüsusiyyətlərini əks etdirməklə yanaşı, qanun pozucuları ilə islah idarələrindən kənar və islah idarələrində davranış qaydaları və dövlət üçün tədqiqatlar, planlaşdırmalar, siyasətin işlənib hazırlanması və qiymətləndirilməsində göstərişlər də nəzərdə tutmuşdur.[1]

BMT-nin 20 noyabr 1989-cu il tarixli "Uşaq hüquqları haqqıda Konvensiya" sı yetkinlik yaşına çatmayan şəxslər barəsində icraatla bağlı beynəlxalq xarakterli normativ sənəd hesab edilir. Qeyd etmək lazımdır ki, respublikamızın məhkəmələrində hal-hazırda bu konvensiyanın müddəalarına çox istinad edilir.

Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin kriminoloji xüsusiyyətlərindən danışarkən qeyd etmək lazımdır ki, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər həmişə diqqət mərkəzində olmuşdur. Çünki, sivil cəmiyyətin perspektiv inkişafının sosial ehtiyatını məhz gənc nəsil təşkil edir.

Yetkinlik yaşına çatmayanların cinayətkarlığının öyrənilməsi zamanı qarşılıqlı əlaqədə olan sosial-demoqrafik və psixoloji xüsusiyyətlər kompleks şəkildə tədqiq edilməlidir. Bu xüsusiyyətlərin tədqiqi yetkinlik yaşına çatmayanların kriminal davranışlarının yaranmasının səbəb və şəraitinin və həmçinin onlara qarşı tətbiq endiləcək profilaktik tədbirlərin dairəsinin müəyyən edilməsinə kömək edir.

[1] Firuzə Abbasova. Cinayət prosesi. Xüsusi hissə. Bakı, 2014 səh.307-308.,

Yaş xüsusiyyətlərini nəzərə almaqla yetkinlik yaşına çatmayanları aşağıdakı qaydada qruplaşdırmaq olar:[1]

1. azyaşlılar (14 yaşa qədər);

2. yeniyetmələr (14 yaşdan 16 yaşa qədər);

3. Yetkinlik yaşına çatmayan gənclər (16 yaşdan 18 yaşa qədər).

Ümumiyyətlə cinayət prosesində yetkinlik yaşına çatmayanlar dedikdə cinayətin törədilməsi anınadək on səkkiz yaşına çatmamış şəxslər başa düşülür (AR Cinayət-Prosessual Məcəlləsi maddə 428.2.). Gənclər isə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının 9 aprel 2002-ci il tarixli Qanununa əsasən yaşı 16-dan 35-dək olan şəxslərdirlər.

Yetkinlik yaşına çatmayanlar arasında törədilən cinayətlərin əksəriyyəti 16-17 yaşlarında olan şəxslərin payına düşür. Statistik göstəricilərə əsasən 2003-cü ildə 71 nəfər 14-15 yaşlarında olan yetkinlik yaşına çatmayan şəxs və 341 nəfər 16-17 yaşlarında olan yetkinlik yaşına çatmayan şəxs cinayət məsuliyyətinə cəlb edilmişdir.

## 5.2. Yetkinlik yaşına çatmayan şəxslər barəsində məhkəməyədək icraatın və aparılan istintaq hərəkətlərinin xüsusiyyətləri.

Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəklində aparıla bilər. Bu kateqoriya şəxslər tərəfindən

[1] С.Иншаков. Криминология. Dərslik. Moskva, 2002. Səh.133.

törədilmiş cinayətlər üzrə təhqiqat formasında ibtidai araşdırmanın aparılmasına yol verilmir.

YYÇ barəsində icraatın aparılmasının özünəməxsus xüsusiyyətləri mövcuddur. Bu birinci növbədə onların həyat tərzi və şəxsiyyətlərinin psixoloci aspektləri ilə bağlıdır. Bu kateqoriyadan olanlar yaşlı şəxslərlə müqayisədə emosional hissiyatlılıqla xarakterizə edilən özünəməxsus psixi xüsusiyyətlərə malikdir. Buna görə də bir sıra hallarda yetknilik yaşına çatmayanlar cinayət törətdiyini və ya cinayətdə iştirak etdiyini və məhz bu hərəkət zamanı cinayətin baş verdiyini heç də həmişə anlamırlar.

Bütün bunlar onu göstərir ki, onlar tərəfindən törədilmiş cinaytlərin məhkəməyədək olan icraatı və məhkəmə icraatı kifayət qədər həcmli və mürəkkəb bir prosessual fəaliyyətdir.

CPM-in 428.1-ci maddəsinə görə, yetkinlik yaşına çatmayanlar barəsində icraat, məcəllənin 204-297, 298-380 və 381-427-ci maddələrində müəyyən edilmiş ümumi qaydalara və 50-ci fəsildə təsbit olunan maddələrə uyğun olraq aparılır. CPM-in 428-435-ci maddələrinin müddəaları cinayət mühakimə icraatının ümumi qaydalarını əvəz etmir, həmin müddəaları tamamlayır. CPM-in 50-ci fəslində yetkinlik yaşına çatmayanların işləri üzrə icraatın xüsusiyyətlərini tənzim edən maddələrin hamısı nəzərdə tutulmamışdır. Belə ki, CPM-in müvafiq fəsillərinin: 39.1.4, 88.2, 90,10, 91.9, 92.3.5, 94.1, 100, 153.2.4, 153.2,10,

154.10,154.3, 160.1, 170.1, 170.4, 198.4, 211.2.4, 509.4 -cü maddələrində yetkinlik yaşına çatmayaların barəsində icraatla əlaqədar müddəalar nəzərdə tutulmuşdur.

Yetkinlik yaşına çatmayan şəxslər barədə məhkəməyədək icraatın, həmçinin birinci, apellyasiya və kassasiya inistansiyaları icraatının aparılma qaydası CPM-in yuxarıda göstərilən maddələrində və 50-ci fəslində müəyyən edilmişdir.

CPM-in 428.2-ci maddəsinə əsasən cinayət prosesində yet. yaş. çatmayanlar dedikdə, cinayətin törədilməsi anınadək on səkkiz yaşına çatmayan şəxslər başa düşülür. Bu, anlayış «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikası Qanunun birinci maddəsində verilən anlayışla demək olar ki, üst-üstə düşür. Həmin Qanuna əsasən, «yetkinlik yaşına çatmayanlar - on səkkiz yaşınadək olan şəxslərdir».

Yetkinlik yaşına çatmayan şəxslər barəsində icraatın aparılmasının mühüm xüsusiyyətlərindən biri sübutun predmetidir. Qanunun tələbinə əsasən, ibtidai araşdırma və məhkəmə baxışı zamanı yetkinlik yaşına çatmayan şəxslərin bütün dəqiqliyi ilə müəyyən edilməsinə xüsusi diqqət yetirilməlidir. Nəzərə almaq lazımdır ki, qanunda göstərildiyi kimi, on səkkiz yaş şəxsin anadan olduğu gün yox, ondan sonra gələn gündə bitmiş hesab olunur. Əgər ekspert ancaq anadan olan ili müəyyən edərsə, onda ilin son

günü həmin şəxsin anadan olan günü sayılır. Ekspert təxmini olaraq müayinə olunan şəxsin 14-16 yaş arasında olmasını təyin edərsə, onda istintaq və məhkəmə orqanları aşağı həddi, yəni 14 yaşı əsas götürməlidirlər. BMT-nin «yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına aid minimal standart qaydaları (Pekin qaydaları) haqqında Konvensiya»sının 4-cü maddəsində göstərilir ki, «Cinayət məsuliyyəti yaşı – yetkinlik yaşına çatmayanlar üçün cinayət məsuliyyəti yaşı anlayışı qəbul edilən hüquq sistemində aşağı yaş həddi, çox aşağı yaş səviyyəsində qoyulmalıdır». Fikrimcə, bu düzgün təklif deyildir. Qeyd üçün onu da demək yerinə düşərdi ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 20-ci maddəsində cinayət məsuliyyətinə cəlb etməyə imkan verə yaş həddi 16 yaş, istisna hallarda isə 14 yaş nəzərdə tutulmuşdur.

Yetkinlik yaşına çatmayan şəxs cinayətin törədilməsində digər şəxslərlə birlikdə iştirak etdiyi halda məhkəməyədək icraat mərhələsində onun barəsində cinayət işi, imkan daxilində ayrıca icraata ayrılmalıdır (CPM.m.431.1). Məhz buna görə də yetkinlik yaşına çatmayanın törətdiyi cinayətdə digər iştirakçılar olduqda onun barəsində cinayət işinin icraatının ayrılmasının mümkünlüyünü müəyyən etmək xüsusilə vacibdir. Lakin cinayət işinin ayrıca icraata ayrılması işin hallarının hərtərəfli və obyektiv tədqiq edilməsi üçün maneələr

yaradarsa, belə olan halda həmin işin ayrıca icraata ayrılmasını qanun qadağan edir.

CPM-in 214.1-ci maddəsinə əsasən təhqiqat, ibtidai araşdırmanın növü kimi aşağdakı şəkildə aparılır:

- ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı;

- böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Buradan aydın olur ki, bəzi bir sıra böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə cinayət təqibi məhkəməyədək sadələşdirilmiş icraat qaydasında aparılır. Lakin, CPM-in 430-cu maddəsinin tələbinə əsasən, yet. yaş. çatmayanların törətdikləri cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəkilində aparılmalıdır. Burada məqsəd onların törətdikləri cinayətlər üzrə cinayət təqibinin daha mükəmməl formada aparılması ilə, bu cinayətlərin iş üçün əhəmiyyətli olan faktiki halların, həmçinin cinayətin baş verməsinə kömək edən səbəb və şəraitin ətraflı, tam və obyektiv araşdırılmasından ibarətdir.

CPM-in 429.0-cı maddəsinə əsasən törədilən cinayət üzrə müəyyən edilməli olan hallardan başqa yet. yaş. çat. barəsində icraat zamanı aşağdakı hallar mütləq müəyyən edilməlidir:

- Yetkinlik yaşına çatmayan şəxsin yaşı (doğulduğu, il, ay, gün);

- Yetkinlik yaşına çatmayan şəxsin həyat və tərbiyə şəraiti;

- Yetkinlik yaşına çatmayan şəxsin intelektual və əqli inkişaf səviyyəsi;

- Yetkinlik yaşına çatmayan şəxsin törətdiyi cinayətdə digər iştirakçılar olduqda onun barəsində cinayət işinin icraatının ayrılmasının mümkünlüyü.

Şərh olunan maddədə yetkinlik yaşına çatmayan barəsində icraat zamanı, CPM-in 139-cu maddəsində cinayət təqibi üzrə icraat zamanı sübut edilməli olan hallardan başqa, əlavə olaraq göstərilən 4 qrup halların da müəyyən edilməsini nəzərdə tutur. Həmin halların müəyyən edilməsi yetkinlik yaşına çatmayan şəxsin cinayət məsuliyyətinə cəlb olunub-olunmaması, cəzanın fərdiləşdirilməsi, cinayətin yetkinlik yaşına çatmayan digər iştirakçılarının aşkar edilməsi və s. üçün mühüm əhəmiyyət kəsb edir.

Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaqın aparılmasının mühüm xüsusiyyətlərindən biri də, ibtidai araşdırma zamanı onun müdafiəçisinin iştirakının məcburiliyidir.

Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaqın bütün mərhələlərində əsas prosessual təminatlar qismində onun hüquqlarının təmin edilməsinə ciddi şəkildə riayət olunmasıdır. Buraya bilavasitə – *irəli sürülmüş ittiham barəsində məlumat almaq, ifadə verməkdən imtina etmək,*

*müdafiə, valideynlərin və ya qanuni nümayəndələrin iştirak etmək və məxfilik hüququ daxildir* (CPM.m.432.4).

Müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror bu kateqoriyadan olan şəxslər barəsində icraatda onların valideyinlərinin və qanuni nümayəndələrinin iştirak etmək hüququnu təmin etməlidir. Bu hüquqlar, həmçinin zəruri istintaq hərəkətlərinin aparılması zamanı mütəxəssis, müəllim və psixoloqa da şamil olunur.

Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsə ibtidai istintaqın qurtarması elan edilərkən törədilən cinayət əməlinin və həmin işin materiallarının ona mənfi təsir göstərə biləcək hallarını nəzərə alaraq müstəntiq və ya prokuror cinayət işinin materiallarını həmin şəxsə təqdim edilməməsi barədə qərar çıxarmaq hüqüquna malikdir. Əksinə olduqda isə materiallar ilk öncə təqsirləndirilən şəxsin müdafiəçisinə və ya qanuni nümayəndəsinə tanış olmaq üçün təqdim olunmalıdır (CPM.m.284-286). Ümumiyyətlə yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaq imkan daxilində müvafiq istintaq orqanlarının bu sahədə yetərincə iş təcrübəsinə malik olan müsəntiqləri tərəfindən gecikdirməyə yol vermədən aparılmalıdır. Bu tələblər birbaşa istintaqın hər tərəfli, tam və obyektiv aparılmasının əsasını təşkil edir.

İbtidai araşdırma zamanı CPM-in 429-cu maddəsində göstərilən hallar hərtərəfli, tam və obyektiv araşdırılmalıdır.

Çünki cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsin törətdiyi əməlin subyektiv cəhətini, o cümlədən onun təqsirini və təqsir dərəcəsini müəyyənləşdirmək mümkün olsun.

Yetkinlik yaşına çatmayanlar barəsində keçirilən istintaq hərəkətlərindən biridə bu iş üzrə təyin edilən **ekspertizadır**. CPM-in 140.0.4-cü maddəsində zərərçəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsin müəyyən yaş həddinə çatması haqqında sənədləri olmadıqda yaşın müəyyən edilməsi – tibb və psixologiya sahəsində ekspertizanın keçirilməsini nəzərdə tutur. Ekspertizanın rəyi sübut növlərindən biri hesab olunur. Sübutetmə prosesində isə iş üzrə əhəmiyyətli halların müəyyən edilməsində müstəntiqə və prokurora köməklik edir.

Ekspertiza müstəntiqin qərarına və ya cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda müdafiə tərəfinin yazılı müraciətinə əsasən aparılır. Ekspertizanın təyin edilməsi haqqında qərar onun aid olduğu şəxslər üçün məcburidir. Ekspertizanın təyin edilməsi haqqında qərarda CPM-in 264.4-cü maddəsinin tələbləri göstərilməlidir.

Ekspertiza təyin edilməsi haqqında müstəntiqin qərarının ekspertə daxil olduğu və ya ekspertlə müdafiə tərəfi arasında müqavilənin bağlandığı vaxtdan bir aydan gec olmayaraq ekspert zəruri tədqiqatlar aparır, yazılı rəylər tərtib edir, onu öz imzası ilə təstiq edir və dərhal ekspertizanı təyin etmiş şəxsə və ya müdafiə tərəfinə göndərir. Ekspertin

rəyinə CPM-in 271.2-271.5-ci maddəsinin müddəaları daxildir.

***Yetkinlik yaşına çatmayan şahidin çağırılması və dindirilməsi* -** isintaq hərəkətlərindən biri olub CPM-in 226 və 228-ci maddələri ilə nizama salınır.

Yetkinlik yaşına çatmayan şəxslər bir qayda olaraq onların qanuni nümayəndələri vasitəsi ilə çağrılırlar. Həmçinin onlar iş və ya təhsil aldıqları yer üzrə çağırış vərəqəsi ilə çağrıla bilərlər. Çağrış vərəqəsi valdeyinlərdən birinə, övladlığa götürənə, qəyyum və ya himayəçiyə ünvanlanır. Şahid qismində çağrılmalı olan yetkinlik yaşına çatmayan şəxsin qanuni nümayəndəsinə göndərilən çağırış vərəqəsində ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa və bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə xəbərdarlıq göstərilmir. Bu halda çağırış vərəqəsinin bilavasitə şahidə təqdim edilməsinin yolverilməzliyinin göstərilməsi də məqsədəuyğundur. Çağırış vərəqəsində çağrılan şəxsin gəlməsinin təmin olunmasının qanuni nümayəndənin vəzifəsi olması göstərilir. Əgər yetkinlik yaşına çatmayan şəxslə birlikdə yaşayan qanuni nümayəndənin də dindirmədə iştirakı tələb olunarsa, onun da şahidlə eyni vaxtda gəlməli olması (hansı qisimdə çağrılmalı olması göstərilməklə) göstərilməli, yaxud şahidlə eyni vaxtda ona da ayrıca çağırış vərəqəsi göndərilməlidir.

CPM-in 228-ci maddəsinə müvafiq olaraq yetkinlik yaşına çatmayan şahid iş üçün əhəmiyyətli məlumatları

şifahi və ya digər formada təqdim edə bilərsə, o, yaşından asılı olmayaraq dindirilə bilər. 14 yaşınadək, müstəntiqin mülahizəsinə görə isə 16 yaşınadək olan yetkinlik yaşına çatmayan şahidin dindirilməsi müəllimin, zəruri hallarda isə həkimin və onun qanuni nümayəndəsinin iştirakı ilə aparılır.

Dindirməyə başlamazdan əvvəl müstəntiq adı çəkilən şəxslərə CPM-in 228.3-cü maddəsində nəzərdə tutulmuş qaydalara müvafiq olaraq onların hüquq və vəzifələrini izah etməlidir. Həmin şəxslərin dindirmənin gedişində protokola daxil edilməli olan qeydlər etmək hüququ varıdır.

Yetkinlik yaşına çatmayan şəxslərin (azyaşlıların) ifadələri iş üzrə həqiqətin müəyyən edilməsi üçün həlledici əhəmiyyətə malik olduqda, uşaq psixologiyası üzrə ixtisaslaşmış psixoloqun məsləhətinin alınması məqsədəuyğundur.

Yetkinlik yaşına çatmayan şahid müstəntiq tərəfindən yalnız həqiqəti danışmaq vəzifəsi haqqında xəbərdar edilir.O, CPM-in 228.4-cü maddəsində göstərilən hallar barədə ifadə verməməyə görə cinayət məsuliyyəti barədə xəbərdar edilmir və bu barədə ondan iltizam alınmır. Şahidin dindirilməsi haqqında müstəntiq CPM-in 230-cu maddəsinə uyğun olaraq dindirmə protokolu tərtib edir.

Yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxsin dindirilməsində onun qanuni nümayəndəsi, zəruri hallarda müəllimi və həkimi iştirak edə bilər. Ümumiyyətlə şahidin, şübhəli və təqsirləndirilən şəxsin, iş üzrə prosesdə

iştirak edən digər şəxslərin dindirilməsi olduqca ağır prosesdir. Dindirmənin müvəffəqiyyətlə aparılması görülən hazırlıq hərəkətlərindən (iş üzrə materialların öyrənilməsi, dindirmənin predmetinin dəqiq müəyyən edilməsi, dindirilənin şəxsiyyətinin öyrənilməsi, dindirmə üçün şəraitin yaradılması və s) əhəmiyyətli dərəcədə asılıdır.

Dindirmənin məqsədyönlü aparılması üçün birinci növbədə müstəntiq iş üzrə toplanmış materialları ətraflı öyrənməlidir. Bu zaman dindirilən şəxsin yalan ifadə verdiyini asanlıqla müəyyən etmək olar. Dindirmənin səmərəli nəticə verməsi üçün dindirilən şəxsin işdə iştirak edən digər şəxslərlə olan əlaqəsi və onlara münasibəti, həmçinin şəxsiyyətini xarakterizə edən məlumatlar öyrənilməlidir.

Dindirilən şəxslər barəsində təkcə anket məlumatları (yaş, ailə vəziyyəti, təhsil, iş və s. barədə məlumatlar) kifayət deyilidir. Çünki, bu məlumatlar dindirmə prosesində kifayət qədər əsaslı deyilidir. Odur ki, dindirilən şəxsin birinci növbədə həyat tərzi, mənəvi keyfiyyətləri, psixoloci xüsusiyyətləri, mənəvi marağı və s. bu kimi cəhətləri də öyrənilməsi vacibdir. Məhz bu cəhətlər dindirmə prosesinin düzgün müəyyənləşdirilməsinə kömək edə bilər.

Qüvvədə olan cinayət-prosessual qanunvericilik yet. yaş. çat. şəxsə ittihamın elan edilməsi və onların dindirilməsi üçün ayrıca hüquqi norma müəyyən etmişdir. CPM-in 224-cü maddəsi ittihamın elan edilməsi qaydasını nizama salır.

Bu normaya müvafiq olaraq yetkinlik yaşına çatmayan şəxsə ittihamın elan edilməsində onun müdafiəçisinin iştirakı məcburidir.

**Yetkinlik yaşına çatmayan şəxsin tutulması** - CPM-in 433-cü maddəsinə müvafiq olaraq, yetkinlik yaşına çatmayan şəxsin tutulması zamanı bu barədə dərhal onun valideyinlərinə və ya digər qanuni nümayəndələrinə məlumat verilir. Məlumatın dərhal verilməsi mümkün olmadıqda, yetkinlik yaşına çatmayan şəxsin valideyinlərinə və ya digər qanuni nümayəndələrinə mümkün qədər qısa müddətdə tutulma barədə məlumat verilməlidir.

Həmin şəxsin tutulması barədə məlumat vermə, telefonla, teleqrafla və başqa üsullarla həyata keçirilə bilər. Məlumatın şifahi və yazılı formada verilməsi mümkündür.

CMP-in 433-cü maddəsinin müddəaları, yalnız tutulduğu zaman yetkinlik yaşına çatmayan şəxslərə şamil olunur. Ümumiyyətlə cinayət prosesində tutulma yalnız aşağdakı şəxslərə tətbiq oluna bilər:

- cinayət törətməkdə şübhəli olan şəxsə;
- ittiham elan edilməli olan şəxsə və ya haqqında seçilmiş qətimkan tədbirinin şərtlərini pozan təqsirləndirilən şəxsə;
- hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti

məhkumetmənin, yaxud cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğvi məqsədi ilə məhkuma.

Yetkinlik yaşına çatmayan şəxslər haqqında beynəlxalq hüquq normalarına görə, həmin şəxslərin məhkəməyədək tutulması yalnız müstəsna tədbir kimi və mümkun qədər qısa zaman müddətində yol verilə bilər. Həmçinin tutulmuş bu şəxs yetkinlik yaşına çatmış şəxslərdən ayrı saxlanılmalıdır.

Yetkinlik yaşına çatmayan şəxsi tutan orqan həmin andan bu haqda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və məhkəmə nəzarəti funksiyasını həyata keçirən məhkəməyə (hakimə) məlumat verməlidir. Bu haqda məlumat aldıqdan dərhal sonra həmin şəxslər CPM-in 434.1 və 434.2-ci maddələri ilə müəyyən edilmiş hallar istisna olmaqla, yetkinlik yaşına çatmayan şəxsin azad edib-emtəməsi məsələsini həll etməlidir.

Cinayət işinin başlanmasına dair qərar şəxsin tutulduğu andan 24 saat keçənədək qəbul olunmazsa, tutulmuş şəxs dərhal azad olunmalıdır. Belə qərar qəbul olunsada şəxsin tutulması 48 saatdan artıq davam edə bilməz (CPM.m.148.4).

**Yetkinlik yaşına çatmayan şəxs barəsində həbs və nəzarət altına vermə -** CPM-in 434-cü maddəsi yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və xüsusilə ağır

cinayətin törədilməsi istinad edildikdə tətbiqinə yol verir. Həmin şəxs barəsində bu tədbirin müstəsna tədbir kimi və mümkün qədər qısa müddət ərzində tətbiq edilməsini göstərir.

Həbsdə saxlanılan yetkinlik yaşına çatmayan şəxslər digər şəxslərdən ayrı saxlanılmalıdırlar.Onlar, yaşının, cinsinin və şəxsiyyətinin xüsusiyyətlərinə görə tələb olunan qulluq, müdafiə və digər fərdi yardımla təmin edilməlidirlər.

Yetkinlik yaşına çatmayan şəxs barəsində, həbs qətimkan tədbiri tətbiq olunarkən, müstəntiq tərəfindən bu haqda həmin şəxsin valideyinlərinə və ya qanuni nümayəndələrinə, yaxud onun öz təşəbbüsü ilə digər yaxın qohumlarına həbsə alma faktı və saxlandığı yer haqqında məlumat verilməlidir.

Barəsində həbs qətimkan tədbiri seçilmiş yetkinlik yaşına çatmayan şəxslər istintaq və ya müvəqqəti saxlama təcridxanalarında saxlanılır.

CPM-in 170-ci maddəsinə müvafiq olaraq yet. yaş. çat. şübhəli və təqsirləndirilən şəxslər barəsində **«nəzarət altına vermə»** növündə qətikan tədbiri tətbiq edilir. Bu tədbir xüsusi qətimkan tədbiridir, çünki yalnız yetkinlik yaşına çatmayan şəxslərə tətbiq olunur. Qanunvericilik bu qətimkan tədbirinin tətbiqini törədilmiş əməlin ağırlıq dərəcəsi ilə məhdudlaşdırmamışdır. Ona görə də cinayət prosesini həyata keçirən orqan qətimkan tədbirinin CPM-in 151.1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərinə bu qətimkan

tədbirinin vasitəsi ilə nail olunacağı qənaətinə gəldikdə istənilən əməli törətmiş yetkinlik yaşına çatmayan şəxs barəsində bu qətimkan tədbiri seçilə bilər.

Yetkinlik yaşına çatmayan şəxsi nəzarət altına verməzdən əvvəl təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə valideyinlərin, qəyyumların, yaxud himayəçilərin şəxsiyyəti barədə, həmçinin yetkinlik yaşına çatmayan şəxsə qarşı onların münasibətləri barədə məlumat toplamalı və nəzarət altında saxlamanı həyata keçirmək iqtidarında oluqlarını müəyyən etməlidir.

Cinayət prosesini həyata keçirən orqan nəzarət altına vermə qətimkan tədbirinin seçilməsi haqqında məsələni həll edərkən CPM-in 155.2-ci maddəsində göstərilmiş halları mütləq nəzərə almalıdır.

Nəzarət altına vermə öz mahiyyəti etibarıilə elə qətimkan tədbiridir ki, yetkinlik yaşına çatmayan şəxsin öz razılığı və ona nəzarət etməli olacaq valideyinlərinin və ya digər şəxslərin razılığı olmadan tətbiq edilə bilməz. Bu növdə qətimkan təbirinin seçilməsi haqqında qərar qəbul edilərkən, həmin qərarda şübhəli və təqsirləndirilən şəxsin konkret olaraq kimin nəzarəti altına verilməsi dəqiq göstərilməlidir.

Valideynlər, qəyyumlar və ya himayəçilər yet. yaş. çat. şəxsin onların nəzarəti altında olması barəsində üzərlərinə götürdükləri vəzifələrin yerinə yetirilməsindən azad

edilmələrini aşağdakı hallarda cinayət prosesini həyata keçirən şəxslərdən xahiş edə bilər:

- öz xəstəliyi ilə əlaqədar;
- ailədə qarşılıqlı münasibətin pisləşməsi ilə əlaqədar;
- yetkinlik yaşına çatmayan şəxslərin davranışını təmin etmək imkanını istisna edən digər səbəblər (öz yaşayış yerindən çıxıb getmə, həmin şəxslərə qarşı hüquqa zidd əməllər törətmə və s).

Nəzərə almaq lazımdır ki, bu növdə qətimkan tədbiri həm yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxsin lazımi qaydada davranmaması, həm də onun üzərində nəzarəti həyata keçirən şəxslərin öz vəzifələrini icra etməməsi səbəbindən başqa qətimkan tədbiri ilə əvəz edilə bilər.

CMP-in 170.7-ci maddəsi nəzarəti həyata keçirən şəxslərin öz vəzifələrini yerinə yetirmədiyi halda məsuliyyət daşıdıqlarını müəyyən etmişdir. Lakin bu məsuliyyətin nədən ibarət olduğu müəyyən edilməmişdir.

Yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işi üzrə icraata CPM-in 39-41-ci və 46.5-ci maddələrində nəzərdə tutulmuş hallarda xitam verilir. Həmin şəxsin barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilməsinə onun özünün və ya qaquni nümayəndəsinin razılığı ilə yol verilir. Məhkəmə baxışının gedişində isə təqsirləndirilən yeniyetmə barəsində cinayət işinə CPM-in 39.1.3, 39.1.5 39.1.12-ci və 40.2-ci

maddəsində nəzərdə tutulmuş hallarda bu şəxsin və onun valideyinlərinin (digər qanuni nümayəndələrinin) razılığı ilə xitam verilir (CPM.m.43.3).

CPM-in 435.1-ci maddəsinə müvafiq olaraq, ağır və xüsusilə ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün cinayət qanununda nəzərdə tutulmuş yaş həddinə çatmayan yet. yaş. çatmayan şəxslər barəsində cinayət işinə xitam verildikdə, yaxud cinayət işinin başlanması rədd edildikdə, xitam verilmiş cinayət işi və ya cinayət işi başlanmasının rədd edilməsi haqqında materiallar cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxslərin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilməsi məqsədilə cinayət prosesini həyata keçirən orqan tərəfindən 3 gün müddətində yetkinlik yaşına çatmayan işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya göndərilir.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya yetkinlik yaşına çatmayan şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinin mümkünlüyü haqqında məsələyə baxılmsı üçün həmin şəxsin yaşayış yeri üzrə birinci instansiya məhkəməsi qarşısında vəsatət qaldırır. İş üzrə materiallar məhkəməyə daxil olduqdan sonra 10 gündən gec olmayaraq məhkəmə iclasında baxılır. Baxışın nəticəsinə dair məhkəmə tərəfindən CPM-in 435.1.9 maddəsinin tələbləri əsasında müvafiq qərar qəbul edilir. Qərar 3 gün müddətində cinayət

məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxsə, onun müdafiəçisinə, valideyinləriə və ya digər qanuni nümayəndələrinə, habelə qərarı icra edən orqan və müəssisələrə təqdim olunur.

### 5.3. Yetkinlik yaşına çatmayan şəxslər barəsində məhkəmə baxışının xüsusiyyətləri

CPM-in 425-ci maddəsi yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmə baxışının xüsusiyyətlərinə həsr edilmişir. İbtidai istintaqda olduğu kimi məhkəmədə də yetkinlik yaşına çatmayan şəxslərin törətdikləri cinayətlər barədə cinayət işlərinə məhkəmə sədri və ya bu sahədə kifayət qədər səriştəsi olan daha təcrübəli hakimlər tərəfindən aparılmalıdır. Bu tələb bilavasitə CPM-in 435.1-ci maddəsinin mahiyyətindən irəli gəlir. Daha təcrübəli hakimlər dedikdə, ümumiyyətlə daha çox hakimlik təcrübəsi, həm də yetkinlik yaşına çatmayan şəxslərin cinayət işləri üzrə daha çox təcrübəsi və səriştəsi olan hakimlər başa düşülür.

Yetkinlik yaşına çatmayan şəxs barəsində məhkəmə baxışı zamanı məhkəmə iclasına sədrlik edən CPM-in 429-434-cü maddələrinin tələblərinin təmin olunmasını müəyyən etməlidir(CPM. m.435.2). CPM-in 435.3-cü maddəsinin tələbinə əsasən, yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işinin məhkəmə baxışında yetkinlik yaşına çatmayan

şəxsin valideynlərinin və ya digər qanuni nümayəndələrinin iştirak etmək hüququ vardır.

Yetkinlik yaşına çatmayan şəxsin mənafeyi naminə məhkəmə özünün əsaslandırılmış qərarı ilə həmin şəxslərin məhkəmə baxışında iştirakını tələb edə və ya yetkinlik yaşına çatmayan şəxsin mənafeləri üçün zəruri olduğunu güman etməyə əsas olduqda, valideynlərin və ya digər qanuni nümayəndələrin iştirakından imtina edə bilər.

Həmin maddənin 4-cü bəndinə əsasən yetkinlik yaşına çatmayan şəxs barəsində cəza tədbiri seçilərkən məhkəmə aşağıdakıları rəhbər tutmalıldır:

-cəza tədbiri yalnız törədilmiş cinayətlərin hallarına və ağırlığına deyil, həmçinin yetkinlik yaşına çatmayan şəxsin vəziyyətinə və təlabatına, habelə cəmiyyətin təlabatına uyğun olmalıdır;

- yetkinlik yaşına çatmayan şəxsin azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbiri yalınz həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə endirilməlidir;

- yetkinlik yaşına çatmayan şəxs və ya xüsusilə ağır cinayətin, habelə ağır cinayətlərə səbəb olan zor tətbiq etməklə qəsdən törədilmiş cinayətin və ya digər ağır cinayətin təkrarən törədilməsində təqsirli bilinmədiyi halda onun azadlıqdan məhrum edilməsi məqsədəuyğun deyildir. Bu bəndlərdən hər biri qanunun humanizmliyindən xəbər verir və onu göstərir ki, ölkəmizdə gənc nəslin təlim-tərbiyə

işinin səmərəli həyata keçirilməsində cinayət prosessual qanunvericiliyinin müddəalarından daha çox bu işdə cəmiyyətin roluna böyük əhəmiyyət verilir.

Yetkinlik yaşına çatmayan şəxsə məhkəmə cəza təyin edərkən həmçinin aşağıdakıları da nəzərə almalıdır:

a) törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsini, təqsirkarın şəxsiyyətin, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaışdıran halları, habelə təyin edilmiş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirini;

b) həmin şəxsin həyat və tərbiyə şəraitini, psixi inkişaf səviyyəsini, onun şəxsiyyətinin digər xüsusiyyətlərini və kənar şəxslərin təsirini;

c) Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxs bir neçə ciayət törətdikdə və onlardan biri 18 yaşına çatmayan dövrdə, digərləri isə 18 yaşına çatdıqdan sonra törədildikdə, cinayətlərin məcmusu üzrə cəza təyin edərkən, yetkinlik yaşına çatmayan dövrdə törədilmiş cinayətə görə CM-nin 84-92-ci və CPM-in 435.4-cü maddələrinin tələblərini.

Məhkəmə yekun qərar çıxararkən yetkinlik yaşına çatmayan şəxsə cəza tədbiri tətbiq etmədən islah oluna biləcəyi barədə nəticəyə gəldikdə, həmin şəxsə tərbiyəvi xarakterli məcburi tədbirlər tətiq etməklə onu cəzadan azad edə bilər. Azərbaycan Respublikası CM-in 88.2-ci maddəsinə müvafiq olaraq yetkinlik yaşına çatmayanlara aşağıdakı məcburi təbdirlər tətbiq edə bilər:

-xəbərdarlıq;

-valideynlərin və ya onları əvəz edən şəxslərin və yaxud müvafiq dövlət orqanlıranının nəzarətinə vermək;

-vurulmuş ziyanın aradan qaldırılması vəzifəsini həvalə etmək;

- yetkinlik yaşına çatmayanın asudə vaxtını məhdudlaşdırmaq və onun davranışı ilə bağlı xüsusi tədbirlər müəyyən etmək;

Tərbiyəvi xarakterli məcburi tədbirlərin məzmunu CM-in 87-ci maddəsində təsbit olunmuşdur.

Yetkinlik yaşına çatmayana eyni vaxta bir neçə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edlə bilər. Yet. yaş. çatmayan şəxs göstərilən tədbirləri mütəmadi olaraq yerinə yetirmədikdə, müvafiq dövlət orqanının təqdimatı əsasında həmin tədbirlər ləğv edilir və materiallar onun cinayət məsuliyyətinə cəlb olunması üçün məhkəməyə göndərilir.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən məhkəmə yetkinlik yaşına çatmayan şəxsləri cinayət məsuliyyətinə cəlb etdikdə qanunda nəzərdə tutulan bütün cəza növlərini deyil, bəzi cəza növlərini qısaldılmış həddə və həcmdə təyin edə bilər. Daha dəqiq desək həmin şəxslərə **cərimə, ictimai işlər, islah işləri, müəyyən müddətə azadlıqdan məhrum etmə** növündə cəzalar tətbiq olunur. CM-in 42-ci maddəsinin yerdə qalan digər cəza növlərinin tətbiqinə yol verilmir.

Cərimə, yanız müstəqil əmək haqqı və ya bu cəzanın icrasına yönəldilə bilən əmlakı olan yetkinlik yaşına çatmayan məhkuma təyin edilir. Cərimə qanunvericiliyə əsasən, şərti maliyyə vahidi məbləğinin otuz mislindən üç yüz mislinədək miqdarda təyin edilir.

İctimai işər, qırx saatdan yüz altmış saatadək müddətə təyin olunur (CM.m 85.3).

İslah işləri, iki aydan bir ilədək müddətə təyin edilir. Məhkumun qazancından beş faizdən iyirmi faizə qədər pul dövlətin nəfinə tutulur (CM.m 85.4).

Azadlıqdan məhrumetmə, yetkinlik yaşına çatmayan məhkumlara on ildən çox olmayan müddətə təyin edilir (CM.m85.5).

## SƏNƏD NÜMUNƏLƏRİ

Xəzər RPİ-in 3-cü PB-in rəisi, polis kapitanı
**cənab Məmməd Məmmədova**

Zirə qəsəbəsi, Ə.Əliyev küçəsi, ev $5^a$-da yaşayan Həsənova Leyla Akif qızı tərəfindən

Tel. nöm: 457-01-01

### Ə R İ Z Ə

30 oktyabr 2018-ci il tarixdə saat $14^{00}$-da oğlum Bahadurun keçmiş həyat yoldaşı Aytən, atası Tofiq, anası Gülnisə və 3 (üç) nəfər məhkəmə icraçıları bizə gəldilər.

Bizdə olarkən Aytən döşəyi göstərib bildirdi ki, içindəki yunundan götürüblər. Cavabında bildirdim ki, heç kəs ona əl vurmayıb, böhtandır. Birdən Aytən üstümə hücum çəkdi. Mən özümü müdafiə etmək üçün əlimi qabağa verdim. Bu vaxt Aytən sol əlimin 5-ci barmağını əlinə keçirib burdu. Nəticədə mən xəsarət aldım. Xahiş edirəm Aytən haqqında qanuni tədbir görəsiniz.

**Həsənova L. A.**

01.11.2018.

Mən, məhkəmə tibbi ekspertizaya göndəriş aldım.

**Həsənova L. A.**

**PROTOKOL**

**(cinayət haqqında şifahi ərizənin qəbulu barədə)**

Sumqayıt şəhəri 02 fevral 2019-cu il

saat: $11^{10}$

Sumqayıt ŞPİ-in baş əməliyyat müvəkkili, polis kapitanı Əhmədov Əhməd AR CPM-in 204-cü maddəsinə müvafiq olaraq Sumqayıt şəhər, Hüsü Hacıyev küçəsi, ev 5, mənzil 15, 1975-ci il təvəllüdlü, təqdim etdiyi şəxsiyyət vəsiqəsinin seriyası, AZE № 04040404, Sumqayıt ŞPİ tərəfindən 17 aprel 1992-ci ildə verilmiş vətəndaş Məmmədov Məmməd Həsən oğlunun cinayət haqqında şifahi ərizəsini qəbul etdi.

Mənə, AR CM-in 296-cı maddəsi ilə bilə-bilə yalan xəbərçilik etmə barədə xəbərdarlıq edildi.

Ərizəçi: Məmmədov M. H

Məmmədov M.H. ərizəsində bildirdi:

Bu gün saat $19^{00}$-da işdən evə qayıdarkən, S.Vurğun küçəsində Sumqayıt Dövlət Dram Teatrının binası ilə üzbəüz yerdə, iki nəfər kişi yaxınlaşaraq məndən pul tələb etdilər. Mən dedim, üstümdə pulum azdır, cəmisi on manat pulum vardır. Bu zaman onlardan biri dedi: “Biz səni yoxlayarıq”

və ciblərimi axtarmağa başladı. O şalvarımın arxa cibindən 350 manat pul çıxardı (7 ədəd 50 manatlıq – bu pulları əmək haqqı kimi bu gün almışdım).

Pulu aşkar edən cinayətkar məni yumruqla qarnımdan vurdu və dedi: “Alçaq bizi aldatmaq istəyirsən”. İkinci şəxs əlindəki nə idisə onunla boynumdan vurdu. Sonra məni güclü şəkildə səkiyə itələdilər, mən yıxıldım və ayılanda artıq onları görmədim.

Cinayətkarların təxmini əlaməti belə idi: Onların boyu təqribən 170 sm, hər ikisi orta köklükdə olardı. Mənim üstümü axtaran şəxsin əynində yaxalığı olmayan qara gödəkçəsi, başında tünd rəngli kepka, üzü tüklü, burnunda xalı vardı, əminəm ki, onu görsəm tanıyaram. İkinci cinayətkara mən bir qədər az diqqət etdim, onun kobud səsi var idi, bəlkə də səsinə görə onu tanıya bilərəm.

Məndən puldan başqa bir şey almayıblar.

Ərizəçi: Məmmədov M.H

Baş əməliyyat müvəkkili: Əhmədov Əhməd

## Protokol

## (təqsirini könüllü boynuna alma haqqında)

Sumqayıt şəhəri 25 yanvar 2019-cu il

saat: $18^{10}$

Sumqayıt ŞPİ-in İŞ-in baş müstəntiqi, polis kapitanı Həsənov Həsən AR CPM-in 204-cü maddəsinə müvafiq olaraq həmin protokolu bu gün 25 yanvar 2019-cu il tarixdə, saat $17^{20}$-də, polis idarəsinə könüllü olaraq gəlmiş 1970-ci il təvəllüdlü, Sumqayıt şəhər sakini, Sumqayıt Kimya Sənaye zavodunun mühəndisi, Sumqayıt ŞPİ tərəfindən verilmiş şəxsiyyət vəsiqəsinin seriyası AZE № 02020202, S.Vurğun küçəsi, ev 7, mənzil 17-də qeydiyyatda olan Quliyev Qulunun müraciəti əsasında tərtib etdim.

Quliyev Qulu ərizəsində bildirdi:

Mən həyat yoldaşımın xəyanət etdiyindən, çoxdan şübhələnmişdim. Yanvarın 24-də həyat yoldaşıma dedim ki, üç günlüyə işdən xidməti ezamiyyətə gedirəm. Həqiqətdə isə mən ezamiyyətə getmədim və mənzilimi güdməyə başladım. Bu gün saat $15^{30}$-da gördüm ki, həyat yoldaşım Həsənova Leyla tanımadığım kişi ilə evə daxil oldu. Bir saat sonra öz açarımla qapını açdım və onları bir yerdə yataqda gördüm. Mən bərk hirsləndim, bıçağı götürüb bir neçə dəfə arvadımı və həmin kişini vurdum.

Bundan sonra dərhal mənzildən çıxdım. Bir-neçə dəqiqədən sonra evimin yaxınlığında olan avtomat telefondan “təcili yardım” çağırdım. Özüm isə polisə gedərək, baş verən hadisəni danışdım. Bıçağı mənzildə harasa tulladım.

Protokol mənə şəxsən oxundu. Mənim sözlərimlə yazılmışdır.

Ərizəçi: Quliyev Qulu
Baş müstəntiq: Həsənov Həsən

## Q Ə R A R

## (tərcüməçi dəvət edilməsi haqqında)

Bakı şəhəri 03 noyabr 2018-ci il.

Mən, Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı, polis leytenantı İzzət İzzətov AR CM-in 127-ci maddəsi ilə nəzərdə tutulan məhkəməyədək sadələşdirilmiş icraat materiallarını nəzərdən keçirib,

## M Ü Ə Y Y Ə N  E T D İ M

Vətəndaş Azayeva Azadə Azad qızının şikayət ərizəsi əsasında toplanmış materiallardan görünür ki, təhqiqat və digər prosessual hərəkətlərin aparılması zamanı latın qrafikası ilə Azərbaycan və ya rus dillərində yazılmış sənədləri proses iştirakçılarına Azərbaycan dilində oxumaq üçün sənədlər vardır. Həmin sənədlərin latın qrafikası ilə tərtib olunması zərurəti yaranmasını nəzərə alaraq AR CPM-in 99-cu maddəsinin tələblərini rəhbər tutaraq

## Q Ə R A R  V E R D İ M

1. Qərarın təsviri hissəsindəkilərə əsasən iş üzrə tərcüməçi dəvət edilsin.

2. Tərcüməçi bilə-bilə yalandan xəbərçiliyə görə AR CM-in 297.1-ci maddəsi ilə məsuliyyət daşıyacağı barədə xəbərdar edilsin.

Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı,
polis leytenantı **İzzət İzzətov**

## P R O T O K O L
## (tərcüməçiyə hüquq və vəzifələrin izah edilməsi barədə)

Bakı şəhəri 03 noyabr 2018-ci il.

Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı, polis leytenantı İzzət İzzətov icraatında olan material üzrə aparılan təhqiqatla əlaqədar təhqiqat materiallarını Azadə Azad qızı Azayevanın iştirakı ilə keçirilən istintaq və ya digər prosessual hərəkətlərin aparılması zamanı latın qrafikası ilə Azərbaycan və ya rus dillərində yazılmış sənədləri proses iştirakçılarına Azərbaycan dilində oxuya bilən Babayev Bahadur Baba oğlunu tərcüməçi qismində dəvət etdim və həmin protokolu tərtib etdim.

AR CPM-in 117-ci maddəsin ilə nəzərdə tutulan tərcüməçiyə etiraz etmək üçün əsaslar aşkar edilməmişdir.

Tərcüməçiyə izah edildi ki, AR CPM-in 99.4-cü maddəsinə əsasən o, istintaq orqanının çağırışına gəlməli, tərcümə etdiyi dili bilməsini təsdiq edən sənədi istintaq orqanına təqdim etməli, istintaq orqanının, həmçinin məhkəmə iclasında cinayət prosesi tərəflərinin tələbi ilə tərcüməni tam və düzgün yerinə yetirməsi qabiliyyətini düzgün qiymətləndirməli, istintaq orqanının, habelə məhkəmə iclasında cinayət prosesi tərəflərinin tələbi ilə öz peşə təcrübəsi haqqında və müvafiq cinayət prosesində iştirak edən şəxslərlə münasibəti haqqında məlumat verməli,

tərcüməni təmin etmək üçün zəruri olan bütün müddətdə istintaq və digər prosessual hərəkətlər aparılan yerdə və məhkəmə iclası zalında olmalı, bu hərəkətin aparıldığı yeri onları həyata keçirən şəxsin, məhkəmə iclas zalını isə məhkəmə iclasında sədrlik edənin icazəsi olmadan tərk etməməli, tərcüməni tam, düzgün və vaxtında həyata keçirməli, müstəntiqin, prokurorun və ya məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmalı, iştirak etdiyi istintaq və digər prosessual hərəkətlərin protokolunda tərcümənin tam və düzgün qeyd olunmasını və cinayət prosesində iştirak edən şəxslərə təqdim olunan sənədlərdə tərcümənin düzgünlüyünü imzası ilə təsdiq etməli, təhqiqat orqanının icazəsi olmadan onun iştirakı ilə keçirilmiş təhqiqat və ya digər prosessual hərəkətlərə və bu zaman aşkar edilmiş hallara dair məlumatları, habelə şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamalıdır.

Bundan başqa tərcüməçiyə izah edildi ki, AR CPM-in 99.6-cı maddəsinə əsasən o, tərcüməni dəqiqləşdirmək məqsədi ilə tərcümə zamanı iştirak edənlərə sual vermək, iştirak etdiyi istintaq və digər prosessual hərəkətlərin protokolları ilə, həmçinin məhkəmə iclası protokolunun müvafiq hissəsi ilə tanış olmaq, tərcümənin tam və düzgün yazılmasına dair protokola daxil edilməli qeydlər vermək, cinayət prosesi zamanı sərf etdiyi xərclərin ödənilməsinə və

cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq, yerinə yetirdiyi işə görə haqq almaq hüquqlarına malikdir.

Tərcüməçi AR CM-in 297-ci maddəsinə əsasən bilə-bilə yalnış tərcümə etməyə görə AR CM-in 300-cü maddəsinə əsasən müstəntiqin, prokurorun və ya məhkəmə nəzarəti funksiyasını həyata keçirən hakimin icazəsi olmadan maraqlı şəxslərə mənəvi və ya maddi ziyanın vurulmasına səbəb olmuş istintaq məlumatlarının yayılmasına görə cinayət məsuliyyəti daşıyacağı barədə xəbərdar olundu.

Tərcüməçiyə izah edildi ki, AR CPM-in 109, 110, 112-118 maddələrinə əsasən həmin cinayət işi və ya cinayət təqibi ilə bağlı material üzrə hakim, prokuror, müstəntiq, təhqiqatçı, hal şahidi, məhkəmə iclasının katibi, mütəxəssis, ekspert və ya şahid, müdafiəçi, zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və ya onların qanuni nümayəndəsi, yaxud nümayəndəsi olduqda və ya olacağı halda, ittiham və ya müdafiə tərəfindən cinayət prosesinin hər hansı asılılıq münasibətində olduqda, cinayət təqibi ilə birbaşa və ya dolayı yolla maraqlı olmasına əsaslar olduqda, habelə onun qərəzsizliyinə şübhə olduğu digər hallarda o həmin cinayət işi üzrə tərcüməçi ola bilməz. Tərcüməçi  bildirdi ki, həmin hallar ona aydındır, lakin öz-özünə etiraz etməsi üçün əsası

yoxdur, tərcüməçi təyin olunması barədə qərar ona elan edilmişdir.

Protokol ucadan oxundu, iştirakçılar tərəfindən ərizə daxil olmadı, doğru yazılıb.

**Tərcüməçi**: **B. Babayev**

**Təhqiqatçı:** **İ. İzzətov**

Xəzər RPİ-in 3-cü PB-in
rəisi, polis kapitanı
**cənab Qurban Qurbanova**

**RAPORT № 391**

Məruzə edirəm ki, 30 noyabr 2018-ci il tarixdə saat $17^{05}$-də, 26 saylı Bakı Şəhər Mərkəzi Xəstəxanadan həkim Fərhadov Fərhad məlumat verib bildirdi ki, 1969-cu il təvəllüdlü, Zirə qəsəbəsi, Ə.Əliyev küçəsi ev $4^{a}$-da yaşayan, Rzayeva Rəna Rəsul qızı, sol əlin 5-ci barmağın sınığı, sol bilək nahiyəsinin əzilməsi ilə müraciət etmişdir.

Raportun icra olunması üçün müvafiq gösəriş verməyinizi xahiş edirəm.

3-cü PB-in məsul növbətçisi,
polis leytenantı **Sahib Sahibov**

*30.10.2018-ci il.*

Xəzər RPİ-in 3-cü PB-in rəisi, polis kapitanı
**cənab Qurban Qurbanova**

Zirə qəsəbəsi, Ə.Əliyev küçəsi döngə 9, ev 16-da yaşayan Əliyeva Əsmər Əli qızı tərəfindən

**Ə R İ Z Ə**

30 noyabr 2018-ci il tarixdə mən, atam, anam və 3 (üç) nəfər məhkəmə icraçıları ilə birlikdə qaynanamgilə gəldik. Orada məhkəmə icraçıları qaynanama bildirdilər ki, əmlakın siyahısını yazmalıyıq. Qaynanam bildirdi ki, atam, anam içəri girməsinlər. Atam və anam çölə çıxdılar. Sonra icraçılardan biri əmlakların siyahısını yazmağa başladı. Mən onlara bildirdim ki, döşəyin yununu boşaldıblar. Qaynanam isə əsəbləşərək stulu qaldırıb üstümə hücum edərək məni təhqir etməyə başladı. Mən də öz növbəmdə özümü müdafiə etmək məqsədilə əlimi qabağa verdim. Stul onun əlindən yerə düşdü və o mənə böhtan ataraq, bildirdi ki, sən, yəni mən onun barmağını sındırdım. Sonra bizim səsimizə anam və atam həyətə daxil oldular. Anam pilləkənə çıxarkən qaynanam və Arifə söyərək onu itələdilir. Nəticədə anam sağ ayağından xəsarət aldı.

Xahiş edirəm bu haqda tədbir görəsiniz.

01.11.2018 **İmza: Əliyeva Ə.**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi**

**İ Z A H A T**

Bakı şəhəri 01 noyabr 2018-ci il.

Mən, Xəzər RPİ-in 3-cü PB-in təhqiqatçısı, polis leytenantı Aslan Aslanov aşağıdakı şəxsdən izahat aldım.

1. Soyadı, adı və atasının adı: **Rzayeva Rəna Rəsul q.**
2. Doğulduğu yer: **Bakı şəhəri**
3. Doğulduğu il, ay, gün: **12.06.1969**
4. Ailə vəziyyəti: **ailəli**
5. Təhsili: **orta**
6. Vətəndaşlığı: **azərbaycan vətəndaş**
7. İş yeri: **içləmir (təqaüdçü)**
8. Milliyyəti: **azərbaycanlı**
9. Faktiki yaşadığı və qeydiyyatda olduğu yer: **Zirə qəsəbəsi Ə.Əliyev küç. ev** $\mathbf{4^a}$
10. Şəxsiyyəti təsdiq edən sənəd: **AZE № 01010101**
11. Məhkumluğu: **yoxdur**

Şahidə izahat verməmişdən qabaq Azərbaycan Respublikası CPM-in 95-ci maddəsində nəzərdə tutulan hüquq və vəzifələri izah edildi.

Bundan əlavə şahidlərə izah edildi ki, Azərbaycan Respublikası CPM-in 20-ci maddəsinə əsasən heç kəs özünün, yaxud yaxın qohumlarının cinayət törətməsini ifşa edən məlumatları verməsi ona təklif olunduqda bunun özü üçün hər hansı mənfi hüququ nəticə verə biləcəyindən qorxmadan ifadə verməkdən imtina etməyə haqlıdır.

Azərbaycan Respublikası CPM-in 230-cu maddəsinə əsasən şahidin Azərbaycan Respublikasının dövlət dilində və ya özünün bildyi dildə ifadə vermək, həmçinin dövlət dilini və ya ibtidai araşdırmanın aparıldığı dili bilmədikdə tərcüməçinin xidmətindən istifadə etmək hüququ şahidlərə izah olundu.

Şahidin ifadə verməkdən imtina etməsinə görə Azərbaycan Respublikası CM-in 298-ci maddəsi ilə və bilə-bilə yalan ifadə verməyə görə Azərbaycan Respublikası CM-nin 296-cı maddəsi ilə məsuliyyət daşıması barədə xəbərdar edildi.

Mənə verilmiş suallara cavab olaraq bildirirəm ki, 30.10.2018-cü il tarixdə saat $14^{00}$-da oğlum Bahadurun həyat yoldaşı Azadə, atası Toğrul, anası Gülarə və məhkəmə icraçıları (adlarını bilmrəm) bizə gəlib bildirdilər ki, Azadənin əmlaklarının, mallarının siyahısını yazmağa gəlmişik.

Mən onlara bildirdim ki, keçin içəri əşyaları özünüz siyahıya alın. Əmlak siyahıya alınarkən bildirdilər ki, döşəyin içərisindən yun oğurlanmışdır. Bu zaman dözməyib

dedim ki, bunu Siz yalan danışırsınız və heç kim döşəkdən yun oğrlaya bilməz. Bu zaman mübahisə yarandı və mübahisəyə həyətimizdə olan digər şəxslər də qoşuldu. Bizi sanki ayırmağa çalışdılar. Lakin mən ümumiyyətlə heç kimlə dalaşmaq isəmirdim. Bunlar hamısı mənim barəmdə yalan sözlərdir.

İzahatı ğzüm yazdım, imzamla təsdiq edirəm, heç bir əlavə və düzəlişlərim yoxdur.

İmza: **Rzayeva R.**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi**

**İ Z A H A T**

Bakı şəhəri 01 noyabr 2018-ci il.

Mən, Xəzər RPİ-in 3-cü PB-in təhqiqatçısı polis leytenantı Aslan Aslanov aşağıdakı şəxsdən izahat aldım.

1. Soyadı, adı və atasının adı: **Əliyeva Əsmər Əli qızı**
2. Doğulduğu yer: **Bakı şəhəri**
3. Doğulduğu il, ay, gün: **10.07.1975**
4. Ailə vəziyyəti: **evli**
5. Təhsili: **orta ixtisas**
6. Vətəndaşlığı: **azərbaycan vətəndaşı**
7. İş yeri: **yoxdur**
8. Milliyyəti: azərbaycanlı
9. Faktiki yaşadığı və qeydiyyatda olduğu yer: **Zirə qəs. Ə. Əliyev küç. 9, ev 16**
10. Şəxsiyyəti təsdiq edən sənəd: **AZE № 02020202**
11. Məhkumluğu: **yoxdur**

Şahidə izahat verməmişdən qabaq Azərbaycan Respublikası CPM-in 95-ci maddəsində nəzərdə tutulan hüquq və vəzifələri izah edildi.

Bundan əlavə şahidlərə izah edildi ki, Azərbaycan Respublikası CPM-in 20-ci maddəsinə əsasən heç kəs özünün, yaxud yaxın qohumlarının cinayət törətməsini ifşa edən məlumtları  verməsi ona təklif olunduqda bunun özü üçün hər hansı mənfi hüququ nəticə verə biləcəyindən qorxmadan ifadə verməkdən imtina etməyə haqlıdır.

Azərbaycan Respublikası CPM-in 230-cu maddəsinə əsasən şahidin Azərbaycan Respublikasının dövlət dilində və ya özünün bildyi dildə ifadə vermək, həmçinin dövlət dilini və ya ibtidai  araşdırmanın  aparıldığı dili bilmədikdə tərcüməçinin xidmətindən istifadə  etmək hüququ vardır ki, bu da şahidlərə izah olundu.

Şahidin ifadə verməkdən imtina etməsinə görə Azərbaycan Respublikası CM-in 298-ci maddəsi ilə  və bilə-bilə yalan ifadə verməyə görə Azərbaycan Respublikası CM-in 296-cı maddəsi ilə məsuliyyət daşıması barədə xəbərdar edildi.

Mənə verilmiş suallara cavab olaraq bildirirəm ki, 30.10.2018-ci il tarixdə saat $14^{00}$-da mən atam, anam və 3 (üç) nəfər məhkəmə icraçıları ilə birlikdə qaynanamgilə gəldik. Orada mənə məxsus olan əmlakların siyahısını icraçılardan biri yazmağa başladı. Qaynanam bildirdi ki, atam və anam içəri girməsinlər. Onlar da həyətə çıxdılar. Mən gördüm ki, mənə məxsus olan döşəyin yununu boşaldıblar. Mən də soruşdum ki, kim boşaldıb. Qaynanam

başladı qışqırmağa ki, heç kəs boşaltmayıb və stulu götürüb üstümə hücum etdi. Bu zaman nə baş verdiyini bilmədim.

İzahatı özüm yazdım, doğruluğunu təsdiq edirəm, heç bir əlavəm yoxdur.

İmza: **Əliyeva Ə.**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi**

**İ Z A H A T**

Bakı şəhəri 01. 11. 2018-ci il.

Mən, Xəzər RPİ-in 3-cü PB-in təhqiqatçısı, polis leytenantı Adil Adilov aşağıdakı şəxsdən izahat aldım.

1. Soyadı, adı və atasının adı: **Əliyev Əkbər Əli oğlu**
2. Doğulduğu yer: **Bakı şəhəri**
3. Doğulduğu il, ay, gün: **24.02.1978**
4. Ailə vəziyyəti: **evli**
5. Təhsili: **orta ixtisas**
6. Vətəndaşlığı: **azərbaycan vətəndaşı.**
7. İş yeri: **Abşeron rayonu Neft Donanma İdarəsi-mexanik**
8. Milliyyəti: **azərbaycanlı**
9. Faktiki yaşadığı və qeydiyyatda olduğu yer: **Zirə qəs. N.Hüseynov dön.9 ev 16.**
10. Şəxsiyyəti təsdiq edən sənəd: **AZE № 03030303**
11. Məhkumluğu: **yoxdur**

Şahidə izahat verməmişdən qabaq Azərbaycan Respublikası CPM-in 95-ci maddəsində nəzərdə tutulan hüquq və vəzifələri izah edildi.

Bundan əlavə şahidlərə izah edildi ki, Azərbaycan Respublikası CPM-in 20-ci maddəsinə əsasən heç kəs özünün, yaxud yaxın qohumlarının cinayət törətməsini ifşa edən məlumtları verməsi ona təklif olunduqda bunun özü üçün hər hansı mənfi hüququ nəticə verə biləcəyindən qorxmadan ifadə verməkdən imtina etməyə haqlıdır.

Azərbaycan Respublikası CPM-in 230-cü maddəsinə əsasən şahidin Azərbaycan Respublikasının dövlət dilində və ya özünün bildyi dildə ifadə vermək, həmçinin dövlət dilini və ya ibtidai araşdırmanın aparıldığı dili bilmədikdə tərcüməçinin xidmətindən istifadə etmək hüququ vardır və bu, şahidlərə izah olundu.

Şahidin ifadə verməkdən imtina etməsinə görə Azərbaycan Respublikası CM-in 298-ci maddəsi ilə və bilə-bilə yalan ifadə verməyə görə Azərbaycan Respublikası CM-nin 296-cı maddəsi ilə məsuliyyət daşıması barədə xəbərdar edildi.

Mənə verilmiş suallara cavab olaraq bildirirəm ki, 30.10.2018-ci il tarixdə saat $14^{00}$-da mən, həyat yoldaşım, qızım Aytən və 3 (üç) nəfər məhkəmə icraçıları ilə birlikdə Həcər gilə gəldik. Həcər bildirdi ki, mən və həyat yoldaşım içəriyə girməyək. Biz də çöldə qaldıq. Təqribən 20 dəqiqədən sonra biz səs-küy eşitdik. Tez həyətə daxil

olduq. Həyat yoldaşım pilləkəni qalxarkən Həcər və gəlini Azadə onu söyərək itələdilər. Nəticədə həyat yoldaşım xəsarət aldı. Sonra icraçılardan biri yoldaşımı çölə çıxardarkən Həcər mənim arxamca taxta parçalarını atdı. Həcərin bacısı Mədinə onu güclə dartıb evə apardı. Oradan da biz evimizə getdik.

İzahat mənim sözlərimlə yazıldı, düzdür, mənə ucadan oxundu, əlavəm yoxdur, imzamla təsdiq edirəm.

İmza: **Əliyev Ə.**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi**

**İ Z A H A T**

Bakı şəhəri 10. 11. 2018-ci il.

Mən, Xəzər RPİ-in TŞ-in təhqiqatçısı, polis leytenantı Rüstəm Rüstəmli aşağıdakı şəxsdən izahat aldım.

1. Soyadı, adı və atasının adı: **Rəşidova Rəşidə Rəsul qızı**
2. Doğulduğu yer: **Bakı şəhəri**
3. Doğulduğu il, ay, gün: **12.06.1979**
4. Ailə vəziyyəti: **ailəli**
5. Təhsili: **8-ci sinif**
6. Vətəndaşlığı: **azərbaycan vətəndaşı**
7. İş yeri: **təqaüdçü**
8. Milliyyət: **azərbaycanlı.**
9. Faktiki yaşadığı və qeydiyyatda olduğu yer: **Zirə qəs. Nizami küç, ev. 4^a-da yaşayan.**
10. Şəxsiyyəti təsdiq edən sənəd: **AZE № 04040404**
11. Məhkumluğu: **yoxdur**

Şahidə izahat verməmişdən qabaq Azərbaycan Respublikası CPM-in 95-ci maddəsində nəzərdə tutulan hüquq və vəzifələri izah edildi.

Bundan əlavə şahidlərə izah edildi ki, Azərbaycan Respublikası CPM-in 20-ci maddəsinə əsasən heç kəs özünün, yaxud yaxın qohumlarının cinayət törətməsini ifşa edən məlumtları  verməsi ona təklif olunduqda bunun özü üçün hər hansı mənfi hüququ nəticə verə biləcəyindən qorxmadan ifadə verməkdən imtina etməyə haqlıdır.

Azərbaycan Respublikası CPM-in 230-cü maddəsinə əsasən şahidin Azərbaycan Respublikasının dövlət dilində və ya özünün bildyi dildə ifadə vermək, həmçinin dövlət dilini və ya ibtidai araşdırmanın aparıldığı dili bilmədikdə tərcüməçinin xidmətindən istifadə  etmək hüququ vardır və bu, şahidlərə izah olundu.

Şahidin ifadə verməkdən imtina etməsinə görə Azərbaycan Respublikası CM-in 298-ci maddəsi ilə  və bilə-bilə yalan ifadə verməyə görə Azərbaycan Respublikası CM-nin 296-cı maddəsi ilə məsuliyyət daşıması barədə xəbərdar edildi.

**Əlavə izahat**

Mənə verilmiş suallara cavab olaraq bildirirəm ki,

**1. Sual:** Siz gəlininiz Aişə 30.10.2018-ci il tarixdə mübahisə edərkən orada kimlər var idi?

**Cavab**. Mən keçmiş gəlinim Aişə ilə mübahisə edərkən bizim yanımızda 3 (üç) məhkəmə icraçısı var idi.

**2. Sual.** Məhkəmə icraçılarının izahatlarında göstərməsinə əsasən Siz keçmiş gəlininiz Aişə ilə mübahisə edərək, biri-birinizə hücum etmiş və əlbəyaxa olmusuz!

**Cavab:** Bəli, mən və keçmiş gəlinim Aişə ilə bir-birimizlə mübahisə etdik, sonra biri-birimizə hücum edərək, əlbəyaxa olduq. Bu zaman orada olan icraçılar bizi sakitləşdirdi.

**3. Sual:** Siz keçmiş gəlininiz Aişəyə ayağından xəsarət yetirdizmi?

**Cavab**: Mən keçmiş gəlnim Aişə ilə bir-birimizə xəsarət yetirmişik.

**Sual**: Xəsarətin vardır və bu barədə xəstəxanaya müraciət etmisənmi?

**Cavab**: Bəli, əlimdən xəsarət almışam və 26 saylı xəstəxanaya getmişəm. Noyabrın 1-də 3-cü PB-dən əməkdaşlar gələrək xəsarətimin səbəbini soruşdular və mən hadisəni danışdım, bildirdim ki, şikayətim var, ərizə yazdım. Onlar mənə məhkəmə tibbi ekspertizasına getmək üçün göndəriş verdilər. Mən də ekspertizaya getdim.

**Sual**: Aişənin atası Validi gördünmü və ona əl qaldırdınmı?

**Cavab:** Atası Validi gördüm onların evə girməyinə etiraz etdim. Hadisədən sonra onu yalnız həyətdə gördüm, heç bir mübahisəmiz olmayıb və əl qaldırmamışam.

**Sual:** Gəlinin Aişənin Gülnisəyə əl qaldırdığını gördünmü?

**Cavab:** Gəlinimin Gülnisəyə əl qaldırdığımı görmədim, yalnız onu evdən çıxartdım ki, mübahisə böyüməsin.

*İzahat mənim sözlərimlə yazıldı, düzdür, mənə ucadan oxundu, əlavəm yoxdur, imzamla təsdiq edirəm.*

**İmza:** **Rəşidova R.**

Azərbaycan Respublikası DİN-in BƏSİİ-yə sadələşdirilmiş icraat materialı üzrə yoxlamya dair

**T Ə L Ə B N A M Ə**

**(faksla göndərilmək üçün)**

1. Soyadı Əliyeva ____________________________
2. Adı ___Əsmər ____________________________
3. Atasının adı Əşrəf qızı ____________________
4. Anadan olduğu tarix, gün, ay, il 10.07.1985 ________
5. Anadan oduğu yer Bakı şəhəri ______________

Tələbnaməni göndərən orqan Xəzər RPİ-nin 1-ci PB-in təhqiqatçısı ______________________________________

Rəis ______________icraçı X.Xəzərli tarix 09.11.2018.

Möhür yeri (katibliyin arayışlar üçün möhürü)

___________________________________________

Yoxlamanın nəticələri (ƏSİİ-də doldurulur)

**Qeyd:** 1. Tələbnamənin digər işlər üzrə yoxlanılan şəxslərə dair doldurulması qəti qadağandır.
2. Tələbnamə çap hərfləri ilə yazılmalıdır.
3. Katibliyin «arayışlar üçün» möhürü olmayan tələbnamələr icra edilməyəcəkdir.

**A K T**

**(canlı şəxsin ekspertizası)**

**№ 674**

Xəzər RPİ-in 3-cü PB-in təhqiqatçısı Aslan Aslanovun

"01" noyabr 2018-ci il tarixli 9/3 №-li təliqəsi əsasında

*Müayinənin keçirildiyi yer*: Xəzər rayon şöbəsinin ambulatoriyada

*Məhkəmə-tibb eksperti(ləri)* şöbə rəisi Heydərov F.J. iş stajı 1979. ___________________________vəzifəsi, iş yeri

vətəndaş ___Rəşidova Rəşidə Rəşid qızı_________

məhkəmə-tibbi müayinəsi keçirildi.

Doğulduğu il 1979 vəzifəsi təqaüdçü__________

Ünvanı *Zirə qəsəbəsi*____________________________

Təqdim etdiyi sənəd *Şəxsiyyət vəsiqəsi AZE № 07070707*

Müayinə zamanı itirak etdilər ______________________

________________________________________________

Müayinə başladı: 03 noyabr 2018-ci il

Müayinə başa çatdı: 03 noyabr 2018-ci il

Müayinə zamanı həll edilməli suallar və "canlı şəxsin məhkəmə-tibbi müayinəsi aktı"nın digər bölmələri sonrakı 1(bir) vərəqədə şərh edilir.

“Canlı şəxsin məhkəmə-tibbi müayinəsi aktı” prokurorluğun , DİN-in, MTN-in qərar və məhkəmənin qərarı əsasında tərtib edilir.

674 № -li akta

*Bədən xəsarətlərinin  xarakterinin və zərərvurmanın təyini*

Deməsinə görə 30.10.2018-ci ildə keçmiş gəlini Aişə əlini burub sındırmışdır.

*Məhkəmə-tibb müayinəsi*

Müayinə olunan orta boylu, düzgün bədən quruluşlu, kafi köklükdədir. Sol əl pəncəsi mil-bilək  oynağını əhatə etməklə gips sarğısındadır.

26 №-li BŞX-da çəkilmiş 01.10.2018-ci il tarixli rentgen müayinəsinin cavabından görünür ki, sol əlin 5-ci barmağının əsas falanqasının qəlpəli sınığı müəyyən olunur.

26 №-li BŞX-nın xəstələrə yardım jurnalının qeydiyyatından görünür ki, Rəşidova Rəşidə Rəsul qızı 30.10.2018-ci ildə xəstəxanaya “sol əlin 5-ci barmağının sınığı, sol bilək nahiyəsinin əzilməsi” diaqnozu ilə müraciət etmişdir.

*Məhkəmə tibb eksperti* *Heydərov F.J.*

# R Ə Y

Rəşidova Rəşidə Rəsul qızının məhkəmə-tibbi müayinəsinə əsasən rəyə gəlirəm ki, onun bədənində aşkar edilmiş xəsarət sol əlin V barmağının əsas falanqasının qəlpəli sarığı bərk küt əşya təsirindən törənmiş, törənmə müddəti müayinə olunanın göstərdiyi tarixə uyğundur. Sağlamlığın uzun müddət pozulmasına səbəb olduğuna görə bu, sağlamlığa az ağır dərəcəli zərərvurmaya aiddir.

*Məhkəmə tibb eksperti* *Heydərov F.J.*

**Üzləşdirmə**

**P R O T O K O L U**

Bakı şəhəri. 09 noyabr 2018-ci il

Mən Bakı şəhər Xəzər RPİ-nin 1-ci PB-in təhqiqatçısı, polis leytenantı Rüstəm Rüstəmov icraatımda olan böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə məhkəməyədək sadələşdirilmiş icraat materialının təhqiqat araşdırlması ilə əlaqədar, Azərbaycan Respublikası CPM-in 86.4.2-ci maddəsinin tələblərinə uyğun olaraq PB-də aşağıdakı şəxsləri üzləşdirdim.

**Şahid:**

1. Soyadı adı və atasının adı: **Əliyeva Arzu Arzuman qızı**
2. Doğulduğu yer: **Bakı şəhəri**
3. Doğulduğu il, ay, gün: **10.07.1985**
4. Ailə vəziyyəti **boşanmış**
5. Təhsili **orta**
6. Vətəndaşlığı **azərbaycanlı**
7. İş yeri **işləmir**
8. Yaşayış yeri: Xəzər rayonu, Zirə qəs. N.Hüseynov küç, dalan 9, ev. 16.

**Şahid:**

1. Soyadı adı və atasının adı: **Rəşidova Rəşidə Rəşid qızı.**
2. Doğulduğu yer: **Bakı şəhəri**

3. Doğulduğu il, ay, gün: **12.06.1969**
4. Ailə vəziyyəti **ailəli**
5. Təhsili **orta**
6. Vətəndaşlığı **azərbaycanlı**
7. İş yeri **təqaüdçü**
8. Yaşayış yeri: Xəzər rayonu, Zirə qəs. Nizamii küç, ev 4[a]

Şahidlərə Azərbaycan Respublikası CPM-in 95-ci maddəsində nəzərdə tutulan hüquq və vəzifələri izah edildi.

Bundan əlavə şahidlərə izah edidi ki, Azərbaycan Respublikası CPM-in 20-ci maddəsinə əsasən heç kəs özünün və ya yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz və buna görə hər hansı təqibə məruz qala bilməz və hər kəs özünün, yaxud yaxın qohumlarının cinayət törətməsini ifşa edən məlumatları verməsi ona təklif olunduqda məlumat vermiyə bilər.

**Əliyeva Arzu Arzuman qızı.** Hadisə ilə əlaqədar dediklərini eşitdim. İndi mən qaynanımın yanında sizə bildirirəm ki, həmin mübahisə vaxtı qaynanam mənə stulu atdı stul mənim sağ ayağıma dizdən aşağı dəydi, mən onun yenə stul atacağımı fikirləşib əlimlə onun sol əlindən tutanda əlim onun barmağına dəydi və o xəsarət aldı.

**Sual.** İzahatınıza əlavəniz var?

**Cavab.** Xeyr, yazılanlara heç bir əlavəm yoxdur.

Üzləşdirmə protokolunda izahatım mənim sözlərimdən yazıldı, ucadan mənə oxndu, heç bir əlavəm yoxdur, ona görə də imza edirəm.

**Əliyeva A.**

**Rəşidova Rəşidə Rəşid qızı.** 30.10.2018-ci il tarixdəki mübahisə zamanı öz evimdə onunla tutaşdıq və icraçılar bizim aramıza girərək bizi sakitləşdirdi. Gəlinim Arzunun ayağından necə xəsarət aldığını bilmirəm.

**Sual.** İzahatınıza əlavəniz var?

**Cavab.** Xeyr, yazılanlara heç bir əlavəm yoxdur.

Üzləşdirmə protokolunda izahatım mənim sözlərimdən yazıldı, heç bir əlavəm yoxdur, ona görə də imza edirəm.

**Rəşidova R.**

Üzləşdirmə protokolunu tərtib etdi,
təhqiqatçı **R.Rüstəmov**

Xəzər rayonu, Məhkəmə
Nəzarətçiləri və Məhkəmə
İcaçıları şöbəsinin rəisi

**cənab A.Hüseynova**

Təhqiqat zərurəti ilə əlaqədar, 30.10.2018-ci il tarixdə, Zirə qəsəbəsi, Nizami küçəsi ev $4^{a}$-da vətəndaş Rəşidova Rəşidə Rəşid qızı və vətəndaş Əliyeva Arzu Arzuman qızı arasında baş vermiş münaqişəyə dair, tərəfinizdən tərtib olunmuş aktın surətini 1-ci PB-nə göndərməyinizi Sizdən xahiş edirəm.

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru
**Fariz Farizov**

## AKT

30. 10. 2018. Zirə qəsəbəsi.

Biz aşağıda imza edənlər Xəzər rayon MN və MİŞ-nin əməkdaşları İsmətov İsmət, Hüseynov Hüseyn və Bağırov Bağır, tələbkar Əliyeva Arzu, cavabdeh Rəşidova Rəşidə, hal şahidləri: 1) Cabbarova Cəmilə Cəmil qızı, Zirə qəsəbəsi Nizami küçəsi; 2) Əliyev Əli Əşrəf oğlu Zirə qəs. Xəqani küçəsi tərtib edirik həqiqi aktı ondan ötəri ki, Xəzər rayon məhkəməsinin 15.10.2018-ci il tarixli qərardadını icra edərkən tərəflər arasında mübahisə başlandı. Sonra isə dava ilə nəticələnərək, cavabdeh Rəşidova Rəşidə tələbkar Əliyeva Arzu tərəfindən əlinin balaca barmağından xəsarət aldı.

Akt oxundu, doğrudur, ona görə də imza edirik:

1. İ.İsmətov
2. H.Hüseynov
3. B.Bağırov
4. C.Cabbarova
5. Ə.Əliyev
6. R.Rəşidova
7. A.Əliyeva

**“TƏSDİQ EDİRƏM”**
Bakı şəhəri, Xəzər rayon
prokuroru baş ədliyyə müşaviri
______________**Misir Misirov**
“     ” noyabr 2018-ci il.

**YEKUN PROTOKOLU**
**(məhkəməyədək sadələşdirilmiş icraat qaydasında)**

“____” ______ 2018-ci il.                                   Bakı şəhəri.

Bakı şəhəri, Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı, polis leytenantı Rüstəmov Rüstəm, Azərbaycan Respublikası CPM-in 296-cı mad. müvafiq olaraq aşağıdakı protokolu tərtib etdim.

**I. Şikayət verən şəxs barəsində məlumat:**

1. Doğulduğu il, ay, gün: 12.06.1969-cu il.
2. Doğulduğu yer: Bakı şəhəri.
3. Soyadı, adı və atasının adı: Rəşidova Rəşidə Rəşid qızı.
4. Ailə vəziyyəti: ailəli.
5. İş yeri və vəzifəsi: təqaüdçü.
6. Vətəndaşlığı: azərbaycanlı.

7. Milliyyəti: azərbaycanlı.
8. Təhsili: orta ixtisas.
9. Faktiki yaşadığı və qeydiyyatda olduğu yer: Zirə qəsəbəsi, Nizami küç. ev 4 a-da yaşayan.

**II. Əməli törətmiş şəxs barəsində məlumat:**

1. Doğulduğu il, ay, gün: 10.07.1975-ci il.
2. Doğulduğu yer: Bakı şəhəri.
3. Soyadı, adı və atasının adı: Əliyeva Arzu Arzuman q.
4. Ailə vəziyyəti: subay.
5. Təhsili: orta ixtisas.
6. İş yeri və vəzifəsi: təqaüdçü.
7. Vətəndaşlığı: azərbaycanlı.
8. Ünvanı: Xəzər rayonu, Zirə qəsəbəsi, Nizami küç. ev 4 a.

**III.** Cinayət qanuni ilə nəzərdə tutulmuş əməl haqqında məlumat (hadisənin törədilmə yeri) onun vaxtı, üsülü, motivi, nəticələri və digər mühüm hallar):

Bakı şəhəri, Xəzər RPİ-in 1-ci PB-in məsul növbətçisi, polis mayoru Sahib Sahibovov Xəzər RPİ-in 1-ci PB-in rəisinə 30.10.2018-ci tarixdə raportla məruzə edərək bildirmişdir ki, 30.10.2018-ci il tarixdə saat $17.^{05}$-də 26 saylı BŞKX-dan həkim Fərhadov məlumat verib bildirdi ki, 1969-cu il təvəllüdlü, Zirə qəsəbəsi Nizami küç. ev 4 $^{a}$-da yaşayan,

Rəşidova Rəşidə Rəşid qızı, sol əlin 5-ci barmağın sınığı, sol bilək nahiyyəsinin əzilməsi ilə müraciət etmişdir.

Raportun icra olunması üçün sərəncam verilməsi barədə xahiş etmişdir.

**IV.** Cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş təqsirliyini təsdiq edən sübutlar, məlumatlar:

Vətəndaş Rəşidova Rəşidə Rəşid qızı, 01.11.2018-ci il tarixdə ərizə ilə Xəzər RPİ-in 1-ci PB-nə müraciət edərək bildirmişdir ki, 30.10.2018-ci il tarixdə, keçmiş gəlini Əliyeva Arzu Arzuman qızı özünü müdafiə etmək üçün əlini qabağa verdikdə, A.A.Əliyeva onun sol qolunun 5-ci barmağını əlinə keçirib burmuşdur. Nəticədə R.R.Rəşidova xəsarət almışdır.

Həmin şikayət ərizəsi əsasında aparılmış təhqiqat araşdırması ilə müəyyən edilmişdir ki, 30.10.2018-ci il tarixdə vət. R.R.Rəşidovanın keçmiş gəlini A.A.Əliyeva atası X.X. anası X.X. və 3 (üç) nəfər məhkəmə icraçıları ilə saat $14^{00}$ radələrində onun evinə gəlmişdir. Xəzər rayon məhkəməsinin 15.10.2018-ci il tarixli əmlak bölgüsü haqqındakı qərardadının icrası üçün gəlmiş, şöbə rəisi X.X., icraçılar, X.X., və X.X. həmin qərardadı icra edərkən, R.Rəşidova ilə keçmiş gəlini A.Əliyeva arasında mübahisə yaranmışdır. Nəticədə R. Rəşidova və A.Əliyeva bir-birinə hucum edərək, əlbəyaxa olmuş, bu zaman A.Əliyeva keçmiş

qaynanası R.Rəşidovanın sol əlinin 5-ci barmağını tutaraq ona xəsarət yetirmişdir. Sonra məhkəmə icraçıları onları sakitləşdirmişdir. 01.11.2018-ci il tarixdə R.Rəşidova, bu hadisə ilə əlaqədar Xəzər RPİ-in 1-ci PB-nə ərizə ilə müraciət etmişdir.

MTE-nin 674 saylı 03.11.04 tarixli aktından görünür ki, R.Rəşidova bərk küt əşya təsirindən törənmiş, sol əlin 5-ci barmağının əsas falanqasının qəlpəli sınığı xəsarətini almışdır. Bu xəsarət müayinə olunanın göstərdiyi tarixə uyğundur. Sağlamlığın uzun müddətə pozulmasına səbəb olduğuna görə bu sağlamlığa az ağır dərəcəli zərər vurmaya aiddir.

Yuxarıda göstərilənlər, təhqiqat araşdırması zamanı, sorğu edilmiş məhkəmə icraçıları, X.X. və X.X. izahatlarında, 674 saylı MTE-si aktında öz təsdiqini tapmışdır. Materialdan görünür ki, hadisə qaynana ilə gəlin arasında əmlak mübahisəsi zəminində, şəxsi evdə olmuşdur, ictimai qayda pozulmamışdır. Bununla da 10.07.1975-ci ildə Bakı şəhərində anadan olmuş, subay, orta təhsilli, Zirə qəsəbəsi, Nadir Nadirov küçəsi, dalan 9, ev 16-da yaşayan, işləməyən, əvvəllər məhkumluğu olmayan, Azərbaycan Respublikası vətəndaşı, azərbaycanlı, vətəndaş Əliyeva Arzu Arzuman qızının əməllərində Azərbaycan Respublikası CM-in 127.1-ci maddəsinin nəzərdə tutduğu cinayət əməlinin tərkibi yaranmışdır.

Ona görə də A.A.Əliyevanın barəsində toplanmış materiallar AR CPM-in 296.3.2-ci maddəsinin tələblərinə əsasən məhkəməyədək sadələşdirilmiş icraat qaydasında ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Xəzər rayon prokuroru vasitəsi ilə baxılması üçün Xəzər rayon məhkəməsinə göndərilməlidir.

**Məhkəməyə çağırılan şəxslərin**

**S İ Y A H I S I:**

1. **Əməli törətmiş şəxs:**
   - Əliyeva Arzu Arzuman qızı. Xəzər rayonu, Zirə qəsəbəsi, N.Nadirov küç. dalan 9, ev 16.

2. **Şikayət vermiş şəxs:**
   - Rəşidova Rəşidə Rəşid qızı. Xəzər rayonu, Zirə qəsəbəsi, Nizami küç. ev 4 a.

3. **Şahidlər:**
   - X.X. Xəzər ray., Zirə qəs., N.Nadirov küç. 9, ev 16.
   - X.X. Xəzər rayonu, Zirə qəsəbəsi 9, ev 16.
   - X.X. Xəzr rayonu, Zirə qəsəbəsi, Nizami küç. ev 4 a.
   - X.X. Xəzər rayonu, Zirə qəsəbəsi, Nizami küç. ev 2 a.

Protokolu tərtib etdi:
Bakı şəhəri Xəzər RPİ-in 1-ci PB-in
təhqiqatçısı, polis leytenantı R.Rüstəmov

**Məhkəməyə çağırılan şəxslərin**

**S İ Y A H I S I:**

1. **Əməli törətmiş şəxs:**
   - Əliyeva Arzu Arzuman qızı. Xəzər rayonu, Zirə qəsəbəsi, N.Nadirov küç. dalan 9, ev 16.

2. **Şikayət vermiş şəxs:**
   - Rəşidova Rəşidə Rəşid qızı. Xəzər rayonu, Zirə qəsəbəsi, Nizami küç. ev 4 a.

3. **Şahidlər:**
   - X.X. Xəzər ray., Zirə qəs., N.Nadirov küç. 9, ev 16.
   - X.X. Xəzər rayonu, Zirə qəsəbəsi 9, ev 16.
   - X.X. Xəzr rayonu, Zirə qəsəbəsi, Nizami küç. ev 4 a.
   - X.X. Xəzər rayonu, Zirə qəsəbəsi, Nizami küç. ev 2 a.

Protokolu tərtib etdi:
Bakı şəhəri Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı, polis leytenantı R.Rüstəmov

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
**cənab Natiq Natiqova**

Şüvəlan qəsəbəsi "Üfüq"
düşərgəsində yaşayan Sahibova
Sahibə Sahib qızı tərəfindən

**Ə R İ Z Ə**

Yazıb Sizə bildirirəm ki, qonşum Zərifə bizi təhqir edib yoldaşımı və uşaqlarımı pis sözlərlə söyüb və əlində daş üstümüzə hücum edib. Qızlarımı döymüşdür. Yoldaşıma ölü- diri söyüşü söyür. Yaşayışımızı pozub, onun fikri mənim yoldaşımı şərləməkdir. Deyir ki, yoldaşını tutduracam. Sizdən xahiş edirəm ki, işə bir əncam çəkəsiniz.

**İmza:**
**Sahibova S.**

08.10.2018.

Məhkəmə tibbi ekspertizasına göndəriş aldım.

**Sahibova S.**
08.10.2018.

**Q Ə B Z**

Ərizəm əsasında məhkəməyədək sadələşdirilmiş icraatın açılması barədə yazılı məlumat aldım.

İmza: Məşədiyeva M.M.

08.10.2018-ci il.

# P R O T O K O L

(Məhkəməyədək sadələşdirilmiş icraat açılması haqqında)

«____»________ 2018-ci il                                     Bakı şəhəri

Bakı şəhəri Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı, polis kapitanı F.Fərəcov Azərbaycan Respublikası CPM-in 51 və 86-cı maddələrini rəhbər tutaraq tərtib etdim həmin protokolu ondan ötrü ki, vət. Məşədiyeva Mənzər Məcid qızı ərizə ilə 1-ci PB-nə müraciət edərək bildirmişdir ki, qonşusu Sahibova Sahibə Sahib qızı onu və qızı Həsənova Nərmin Nadir qızını mübahisə zamanı vuraraq bədən xəsarəti yetirmişdir.

Nəzərə alaraq ki, S. Sahibova Azərbaycan Respublikası CM-in 128-ci maddəsində nəzərdə tutulan cinayət əməli törətmişdir, ona görə də S. Sahibova haqqında göstərilən maddə ilə məhkəməyədək sadələşdirilmiş icraat açılmalıdır.

Göstərilənlərə əsasən, Azərbaycan Respublikası CPM-in 86, 214.4 və 294.1.2-ci maddələrini rəhbər tutub vətəndaş Sahibovanın əməlində Azərbaycan Respublikası CM-nin 128-ci maddəsinin tərkibi olduğundan onun haqqında məhkəməyədək sadələşdirilmiş icraat açılsın.

Xəzər RPİ-in 1-ci PB-in
təhqiqatçısı, polis kapitanı                                     F.Fərəcov

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru
**cənab Natiq Natiqova**

19.06.1979-cu ildə Fizuli rayonunda
anadan olmuş, ailəli, orta təhsilli,
məhkum olunmayan, işləməyən
Şüvəlan qəs., "Üfüq" düşərgəsində
yaşayan Məşədiyeva Mənzər Məcid
qızı tərəfindən

**İ Z A H A T**

Mənə, AR CM-in 297-ci maddəsi ilə bilə-bilə yalan ifadə vermə barədə xəbərdarlıq edildi. Mənə verilən suallara cavab olaraq bildirirəm ki, mən yuxarıda göstərilən ünvanda 9 ilə yaxındır ki, ailəmlə birlikdə yaşayıram. Qonşuluqda yaşayan Fəxrəddin ilə dəfələrlə heç nəyin üstündə mübahisəmiz olub. Mübahisə həmişə zibilə görə olub. 08.10.2018-ci il tarixdə mən həyəti süpürüb arabaya yığdım. Fəxrəddin təpiklə arabanı aşıraraq zibili dağıtdı və məni nalayiq söyüşlərlə söyməyə başladı. Mən ona yaxın gedərək nəyə görə zibili dağıtdın? Soruşduqda o məni yumruqla vuraraq cibindən bıçaq çıxartdı. Mən bıçağı görüb qorxudan dala çəkildim və məcbur olub gəlib polisə müraciət etdim.

**Sual:** Siz qonşunuz Rəxşəndənin üstünə daş atıb, onu söymüsünüzmü?

**Cavab:** Xeyir, mən ona daş atmamışam. Əvvəldən o məni söydüyü üçün mən də ona cavab olaraq söymüşəm.

**Sual:** Siz Rəxşəndənin həyat yoldaşı Fəxrəddini sömüsünüzmü?

**Cavab:** Rəxşəndənin həyat yoldaşı Fəxrəddin məni söyəndə məndə ona cavab olaraq söymüşəm.

İzahat mənim sözlərimlə yazılıb, oxudum düzdür, əlavəm yoxdur, imzamla təsdiq edirəm.

İmza: **Məşədiyeva M.**

İzahatı aldı:
polis kapitanı **Fərəcov F.**
08.10.2018.

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru **cənab Natiq Natiqova**

03.09.1978-ci ildə Fizuli rayonunda anadan olmuş,
ailəli, orta təhsilli, məhkum olunmayan, işləməyən
Şüvəlan qəs. "Üfüq" düşərgəsində
yaşayan Həsənov Həsən Həbib oğlu
tərəfindən

**İ Z A H A T**

Mənə, AR CM-in 297-ci maddəsi ilə bilə-bilə yalan ifadə vermə barədə xəbərdarlıq edildi. Mənə verilən suallara cavab olaraq bildirirəm ki, mən yuxarıda göstərilən ünvanda yaşayıram. Qonşuluqda yaşayan Fəxrəddin ilə zibil üstündə dəfələrlə mübahisəmiz olub. 08.10.2018-ci il tarixdə mən işə getmişdim. İşdən gəldim. Həyat yoldaşım Zərifə mənə bildirdi ki, zibili arabaya yığıb kənara qoymuşdur. Qonşu Fəxrəddin təpiklə vurub zibili dağıtmışdır. Sonradan üstümüzə hücum çəkərək nalayiq söyüşlər söyərək Zərifəni döymüşdür.

İzahat mənim sözlərimlə yazılıb, oxudum. Düzdür, əlavəm yoxdur. İmzamla təsdiq edirəm.

İmza: **H. Həsənov.**

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru **cənab Natiq Natiqova**

12.05.2010-cu ildə İmişli rayonunda anadan olmuş, qaçqınlar üçün orta məktəbin 5-ci sinif şagirdi Şüvəlan qəs. "Üfüq" düşərgəsində yaşayan Həsənova Həcər Həbib qızı tərəfindən

**İ Z A H A T**

Mənə verilən suallara cavab olaraq bildirirəm ki, 08.10.2018-ci il tarixdə qonşumuz Rəxşəndə mənə dedi ki, gəlin zibilinizi buradan götürün. Mən gəlib evdə anama Zərifəyə dedim. Anam bayıra çıxıb Rəxşəndə ilə mübahisə etdilər. Sonra dava etməyə başladılar. Mən anamı ayırmaq istəyəndə Rəxşəndə mənə cırmaq atdı və itələdi. Rəxşəndənin həyat yoldaşı Fəxrəddin gəlib ayırdı. Sonra mən hirslənib onların dalınca daş atdım. Sonradan biz ayrılıb evə getdik.

İzahat mənim sözlərimlə yazılıb. Oxudum, düzdür əlavəm yoxdur, imzamla təsdiq edirəm.

İmza: **Həsənova H.**

08.10.2018.

İzahat yetkinlik yaşına çatmayanların işləri üzrə inspektor, polis leytenantı Şahin Şahinovun iştirakı ilə alındı.

08.10.2018 **Şahinov Ş.**

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru **cənab Natiq Natiqova**

28.06.1972-ci ildə Fizuli rayonunda anadan olmuş, orta təhsilli, məhkum olunmayan, işləməyən Şüvəlan qəs. "Üfüq" düşərgəsində yaşayan Sahibova Sahibə Sahib qızı tərəfindən

**İ Z A H A T**

Mənə, AR CM-in 297-ci maddəsi ilə bilə-bilə yalan ifadə vermə barədə xəbərdarlıq edildi.

Mənə verilən suallara cavab olaraq bildirirəm ki, mən yuxarıda göstərilən ünvanda ailəmlə birlikdə yaşayıram. Qonşuluqdakı Zərifə ilə dəfələrlə mübahisəm olmuşdur. 08.10.2018-ci il tarixdə Zərifə öz evinin zibilini arabaya tökərək arabanı götürüb bizim qapıya qoydu, mən Zərifəyə dedim ki, gəl zibilini götür, zibilin milçəyi evə dolur. Zərifə nalayiq söyüşlər söyə-söyə dedi ki, zibillər orada qalacaq məndə cavab olaraq onu söydüm və bizim aramızda mübahisə baş verdi. Biz bir-birimizlə dava etdik həyat yoldaşım Fəxrəddin bizi gəlib ayırdı. Ayırandan sonra Zərifə bizim üstümüzə hücum çəkərək bizə və bizim evimizə daş atmağa başladı. Xoşbəxtlikdən daş bizə dəymədi. Sonradan məcbur olub polisə müraciət etdik.

**Sual:** Siz Zərifə ilə dava edəndə hansısa bir xəsarət almısınızmı?

**Cavab:** Xeyr, elə bir xəsarət almamışam.

**Sual:** Sizin həyat yoldaşınız Fəxrəddin Zərifəni vurub, söyüb, üstünə bıçaq çəkibmi?

**Cavab:** Xeyr, belə hallar olmayıb, bu Fəxərddinə qarşı şər və böhtandır.

İzahatı özüm yazdım, düzdür, əlavəm yoxdur.

İmzamla təsdiq edirəm.

İmza: **Sahibova S.**

08.10.2018.

İzahatıma onu da əlavə edim ki, Zərifə dava edəndə mənim yanımda olan azyaşlı qızım Əzizəni vurub ona xəsarət yetirmişdir.

**Sahibova S.**

08.10.2018.

İzahatı aldı: **Fərəcov F.**

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru **cənab Natiq Natiqova**

28.12.1997-ci ildə Fizuli rayonunda anadan olmuş, subay, məhkum olunmayan, orta təhsilli, işləməyən Şüvəlan qəs. "Üfüq" düşərgəsində yaşayan Sahibova Lalə Fərəc qızı tərəfindən

## İ Z A H A T

Mənə, AR CM-in 297-ci maddəsi ilə bilə-bilə yalan ifadə vermə barədə xəbərdarlıq edildi.

Mənə verilən suallara cavab olaraq bildirirəm ki, mən yuxarıda göstərilən ünvanda ailəmlə birlikdə yaşayıram. Qonşuluqda yaşayan Zərifə zibil üstündə dəfələrlə bizimlə mübahisə edirdi. 08.10.2018-ci il tarixdə Zərifə öz evinin zibillərini arabaya yığaraq bizim evimizin qabağına qoymuşdu. Zibillərin milçəyi evə girirdi. Anam Rəxşəndə Zərifəyə dedi ki, gəlin zibillərinizi buradan götürün. Zərifə isə nalayiq söyüşlərlə anamı söyərək dedi ki, zibillər orada qalacaq. Anam cavab olaraq Zərifəni söydü və onların arasında dava-dalaş düşdü. Atam Fəxrəddin onları ayırdı. Anamı çəkib evə gətirdi. Sonradan Zərifə bizi daşa basmağa başladı. Xoşbəxtlikdən daş bizə dəymədi.

**Sual:** Sizin atanız Fəxrəddin Zərifəni söyüb, döyüb və onun üstünə bıçaq çəkibmi?

**Cavab:** Xeyr, elə hallar olmayıb. Mən görməmişəm.

İzahatı özüm yazdım, düzdür. əlavəm yoxdur. İmzamla təsdiq edirəm.

İmza: **Sahibova L.**

08.10.2018.

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru **cənab Natiq Natiqova**

18.10.1978-ci ildə Fizuli rayonunda anadan olmuş, ailəli, məhkum olunmayan, orta təhsilli, işləməyən Şüvəlan qəs. "Üfüq" düşərgəsində yaşayan Sayıbov Fəxrəddin Əziz oğlu tərəfindən

**İ Z A H A T**

Mənə, AR CM-in 297-cı maddəsi ilə bilə-bilə yalan ifadə vermə barədə məsuliyyət haqqında xəbərdarlıq edildi.

Mənə verilən suallara cavab olaraq bildirirəm ki, mən yuxarıda göstərilən ünvanda ailəmlə birlikdə yaşayıram. Qonşuluqda yaşayan Zərifə dəfələrlə zibilin üstündə həyat yoldaşım Rəxşəndə ilə mübahisə edir. Mən onların işinə qatışmıram. 08.10.18-ci il tarixdə Zərifə arabada olan zibili bizim qapıda qoymuşdu. Həyat yoldaşım Rəxşəndə Zərifəyə dedi ki, gəl zibili buradan götür, zibilin milçəyi evə girir. Zərifə dedi ki, zibil orada qalacaq. Sonradan onların arasında mübahisə yarandı. Zərifə bizi nalayiq söyüşlərlə söyməyə başladı və bizim evə daş atmağa başladı. Rəxşəndə ilə Zərifə dava etdilər. Mən də onları ayırdım.

İmza: **Sayıbov F.**

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru **cənab Natiq Natiqova**

28.06.1986-cı ildə Fizuli rayonunda anadan olmuş, subay, məhkum ADPU-nun 2-ci kurs tələbəsi Şüvəlan qəs. “Üfüq” düşərgəsində yaşayan Sayıbova Gülnar Fəxrəddin qızı tərəfindən

## İ Z A H A T

Mənə, AR CM-in 297-cı maddəsi ilə bilə-bilə yalan ifadə vermə barədə məsuliyyət haqqında xəbərdarlıq edildi.

Mənə verilən suallara cavab olaraq bildirirəm ki, mən yuxarıda göstərilən ünvanda ailəmlə birlikdə yaşayıram. Qonşuluqda yaşayan Zərifə zibil üstə dəfələrlə mübahisəmiz olmuşdur. 08.10.18-ci il tarixdə Zərifə öz evinin zibillərini arabaya tökərək, arabanı evimizin qarşısına qoymuşdur. Anam Rəxşəndə Zərifəyə dedi ki, gəl zibili buradan götür, zibilin milçəkləri evə dolur. O isə anamı nalayiq söyüşlərlə söyərək dedi ki: “Zibil orada qalacaq”. Anam cavab olaraq onu söydü. Onların arasında mübahisə düşdü və onlar dalaşdılar. Atam Fəxrəddin onları ayırdı və evə girəndə Zərifə daş atmağa başladı. Xoşbəxtlikdən daş bizə dəymədi.

**Sual:** Sizin atanız Fəxrəddin Zərifəni söyüb, vurub, üstünə bıçaq çəkibmi?

**Cavab:** Belə hallar olmayıb, bunlar hamısı böhtandır.

İzahatı özüm yazdım. Düzdür, əlavəm yoxdur, imzamla təsdiq edirəm.

İmza: **Sayıbova**

08.10.18.

Xəzər RPİ-in 1-ci PB-in rəisi,
polis mayoru **cənab Natiq Natiqova**

08.04.1995-ci ildə Beyləqan rayonunda anadan olmuş, 230 №-li orta məktəbin 6-cı sinif şagirdi Şüvəlan qəs., "Üfüq" düşərgəsində yaşayan Sayıbova Gülnar Fəxrəddin qızı tərəfindən

**İ Z A H A T**

Mənə, AR CM-in 297-cı maddəsi ilə bilə-bilə yalan ifadə vermə barədə məsuliyyət haqqında xəbərdarlıq edildi.

Mənə verilən suallara cavab olaraq blildrirəm ki, 08.10.18-ci il tarixdə qonşumuz Zərifə arabaya yükənmiş zibillərini evin qabağına qoymuşdu. Anam Rəxşəndə ona dedi ki, zibili buradan götür evə milçək dolur. Sonra o, anamı söydü, anam da onu söydü və aralarında mübahisə yarandı. Mən də anamın yanında idim. Onlar dava etdilər biri-birini vuranda mən onları ayırmaq istəyirdim. Zərifə mənim boynumdan tutub itlədi və saçımı yoldu. Sonradan atam Fəxrəddin gəlib onları ayırdı, biz evə girəndə Zərifə dalımızcan daş atdı.

İzahat mənim sözlərimlə yazılıb, oxudum, düzdür. Əlavəm yoxdur. İmzamla təsdiq edirəm.

İmza: **Sayıbova Ə.**

Məhkəmə-tibbi eksperiza Tibbi sənəd forması № 1 və patoloji anatomiya Birliyinin Azərbaycan Respulikası Xəzər rayon şöbəsi Səhiyyə Nazirliyinin 08.02.99-cu il tarixli 09 №-li əmri ilə təsdiq edilmişdir.

**A K T**
**(canlı şəxsin ekspertizası)**
№ 716

Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı F. Fərəcovun_
“09”oktyabr 2018-cı il tarixli 9/1 №-li təliqəsi əsasında__
*Müayinənin keçiridiyi yer*: Birliyin Xəzər rayon___
şöbəsinin ambulatoriyasında
*Məhkəmə-tibb eksperti(ləri)* Əzimov A.M. iş stacı 1992-ci ildən

vəzifəsi, iş yeri

____________________________________________

vətəndaş Məşədiyeva Zərifə Məcid qızı
məhkəmə-tibbi müayinəsi keçirildi.
Doğulduğu il 1969 vəzifəsi təqaüdçü
Ünvanı *Mərdəkan qəsəbəsi, “Üfüq”düşərgəsi*
Təqdim etdiyi sənəd *Şəxsiyyətini F.Fərəcov təsdiq etdi*

____________________________________________

Müayinə zamanı iştirak etdilər ________________________

Müayinə başladı: 09 oktyabr 2018-ci il
Müayinə başa çatdı: 03 oktyabr 2018-ci il

Müayinə zamanı həll edilməli suallar və “canlı şəxsin məhkəmə-tibbi müayinəsi aktı”nın digər bölmələri sonrakı 1 vərəqədə şərh edilir.

“Canlı şəxsin məhkəmə-tibbi müayinəsi aktı” prokurorluğun, DİN-in, MTN-in qərar və məhkəmənin qərardadı əsasında tərtib edilir.

716 №-li akta

*Bədən xəsarətinin xarakterinin və zərərvurmanın təyini*

Deməsinə görə 08.10.18-ci il tarixdə təxminən saat 09 radələrində qonşusu Fəxrəddin onu yumruq-təpiklə döymüşdür. Tibbi yardım almamışdır.

**Məhkəmə-tibb müayinəsi**

Müayinə olunan orta boylu, düzgün bədən quruluşlu, kafi köklükdədir. Sol alt göz qapağında uzunluğu köndələn istiqamətdə 3,5 x 0,2 sm ölçüdə 1 ədəd, sağ əlin 1 barmağının ön səthində uzunluğu boylama istiqamətdə yerləşmiş 4,5 x 0,2 sm ölçüdə 1 ədəd, sağ əlin arxa səthində 1,0 x 0,4 sm, 0,8 x 0,5 sm ölçülərdə 2 ədəd qeyri-müəyyən

formalı səthi ətraf dəri səviyyəsində qırmızımtul rəngli sıyrıqlar vardır. Sol gözaltı nahiyədə 2,5 x 1,0 sm ölçüdə 1 ədəd, sol budun yuxarı üçdə birinin bayır səthində 4,5 x 2,0 sm ölçüdə 1 ədəd göyümtül rəngli qeyri-müəyyən formalı qançırlar vardır. Bədənində başqa xəsarət yoxdur.

*Məhkəmə-tibb eksperti:* *Əzimov A.M.*

# R Ə Y

Məşədiyeva Zərifə Məcid qızının məhkəmə-tibb müayinəsinə əsasən rəyə gəlirəm ki, onun bədənində aşkar olunmuş xəsarətlər – sol alt göz qapağının, sağ əlin 1, barmağının və sol əlin sıyrıqları, sol göz altı nahiyənin və sol budun qançırları bərk küt əşyalar təsirindən törənmiş, törənmə müddətləri müayinə olunanın göstərdiyi tarixə uyğundur. Sağlamlığın pozulmasına səbəb olmadıqlarına görə bunlar sağlamlığa zərərvurma kimi qiymətləndirilmirlər.

Məhkəmə-tibb eksperti Əzimov A.M.

10.10.18.

Məhkəmə-tibbi eksperiza Tibbi sənəd forması № 1
və patoloci anatomiya Birliyinin Azərbaycan Respulikası
Əzizbəyov rayon şöbəsi Səhiyyə Nazirliyinin 08.02.99-cu
il tarixli 09 №-li əmrlə təsdiq edilmişdir.

**A K T**

**(Canlı şəxsin ekspertizası)**

№ 717

Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı F.Fərəcov
"09" oktyabr 2018-ci il tarixli 9/1 №-li təliqəsi əsasında
*Müayinənin keçiridiyi yer*: Birliyin Xəzər rayon
şöbəsinin ambulatoriyası
*Məhkəmə-tibb eksperti(ləri)* Əzimov A.M. iş stacı 1992-ci ildən

vəzifəsi, iş yeri

vətəndaş Həsənova Yeganə Asif qızı

məhkəmə-tibbi müayinəsi keçirildi.
Doğulduğu il 1994 12 vəzifəsi şagird
Ünvanı *Mərdəkan qəsəbəsi, "Üfüq"düşərgəsi*

Təqdim etdiyi sənəd *Şəxsiyyətini F.Fərəcov təsdiq etdi*

Müayinə zamanı iştirak etdilər ____________________

Müayinə başladı 10 oktyabr 2018-ci il

Müayinə başa çatdı 10 oktyabr 2018-ci il

Müayinə zamanı həll edilməli suallar və "canlı şəxsin məhkəmə-tibbi müayinəsi aktı"nın digər bölmələri sonrakı 1 vərəqədə şərh edilir.

"Canlı şəxsin məhkəmə-tibbi müayinəsi aktı" prokurorluğun, DİN-in, MTN-in qərar və məhkəmənin qərardadı əsasında tərtib edilir.

717 №-li akta

*Bədən xəsarətinin xarakterinin və zərərvurmanın təyini*

Deməsinə görə 08.10.18-ci il tarixdə təxminən saat 09 radələrində qonşusu Fəxrəddin onu yumruq-təpiklə döymüşdür. Tibbi yardım almamışdır.

*Məhkəmə-tibb müayinəsi*

Müayinə olunan orta boylu, düzgün bədən quruluşlu, kafi köklükdədir. Alının sol yarısında, sol gözün iç bucağında və göz altı nahiyədə, sağ gözaltı nahiyədə,

boynun sol yarısında, döş qəfəsinin ön səthində 1,0x 0,1 sm-dən 2,5 x 0,1 sm-dək 8 ədəd qonur qartmaqlı sıyrıqlar vardır. Bədənində başqa xəsarət yoxdur.

*Məhkəmə-tibb eksperti:* *Əzimov A.M.*

# R Ə Y

Həsənova Yeganə Asif qızının məhkəmə-tibbi müayinəsinə əsasən rəyə gəlirəm ki, onun bədənində aşkar olunmuş xəsarətlər – alnın, hər iki gözün, boynun, döş qəfəsinin sıyrıqları bərk küt əşyalar təsirindən törənmiş, törənmə müddətləri müayinə olunanın göstərdiyi tarixə uyğundur. Sağlamlığın pozulmasına səbəb olmadıqlarına görə bunlar sağlamlığa zərərvurma kimi qiymətləndirilmirlər.

*Məhkəmə-tibb eksperti* *Əzimov A.M.*

*10.10.18*

Azərbaycan Respublikası DİN BƏSİİ-yə sadələşdirilmiş icraat materialı üzrə yoxlamya dair

**T Ə L Ə B N A M Ə**

**(Faksla göndərilmək üçün)**

1. Soyadı Sayıbova
2. Adı Rəxşəndə
3. Atasının adı Kamran qızı
4. Anadan olduğu tarix, gün, ay, il 28.06.1962
5. Anadaln oduğu yer Füzuli rayonu
6. Yaşadığı yer: Şüvəlan qəsəbəsi, "Üfüq" düşərgəsi

Tələbnaməni göndərən təhqiqat orqanı: Xəzr RPİ-in 1-ci PB-si

Rəis **N.Natiqov**
İcraçı: **F.Fərəcov**

Möhür yeri (katibliyin arayışlar üçün möhürü)

---

Yoxlamanın nəticələri (ƏSİİ-də doldurulur)

Qeyd: 1. Tələbnamənin digər işlər üzrə yoxlanılan şəxslərə dair doldurulması qəti qadağandır.
2. Tələbnamə çap hərfləri ilə yazılmalıdır.
3. Katibliyin «arayışlar üçün» möhürü olmayan tələbnamələr icra edilməyəcəkdir.

Vəkil qurumu:
8 saylı Hüquq Məsləhətxanası adı, ünvanı və digər rekvizitləri (soyadı, adı və atasının adı). Bakı şəh. Mərdəkan qəsəbəsi, Telman küç 4.

Müqavilənin (qərarın ) tarixi:16.02.06 Müqavilənin №-si 471

**O R D E R № 001063**

16 02. 2006-cı il

Vəkil Ələkbərov Aydın Hüseyn oğlu
(soyadı, adı və atasının adı)

Hüquqi yardım göstərilən şəxs Sayıbova Rəxşəndə Kamal qızı
(soyadı, adı və atasının adı)

Tapşırığın qısa mahiyyəti ____Azərbaycan Respublikası ______

Cinayət Məcəlləsi 128 № ____________________________

________________________________________________

Tapşırığın yerinə yetirildiyi təşkilat: Xəzr RPİ-in 1-ci PB-də ______________________________

**Vəkil qurumunun rəhbəri:**

**M.Y.**

**…………………………………………………………………**

**XASİYYƏTNAMƏ**

Verilir 1972-ci il təvəllüdlü Füzuli rayon sakini Sayıbov Fəxrəddin Əziz oğluna ona görə ki, o 1993-cü ildə Füzuli rayonundan məcburi köçkün düşməklə Şüvəlan qəsəbəsindəki "Üfüq" düşərgəsində ailəsi ilə birlikdə məskunlaşmışdır. Düşərgədə yaşadığı müddətdə bəzi xırda söz-söhbətləri nəzərə almasaq özünü yaxşı aparmış və heç bir kəslə konfliktdə olmamışdır. O, heç bir dövlət işində işləmir, yalnız çalışmaqla ailəsini dolandırır. Dörd qız övladı var.

"Üfüq" sağlamlıq düşərgəsinin nümayəndəsi **İsayev B.M**

**A R A Y I Ş**
**№ 30**

**(Qeyd № 036004)**

Verilir Sayıbov Fəxrəddin Əziz oğluna ondan ötrü ki, o həqiqətən Füzuli rayonundan məjburi köçkün düşməklə Şüvəlan qəsəbəsindəki "Üfüq" sağlamlıq düşərgəsində məskunlaşmışdır və aşağıdakı ailə üzvləri var.

**Ailə tərkibi:**

1. Həyat yoldaşı – Sahibova Sahibə Sahib qızı
2. Qızı – Sahibbova Gülnar Sahib qızı
3. Qızı – Sahibova Lamiyə Sahib qızı
4. Qızı – Sahibova Fəxriyyə Sahib qızı
5. Qızı – Sahibova Əzizə Sahib qızı

Arayış Xəzər rayon Polis İdarəsinin 1-ci Polis bölməsinə təqdim etmək üçün veriir.

"Üfüq" sağlamlıq düşərgəsinin nümayəndəsi

**İmza:** **İsayev B.M.**

Azərbaycan Respublikası DİN BƏSİİ-yə sadələşdirilmiş icraat materialı üzrə yoxlamya dair

**T Ə L Ə B N A M Ə**

**(Faksla göndərilmək üçün)**

1. Soyadı Sayıbova
2. Adı Fəxrəddin
3. Atasının adı Əziz
4. Anadan olduğu tarix, gün, ay, il 18.10.1958
5. Anadan oduğu yer Füzuli rayonu
6. Yaşadığı yer: Şüvəlan qəsəbəsi, "Üfüq" düşərgəsində yaşayan

Tələbnaməni göndərən təhqiqat orqanı: Xəzər RPİ-in 1-ci PB-si

Rəis **N.Natiqov**
İcraçı: **F.Fərəcov**

Möhür yeri (katibliyin arayışlar üçün möhürü)

---

Yoxlamanın nəticələri (ƏSİİ-də doldurulur)

Qeyd: 1. Tələbnamənin digər işlər üzrə yoxlanılan şəxslərə dair doldurulması qəti qadağandır.
2. Tələbnamə çap hərfləri ilə yazılmalıdır.
3. Katibliyin «arayışlar üçün» möhürü olmayan tələbnamələr icra edilməyəcəkdir.

**“Təsdiq edirəm”**
Xəzər rayon prokuroru
ədliyyə müşaviri ____________**Əziz Əzizli**
“___” oktyabr 2018-ci il.

# YEKUN PROTOKOLU

(məhkəməyədək sadələşdirilmiş icraat qaydasında)

“___” oktyabr 2018-ci il saat-11.00. Bakı şəhəri.

Bakı şəhəri, Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı, polis kapitanı Fərəcov Fərəc Fərman oğlu, Azərbaycan Respublikası CPM-in 296-cı maddəsinə müvafiq olaraq aşağıdakı protokolu tərtib etdim:

I. Şikayət verən şəxs barədə məlumat:

1. Doğulduğu il, ay, gün: 19.06.1979.
2. Doğulduğu yer: Bakı şəhəri.
3. Soyadı, adı və atasının adı: Məşədiyeva Zərifə Məcid q.
4. Ailə vəziyyəti: ailəli.
5. İş yer və vəzifəsi: işləmir.
6. Vətəndaşlığı-azərbaycanlı.
7. Milliyyəti-azərbaycanlı.
8. Təhsili-orta.

9. Faktiki yaşadığı yer və qeydiyyatda olduğu yer - Xəzər rayonu, Şüvəlan qəs. «Üfüq» düşərgəsi.

II. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs barəsində məlumat:

1. Doğulduğu il, ay, gün: 28.06.1972.
2. Doğulduğu yer: Fizuli rayonu.
3. Soyadı, adı və atasının adı: Sahibova Rəmziyə Kamal qızı.
4. Ailə vəziyyəti: ailəli.
5. Təhsili: orta.
6. İş yeri və vəzifəsi: işləmir.
7. Vətəndaşlığı: azərbaycanlı.
8. Ünvanı: Xəzər rayonu, Şüvəlan qəs. «Üfüq» düşərgəsi.

III. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməl haqqında məlumat (hadisənin törədilmə yeri, onun vaxtı, üsulu, motivi, nəticələri və digər mühüm hallar).

Bakı şəhəri, Xəzər RPİ-in 1-ci PB-nə vət. Məşədiyeva Z. M. qızı ərizə ilə müraciət edərək bildirmişdir ki, qonşusu Sahibova Əzizə Sahib qızı onu və qızı Həsənova Y.A. mübahisə zamanı vuraraq bədən xəsarəti yetirmişdir və bu barədə ölçü götürməsini xahiş etmişdir.

IV. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş təqsirliyini təsdiq edən sübutlar, məlumatlar:

Vət. Məşədiyeva Zərifə Məcid qızı 08.10.2018-ci il tarixdə ərizə ilə Xəzr RPİ-in 1-ci PB-nə müraciət edərək 08.10.2018-ci il tarixdə qonşusu Sahibov Fəxrəddin Əziz oğlunun onu döyüb xəsarət yetirdiyini bildirmiş və buna görə də tədbir görülməsini xahiş etmişdir.

Həmin şikayət ərizəsi əsasında aparılmış təhqiqat araşdırması ilə müəyyən olunmuşdur ki, vət. Sahibova Rəxşəndə Kamran qızı və Məşədiyeva Zərifə Məcid bər qızı bir düşərgədə yaşayırlar. Qonşular arasında son vaxtlar məişət zəminində narazılıqlar yaranmışdır. Belə ki, Z.Məşədiyevanın öz evinin zibillərini R.Sahibovanın qapısının yaxınlığında saxlaması münasibətlərinin gərginləşdirmişdir. Sonuncu dəfə yenə də Z.Məşədiyeva 10.08.18-ci il tarixdə səhər həyəti süpürdükdən sonra zibili arabaya yığıb, həmişəki kimi R.Sahbovanın qapısının qabağında qoymuşdur. Bu səbəbdən onların arasında başlayan mübahisə dalaşmaya çevrilmişdir. Bu dalaşma zamanı da hər ikisi bir-birini döyümüşdür. Məlum hadisə ilə əlaqədar, şikayət edən R.Sahbova heç bir xəsarət almamışdır, lakin bu zaman araya girən və sağlamlığına zərərvurma kimi qiymətləndirilməyən xəsarət almış azyaşlı qızı Sahibova Əzizə Fəxrəddin qızına bu xəsarəti Z.Məşədiyevanın yetirdiyini bildirmişdir. Mübahisə vaxtı sağlamlığına zərərvurma kimi qiymətləndirilməyən xəsarət

almış Z.Məşədiyeva isə özünün və eyni dərəcəli xəsarət almış azyaşlı qızı Həsənova Yeganə Asif qızına bu xəsarətləri R.Sahbovanın həyat yoldaşı ona harayçılığa gələn Sahibov Fəxrəddin Əziz oğlunun yetirdiyini bildirmişdir. Bununla əlaqədar sorğu olunan F.Ə.Sahibov isə bildirmişdir ki, o ancaq həyat yoldaşı R.Sayıbova ilə mübahisə edən Z. Məstəliyevanı bir-birindən ayırmış, sonuncunu və onun azyaşlı qızını döyməmişdir. R.Sahibova isə öz növbəsində Z. Məşədiyevanı özünün döyüb xəsarət yetirdiyini təsdiq etsə də onun azyaşlı qızına xəsarət yetirmədiyini bildirmişdir. Eyni zamanda, Sahibova Rəxşəndə Kamran qızı da 08.10.18-ci il tarixdə Xəzər RPİ-in 1-ci PB-nə müraciət edərək qonşusu Məşədiyeva Zərifə Məcid qızının onu döydüyünü bildirmiş və bu barədə tədbir görülməsini xahiş etmişdir. Hadisənin kənar iştirakçısı və şahidi olmamışdır.

Göstərilənlərin araşdırma zamanı sorğu edilən, əvvəldə adı sadalanan şəxslərin izahatlarında və MTE-nın 10.10.2018-ci il tarixli 716 saylı, 10.10.2018-ci il tarixli 719 saylı 10.10.2018-ci il tarixli 717 aktında öz təsdiqini tapmışdır. Beləliklə, araşdırma zamanı müəyyən edilmişdir ki, vət. Məşədiyeva Zərifə Məcid qızına və qızı Həsənova Yeganə Asif qızına aldığı xəsarətləri, onlarla dalaşmış Sahibova Rəxşəndə Kamran qızı, Sahibova Əzizə Fəxrəddin qızına isə aldığı xəsarəti Məşədiyeva Zərifə Məcid qızı yetirmişdir.

Materialdan görünür ki, hadisə bir-birini tanıyan qonşular arasında, yaşadıqları evdə, məişət zəminində baş vermiş, ictimai qayda pozulmamışdır və bununla da vət. Sahibova Rəxşəndə Kamran qızının əməllərində AR CM-in 128-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlinin tərkibi yaranmışdır.

Ona görə də Sahibova R.K barəsində toplanmış materiallar Azərbaycan Respublikası CPM-in 296.3.2-ci maddəsinin tələblərinə əsasən məhkəməyədək sadələşdirilmiş icraat qaydasında ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Xəzər rayon prokuroru vasitəsilə baxılması üçün rayon məhkəməsinə göndərilməlidir.

**Məhkəməyə çağırılan şəxsərin siyahısı.**

**Cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs:**

-Sahibova Rəxşəndə Kamran qızı.

Xəzər rayonu Şüvəlan qəs. «Üfüq» düşərgəsində yaşayan.

**Şikayət vermiş şəxs:**

Məşədiyeva Zərifə Məcid qızı- eyni ünvan.

-Həsənova Yeganə Asif qızı- eyni ünvan.

**Şahidlər:** Həsənov Asif Qərib oğlu – eyni ünvan

Sahibova Gülnar Sahib qızı – eyni ünvan
Sahibova Lamiyə Sahib qızı – eyni ünvan

**Protokolu tərtib etdi:**
Xəzr RPİ-in 1-ci PB-in
təhqiqatçısı, polis kapitanı **F. Fərəcov**

**P R O T O K O L**

Məhkəməyədək sadələşdirilmiş icraat materialları əməli törətmiş şəxsin tanış edilməsi haqqında

“ ”___________ 2018-cı il Bakı şəh.

Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı, polis kapitanı F.Fərəcov tərtib etdim bu protokolu AR CPM-in 91, 296.3.1-ci mad. tələblərinə əsasən ona görə ki, əməli törətmiş şəxsin Sahibova Rəxşəndə Kamran qızı barəsində zərərçəkən şəxs Məşədiyeva Zərifə Məcid qızı ərizəsi əsasında AR CM-in 128-ci mad. ilə toplanmış 27 vərəqdən ibarət məhkəməyədək sadələşdirilmiş icraat materialları ilə tanış olma hüququnu ona izah etdim.

Əməli törətmiş şəxs X.X. barəsində toplanmış materialla tanış olub bildirdi ki,

Barəmdə qonşum Məşədiyeva Zərifə Məcid qızının ərizəsi əsasında toplanmış materialla tanış oldum, materialın rayon prokurorluğu vasitəsi ilə məhkəməyə göndərməyi mənə izah edildi. Material üzrə heç bir irad və təklifim yoxdur.

Tərtib olunmuş protokol təqsirləndirilən şəxsə ucadan oxundu, düzgün bilindiyi üçün imzalandı.

1. Əməli törətmiş şəxs **Sahibova R.**
2. Müdafiəçi **Ələkbərov A.**

Protokolu tərtib etdi: **F.Fərəcov**

## ARAYIŞIN KÖTÜYÜ

Sahibova Rəxşəndə
(familiya)
Kamran qızı
(adı və atasının adı)

Arayış göndərilir Xəzər rayon
RP-in 1-ci PB-nə

06. 12. 2018-ci il.
Məhkəmənin katibi ________

## Q Ə B Z

Yekun protokolunun surətini aldım. Polisə xəbərdarlıq etmədən yaşayış yerini dəyişməyəcəyəm.

19.10.2018-ci il. **Sahibova R.K.**

## P R O T O K O L

Məhkəməyədək sadələşdirilmiş icraat materialları ilə əməli törətmiş şəxsin tanış edilməsi haqqında

“ 18” oktyabr 2018-ci il Bakı şəh.

Xəzər RPİ-in 1-ci PB-in təhqiqatçısı, polis kapitanı F.Fərəcov tərtib etdim bu protokolu AR CPM-in 87, 296.3.1-ci mad. tələblərinə əsasən ona görə ki, təqsirləndirilən şəxs Məşədiyeva Zərifə Məcid qızı barəsində zərərçəkən şəxs Sahibova Rəxşəndə Kamran qızı ərizəsi əsasında AR. CM-in 128-ci maddəsi ilə toplanmış 27 vərəqdən ibarət məhkəməyədək sadələşdirilmiş icraat materialları ilə tanış olma hüququnu ona izah etdim.

Əməli törətmiş şəxs X.X. barəsində toplanmış MSİQ-da materialla tanış olub bildirdi ki,

Ərizəm əsasında toplanmış materialın rayon prokurorluğu vasitəsi ilə məhkəməyə göndəriləcəyi mənə izah edildi.

Heç bir vəsatətim, iradım yoxdur.

Tərtib olunmuş protokol təqsirləndirilən şəxsə ucadan oxundu, düzgün bilindiyi üçün imzalandı.

Zərərçəkmiş şəxs **Z. Məşədiyeva**

Protokolu tərtib etdi: **F. Fərəcov**

8 saylı hüquq məsləhətxanasının vəkili

**Aydın Ələkbərova**

Hüquqlarını müdafiə etdiyiniz vət. R.K.Sahibova barəsində Azərbaycan Respublikası CM-in 128-ci maddəsi ilə məhkəməyədək sadələşdirilmiş icraat materialı baxılması üçün Xəzər rayon məhkəməsinə göndərilmişdir.

Xəzər rayon prokuroru əvəzi,
ədliyyə müşaviri **Əziz Əzizli**

Bakı şəhəri, Şüvəlan qəsəbəsi,
"Üfüq" düşərgəsində yaşayan
Vət. Məşədiyeva Zərifə Məcid qızına
Vət. Həsənova Yeganə Asif qızına

Vət. R.K.Sahibovanın barəsində Azərbaycan Respublikası CM-in 128-ci maddəsi ilə məhkəməyədək sadələşdirilmiş icraat materialı baxılması üçün Xəzr rayon məhkəməsinə göndərilmişdir.

Xəzr rayon prokuroru əvəzi,
ədliyyə müşaviri **Əziz Əzizli**

Xəzər rayon məhkəməsinin
sədri
**Araz Arazlıya**

Vət. Sahibova Rəxşəndə Kamran qızı barəsində Azərbaycan Respublikası CM-in 128-ci maddəsi ilə məhkəməyədək sadələşdirilmiş icraat materialı baxılması üçün Sizə göndərilir.

**Qoşma:** sadələşdirilmiş icraat materialı “ 28 ” vərəqdə,
R.K.Sahibovanın şəxsiyyət vəsiqəsinin surəti

Xəzər rayon prokuroru,
əvəzi ədliyyə müşaviri **Əziz Əzizli**

**Birinci instansiya məhkəməsində cinayət icraatı üzrə məhkəmənin hazırlıq iclasının təyin edilməsi haqqında**
**B İ L D İ R İ Ş**

**Təqsirləndirilən şəxs:** Sahibova Rəxşəndə Kamran qızına

Bakı şəh. "Üfüq" düşərgəsi

**Zərərçəkmiş şəxs**: Məşədiyeva Zərifə Məcid qızına
Bakı şəh. "Üfüq" düşərgəsi

**Zərərçəkmiş şəxs:** Həsənova Yeganə Asif qızına
Bakı şəh. "Üfüq" düşərgəsi

**Dövlət ittihamçısı:** Bakı şəhər prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə şöbənin rəisi cənab Eyyub Eyyubova

Məhkəmənin icraatına Sahibova Rəxşəndə Kamran qızının Azərbaycan Respublikası CM-in 128-ci maddəsi ilə təqsirləndiriləsinə dair cinayət işi daxil olmuşdur.

İş məhkəmənin hazırlıq iclasında baxılmaq üçün "01" noyabr 2018-cı il tarixə saat 11.00-da məhkəmə binasına təyin edilmişdir.

Məlumat üçün bildiririk ki, Sahibova Rəxşəndə Kamran qızına qarşı irəli sürülmüş ittihamın mahiyyəti aşağıdakı kimidir (Yekun prtokolunun surəti əlavə olunur).

İşin baxılması Xəzər rayon məhkəməsinin hakimi Ziya Ziyadlıya həvalə edilmişdir.

Ərizə və vəsatətlərinizi "01" noyabr 2018-ci il tarixə saat 11.00-a kimi məhkəməyə təqdim edə bilərsiniz. Məhkəmə binası Mərdəkan qəsəbəsi Telman küçəsi, 4 ünvanda yerləşir.

Qanunun tələbinə əsasən, təqsirləndirilən şəxsin, onun müdafiəçisinin, dövlət ittihamçısının, xüsusi ittihamçının,

zərərçəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin məhkəmənin hazırlıq iclasında iştirakları zəruridir. Odur ki, onların hər biri qanunla müəyyən edilmiş, Azərbaycan Respublikası CPM-in aidiyyəti üzrə 91; 92; 84; (88); 87; 89; 93-cü maddələrində nəzərdə tutulan hüquq və vəzifələrindən tam, sərbəst istifadə edə bilərlər.

Məhkməyədək sadələşdirilmiş icrratın nəticələrinə dair yekun protokolu surətini, həmçinin Azərbaycan Respublikası CPM-in X.X. maddəsinin (sizin hüquq və vəzifənizə aid hissəsinin) çıxarışını Sizə göndərməklə, məhkəmənin hazırlıq iclasında iştirak etmənizi xahiş edirik.

**Qoşma:** Yekun protokolunun surəti

**Hakim:** **Ziya Ziyadlı**

**İş s/m- 26/2018-ci il**

**XƏZƏR RAYON MƏHKƏMƏSİNİN**

**Q Ə R A R I**

Bakı şəhəri. 26 oktyabr 2018-ci il

Mən, Xəzər rayon məhkəməsinin hakimi Z.Ziyadlı icraatımda olan Sahibova Rəxşəndə Kamran qızının AR CM-nin 128-ci maddəsi ilə təqsirləndirilməsinə dair məhkəməyədək sadələşdirilmiş icraat materialını nəzərdən keçirib

**M Ü Ə Y Y Ə N   E T D İ M:**

Sahibova Rəxşəndə Kamran qızının barəsində olan yekun protokolu məhkəməyədək sadələşdirilmiş icraat materialları ilə birlikdə icraatıma daxil olmuşdur.

Hesab edirəm ki, müdafiəçi qismində təyin olunacaq vəkilin təqsirləndirilən şəxsə məhkəmə iclasında görüşməsini və onun hüquqi yardımından istifadə edib-etməməsi barədə məsələnin həll olunması üçün vəkillik fəaliyyəti ilə məşğul olmaq hüququ olan müdafiəçilərdən birinin həmin məhkəmə iclasında iştirakının təmin olunması vacibdir.

Qeyd olunanlara əsasən AR CPM-in 92.12-ci maddəsini rəhbər tutub

**Q Ə R A R A   AL D I M:**

28.06.1972-i ildə Füzuli rayonunda anadan olmuş, AR vətəndaşı, orta təhsilli, ailəli, əvvəllər məhkum olunmamış, Bakı şəhəri Şüvəlan qəsəbəsi, "Üfüq" düşərgəsində yaşayan Sayıbova Rəxşəndə Kamran qızının hüquqlarının

müdafiəsinin təmin edilməsi məqsədi ilə, onun hüquqi yardımından istifadə edib-etməməsi barədə məsələnin həll olunması üçün 8 saylı hüquq məsləhətxanasının vəkillərindən birinin müdafiəçisi qismində keçiriləcək 01 noyabr 2018-ci il tarixdə, saat 11.00-da məhkəmə hazırlıq iclasında iştirakı təmin edilsin.

Qərarın icrası 8 saylı hüquq məsləhətxanasına həvalə edilsin.

**Hakim:** **Ziya Ziyadlı**

Bakı şəhər prokurorluğunun dövlət
itthamının müdafiəsi üzrə şöbənin rəisi

cənab Eyyub Eyyubova

Sahibova Rəxşəndə Kamran qızının AR CM-in 128-ci maddəsi ilə təqsirləndirilməsinə dair yekun protokolunun surəti və məhkəmə bildirişi Sizə göndərilir.

İşin hazırlıq iclasında baxılması 01 noyabr 2018-ci il tarixə saat 11.00-a təyin edilmişdir. Həmin tarixdə dövlət ittihamçısının məhkəmənin hazırlıq iclasında iştirakının təmin olunmasını xahiş edirəm.

*Qoşma: Yekun protokolunun surəti və məhkəmə bildirişi.*

*Xəzər rayon*
*məhkəməsinin hakimi* **Ziya Ziyadlı**

*İş № s/m 26/2018-ci il.*

**Q Ə R A R**

*01 noyabr 2018-ci il*
*02 Bakı şəhəri.*

**XƏZƏR RAYON MƏHKƏMƏSİNİN**

Ziya Ziyadlının sədrliyi
Eynulla Eynullayevin katibliyi ilə,
Dövlət ittihamçısı Nağıyev Nağının

Təqsirləndirilən şəxs Sahibova Rəxşəndə

Müdafiəçi Ələkbərov Aydının iştirakı ilə

Sahibova Rəxşəndə Kamran qızının Azərbaycan Respublikası CM-in 128-ci maddəsi ilə təqsirləndirilməsinə dair məhkəməyədək sadələşdirilmiş icraat materialına hazırlıq məhkəmə iclasında baxaraq, məhkəmə

**MÜƏYYƏN ETDİ:**

Sahibova Rəxşəndə Kamran qızının Azərbaycan Respublikasının CM-nin 128-ci maddəsi ilə ittiham olunmasına dair məhkəməyədək sadələşdirilmiş icraat materialının məhkəmə baxışı məhz bu məhkəməyə aiddir. İlkin məhkəmə zamanı aparılmış, ibtidai araşdırma dövründə Azərbaycan Respublikası CPM-in tələblərin pozulması aşkar edilməmişdir. İş üzrə icraatın dayandırılması və ya ona xitam verilməsi üçün əsaslar müəyyən edilmədi.

İşin məhkəmə baxışının qeyri-mümkünlüyünə səbəb olan hallar yoxdur. Yekun protokolu prosessual formasına riayət edilmişdir. Məhkəməyədək icraat hüquqi pozuntulara yol verilmədən aparılmışdır.

Məhkəmə təqsirləndirilən şəxs Sahibova Rəxşəndə Kamran qızının şəxsiyyətini, ittiham olunduğu əməlin ağırlığını, törədilmə şəraitini və xarakterini, daimi yaşayış yerinin olmasını nəzərə alıb, hesab edir ki, təqsirləndirilən şəxsin barəsində başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbiri seçilməlidir.

Təqsirləndirilən şəxsin öz vəkli Bakı şəhəri 8 saylı məsləhətxanasının vəkili Ələkbərov Aydın Hüseyn oğlu olmasını və göstərilən hüquqi yardımın müqavilə əsasında, şəxsi vəsaiti hesabına həyata keçirilməsini bildirib, onun cinayət prosesinə buraxılmasını xahiş etdi.

Verilmiş vəsatətlər Cinayət-Prosessual Məcəlləsinin tələbləri üzrə müzakirə edilib, həll edilmişdir. İttiham və müdafiə tərəflərin təqdim etdikləri sübutlar siyahısı qəbul edilmiş; Vurulmuş zərərin ödənilməsinin təmin edilməsi üçün tədbirlər görülməsi zərurəti yoxdur. AR CPM-in 26-cı maddəsinə əsasən cinayət mühakimə icraatı Azərbaycan Respublikasının dövlət dilində aparıldığından, məhkəmə baxışı Azərbaycan dilində aparılmalı, təqsirləndirilən şəxs Azərbaycan dilini mükəmməl bildiyindən, onun tərcüməçi ilə təmin olunmasına ehtiyaj yoxdur. Təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi üçün kifayət qədər əsaslar vardır. Təqsirlilik haqqında məsələyə qabaqcadan hüquqi qiymət verilmədən (həll etmədən) təqsirli şəxsin məhkəməyə verilməsini və işin məhkəmə baxışına təyin edilməsini əsaslı hesab edirik.

Azərbaycan Respublikası CPM-in 299, 300, 301, 306-cı maddələrini rəhbər tutaraq, məhkəmə

**Q Ə R A R A  A L D I:**

1) Təqsirləndirilən şəxs Sahibova Rəxşəndə Kamran qızı Azərbaycan Respubliksı CM-in 128-ci madəsi ilə məhkəməyə verilsin.

2) İşin açıq məhkəmə baxışı Bakı şəhəri Xəzər rayon məhkəməsinin binasında 09 noyabr 2018-ci il tarixə, saat 11.00 təyin edilsin.

3) Məhkəmə baxışı Azərbaycan dilində aparılsın.

4) Təqsirləndirilən şəxsin müdafiəsini Bakı şəhəri 8 saylı hüquq məsləhətxanasının vəkili Ələkbərov Aydın Hüseyn oğlu öz öhdəsinə götürdüyündən, o müdafiəçi qismində cinayət prosesinə buraxılsın.

5) İşin məhkəmə baxışına təqsirləndirilən şəxsin, müdafiəçinin, habelə dövlət ittihamçısının, zərərçəkmiş şəxsin, şahidlərin iştirakı təmin edilsin.

6) Sahibova Rəxşəndə Kamran qızı barəsində başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbri seçilsin.

**Sədrlik edən:** **Ziya Ziyadlı**

**İş № 1- 313/2018-ci il**

Xəzər rayon məhkəməsinə
zərərçəkən şəxs
Məşədiyeva Zərifə Məcid qızı
tərəfindən

# Ə R İ Z Ə

Mən, təqsirləndirilən şəxs Sahibova Rəxşəndə Kamran qızı ilə barışmışam, ona görə də xahiş edirəm İşin icraatına xitam verəsiniz.

**Məşədiyeva Zərifə**
14.11.2018.

Xəzər rayon məhkəməsinə
Təqsirləndirilən şəxs
Sahibova Rəxşəndə Kamran qızı
tərəfindən

**Ə R İ Z Ə**

Mən, zərər çəkmiş şəxs Məşədiyeva Zərifə Məcid qızı ilə barışmışam, ona görə də xahiş edirəm işin icraatına xitam verəsiniz.

**Sahibova Rəxşəndə**
14.11.2018-ci il.

## CİNAYƏT TƏQİBİNƏ XİTAM VERİLMƏSİ HAQQINDA

## Q Ə R A R

09 noyabr 2018-ci il                                        Bakı şəhəri.

## XƏZƏR RAYON MƏHKƏMƏSİNİN

Ziya Ziyadlının sədrliyi
Eynulla Eynullayevin katibliyi ilə,
Dövlət ittihamçısı Nağıyev Nağı
Zərərçəkmiş şəxs Həsənova Yeganə
Qanuni nümayəndəsi Məşədiyeva Zərifə
Müdafiəçi Ələkbərov Aydının iştirakı ilə

28.06.1972-ci ildə Fizuli rayonunda anadan olmuş, AR vətəndaşı, ailəli orta təhsilli, işləməyən, məhkum olunmamış, Bakı şəhəri Şüvəlan qəsəbəsi “Üfüq” düşərgəsində yaşayan, barəsində başqa yerə getməmək hqqında iltizam növündə qətimkan tədbiri seçilmiş

Sahibova Rəxşəndə Kamran qızının Azərbaycan Respublikası CM-in 128-ci maddəsi ilə təqsirləndirilməsinə dair məhkəməyədək sadələşdirilmiş icraat materialına açıq məhkəmə iclasında baxaraq,

**M Ü Ə Y Y Ə N  E T D İ:**

Sahibova Rəxşəndə Kamran qızı 08.10.2018-ci il tarixdə qonşusu Zərifə Məşədiyeva ilə məişət zəminində yaranmış mübahisə zamanı ona və hadisə yerində olan sonucunun qızı Həsənova Yeganə Asif qızına qarşı zorakı hərəkətlər edərək fiziki ağrı yetirmişdir.

Məhkəmə baxışında təqsirləndirilən şəxs Sahibova Rəxşəndə Kamran qızı ona elan olunmuş AR CM-in 128-ci maddəsində nəzərdə tutulan ittiham üzrə özünü təqsirli bilmədi, ifadə verərək zərərçəkmiş şəxs Yeganə Həsənova və onun anası Zərifə Məşədiyeva ilə barışmasını bildirib, iş üzrə cinayət təqibinə xitam verilməsini xahiş etdi.

Məhkəmə baxışında zərərçəkmiş şəxs Həsənova Yeganə Asif qızının qanuni nümayəndəsi Məşədiyeva Zərifə izahat verərək göstərdi ki, göstərilən hadisədən sonra təqsirləndirilən şəxs R.K.Sahibova ilə barışmışlar, ona qarşı

heç bir şikayəti və tələbləri yoxdur, ona görə də iş üzrə cinayət təqibinə xitam verilməsini xahiş etdilər.

Məhkəmə baxışında şahid qismində ifadə vermiş şahidlər Həsənov Asif, Sahibova Gülnarə və Sahibova Lamiyə 08.10.2018-ci il tarixdə Rəxşəndə Sahibova və Zərifə Məşədiyeva arasında məişət zəminində mübahisənin olmasını, həmin mübahisənin davaya çevrilməsini, nəticədə Zərifə Məşədiyeva və hadisə yerində olan Yeganə Həsənovaya xəsarət yetirilməsini təsdiq etdilər.

Zərərçəkmiş şəxslərin sağlamlığının pozulmasına səbəb olmayan xəsarətlərin yetirilməsi iş üzrə keçirilmiş 09.10.2018-ci il tarixli 716 və 717 saylı canlı şəxsin müayinəsi aktları ilə də təsdiq olunur.

Həmin aktlara əsasən Zərifə Məşədiyevanın bədənində aşkar edilmiş xəsarətlər, sol alt göz qapağının, sağ əlin 1 barmağın və sol əlin sıyrıqları, sol göz altı nahiyyənin və sol budun qançırları bərk küt əşəyalar təsirindən törənmiş, törənmə müddətləri mayinə olunanın göstərdiyi tarixə uyğundur. Sağlamlığın pozulmasına səbəb olmadıqlarına görə bunlar sağlamlığa zərərvurma kimi qiymətləndirilmirlər.

Həsənova Yeganə Asif qızının bədənində aşkar edilmiş xəsarətlər - alının, hər iki gözün, boyunun, döş qəfəsinin sıyrıqları bərk küt əşyalar təsirindən törənmiş, törənmə müddətləri müayinə olunanın göstərdiyi tarixə

uyğundur. Sağlamlığın pozulmasına səbəb olmadıqlarına görə bunlar sağlamlığa zərərvurma kimi qiymətləndirilmir.

Məhkəmə işi tam, hərtərəfli və obyektiv surətdə araşdıraraq, qanunun tələblərini və məhkəmə istintaqında təsdiq edilmiş sübutlara əsaslanan öz daxili inamını rəhbər tutub belə qənaətə gəlir ki, məhkəmənin gəldiyi nəticələr yalnız məhkəmə istintaqında təsdiq edilmiş sübutlara əsaslandığından, məhkəmənin müəyyən etdiyi hallar məhkəmə tərəfindən tədqiq edilən sübutlara uyğun olduğundan, zərərçəkmiş şəxslərlə təqsirləndirilən şəxs barışdığın-dan iş üzrə cinayət təqibinə xitam verilməsi barədə qərar çıxarılmalı-dır.

Belə ki, məhkəmə istintaqı zamanı təqsirləndirilən şəxs R.K.Sahibova zərərçəkmiş şəxslər Z.Məşədiyeva və Y.A.Həsənova ilə, eyni zamanda zərərçəkmiş şəxs və qanuni nümayəndə Z.Məşədiyeva təqsirləndirilən şəxs ilə barışmasını və ona qarşı heç bir şikayətin və tələbinin olmamasını bildirib, bu barədə ərizə təqdim edib, işin icraatına xitam verilməsini xahiş etmişlər.

Beləliklə, məhkəmə baxışının gedişində təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə xitam verilməsi barədə hal müəyyən olunduğundan Azərbaycan Respublikası CPM-in 43-cü maddəsinə əsasən cinayət təqibinə xitam verilməlidir.

Məhkəmə şərh olunanlara əsasən və Azərbaycan Respublikası CPM-in 356, 358-ci maddələrini rəhbər tutub,

## Q Ə R A R A   A L D I:

Sahibova Rəxşəndə Kamran qızının Azərbaycan Respublikası CM-in 128ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət təqibinə xitam verilsin.

Barəsində seçilmiş başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbiri ləğv edilsin.

Qərardan 20(iyirmi) gün müddətində Xəzər rayon məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti və protesti verilə bilər.

Sədrlik edən **Ziya Ziyadlı**

# Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, “Hüquq Yayın Evi” - 2019.

2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 yanvar 2011-ci il tarixli Qərarı.

3. Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanı.

4. Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və qanunçuluğun möhkəmləndirilməsi haqqında” Fərmanı.

5. Azərbaycan Respublikasının “Konstitusiya məhkəməsi haqqında” Qanunu. Bakı 2004

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, “Hüquq Yayın Evi”, 2019.

7. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, “Hüquq Yayın Evi” 2019.

8. AR DİN-in 24 fevral 2007-ci il tarixli 110 nömrəli əmri («Yetkinlik yaşına çatmayan şəxslərin baxımsızlığın və hüquq pozuntularının pofilaktikasında daxili işlər orqanlarının fəaliyyətinin təşkilnə dair təlimatın təsdiq edilməsi haqqında»).

9. Abbasov Nail. Cinayət işlərinin birləşdirilməsi və ayrılması icraatı üzrə prosessual fəaliyyətin hüquqi tənzimlənməsi. Bakı “Biznes Universiteti” nəşriyyatı 2011.

10. Abbasova F.M. Cinayət prosesi. Xüsusi hissə “Zərdabi” LTD MMC, Bakı, 2014.

11. Abbasova İ.S., Rzayeva G.A. Dindirmə zamanı parakriminakistikanın imkanlarından istifadənin prosessual və taktiki xüsusiyyətləri. Bakı, Təknur, 2016.

12. Ağayev Səyyad Şübhəli şəxsin tutulmasına dair. (məqalələr toplusu) Bakı, "Mütərcim" 2012.

13. Aqşin Quliyev «Hüquq ensiklopediyası» Bakı, Qanun 2007

14. Aslanov S.X. İbtidai istintaq. Bakı, Qanun nəşriyyatı. 2015.

15. ATƏT-in Bakı ofisi «Mühakimə və insan haqları» Bakı. 2005

16. Avropa Konvensiyası 4 noyabr 1950-ci il tarixli

17. Azərbaycan qəzeti, 4 may 2014-cü il.

18. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası C.H.Mövsümovun, B.C.Kərimovun və Ə.H.Hüseynovun redaktəsi ilə. «Digesta» nəşriyyatı, Bakı, 2010-cu il, səh.605

19. Azərbaycan Respublikası DİN-in 16 sentyabr 2005-ci il tarixli 400 nömrəli əmri («Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının pofilaktikası haqqında» Azərbaycan Respublikasının Qanunun və onun tətbiqinə dair Azərbaycan Respublikası Prezidentinin fərmanını elan edilməsi barədə»)

20. "Əməliyyat axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu "Hüquq Yayın Evi" – 2019.

21. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu. 10 iyun 1997-ci il, Bakı 2005

22. “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu (07 dekabr 1999-cu il, №767-I Q) Azərbaycan Respublikasının Qanunlar Külliyyatı III cild, Bakı, “Qanun” 2003

23. “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu, 19 may 1998-ci il.

24. “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 31 may 2002-ci il.

25. «Uşaq hüquqları Bəyannaməsi və uşaq hüquqları haqqında BMT-nin konvensiyası».

26. «Yuvenal Ədliyyə» Bakı. 2006, dərs vəsaiti.

27. BMT-nin yetkinlik yaşına çatmayanlar barəsində Ədalət Mühaki-məsinin icrasına aid «Minimal Standart qaydaları»(Pekin Qaydaları) 1985.

28. BMT-nin yetkinlik yaşına çatmayanlar barəsində Ədalət Mühakiməsinin icrasına aid «Minimal Standart qaydaları»(Pekin Qaydaları) 1985

29. Cəfər Mövsümov. Azərbaycan SSR Cinayət Prosesi. Xüsusi hissə. “Maarif” nəşriyyatı. Bakı-1977.

30. Cəfər Mövsümov. Sovet cinayət prosesi. Dərslik. Bakı, “Maarif” nəşriyyatı, 1989.

31. Cəfər Mövsümov. “İbtidai İstintaq” “Maarif” nəşriyyatı Bakı, 1973.

32. Cəfərov Q.V. Azərbaycan Respublikasının yeni cinayət prosessual qanunvericiliyində ibtidai istintaqda təqsirləndirilən şəxsin dindirilməsinin bəzi prosessual məsələləri. “Bakı Universiteti” Bakı, 2014.

33. Eldar Həsənov «Yetkinlik yaşına çatmayanların törətdikləri cnayətin qarşısını almaq məsələləri» Bakı 1991

34. Əliyev E. Polis hüququ. Bakı, 2018.

35. Əzim Piriyev Azərbaycan Respublikasının hüquq mühafizə orqanları. Bakı, “Çıraq”-2005.

36. Fərdin Xəlilov. İbtidai araşdırmada ittiham tərəfi. Bakı, - “Təknur”- 2011.

37. Firuzə Abbasova. Cinayət prosesi. Dərslik. Bakı, «Zərdabi LTD», 2012

38. Hüquq ensiklopedik lüğəti, Bakı, Azərbaycan. Ensiklopediyasının Baş redaksiyası, 1991.

39. İlham Rəhimov. Cinayətkarlıq və cəza. Bakı, “Şərq-Qərb” nəşriyyatı 2015.

40. İmranov Şəfahət. Azərbaycan Respublikasının Cinayət Prosessual qanunvericiliyinə görə cinayət təqibi və onun problemləri. Bakı, Elm, 2006.

41. İstintaq taktikası. K.Q. Sarıcalinskayanın redaktəsi ilə. Bakı, “Maarif”, 1991.

42. Kərimov Ş.M. “İbtidai araşdırma” dərs vəsaiti Bakı, “Elm və təhsil” Bakı, 2018.

43. Kərimov Şöhlət. Cinayət prosesində sübutetmə. “Elm və təhsil” Bakı, 2009

44. Könül Hüseynova. İbtidai istintaqda sübutların mümkünlüyü. Bakı, “Nurlan”, 2008

45. Qasımov Ərəstun Cinayət işi başlama ilə əlaqədar meydana çıxan problemlər və onların ibtidai araşdırmaya rəhbərlik edən prokuror tərəfindən həlli. “Bakı Universiteti nəşriyyatı” 2008.

46. Qəfərov M.S., Eyvazov H. Hüquq Mühafizə orqanları. Bakı, 2015.

47. Qəfərov. M.S. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqlarının təmin edilməsi Bakı, Qanun 2006.

48. M.S. Qəfərov. İbtidai istintaqda müstəntiq tərəfindən müttəhimin hüquqları və qanuni mənafeyinin təmin edilməsi. Bakı, "Elm", 1999.

49. Cavadov F.M., Səlimov K.N., Abbasov İ.S., Mustafayev M.H., Əsgərov B.M., Musayev., Əsgərov B.M., Musayev H.Ə., Rzayeva G.A. Məhkəmə ekspertizası. Dərslik. "Hüquq Yayın Evi" Bakı-2018.

50. Mirağa Cəfərquliyev. Azərbaycan Respublikası Cinayət-Prosesi. Dərslik Azərbaycan dilində. Bakı: "Qanun" 2008

51. Polis haqqında Azərbaycan Respublikasının Qanunu. "Hüquq Yayın Evi", Bakı, 2019.

52. Səyyad Ağayev, Eldar Salayev, Anar Mikayılov - "DİO-da təhqiqat", dərs vəsaiti, Bakı, 2010.

53. Teymurov A.Ə. Cinayətkarlığa qarşı mübarizədə təhqiqat orqanlarının fəaliyyətinin müasir problemləri Bakı, "Hüquq Yayın Evi" 2015

54. Yılmaz Ejder. Hukuk Sözlügü. Yetkin Yayınları, 1992. Ankara.

55. Yrd.Dos. Dr.Ali Turkmen. Tahkikat Aşaması, Adalet Yayın evi, Ankara, 2016.

56. Ziyafət Əsgərov. Konstitusiya hüququ. Dərslik. Bakı Universiteti nəşriyyatı, 2011

Rus dilində

1. Уголовный - процессуалный Кодекс Российской Федерации. – М., 2006.

2. Дознание в органах внутренних дел: учеб. Пособие для студентов вузов, обучающихся по специальности «Юриспруденция» / под ред. Н.В.Румянцева, Ф.К.Зиннурова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2010.

3. Правоохранительные органы России. Учебник / Под.ред. В.П.Божьева.

4. Советский уголовный процесс. Под.ред. Проф.С.Д.Карева, М.1968.

5. Уголовный процесс. РСФСР Воронеж. 1968.

6. Амбасса Л.Ш. Предварительное следствие в уголовном процессе России и Франции (сравнительно-правовое исследование): Дис. ... канд. юрид. наук. М., 1999.

7. Арестова Е.И., Есина А. С., Борбат А. В. О некоторых проблемах совершенствования оснований, процессуального порядка и сроков приостановления дознания // Российский следователь. 2017. № 2.

8. Арестова Е.Н. Деятельность органов внутренних дел на этапе возбуждения уголовного дела // Российский следователь. 2006. № 5.

9. Арестова Е.Н. О некоторых проблемах понятийного аппарата УПК РФ // Российский следователь. 2015. № 19.

10. Арестова Е.Н. Прекращение уголовного дела (уголовного преследования) при производстве дознания // Российский следователь. 2003. № 11.

11. Арестова Е.Н. Проблемы задержания подозреваемого по УПК РФ и закону «О полиции»// Российский следователь. 2013. № 1.

12. Арестова Е.Н. Проблемы соблюдения прав участников уголовного судопроизводства при окончании дознания составлением обвинительного акта //Российский следователь. 2008. № 4.

13. Арестова Е.Н. Производство органами дознания неотложных следственных действий по уголовным делам, по которым обязательно производство предварительного следствия // Российский следователь. 2003. № 5.

14. Арестова Е.Н., Артемова В.В., Батюк В.И. и др. Предварительное следствие: Учебник для курсантов и слушателей образовательных учреждений высшего профессионального образования МВД России по специальности «Юриспруденция» / Под ред. М.В. Мешкова. 2-е изд., перераб. и доп. М.: ЮНИТИ-ДАНА, 2014.

15. Багаутдинов Ф.Н. Возбуждение уголовного дела по УПК РФ // Законность. 2002. № 7.

16. Багаутдинов Ф.Н. Ювенальная юстиция начинается с предварительного следствия // Российская юстиция. 2002. № 9.

17. Башкатов Л.Н., Ветрова Г.Н., Доценко А.Д. и др. Уголовный процесс / Под ред. А.Н. Долговой. М.: Норма, 2002.

18. Безлепкин Б.Т. Комментарий к УПК РФ. М., 2002.
19. Безлепкин Б.Т. Настольная книга следователя и дознавателя. М.: Проспект, 2009.
20. Безлепкин Б.Т. Уголовный процесс России. М., 2006.
21. Безлепкин Б.Т. Уголовный процесс России: Учеб, пособие. 2-е изд., перераб. и доп. М.: Велби: Проспект, 2004.
22. Белозеров Ю.Н., Чугунов В.Е., Чувилев А.А. Дознание в органах милиции и его проблемы. М.: Юрид. лит., 1972.
23. Быков В.М. Проблемы дознания в Концепции судебной реформы в Российской Федерации // Органы внутренних дел в условиях судебноправовой реформы в России. Омск, 1993.
24. В.В. Степанов. Предварительная проверка первичных материалов о преступлениях. Саратов, 1972.
25. В.В.Мозякова .Руководство для следователей / Под общ. Ред. – М.: Издательство «Экзамен», 2005.
26. Вельш И. В. Свидетельский иммунитет в уголовном процессе: Учеб, пособие. Тюмень: ТЮИ МВД России, 2003.
27. Гаврилин Ю.В., Победкин А.В., Яшин В.Н. Следственные действия: Учеб, пособие. М.: МосУ МВД России: Книжный мир, 2006.

28. Гирько С. И. Роль и функции милиции в уголовном процессе России: Монография. М.: Щит-М, 2005.

29. Головко Л.В. Альтернативы уголовному преследованию в современном праве: Монография. СПб.: Юридический центр Пресс, 2002.

30. Головко Л. В. Дознание и предварительное следствие в уголовном процессе Франции: Монография. М.: Спартак, 1995.

31. Готлиб Р.М. Прокурорский надзор за исполнением законов при производстве дознания органами милиции: Автореф. дис. ... канд. юрид. наук. Л., 1970.

32. Трусов А.И. Уголовный процесс: Учебник для студентов юридических вузов и факультетов / Под ред. К.Ф. Гуценко. М.: Зерцало, 2005.

33. Уголовно-процессуальное право Российской Федерации / Л.И. Башкатов и др.; Отв. ред. И.Л. Петрухин. М., 2006.

34. Уголовный процесс: Сб. учеб, пособий. Общая часть. Вып. 1. М.: ИМЦ ГУК МВД России, 2002.

35. Уголовный процесс: Сб. учеб, пособий. Особенная часть. Вып. 2. М.: ИМЦ ГУК МВД России, 2002.

36. Уголовный процесс: Сб. учеб, пособий. Особенная часть. Вып. 3. М.: ИМЦ ГУК МВД России, 2002.

37. Уголовный процесс: Учеб, пособие / Под ред. А.В. Ендольцевой, О.А Га- лустьяна. 2-е изд.,

перераб. и доп. М.: ЮНИТИ-ДАНА: Закон и право, 2008.

38. Уголовный процесс: Учебник / А.В. Смирнов, К.Б. Калиновский; Под общ. ред. А.В. Смирнова. 4-е изд., перераб. и доп. М.: КноРус, 2009.

39. Уголовный процесс: Учебник / В.Н. Григорьев, А.В. Победкин, В.Н. Яшин. 2-е изд., перераб. и доп. М.: Эксмо, 2008.

40. Уголовный процесс: Учебник / Под ред. С.А. Колосовича, Е.А. Зайцевой. 2-е изд., перераб. и доп. М.: ИМЦ ГУК МВД России, 2003.

41. Уголовный процесс: Учебник для вузов / Под общ. ред. А.В. Смирнова.

42. е изд. СПб., 2006.

43. Уголовный процесс: Учебник для студентов вузов / Под ред. В.П. Божьева.

44. Уголовный процесс: Учебник для студентов юридических вузов и факультетов / Под ред. К.Ф. Гуценко. М.: Зерцало, 2005.

45. Умаров К.У. Органы милиции — основные органы дознания. Ташкент, 1968.

46. Фаткуллин Ф.Н. Общие проблемы процессуального доказывания. Казань, 1976.

47. Федулова И. И. Мировому судье о полномочиях начальника органа дознания // Мировой судья, 2017, № 2.

48. Федулова И. И. О пределах компетенции дознавателя ОВД// Вести. Моек, ун-та МВД России. 2011. № 3.

49. Чельцов М.А Советский уголовный процесс М., 1951

50. С.Н. Бодолова, S. В.А.Образчов, А.А.Тротасевич, Т.Й. Рзаев, А.А. Топорков. Следственные действия. Москва, 1999.

51. Химичева Г.П. Проблемы производства дознания по УПК России // Ии вый уголовно-процессуальный закон: теория и практика применении Ми териалы межведомственного «круглого стола». М.: МосУ МВД России, 2001,

52. Черепанова Л.В. Окончание дознания с обвинительным актом в coupe менном уголовном процессе России: теоретические и практические испек ты: Автореф. дис. ... канд. юрид. наук. Барнаул, 2005.

53. Щерба С.П., Савкин А.В. Деятельное раскаяние в совершенном преступлении. М.: Спарк, 1997.

54. Жогин Н.В., Фаткуллин Ф.Н. Предварительное следствие в советском уголовном процессе. Госюриздат М., 1965.

55. Эстерлейн Ж.В. Дознание по делам о преступлениях несовершеннолетних: Дис. ... канд. юрид. наук. М., 2006.

56. Якубович Н.А. Дознание и его соотношение с оперативно-розыскной лея тельностью // Проблемы уголовного судопроизводства. Кемерово, 1998. С. 63.